# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

# ВЕСТНИК
## БАКИНСКОГО УНИВЕРСИТЕТА

# NEWS
## OF BAKU UNIVERSITY

ISSN 1609-0586

**SOSİAL-SİYASİ**
*elmlər seriyası*
*серия*
**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК**
*series of*
**SOCIAL-POLITICAL SCIENCES**

***№3.2018***

***Baş redaksiya heyəti:***
**Məhərrəmov A.M.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Əfəndiyev V.Ə., Xələfov A.A., Məmmədəliyev V.M., Paşayeva N.A., Quliyeva Ş.T.** (məsul katib).

***Seriyanın redaksiya heyəti:***
**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Səməndərov F.Y., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

B.310.30.IV.1999

*© «Bakı Universiteti Nəşriyyatı», 2018*

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

*№3 Sosial-siyasi elmlər seriyası 2018*

## HÜQUQ

**UOT 321(091); UOT 342**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ SOSİAL-İQTİSADİ MÜNASİBƏTLƏRİN HÜQUQİ TƏNZİMİ MƏSƏLƏLƏRİ

**X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***xayyam-ismail@mail.ru***

*İlk respublika dövründə əhalinin müxtəlif təbəqələrinin hüquq və vəzifələrinin tənziminə yönəlik genişmiqyaslı işlərin görülməsi, cümhuriyyətin iqtisadi və sosial həyatının müxtəlif sahələri üzrə islahatların aparılması və həmin sferaların hüquqi əsaslarının yaradılması günümüz üçün də aktual olan bir sıra məsələləri özündə ehtiva edir. Bu mövqedən çıxış edərək məqalədə 100 il əvvəl müstəqil olaraq beynəlxalq birliyin suveren üzvü kimi fəaliyyətə başlamış respublika idarəetmə formalı dövlətimizdə mövcud olan sosial-iqtisadi münasibətlərin hüquqi tənzimi məsələlərinin araşdırılmasına cəhd edilir və müvafiq təhlillər aparılır.*

**Açar sözdər:** sosial siyasət, iqtisadi münasibətlər, hüquqi tənzimetmə, əhali təbəqələrinin hüquqi statusu, təhsil hüququ, əmək hüquq münasibətləri, aqrar islahatlar, vergi sistemi.

XX əsrin əvvəllərində kapitalizmin inkişafı ilə əlaqədar meydana gələn müxtəlif yönümlü proseslər vahid dilə, mədəniyyətə və iqtisadi təmələ söykənən Azərbaycan xalqının milli birliyinin təmin olunmasına öz təsirini göstərirdi. Azərbaycan milli burjuaziyasının iqtisadi gücü və fəallığı artmaqda idi. Əmtəə istehsalının geniş inkişafına, muzdlu əməyin tətbiqinə, bəy-mülkədar təsərrüfatlarının bir çoxunun kapitalist təsərrüfatı sisteminə keçməsinə, sənaye və bank kapitalının kənd təsərrüfatına sirayət etməsinə və nəhayət, ticarət-sənaye kapitalının güclənməsinə baxmayaraq, Azərbaycanın sosial-siyasi strukturunda yarımfeodal torpaq sahibliyi öz mövcudiyyətini saxlamışdı. Lakin kapitalist istehsal üsulunun getdikcə bərqərar olması mövcud münasibətlərə öz ciddi təsirini göstərmiş, habelə vergi sistemində köklü dəyişikliklər baş vermişdi. İctimai-siyasi həyatın bütün sahələrində münasibətlərin nizama salınması məqsədilə yeni normativ aktların qəbul edilməsi, xüsusilə də sosial-iqtisadi münasibətlərin tənzimlənlənməsi sahəsində hüquqi tədbirlərin görülməsi dövrün xarakterik xüsusiyyəti kimi qiymətləndirilə bilər.

İlk Cümhuriyyətin yaranması ilə Azərbaycan cəmiyyətinin və xalqının sosial-siyasi və hüquqi həyatının kökündən yeniləşdirilməsi istiqamətində geniş miqyaslı işlərin həyata keçirilməsinə başlanılmışdı. Bu dövrdə Azərbaycanda

mövcud olan əhali kateqoriyalarını ictimai və sosial mövqeyindən asılı olaraq müəyyən qruplara bölmək olardı. Bu qruplara milli burjuaziyanın nümayəndələri, əcnəbi sahibkarlar, neft sənayeçiləri, iri və xırda ticarətçilər, mülkədarlar, varlı və orta torpaq sahibləri, din xadimləri, ziyalı təbəqəsi, fəhlələr, aztorpaqlı və torpaqsız kəndlilər daxil idi.

Milli burjuaziyanın nümayəndələri ictimai mənsubiyyət nərdivanında mühüm yerlərdən birini tuturdular. Onların bir çoxu milli dövlətçilik ideyalarına rəğbətlə yanaşır, milli maariflənmənin genişləndirilməsi, mədəniyyətin və incəsənətin inkişaf etdirilməsi yolunda çox böyük işlər görürdülər. Cümhuriyyət dövründə əvvəllər, yəni Bakı kommunasının qısa hökmranlığı zamanında varidatı əlindən çıxmış sahibkarların öz sənaye obyektlərinə yenidən sahib çıxmalarına şərait yaradılması onların həm ictimai həyatda, həm də dövlət strukturlarında fəal iştirakına rəvac vermişdi. Yerli burjuaziyanın nümayəndələri, əcnəbi sahibkarlar, neft sənayeçiləri, iri və xırda ticarətçilər, din xadimləri yeni hökumətin yeritdiyi iqtisadi siyasətə öz loyallıqlarını ifadə edirdilər. Ayrı-ayrı milli sahibkarların təhsilə, mədəniyyətə, səhiyyəyə, mətbuata, şəhər təchizatına qayğısı, bu sahələrdəki xeyriyyəçiliyi, xüsusən də bir çox aztəminatlı azərbaycanlı gənclərin ali təhsil almaları üçün verdikləri maddi dəstək sonralar özünün müsbət bəhrəsini vermiş, xalqın mənəvi yüksəlişində, onun milli-siyasi azadlığının, milli özünüdərketməsinin artmasında əhəmiyyətli rol oynamış, millətin savadlı insanlarının sayının artmasına, ölkənin siyasi, hüquqi, mədəni həyatında onların fəal iştirakına, dövlətin siyasi-iqtisadi dayaqlarının möhkəmləndirilməsinə şərait yaratmışdı. Milli burjuaziyanın inkişafı Azərbaycan əməkçilərinin sosial həyatında müsbət rol oynayırdı. Belə ki, onlara məxsus olan çoxsaylı müəssisələrdə çalışanların əksəriyyəti azərbaycanlı fəhlələr idilər ki, bu hal sadə insanların həyat şəraiti ilə yanaşı, onların ictimai şüurunun formalaşmasına da özünün əhəmiyyətli təsirini göstərirdi.

Azərbaycan burjuaziyasının ayrı-ayrı nümayəndələri hökumətin iqtisadi kursunun yönləndirilməsində də fəal iştirak edir, bu sahədə qəbul edilən qanunlara şərh verir, öz münasibətlərini bildirir, normativ hüquqi bazanın təkmilləşdirilməsi üçün olduqca dəyərli təkliflərini hökumət nümayəndələrinə izhar edirdilər.

Mülkədar-bəylər və varlı kəndli təbəqəsi əvvəllərdə olduğu kimi Azərbaycanda torpaq ərazilərinin xeyli hissəsini bilavasitə öz əllərində cəmləmişdilər. Onlar kənd icmalarını öz əllərinə alır və dövlətin müəyyən etdiyi qaydalardan öz mənafeləri üçün bəhrələnməyə çalışırdılar. Yerli mülkədarların bəzi nümayəndələri qəza və kəndlərin idarəçiliyində iştirak edir, müəyyən dövlət vəzifələrini də tuturdular. Bəy və mülkədar nümayəndələri şəhərlərdə təşkil edilmiş yerli özünüidarə orqanlarında – şəhər Dumalarında və sadələşdirilmiş ictimai özünüidarə orqanlarında da qismən təmsil olunmuşdular. İstər yerli dövlət orqanlarında, istərsə də yerli özünüidarə orqanlarında təmsil olunma yalnız ali təhsil almış, ayrı-ayrı bəy və mülkədar ailələrindən çıxmış bəzi şəxslərə nəsib olurdu. Bu dövrdə din xadimlərinin ictimai həyatda nəzərəçarpan rolu olmasa da, onların bəzi nümayəndələri müvafiq siyasi təşkilat və birliklərdə təmsil olunur, dini dəyərlərin qorunması istiqamətində fəal siyasi fəaliyyəti həyata keçirirdilər.

Bütövlükdə götürdükdə bu təbəqələr ölkənin siyasi həyatında bu və ya digər dərəcədə iştirak edirdilər. Belə ki, Cümhuriyyətin ali nümayəndəlik orqanında 43 nəfər mülkədar, 15 nəfər neft sənayeçisi, 12 nəfər iri tacir, 8 nəfər din xadimi təmsil olunurdu.

Milli burjuaziyanın və fəhlələrin ictimai-siyasi həyatda müəyyən mənada passivliyi Zaqafqaziya müsəlmanlarının dəyişilməkdə olan toplumunda xüsusi yerdə qərarlaşan yerli ziyalıların fəallığı ilə kompensasiya olunurdu. T.Svento-xovskinin ədalətli olaraq qeyd etdiyi kimi, tatar (türk – X.İ.) ziyalıları iki sivilizasiyanın – Avropa sivilizasiyasının və ənənəvi islam mədəniyyətinin təmasının məhsulu idi (13, 12-13). İslam dəyərlərinin Avropanın maarifçilik və millətçilik ideyaları ilə uzlaşdırılması cəhdi köhnə identikliyin böhranına və özünün yeni, xüsusi yerinin israrlı axtarışına gətirib çıxarmışdı. Alman tədqiqatçısı M.Auxun mövqeyinə görə, müsəlman ziyalıları bir sıra mümkün özünütəsdiq variantlarını axtarıb tapa bilmişdi (11, 51). Əvvəlki kimi islam ənənələri özünün aktuallığını saxlayırdı. Digər altrenativ türk dilinə və etnik irsinə müraciət idi. Bu halda özünün Avropa modernizasiyasına doğru yön alan təcrübəsi ilə Türkiyə bir mədəni oriyentir qismində çıxış edə bilərdi. Üçüncü variant xüsusi yerli türk-azərbaycan özünəməxsusluğuna diqqətin cəmlənməsində özünü ifadə edirdi.

Ziyalılığın əsasını Azərbaycandan kənardakı ali məktəblərdə təhsil alıb vətənə qayıtmış və əsasən bəy-xan, həmçinin burjua ailələrindən çıxmış azərbaycanlı gənclər təşkil edirdilər. onların arasında varlı xeyriyyəçilərin vəsaitilə təhsil alan aztəminatlı azərbaycanlı gənclər də vardı. Peterburq, Moskva, Kiyev və Rusiyanın digər şəhərlərində, həmçinin Avropanın Fransa, Almaniya, İngiltərə kimi inkişaf etmiş ölkələrinin iri mədəniyyət mərkəzlərində təhsil illəri azərbaycanlı tələbələrin ictimai-siyasi şüurunun fəallaşmasında mühüm rol oynamışdı. Avropanın qabaqcıl, mədəni ölkələrində xalqın tarixinin öyrənilməsinə, onun dilinin adət və ənənələrinin qorunub saxlanılmasına, elm və mədəniyyətin inkişafına milli hökumətlərin xüsusi qayğı göstərməsi azərbaycanlı gənclərə əyani şəkildə sübut etdi ki, xalqın mənəvi yüksəlişi yalnız onun milli-siyasi azadlığı şəraitində mümkündür.

Bu baxımdan xalqın taleyüklü məsələlərinin həllində, xüsusən də onun milli-siyasi azadlığa qovuşmasında hələ XX əsrin əvvəllərində formalaşmağa başlamış ziyalılar təbəqəsinin böyük rolu vardı. Ümumiyyətlə, ziyalılar həmin dövrdə Azərbaycanda milli hərəkatın önündə gedir və ona başçılıq edirdilər. Hələ 1917-ci ilin əvvəllərində baş verən hadisələrdə təkanverici qüvvəyə malik olan ziyalılar burjua demokratik hökumətinin fəaliyyətinin istiqamətlənməsində, dövlət aparatının təkmilləşdirilməsi, mülki, torpaq, əmək, cinayət, prosessual sahələrdə qanunvericiliyin formalaşdırılmasında mühüm iştiraka malik olmuşlar. Bundan bir qədər əvvəl Azərbaycan ziyalılarının təmsil olunduğu Dövlət dumasında Azərbaycanın bütün silklərindən olan əhalisinin hüquqlarının müdafiəsi məqsədilə təkliflər irəli sürülür və onların bu ərazidə tam tətbiqi uğrunda mübarizə aparırdılar. Bunlar əsasən, tam vətəndaş azadlığını, bütün vətəndaşların siyasi və mülki hüquq bərabərliyi, müsəlmanların hüquqlarının rus əhalinin hüquqları ilə bə-

rabərləşdirilməsi, onların maariflәndirilməsinin inkişafı, təhsil və məhkəmənin ana dilində aparılması, zemstvoların tətbiqi, əsl xalq nümayəndəliyinin bərqərar olması, kəndlilərin torpaqla məcburi şəkildə təmin edilməsi və onlara pay torpaqlarının satın alınması üçün xəzinədən vəsait ayrılması, köçürmə məsələlərinin qaydaya salınması kimi prinsipial məsələləri əhatə edirdi.

Ziyalı təbəqəsi Cümhuriyyət dövründə artıq yetkin bir təbəqəyə çevrilə bilmişdi. Ziyalıların əksəriyyəti müxtəlif siyasi qurumlarda təmsil olunurdular. Azərbaycanda müxtəlif partiyalar, ictimai təşkilatlar fəaliyyət göstərirdilər. Onlar ilk əvvəl Milli Şuranın, daha sonra isə Parlamentin işində fəal iştirak edirdilər. Ali nümayəndəli orqanın tərkibində təmsil olunan partiya fraksiya və qrupları onun iclaslarında həm də özlərinin partiya və qruplarının mənafeyi və ideologiyası istiqamətindən çıxış edirdilər.

Onların arasında Azərbaycan xalqının milli mənafelərinin daşıyıcısı və parlamentdə əksəriyyət çoxluğu təşkil edən «Müsavat» ən böyük və aparıcı partiya idi. Partiya üzvləri olan demokratik ziyalılar geniş sosial islahatlar tərəfdarı idilər. Bu partiyada çalışanların əksəriyyəti əvvəllər «Hümbət» təşkilatında təmsil olunanlar və orada ilk siyasi təcrübə qazananlar idi. Onlar millət, məzhəb, cinsi fərqlər qoyulmadan, siyasi və dini baxışlarından asılı olmayaraq bütün ölkə əhalisinin birləşdirilməsini və bərabərliyinin təmin olunmasını; hər bir vətəndaşa özünün yaşayış yerinin azad surətdə seçiminin və ölkə hüdudlarından kənara maneəsiz keçid azadlığının verilməsini; Azərbaycanın istiqlaliyyətinin möhkəmləndirilməsini; müstəqilliklərini müdafiə və bərpa etmək naminə mübarizə aparan bütün müsəlman ölkələrinə maddi və mənəvi kömək göstərilməsini; müsəlmanların birliyinə və tərəqqisinə çalışan digər partiyalarla sıx əməkdaşlığın qurulmasını; bəşəriyyətin səadət və tərəqqisinə çalışan xarici cəmiyyətlərlə ehtiyac olduğu zaman əlaqə və fikir mübadiləsinin yaradılmasını; gizli səsvermə əsasında keçirilməli olan ümumi, bərabər və birbaşa seçki hüququnun bərqərar edilməsini; ölkənin iqtisadiyyatının, xüsusən də sənaye, ticarət və digər sahələrin inkişaf etdirilməsini; torpaq fondunun yaradılması və ehtiyacı olan bütün əhaliyə torpağın əvəzsiz olaraq verilməsini, yəni kəndlilər arasında torpaqların pulsuz bölüşdürülməsini; ölkənin müdafiə qabiliyyətinin artırılması məqsədilə qüvvətli ordu yaradılmasını; məhkəmələrin müstəqil olmasını, icra orqanlarının məhkəmə hakimiyyətini təmsil edən orqanların fəaliyyətinə heç bir vəchlə müdaxilə etməmələrini və bütün insanlara öz hüquqlarının müdafiəsini məhkəmə qaydasında təmin etmələri üçün şəraitin yaradılmasını; təhsilin milliləşdirilməsini, ümumi, pulsuz və məcburi ibtidai təhsil üçün şəraitin yaradılmasını; fəhlələrin əmək şəratinin yaxşılaşdırılmasını, xüsusən də səkkiz saatlıq iş gününün tətbiqini; söz, mətbuat, ittifaq və cəmiyyətlərdə birləşmək və digər azadlıqları irəli sürürdülər.

«Müsavat» partiyası qısa bir zaman kəsiyində böyük inkişaf yolu keçmişdi. Türkçülük məfkurəsinin üstünlük təşkil etdiyi «Türk ədəbi mərkəziyyət» partiyası ilə birləşdikdən sonra fəaliyyət dairəsi daha da genişlənən «Müsavat» partiyasının üzvləri istər Zaqafqaziya Seyminin tərkibində, istərsə də müstəqil dövlət qurulduqdaq sonra əvvəl Azərbaycan Milli Şurasının, bir qədər sonra isə Parlamentin

işində çox böyük fəallıq göstərməklə, Cümhuriyyətin siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsinə böyük töhfə vermişdilər. Partiyanın təmsilçiləri bu dövrdə fəaliyyət göstərən bütün hökumət kabinetlərinin sosial, iqtisadi, mədəni, hüquqi sferalarda həyata keçirdikləri islahatlara əməli yardım göstərmiş, böhran vəziyyətlərində çıxış yolunun axtarılıb tapılmasında sağlam mövqe tutmuş, bütün mübahisəli məsələlərin beynəxalq təcrübəyə və demokratik dəyərlərə əsaslanmaqla həll olunmasına səy göstərmişdilər. «Müsavat»ın 1919-cu ilin dekabrında keçirdiyi qurultayında əldə olunan nailiyyətlər diqqət çəkilməklə yanaşı, onun millət qarşısında daşıdığı məsul vəziflər xatırladılaraq, bu vəzifələrin şərəflə yerinə yetirilməsi naminə bütün partiya üzvlərinin bəyan edilmiş ideyalar ətrafında daha sıx birləşməsinin vacibliyi qeyd olunmuşdu. Yığıncaqda aqrar və fəhlə məsələləri üzrə partiyanın apardığı siyasətin yetərli olmadığı, digər siyasi təşkilatlara nisbətən partiyanın təmsilçilərinin üstünlük təşkil etdiyi hökumətin bu sahədə hələ də ciddi qərar qəbul etmədiyi, bu baxımdan da ölkədə vəziyyətin yaxşılaşdırılması üçün hakimiyyət orqanlarının fəaliyyətinin gücləndirilməsinin zəruriliyi ifadə olundu.

Menşevik «Hümmət» qrupu ilə eserlərə yaxın olan «Müsəlman sosialist bloku»nun ittifaqı nəticəsində parlamentdə sollar (sosialistlər) fraksiyası yaranmışdı. Fraksiyanın 13 nəfər üzvü olmasına baxmayaraq, fəhlə və kəndlilər arasında böyük nüfuza malik idi. Həmkarlar İttifaqı Şurası kimi nüfuzlu təşkilata, əslində, menşeviklər rəhbərlik edirdilər. Sosialistlər Azərbaycanın suverenliyinə tərəfdar olsalar da, onu bolşeviklərsiz, demokratik Rusiyanın tərkibində görmək istəyirdilər. Onlar parlamentdən öz məqsədlərinə çatmaq üçün vasitə kimi istifadə edirdilər. Sosialistlər söz, mətbuat, ittifaq və digər azadlıqlar, 8 saatlıq iş günü, uşaq və qadın əməyinin mühafizəsini, torpaqların kəndlilər arasında bölüşdürülməsini, Müəssislər məclisinin tezliklə çağırılmasını və s. irəli sürürdülər.

«İttihad» partiyasının ideoloji əsası islam siyasi məfkurəsinin aparıcı amilinə çevrilmiş və məhz islama əsaslanan dirçəliş nəzəriyyəsi olan ittihad, yəni panislamizm nəzəriyyəsi üzərində qurulmuşdu. Yarandığı gündən «İttihad» özünün minimum proqramm tələbləri, yəni Azərbaycan və Qafqaz müsəlmanlarının istiqlaliyyəti uğrunda rus imperializminə qarşı mübarizə aparmaqla yanaşı, digər tərəfdən siyasi səhnədə duruş gətirməkdən ötrü digər partiyalarla, əsasən də «Müsavat» və sosial-demokratik bloka daxil olanlarla rəqabətə girmək məcburiyyətində qalmışdı. Eyni zamanda bu firqənin ardıcılları da sosial, iqtisadi, maarif sahələrində, fəhlə və kəndlilərin hüquqları ilə bağlı məsələlərdə müsavatçılarla eyni mövqedən çıxış edirdilər. «İttihad» partiyasının parlamentdə 13 deputat yeri vardı. İttihadçı sağlar parlamentdə ayrıca fraksiya təşkil edirdilər. Onlar mülkədar-klerikal dairələrin mənafeyini müdafiə edirdilər. İttihadçılar «islam sosializmi» prinsiplərinə uyğun islahatlar aparılmasına tərəfdar idilər. Bu baxımdan da torpaq və əmlak sahiblərinin mənafelərini nəzərə almaqla, kəndli və fəhlə məsələlərinin həllinə etiraz etmirdilər.

Həmin dövrdə ziyalılar arasında milli kimliklə, eləcə də milli dillə bağlı müəyyən müzakirələr aparılır, müxtəlif təkliflər irəli sürülürdü. Xüsusən də zi-

yalıların təmsil olunduğu mətbu orqanlarının səhifələrində ədəbi Azərbaycan dili ilə bağlı aparılan polemikalarda müasir dövrümüzdə də olduqca mühüm sayılan bu məsələyə münasibətdə iki düşərgənin ortaya çıxmasını görmək olardı. Bunlardan biri türk mədəni irsinin vahid ifadəsi kimi osmanlı türcəsinin tərəfdarları olan «osmançılar», digəri isə geniş əhali kütlələrinə, çoxsaylı oxuculara daha aydın olan yerli Azərbaycan dilinin tərəfdarları olan «azəriçilər» idi. M.Ə.Rəsulzadə kompromis variant təklifi ilə çıxış etmiş və yeni əlavə, çətin anlaşılan osmanlı ləhcəsindən təmizlənmiş türk terminlərindən istifadə olunmasını məqbul hesab etmişdi. Göründüyü kimi, yerli ziyalıların şüurlarında kök salmış türk (oğuz) və yerli azərbaycanlı kimi iki milli-mədəni və siyasi xətt bir-birilə rəqabətdə idi. Bununla belə, intellektual sferada bütün türk xalqlarının tarixinin və mədəniyyətinin vahidliyi anlamı getdikcə özünə daha çox yer alırdı.

Azərbaycan əhalisinin əsas kütləsini kəndlilər təşkil edirdi. Ona görə torpaq islahatının keçirilməsi, kəndlilərin sosial-hüquqi vəziyyətinin yaxşılaşdırılması Cümhuriyyətin dövlət siyasətində başlıca yer tutan məsələlərdən idi. Hələ ötən əsrin əvvəllərində – 1912-1913-cü illərdə keçirilən aqrar islahat nəticəsində kəndlilər xəzinə hesabına mülkədarlara məxsus torpaqlardan pay nadelləri əldə edərək vıkup aktı əsasında onları öz mülkiyyətlərinə keçirmək imkanı qazanmışdılar. Bir çox kəndlilər bu islahatdan yararlansa da, müəyyən bir qismi hələ də torpaqsız və ya aztorpaqlı kateqoriyalarına bölünən bu təbəqə bütün ümidlərini yeni milli dövlətin həyata keçirəcəyi torpaq islahatına bağlamışdılar.

Torpaq məsələsi parlamentdə dəfələrlə müzakirəyə qoyulmuşdu. Bu isə ilk növbədə kəndlilərlə mülkədarlar arasında torpaqdan, sudan, meşələrdən istifadəyə görə mütəmadi baş verən toqquşmalarla əlaqədar idi. Parlamentin ilk iclaslarının birində «Müsavat» və bitərəflər fraksiyasının irəli sürdüyü qanun layihəsində xüsusi sahibkar torpaqlarının ödənişsiz olaraq alınıb kəndlilər arasında bölüşdürülməsi və torpaqların zəhmətkeşlərə verilməsi ilə əlaqədar olaraq suvarma qurğuları və motorların alınaraq, onların dəyərinin varlı siniflər üzərinə qoyulan gəlir vergisi hesabına yaranan fonddan ödənilməsi nəzərdə tutulurdu. Parlament qanun layihəsini təsdiq etməmişdi. Daha sonra Parlamentin aqrar komissiyası başqa bir qanun layihəsi hazırlamışdı. Həmin layihəyə görə, sahibkar torpaqları dövlət tərəfindən ödənci ödənilməklə alınıb kəndlilərə paylanmalı idi. Kəndlilər və şəhərdə yaşayanlar üçün torpaq sahəsinin ayrılması ilə yanaşı, torpaq sahiblərinin bilavasitə istifadəsində olan, yəni təsərrüfat apardığı torpaqların onların mülkiyyətində saxlanılması nəzərdə tutulurdu. Qanun layihəsi yenə bəyənilmədi və aqrar məsələnin həlli Müəssislər məclisi çağırılana qədər təxirə salındı.

Nazirlər Şurasının, xüsusilə də üçüncü hökumət kabinetinin fəaliyyət proqramında kəndlilər və fəhlə sinfinin ehtiyaclarının ödənilməsi prioritet məsələ kimi qeyd olunmuşdu. Hökumətin sosial siyasəti əsasən aşağıdakı istiqamətlərdə aparılırdı: 1. Fəhlə və dövlət qulluqçularının, ümumiyyətlə, zəhmətkeş əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması; 2. Sahibkarlar və fəhlələr arasındakı münaqişələrin həll edilməsi; 3. Fəhlə qanunvericiliyinin hazırlanması; 4. Sosial təminat sahəsinin inkişafı, ilk növbədə pensiya və sığorta siyasətinin əsaslı surətdə formalaşdırıl-

ması; 5. Sosial problemlərin həlli və tənzimlənməsi istiqamətində müxtəlif siyasi qüvvələrlə əməkdaşlığa nail olunması, xüsusi olaraq sahibkarlar və fəhlələrin maraqlarını ifadə edən təşkilatlarla, həmkarlar ittifaqları ilə müvafiq birgə fəaliyyətin əlaqələndirilməsi .

Kəndlilərin torpaqla təmin olunması məsələsinin tam olaraq öz həllini Müəssislər Məclisində tapacağı qeyd olunsa da, fəhlələrin əmək və məişət şəraitinin yaxşılaşdırılmasına, onların sosial problemlərinin həllinə yönəldilmiş normativ-hüquqi aktlar həm parlament, həm də hökumət tərəfindən qəbul edilmişdi. Bu aktlarda fəhlələrin, eləcə də qulluqçuların işə qəbulu, azad edilməsi, əmək haqqı, iş və istirahət vaxtları, əmək mübahisələri və s. məsələlər əks etdirilmişdi. Əmək haqqının vaxtaşırı artırılması, fəhlələr üçün mənzillərin tikilməsi zəruri məsələlər kimi qarşıya qoyulmuşdu. Sosial problemlərin, ən başlıcası isə fəhlə məsələsinin tənzimlənməsi ilə həm parlamentin fəhlə komissiyası, həm də Əmək Nazirliyi məşğul olurdu. Əmək Nazirliyinin fəaliyyəti digər hökumət idarələri ilə yanaşı, 1918-ci il oktyabrın 12-də Ticarət və Sənaye Nazirliyi nəzdində təsis edilən Bakı quberniyası Fabrik Müfəttişliyi və Əmək Nazirliyinə tabe olan və Bakının 8 rayonunu əhatə edən Əmək Müfəttişliyi və Baş Əmək Müfəttişinin köməyilə həyata keçirilirdi. Azərbaycanda əməkçi əhalinin sosial ehtiyaclarının qarşılanması məqsədilə hakimiyyət orqanları vaxtaşırı müvafiq tədbirlər həyata keçirirdi. Nümunə olaraq qeyd etmək olar ki, əmək haqqının artırılması ilə əlaqədar keçirilən müşavirədə 1919-cu il yanvarın 1-dən etibarən əmək haqqı ilə yanaşı, ayda 360 manat məbləğində ailəli vətəndaşlara və 120 manat ailəsiz vətəndaşlara əlavə pul vəsaitinin verilməsi haqqında qərar çıxarılmışdı (5, 28.01.19).

Fəhlələrin əmək fəaliyyəti ilə bağlı hüquqları, ələlxüsus onların əsassız olaraq işdən çıxarılmasının qarşısının alınması daha geniş şəkildə öz hüquqi tənzimini tapmışdı. Belə ki, idarə və fəhlə komitəsinin üzvləri və müəssisənin fəhlə və qulluqçuları tərəfindən konfranslara və başqa hallara görə nümayəndə sifəti ilə seçilmiş şəxslər, əmək mühafizəsinə nəzarət edən hökumət orqanının icazəsi ilə işdən azad edilə bilərdilər. Ştatın ləğv edilməsi ilə bağlı fəhlə və qulluqçunun işdən azad olunmasına, 10 nəfərdən artıq – dəstə halında şəxslərin işdən azad edilməsinə, müəssisənin işinin qurtarması və yaxud dayandırılması ilə əlaqədar olaraq, kütləvi halda işçilərin sərbəstləşdirilməsinə, işçilərin bir bölgədən digər bölgəyə başqa işə keçirilməsi, əməyin mühafizəsinə nəzarət edən hökumət orqanının razılığı ilə yol verilirdi. Bir bölgədən başqa bölgəyə işə keçməyə razı olmayan fəhlə və ya qulluqçu sahibkarın tələbi üzrə işdən azad edilirdi (7, 341-343).

Dövlət hakimiyyəti tərəfindən tanınmış hər hansı bir siyasi partiyanın və yaxud həmkarlar təşkilatının üzvü olmağa görə, fəhlə və qulluqçunun işdən azad edilməsi şərtsiz olaraq qadağan edilirdi. Xəstəlik nəticəsində üç aydan artıq müddətə işə çıxmayan fəhlə və qulluqçu müdiriyyətin və ya sahibkarın təşəbbüsü ilə işdən azad edilə bilərdi. Xəstəliyə görə işə çıxmamaq üzrlü hesab edilirdi. Lakin uzun müddət işə çıxmamaq sahənin işini ləngitdiyindən və bəzən də müəssisənin fəaliyyətinə zərər vurduğundan, yuxarıda göstərildiyi kimi, xəstəliyə görə qabiliyyətini itirib uzun müddət, yəni üç aydan artıq müddətdə işə çıxmayan fəhlə

və qulluqçunun işdən azad edilməsi qaydalarda nəzərdə tutulmuşdu. Əhalinin məşğulluğunun təmin edilməsi, işçilərin əmək şəraitinin yaxşılaşdırılması tədbirləri ilə yanaşı, Cümhuriyyət tərəfindən müxtəlif əhali kateqoriyalarının sağlamlığının mühafizə edilməsi ilə bağlı əməli addımlar atılır, yeni şəfa ocaqlarının, lazaretlərin tikintisi həyata keçirilir, habelə onların ixtisaslı kadrlarla təmini sahəsində müvafiq işlər həyata keçirilirdi.

Azərbaycan Cümhuriyyətinin iqtisadi və siyasi platforması bütün vətəndaşların həqiqi hüquq bərabərliyini bərqərar edərək, demokratik bir cəmiyyət qurmağı nəzərdə tuturdu. Bu məqsədə çatmağın əsas vasitəsi mülkiyyət formasının müxtəlifliyi prinsipini felən həyata keçirməkdən, dövlətə, xüsusi şəxslərə, səhmdar birliklərə və bələdiyyə-özünüidarə orqanlarına məxsus mülkiyyət formalarının inkişafı üçün bütün vətəndaşlara bərabər imkan verən demokratik şəraiti təmin etməkdən ibarət idi.

Cümhuriyyət dövründə sosial-mədəni sferada həyata keçirilən köklü dəyişikliklər cəmiyyətin sosial bazasının möhkəmləndirilməsinə, təkmil bir sosial sistemin yaradılmasına, əhalinin savadsızlığının aradan qaldırılmasına, onun dünyagörüşünün genişlənməsinə, siyasi və hüquqi şüurunun yüksəldilməsinə, ümumən sivil və hərtərəfli inkişaf etmiş cəmiyyətin bərqərar edilməsinə istiqamətlənmişdi. Bu məqsədlə milli təhsil konsepsiyasının işlənib hazırlanması və həyata keçirilməsi önəmli yer tuturdu. Çünki məntiqlə milli dövləti milli təhsil və milli kadrlar olmadan qurub inkişaf etdirmək mümkün deyildi. Cümhuriyyətin yarandığı ilk vaxtlarda Azərbaycanda sosial-mədəni həyatın digər sahələri kimi təhsil sistemi də mürəkkəb durumda idi. Dövlət dili elan olunan Azərbaycan dilini bilən kadrlar yox dərəcəsində idi, cəmiyyətin maarif və təhsilə münasibəti qənaətbəxş deyildi, total cəhalətin qalıqları hələ xeyli güclü idi, xurafat və digər stereotiplər bu sahədə inkişafa mane olurdu, Bakıda müəyyən inkişaf nəzərə çarpsa da əyalətdə böyük gerilik müşahidə edilirdi və s.

Baş vermiş müharibələrin və daxili çaxnaşmaların nəticəsində dağınıq vəziyyət gətirilmiş məktəblər şəbəkəsinin bərpa edilməsi, təhsil ocaqlarının milliləşdirilməsi və yeni tələblərə uyğunlaşdırılması, mədəniyyət obyektlərinin bərpası və yenilərinin qurulması dövlətin qarşısında duran quruculuq tədbirlərinin mühüm tərəfini təşkil edirdi. Ölkənin bütün təhsil sisteminin milliləşdirilməsini həyata keçirmək üçün köklü dəyişikliklərə başlayan Cümhuriyyət hökuməti milli kadrların hazırlanması məsələsinə də xüsusi diqqət yetirərək özünün 22 iyun 1918-ci il tarixli qərarı ilə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsini Tiflisdən Qazaxa köçürdü. Bir ay sonra Türkiyədən dərsliklərin gətirilməsi və müəllimlərin dəvət olunması qərara alındı. 1918-ci il avqustun 12-də Tiflis Politexnik İnstitutu ilə əməkdaşlığı tövsiyə edən hökumətin avqustun 24-də qəbul etdiyi digər qərarlarla təhsil sisteminə nəzarətin gücləndirilməsi məqsədilə müfəttişlik təsis olunur, xalq məktəbləri müəllimlərini hazırlamaq üçün müvafiq kursların açılması nəzərdə tutulurdu (14, м.145, c.49-50; м.143, c.49).

İlk tədbirlərdən biri kimi maarif sisteminin işinin milli dövlətçilik ideyalarına və xalqın mənafelərinə xidmət etməyə yönəltmək məqsədilə hökumət tərə-

findən təhsil müəssisələrinin milliləşdirilməsini göstərmək olar. Belə ki, 28 avqust 1918-ci il tarixli qərara əsasən bütün ibtidai, orta və ali təhsil ocaqlarında təhsil dövlət dilində aparılmalı, bununla yanaşı Azərbaycan türkcəsinin hamıya öyrədilməsi məcburi xarakter daşımalı idi. Həmin ilin oktyabrında qəbul edilmiş qərarlarla hərbi kadrların hazırlığı sahəsində əhəmiyyət kəsb edən məsələlər də öz həllini tapmış, Gəncə sənət məktəbinin hərbi məktəbə çevrilməsi tövsiyə edilmiş, Bakıda üç hərbi məktəbin, əczaçılıq kurslarının açılması nəzərdə tutulmuşdu.

Bununla paralel olaraq rusdilli məktəblərə dövlət qayğısı da vardı. Məsələn, hökumətin 18 dekabr 1918-ci il tarixli qərarı ilə Gəncə və Nuxadakı Müqəddəs Nina məktəbləri dövlət xəzinəsindən maliyyələşdirilməli idi. 1919-cu il fevralın 12-də imzalanan qərar isə kasıb ailələrdən olan şagirdlərə maddi yardım göstərilməsini nəzərdə tuturdu. Hökumətin imzaladığı 10 mart 1919-cu il tarixli qərar (1, f. 51, s.2, iş 4, vv. 10, 27) yəhudi məktəblərinin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönələn addım idi və bu qərar Cümhuriyyətdə təhsilin inkişafına nail olmaq istəklərindən irəli gəlirdi. Daha maraqlı fakt odur ki, milli hökumət Azərbaycandan kənarda olan azərbaycanlıların təhsili məsələsi ilə də məşğul olurdu. Hökumətin 1919-cu il 10 may tarixli qərarı ilə Batumi türk məktəbinə maddi yardım göstərilməsi bu baxımdan diqqətəlayiq idi. Türk dilində dərsliklərin hazırlanması üzrə komissiya da hökumətin bilavasitə dəstəyi ilə fəaliyyət göstərirdi (1, f.84, s.1, iş 23, vv. 283, 357).

İlk respublikanın milli kadr hazırlığı ilə bağlı həyata keçirdiyi bütün tədbirlər çarizmin müstəmləkəçilik siyasətinin ağır nəticələrinin aradan qaldırılmasına yönəldilmişdi. Yeni hakimiyyətin daha çox azərbaycanlı şagirdlərin təhsilinə xüsusi diqqət yetirməsi aparılan təhsil siyasətinin milliləşmə xəttinin ayrılmaz hissəsi olduğunu bir daha təsdiqləyir. Belə ki, Xalq maarifi nazirliyinin 7 sentyabr 1919-cu il tarixli xüsusi təmimnaməsində azərbaycanlı uşaqların yalnız milliləşdirilmiş əlifba və hazırlıq siniflərinə, həmçinin birinci siniflərə qəbul olunmasının vacibliyi önə çəkilirdi. Eyni zamanda milliləşdirilmiş məktəblərə üstünlük verənlərə müəyyən güzəştlər də nəzərdə tutulurdu. Nəticədə məktəblərdə təhsil alan azərbaycanlı şagirdlərin sayı üç dəfəyədək artmış oldu.

Təhsil sistemini gücləndirmək məqsədilə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi işinə xüsusi qayğı göstərilirdi. Belə ki, köhnə məktəblərin təmir və bərpa edilməsi, həmçinin yeni təhsil ocaqlarının inşası və onların müvafiq inventarla təchizi üzrə mühüm addımlar atılmış və bu məqsədlə vəsaitlər ayrılmışdı. Cümhuriyyətin Parlamentinin 18 sentyabr 1919-cu il tarixdə qəbul etdiyi qanunla təhsil və maarif sistemində milliləşdirmə prosesini gücləndirmək üçün məktəblərin türkcə dərs vəsaiti və kitabla təchizatına dövlət yardımı təsbit edilirdi (10, 103). Eyni zamanda məktəbəqədər təlim-tədris müəssisələrinin açılmasına xüsusi önəm verən Parlament özünün 1 mart 1920-ci il tarixli qanunu ilə Bakıda birinci milli qadın gimnaziyasının nəzdində uşaq bağçasının təsis olunmasını və bu məqsədlə 30939 manat vəsaitin ayrılmasını təsbitləmişdi (12, №19). Bununla yanaşı, təhsil işçilərinin maddi təminatının yaxşılaşdırılması, sosial-məişət problemlərinin həlli istiqamətində bir sıra mühüm normativ aktlar qəbul

edilmiş, həmin hüquqi aktlarda məvaciblərin artırılması, maaşların müvafiq şəkildə sistemləşdirilməsi, müəllimlərə verilən imtiyazların genişləndirilməsi, əlavə işlər üçün onlara əmək haqqının xüsusi cədvəl üzrə ödənilməsi nəzərdə tutulmuşdu. Belə ki, 1919-cu il sentyabrın 27-də Parlament tərəfindən qəbul olunan qanun müəllimlərə «dövlət qulluqçusu» statusu və geniş imtiyazlarla yanaşı, əlavə əməyə görə daha böyük məbləğdə əmək haqqı almaq hüququ verirdi (10, 106-108). Cümhuriyyətin hökuməti tərəfindən 1919-cu il yanvarın 18-də verilən qərara görə, müəllimlər hərbi mükəlləfiyyətlərdən tam azad edilirdi (1, f. 894, s.1, iş 22, v. 11).

Təhsilin milliləşdirilməsindən irəli gələn islahatlar çərçivəsində məktəbləri yeni şəraitə uyğunlaşdırmaq, təhsil sistemini Azərbaycan dövlətçiliyi ideyasına yaxınlaşdırmaqdan, gənc nəsli milli ruhda tərbiyə etmək məqsədilə orta məktəblərə yeni proqram hazırlamaq üçün komissiyalar yaradılmış və onların hökumət tərəfindən maliyyələşdirilməsi müəyyən edilmişdi. Ümumi tarix, coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və ilahiyyat üzrə yeni milli proqramları işləyib hazırlayan komissiyalar 1919-cu ildə türk xalqları tarixi üzrə ayrıca proqramı da tədris planına daxil etməyi məqsədəuyğun hesab etmişdi. Qızların təhsilinə xüsusi diqqət yetirən Cümhuriyyət hakimiyyəti bununla bağlı 2 iyun 1919-cu ildə qəbul edilən xüsusi qanunla təhsil məsələsində qadınları və kişiləri tam eyniləşdirmiş, bütün sosial fərqlərin aradan qaldırılması istiqamətində əməli addımlar atmışdı (1, f. 895, s.3, iş 33, v. 24). Bu problemin həllinə demokratik yanaşmanı nümayiş etdirən hökumətin fəaliyyəti nəticəsində Azərbaycanın gimnaziyalarında təhsil alan qızların sayı kəskin şəkildə artmışdı.

Cümhuriyyətin hökuməti savadsızlığın aradan qaldırılması, türk-müsəlman olmayan vətəndaşların da dövlət dilini öyrənmələri məqsədilə 1919-cu il sentyabrın 27-də Azərbaycan dili kurslarının açılması və bu məqsədlə 351 min manat vəsait ayrılması barədə qərar qəbul etdi (1, f.51, s.1, iş 2, v. 352). Bu qərar, eləcə də hökumətin həyata keçirdiyi ən faydalı tədbirlərdən biri kimi 1919-cu ilin may-iyun aylarında başa çatdırılan əlifba islahatı (1, f. 51, s.2, iş 4, v. 29) dövlət və ictimai həyatın bütün sferalarının milliləşdirilməsi siyasətinin tərkib hissələri olaraq böyük əhəmiyyətə malik idi.

İqtisadiyyatın, dövlət idarəetməsinin, səhiyyə, maarif və mədəniyyətin bütün sferaları üzrə milli kadrların hazırlanması işinə xüsusi diqqət yetirən Cümhuriyyət hakimiyyəti bu məqsədlə strateji proqramlar işləyib hazırlayır və onların həyata keçirilməsi üçün büdcədən xeyli vəsait ayırırdı. Buna nümunə olaraq müxtəlif bölgələrdə kişi və qadın seminariyalarının açılması və onların maliyyələşdirilməsi haqqında çoxsaylı qərarları göstərmək olar. Eyni zamanda texniki kadrların hazırlığı üzrə fəaliyyət göstərməli olan məktəblərin – Gəncədə dəmiryolçu və teleqraf xidməti, Salyanda isə meliorator kadrların hazırlanması üzrə, kənd təsərrüfatının və sənayenin müxtəlif sahələri üzrə peşə yönümlü məktəblərin fəaliyyətinin hüquqi əsasları işlənib hazırlanmış, Bakı Politexnik Məktəbinə qəbulun digər tərəflərinə uyğun gələn azərbaycanlı şagirdlərin bu məktəbə imtahansız qəbuluna icazə verilmişdi (1, f. 314, s.1, iş 475, v. 36).

Ali təhsilli kadrların hazırlığı məsələsinə gəldikdə isə ictimaiyyət, xüsusən

də ziyalılır, ictimai-siyasi xadimlər, habelə milli sahibkarların bir sıra nümayəndələri bununla əlaqədar qızğın müzakirələr aparır, myəyyən təkliflər irəli sürülürdü. İlkin olaraq Tiflis Politexnik İnstitutunun Bakıya köçürülərək onun maliyyələşdirilməsi məsələsi hələ 1918-ci ilin avqustunda hökumət tərəfindən qaldırılmış, daha sonra Bakıda Pedoqoji İnstitutun təsis olunması haqqında, Bakı Musiqi Məktəbinin əsasında Konservatoriyanın açılması barədə müvafiq qanun layihələri işlənib hazırlanmışdı. Bu istiqamətdə həyata keçirilən ən mühüm addım Bakı Dövlət Universitetinin açılması haqqında Cümhuriyyətin hökumətinin 8 aprel 1919-cu il tarixli qərarı oldu. Həmin qərarla bu ali təhsil ocağının açılması üçün 10 milyon manata qədər vəsaitin ayırması nəzərdə tutulurdu(1, f. 51, s.2, iş 4, v. 32).

Universitetin təsis edilməsi haqqında qanun layihəsinin, universitetin nizamnaməsinin, habelə, 1919-1920-ci tədris ili üçün müvəqqəti ştat və smeta cədvəllərinin hazırlanması məqsədilə xüsusi universitet komissiyası yaradılmışdı. Komissiyanın BDU-nun təsis edilməsi ilə bağlı hazırladığı qanun layihəsi hökumətin 7 iyul 1919-cu il tarixli qərarı ilə bəyənilmiş və parlamentin təsdiqinə göndərilmişdi (1, f.895, s.3, iş 73, v. 6). Cümhuriyyətin Parlamenti tərəfindən 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin açılması barədə qəbul edilən qanuna (5, №189) əsasən Şimali Azərbaycan ərazisində yaradılan bu ilk universitet tarix-filologiya (şərqşünaslıq bölümü ilə), fizika-riyaziyyat, tibb və hüquq fakültələrindən ibarət olmaqla fəaliyyətə başladı. BDU-nun normal fəaliyyətinin təmini üçün dövlət əvvəl nəzərdə tutulandan da bir qədər artıq vəsait ayırmışdı.

Bununla yanaşı, milli kadr hazırlığı prosesində azərbaycanlı gənclərin xarici ölkələrin ali məktəblərində təhsil almalarına da şərait yaradılırdı. Belə ki, sənayenin, elmin, mədəniyyətin və səhiyyənin müxtəlif sahələri üzrə mütəxəssislərin yetişdirilməsi üçün yüzlərlə azərbaycanlının Avropanın aparıcı universitetlərinə göndərilməsi qərara alınmışdı. Hökumət tərəfindən bu məqsədlə qəbul edilmiş 5 avqust 1919-cu il tarixli qərarla 100 nəfər azərbaycanlı gəncin xarici ölkələrə gedib orada təhsil alması üçün 4,1 milyon manat ayrılmışdı. Bir qədər sonra Parlamentin 1 sentyabr 1919-cu il tarixli qərarı ilə xaricdə təhsil almağa yola düşən tələbələr üçün 7 milyon manat ayrılması nəzərdə tutulurdu. Parlamentin qərarına görə hökumət təqaüdü alan tələbələr təhsil müddətini başa vurandan sonra 4 il ərzində hökumətin sərəncamında qalmalı idilər (1, f.895, s.3, iş 103, v.1).

Ümumiyyətlə, Cümhuriyyət dövründə çox qısa bir zaman kəsiyində maarifçilik və təhsil sferası ilə bağlı 19 qanun layihəsi işlənib hazırlanaraq Parlamentin müzakirəsinə verilmiş, təhsilin icbari və milli dildə olması təmin edilmiş, qadınların kişilərlə bərabər təhsil almalarının hüquqi təminatı yaradılmışdı.

Azərbaycanın ilk müstəqil respublikasının ictimai-siyasi, sosial, hüquqi və mədəni həyatında milli mətbuat olduqca mühüm əhəmiyyətə malik idi. «Əkinçi»-dən başlamış «Azərbaycan» qəzetidənək milli azadlıq məfkurəsinin səciyyəvi cəhətlərini öz səhifələrində canlandırmış milli mətbu orqanları Azərbaycan xalqının özünüdərk və istiqlal şüurunun formalaşması və inkişafında əvəzsiz rol oynamışdı. Cümhuriyyət dövründə Bakı, Tiflis, Gəncə və digər inzibati mərkəzlərdə özlərinin ideya istiqaməti baxımından bir-birindən fərqlənən 80-dən artıq

qəzet və jurnal çıxırdı ki, bunların da təxminən yarıya qədəri Azərbaycan türkcəsində nəşr olunurdu. Onların içərisində «Azərbaycan» qəzeti özünün müstəsna yeri ilə seçilirdi.

«Azərbaycan» qəzeti rəsmi məlumatların yer aldığı mətbu orqanı olduğundan dövlətin rəsmi mətbu orqanı kimi də çıxış edirdi. Onun səhifələrində Cümhuriyyət hökumətinin qərar və sərəncamları, Parlamentin iclasları barədə məlumatlar, hüquqi və siyasi xarakterli digər sənədlər, habelə ayrı-ayrı qanunlara dair şərhlər dərc olunurdu. Yalnız belə bir faktı gətirmək kifayətdir ki, «Azərbaycan» qəzetinin 1919-cu ildə nəşr olunmuş 46 sayında Parlamentin 25 iclasının bütün təfərrüatını əks etdirmişdi və bu baxımdan onu sənədli tariximizin əsas mənbələrindən biri hesab etmək olar.

Cümhuriyyətin Parlamenti tərəfindən mətbuatla bağlı 1919-cu ilin oktyabrında qanun da qəbul edilmiş və bu qanunda kütləvi informasiya vasitələrinin açılması və fəaliyyət göstərməsinin demokratik prinsipləri öz əksini tapmışdı. Bu sahədə demokratik prinsiplərin reallıqda mövcudluğu həm də müxafilət durumunda olan çoxsaylı qəzet və jurnalların həmin dövrdə fəaliyyət göstərməsində özünü təcəssüm etdirir.

Milli ruhun dirçəlişi və milli ideyaların güclənməsi Cümhuriyyətdə milli mədəniyyətin təbliğinə və tədqiqinə, milli irsin və tarixi ənənələrin öyrənilməsinə marağın xeyli dərəcədə artmasını şərtləndirdi. Bu istiqamətdə ardıcıl və mədsədyönlü siyasət yürüdülür, həm hökumət strukturlarının, həm də ictimai birliklərin imkan və səyləri birləşdirilirdi. Belə ki, Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri, teatr işinə dövlətin müsbət yönümlü müdaxiləsi, dövlətimizin tarixi və milli müstəqillik uğrunda hərəkatla bağlı yeni səhnə əsərlərinin repertuarlara daxil edilməsi, ümumiyyətlə, ictimai həyatda bu sahənin rolunun artması müşahidə olunur, xüsusən də aktyorların bədii hazırlığının və peşəkarlığının yüksəldilməsi məqsədilə dram dərnəkləri təşkil edilir, teatr kollektivlərinin və mədəni-maarif müəssisələrinin inkişaf etdirilməsi üçün kütləvi tamaşalara qoyulmuş dövlət vergisinin yarıbayarı azaldılmasını nəzərdə tutan qanun layihəsi hazırlanaraq Parlamentin müzakirəsinə çıxarılmış və qəbul olunmuşdu.

Bunlarla yanaşı, hökumət tərəfindən ölkənin tarixi yerlərinin, şəhərlərin, müxtəlif yaşayış məntəqələrinin tarixi adlarının bərpası, Azərbaycanın, onun xalqının tarixinin, ölkə coğrafiyasının vacib elmi sahələr kimi məktəblərdə tədrisi, kütlələrin maariflənməsi üçün kitabxana işinin təşkili ilə əlaqədar çoxsaylı qərarlar qəbul edilmişdi. Cümhuriyyət dövründə mədəni-maarif qurumlarının fəaliyyətinə geniş imkanların yaradılması ölkənin sosial-mədəni həyatında çoxsaylı cəmiyyətlərin, ittifaq və birliklərin meydana çıxmasına rəvac vermişdi ki, bunların da əsas qayəsi Azərbaycan xalqının maariflənməsi və milli mədəniyyətin inkişaf etdirilməsi idi.

Azərbaycan hökuməti Dağlıq Qarabağ ermənilərinin də öz mədəni müqəddəratını təyin etməsi haqqında sərəncam vermişdi. Dağlıq Qarabağın Erməni Milli Şurasına məktəb, məktəbdənkənar tərbiyə və mədəni – maarif işləri sahəsində tam müstəqillik verildi. Buranın erməni əhalisi həyatın bütün sahələrində ana dilindən

sərbəst istifadə edə bilərdi.

Respublika hökuməti milli - dini ənənələrə diqqət yetirərək, cümə gününü istirahət günü elan etdi. Dini mənsubiyyətindən asılı olmayaraq, bütün millətlərin nümayəndələri dini bayram günlərində işdən azad edildilər. Hökumət dini vergilərin dövlət xəzinəsinə daxil edilməsi və ruhanilərin, dini idarələrin büdcə hesabına keçirilməsi haqqında qərar qəbul etdi.

Respublikada aqrar islahatlara keçid dövründə kənddəki mövcud istehsal münasibətlərinin – kəndlilərin təbəqələşməsi ilə müşayiət olunan kapitalist münasibətlərinin genişlənməsi sezilirdi. Aqrar bölmənin quruluşunda yoxsul təsərrüfatları ortababların və qolçomaqların təsərrüfatlarına münasibətdə üstünlük təşkil edirdilər. Mülkiyyət formaları arasında dövlət və mülkədar torpaq sahibliyi üstün idi. Torpaqsız və aztorpaqlı kəndlilər mülkədardan torpaq icarə etməyə və ya muzdur kimi işləməyə məcbur idilər. İcarə Azərbaycanın bütün qəzalarında torpaqdan istifadənin əsas forması idi. Mülkədar təsərrüfatlarında muzdur əməyindən geniş istifadə olunurdu (7, 344).

XX əsrin əvvəllərində dövlət kəndliləri arasında xəzinə (dövlət) torpaqlarından istifadə hüququnun alqı-satqısı geniş yayılmışdı. Özü də yalnız həyətyanı sahələri əhatə edən torpaqlar deyil, həm də əkinə yararlı torpaqlar satılır və girov qoyulurdu. İcma torpaqlarının ələ keçirilməsi və ya icarəsi ilə güclənən bu tendensiya həmin torpaqların bir sıra işgüzar kəndlilərin əlində cəmlənməsinə və tədricən digərlərinin torpaqsızlaşmasına gətirib çıxarırdı. Həmin proses ciddi münaqişələrlə müşayiət olunurdu ki, bu da torpaq sahələrinin hüdudları və miqyası ilə bağlı yerli inzibati rəhbərliyin və kəndlilərin özünün dəqiq məlumatlara malik olmaması səbəbindən daha da kəskin vəziyyət yaradırdı. 1912-1913-cü illərin aqrar qanunları əsasında həyata keçirilmiş islahatla kəndlilər bəy mükəlləfiyyətlərindən azad olunur və öz pay torpaqlarını xəzinə hesabına məcbüri satınalma hüququ əldə etmişdilər. Bununla belə, Fevral çevrilişinə qədər kəndilərin böyük kəsimi ödənc pulunu köçürə bilməmişdi. Mülkiyyətçi-kəndlilərin torpaq sahələrinə gəldikdə isə ixtiyarında 10-20 desyatin torpaq sahələri olan bir qisim kənddən fərqli olaraq əsasən bu sahələr 2-3 desyatin torpağı əhatə edirdi. Belə vəziyyətdə aztorpaqlı və ya torpaqsız kəndlilər ailələrini dolandırmaqdan ötrü müxtəlif üsullara əl atırdılar. İri torpaq sahiblərinin kəndilərə əlavə təzyiq vasitəsi qismində torpaqların suvarılması çıxış edirdi. Həmin dövrdə çay boyu suçıxarma qurğularının tikintisi geniş yayılmağa başlamışdı ki, bunların da sahibləri ətraf kəndlərin kəndliləri ilə torpağın suvarılmasına dair əlahiddə müqavilələr bağlayırdılar.

Hələ mütləqiyyət dövründə həyata keçirilən köçürmə siyasəti (yəni mərkəzi quberniyalardan Azərbaycan quberniyalarına rus kəndilərinin köçürülməsi) də aztorpaqlılıq problemini kəskinləşdirmiş, köçürülənlərlə yerli sakinlər arasında müəyyən münaqişələrin ortaya çıxmasına rəvac vermişdi. İnqilablar dövründə aqrar böhran nəinki səngiməmiş, hətta daha çox düyünə düşmüşdü ki, bu da nəticə etibarilə kəndlilərin vəziyyətini bir qədər də ağırlaşdırmışdı. Zaqafqaziya Seymi dövründə aqrar islahatın həyata keçirilməsi üçün müvafiq qanun qəbul edilsə də, məlum səbəblərdən reallaşdırılmamışdı. Cümhuriyyətin ikinci Müvəqqəti höku-

məti həmin qanunun hüquqi qüvvəsini bu sahədəki vəziyyətin tam araşdırılaraq öyrənilməsi məqsədilə müəyyən dövrə qədər dayandırmış, 1918-ci ilin yayından etibarən bu məsələnin həlli istiqamətində müvafiq tədbirlərin hazırlanması üçün fəal hüquqi addımlar atmağa başlamışdı. Belə ki, xüsusi aqrar proqram layihəsi hazırlanmış və burada mülkiyyət formasından asılı olmayaraq bütün torpaqların əvəzsiz olaraq əməkçi kəndlilərin tam mülkiyyətinə verilməsi əks etdirilmişdi. Layihədə torpaqlara müəyyən məsrəflər qoymuş şəxslərə xüsusi fonddan mükafatın veriləcəyi də qeyd olunurdu. Lakin demokratik dəyərləri əldə rəhbər tutan Cümhuriyyət hökuməti torpaq sahiblərinin əlindən zorla onlara məxsus əmlakın alınmasını da məqbul hesab etmirdi. Buna görə də hazırlanacaq qanun layihəsində bütün təbəqələrin hüquqlarının pozulmamasının, onların hamısının mənafelərinin gözlənməsi başlıca meyar kimi götürülürdü (7, 345-346).

Cümhuriyyət dövründə iqtisadi sfera üzrə qəbul edilmiş qanunvericilik aktlarının əsasında düzənlənmiş vergi sistemi formalaşdırılmışdı. Vergi sisteminə müstəqim vergilər – torpaq vergisi, daşınmaz əmlak vergisi, dövlət gəlir vergisi, sənaye vergisi, kapital qoyuluşundan gəlir vergisi, hərbi mükəlləfiyyət vergisi, notarial vergi; dolayı vergilər – tütün, papiros kağızları, şəkər, çay, ağ neft, benzin, kerosin, sürtkü yağlarından və digər neft məhsullarından tutulan vergi, gömrük rüsumu və gəlirləri; möhür haqqı – məhkəmə, kargüzarlıq, sənəd yazışmalarından gəlirlər; hökumət inhisarlarına aid vergilər – mədən gəliri, poçt gəliri, teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər; dövlət dəmir yolundan gəlirlər – yük daşınmasından gələn gəlirlər daxil idi.

Azərbaycan Cümhuriyyətinin hökuməti maliyyə siyasətində mütərəqqi gəlir vergisi siyasətinə üstünlük verirdi. Çünki dolayı vergi tariflərinin qəbul edilməsi daxili bazarda qiymətlərin qalxmasına, inflyasiyanın artmasına səbəb olur və bunların nəticəsində əhalinin güzaranına mənfi təsir göstərirdi. Cümhuriyyətin Nazirlər Şurası müstəqil kağız pul əskinazlarının – Bakı bonlarının dövriyyəyə buraxılması haqqında 1918-ci il sentyabrın 22-də qərar qəbul etmişdi. Qərara uyğun olaraq, 40 manat (Bakı bonu) 1 Türkiyə lirəsinə bərabər idi. Bununla yanaşı, tədavüldə hələ də keçmiş çar hökuməti tərəfindən kəsilmiş («nikalayevskilər») rubllar, Müvəqqəti hökumətin kəsdiyi rubllar («kerenkalar»), Tiflisdə buraxılmış Zaqafqaziya hökuməti bonları qalmaqda davam edirdi. Lakin sonralar həyata keçirilmiş tədbirlər nəticəsində milli valyutanın möhkəmləndirilməsinə nail olunmuşdu. Müstəqil bank sistemi yaradılmışdı. Ticarətin inkişafı üçün münbit zəmin hazırlanırdı. Cümhuriyyətin qəbul etdiyi müvafiq qanunlarda kənd təsərrüfatı məhsullarının və neft məhsullarının, eləcə də digər məhsulların sərbəst ixracına icazə verilmişdi və aparılan mallardan dövlət xəzinəsinə rüsum ödənilməsi ilə yanaşı, ixracatçının malın dəyərinin yarısının xarici valyuta ilə ödəməli olduğu müəyyən edilmişdi. İdxal prosesi də qaydaya salınmışdı. Bir çox dövlətlərlə ticarət müqavilələri bağlanılmışdı. Azərbaycanla Gürcüstan arasında tranzit müqaviləsinin imzalanması siyasi və iqtisadi münasibətlərin inkişafına təkan vermişdi. Bütün bunlar ilk Cümhuriyyətin təsərrüfatın çoxukladlılığı əsasında yeni inkişaf modelinin qurulması yolu ilə milli dövlətin möhkəmləndirilməsinə nail olma üzrə səylərini ifadə edirdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi (ARDTA), f.f. 51, 84, 314, 894, 895, 2824.
2. Azərbaycan Xalq Cümhuriyyəti. 7 cilddə. Bakı, 1998-2003.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. Bakı: Lider, 1-ci cild, 2004, 440 s.; 2-ci cild, 2005, 472 s.
4. Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar. 1918-1920-ci illər. C.B.Quliyevin redaktəsi ilə. Bakı: Elm, 1998, 616 s.
5. «Azərbaycan» qəzeti, -dekabr, 1919, 28 yanvar; 6 sentyabr, №189.
6. Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1917-aprel 1918). Bakı: Qanun, 2013, 456 s.
7. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi. Bakı: Elm və Təhsil, 2015, 572 s.
8. İsmayılov X.C. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Azərbaycanda yerli özünüidarəetmə: təşkilati və hüquqi aspektləri. Bakı: Elm və Təhsil, 2009, 272 s.
9. İsmayılov X.C. Azərbaycan Xalq Cümhuriyyətinin hüquqyaratma fəaliyyətinin bəzi aspektləri. //Bakı Universitetinin Xəbərləri (sosial-siyasi elmlər seriyası). Bakı, 1999, №1-2, s.66-83.
10. Азербайджанская Демократическая Республика. (1918-1920 гг.). Законодательные акты (Сборник документов). Баку: Азербайджан, 1998, 560 с.
11. Аух Е.-М. Между приспособлением и самоутверждением: Ранний этап поисков национальной идентичности в среде мусульманской интеллигенции и возникновение нового общества на Юго-Восточном Кавказе (1875–1905 гг.) // Азербайджан и Россия: общества и государства. М., 2001, с.51-75.
12. Вестник правительства Азербайджанской Республики. Баку, 1920, 13 марта, №19.
13. Свентоховский Т. Русское правление, модернизаторские элиты и становление национальной идентичности в Азербайджане // Азербайджан и Россия: общества и государства. М.: Летний сад, 2001, с.12-29.
14. Собрание узаконений и распоряжений правительства Азербайджанской Республики. 1919, №1, мм.143, 145, 158, 166, 170.


## ВОПРОСЫ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКЕ


**Х.Дж.ИСМАЙЛОВ**



**РЕЗЮМЕ**

Широкомасштабные работы, связанные с регулированием прав, свобод и обязанностей различных слоев населения в период первой Азербайджанской Республики, а также проведение реформ по различным сферам ее экономической и социальной жизни и создание правовых основ функционирования этих сфер включают множество вопросов, которые актуальны и для современного периода развития общества. С этой позиции в статье предпринимаются попытки исследования и анализа проблем правового регулирования социально-экономических отношений в первом национальном государстве с республиканской формой правления.



**Ключевые слова:** социальная политика, экономические отношения, правовое регулирование, правовой статус населения, право на образование, трудовые правоотношение, аграрная реформа, налоговая система.

**ISSUES OF LEGAL REGULATION OF SOCIAL AND ECONOMIC RELATIONS IN THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC**

**Kh.J.ISMAYILOV**

**SUMMARY**

Large-scale work, aimed at regulating the rights, freedoms and responsibilities of various sections of the population during the first republic, as well as reforms in various spheres of its economic and social life, and the creation of legal bases for the functioning of these spheres include many issues that are relevant for the present time of the development of society . From this position, the article makes an attempt to study the problems of the legal regulation of the socio-economic life of our first state with a republican form of government and conducted an appropriate analysis.

**Keywords:** social policy, economic relations, legal regulation, legal status of the population, the right to education, labour-legal relations, an agrarian reform, tax system.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2018*

**UOT 342**

# ƏMƏLİYYAT-AXTARIŞ HÜQUQ MÜNASİBƏTLƏRİNDƏ TƏRƏFLƏR

**E.Q.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***nabiyevelbay@gmail.com***

*Məqalədə müasir dövrdə əməliyyat-axtarış fəaliyyətinin tarixinə qısa şəkildə nəzər salınır və Azərbaycan qanunvericiliyində bu terminin meydana gəlməsi və bu yönümdə mühüm qanunvericilik aktları qeyd olunur, qanunvericiliyin təkmilləşdirilməsinə dair bəzi təkliflər irəli sürülür, əməliyyat-axtarış hüquq münasibətlərinin anlayışı verilir, tərəflərin hüquq və vəzifələri araşdırılır, bəzi mübahisəli məsələlərə toxunulur, bu kontekstdə bəzi yeniliklər irəli sürülür, əməliyyat-axtarış hüquq münasibətlərinin məxfi (bu zaman birtərəfli hakimiyyət səlahiyyətli hərəkətlər keçirilir) və açıq fazaları (bu fazada tərəflər əməliyyat-axtarış hüquq münasibətləri çərçivəsində real olaraq öz hüquq və vəzifələrini həyata keçirmək imkanına malik olurlar) fərqləndirilir, bu münasibətlərin iştirakçılarının dairəsinin dəqiqləşdirilməsinə cəhd göstərilir.*

**Açar sözlər:** əməliyyar-axtarış fəaliyyəti, əməliyyat-axtarış hüquq münasibətləri, əməliyyat-axtarış tədbirləri, tərəflərin hüquq və vəzifələri, birtərəfli hakimiyyət səlahiyyətli hərəkətlər, məxfi faza, aşkar faza.

Cinayətkarlıqla mübarizə sahəsində cinayət ədliyyəsi orqanlarının əsas funksiyalarından biri əməliyyat-axtarış fəaliyyətidir ki, bu fəaliyyət sayəsində səlahiyyətli qurumlar və şəxslər aşkar və qeyri-aşkar tədbirlərlə qanunvericilikdə nəzərdə tuturlmuş vəzifələri həyata keçirirlər. Bu fəaliyyət növünün imkanlarından istifadə etməklə insanların təbii hüquqları və təhlükəsizliyi təmin olunur. Dövlət fəaliyyətinin bu istiqamətinin səmərəli şəkildə realizəsi üçün əməliyyat-axtarış hüquq münasibətlərində iştirak edən tərəflərin, bu fəaliyyətə cəlb olunmuş qurum və şəxslərin hüquq və vəzifələrinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir ki, bu da həmin hüquq münasibətlərinin təhlilinə kömək edə bilər.

Qeyd etmək lazımdır ki, əməliyyat-axtarış fəaliyyətinin kökü uzaq keçmişə gedib çıxsa da müasir anlamda, istər Rusiya imperiyası, istərsə də Sovet dövründə bu fəaliyyət növünü reqlamentləşdirən müvafiq hüquqi baza olmamışdır. Uzun müddət Sovet dövlətində qanunvericilik müstəvisində əməliyyat-axtarış fəaliyyətinə (bundan sonra ƏAF - E.N.), demək olar ki, az rast gəlinmişdir. Bu fəaliyyət növü xüsusi qapalı sahə olduğundan elmi araşdırmaya da kifayət qədər məruz qalmamışdır. Bu vəziyyət xüsusən də Azərbaycana aiddir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1939-cu il Az.SSR-nin Cinayət-Prosessual Məcəlləsində

"ƏAF" ifadəsinə, ümumiyyətlə, rast gəlinməsə də təhqiqat orqanlarından bəhs olunur. Məs., həmin Məcəllənin 97-ci maddəsində göstərilir: "Cinayət etməkdə şübhəli sayılaraq ibtidai istintaq edilməli olan şəxsin təhqiqat orqanları tərəfindən tutulmasına, yalnız şübhəli olanın, istintaqdan və məhkəmədən boyun qaçırmasının qarşısını almaq tədbiri kimi yol verilir..." Məcəllənin 178-ci maddəsində qeyd edilir ki, müstəntiq axtarış aparan zamanı axtarılan şəxsin işlə əlaqəsi olmayan şəxsi həyatına dair halların elan edilməməsinə tədbir görməyə borcludur. Bu və digər müddəalardan görmək olar ki, ƏAF-in subyektini müstəntiq əvəz edir.

1987-ci il redaksiyasındakı Az.SSR-nin 1960-cı il Cinayət-Prosessual Məcəlləsində cəmi 2 maddədə (47-ci və 114-cü maddələrdə) "əməliyyat-axtarış tədbirlərindən" bəhs olunur (47-ci maddədə "zəruri əməliyyat-axtarış tədbirləri" ifadəsi işlədilir). CPM-in 47-ci maddəsinə uyğun olaraq təhqiqat orqanlarına cinayətlərin əlamətlərini və onları törətmiş şəxsləri aşkara çıxarmaq məqsədilə zəruri əməliyyat-axtarış tədbirləri görmək həvalə olunmuşdu. Məcəllənin 113-cü maddəsində isə təhqiqat orqanları sadalanırdı. Bunlar: a) milis; b) hərbi hissələrin, birləşmələrin komandirləri və hərbi idarələrin rəisləri; c) islah-əmək idarələrinin, istintaq izolyatorlarının, müalicə-əmək profilaktoriyalarının və tərbiyə-əmək profilaktoriyalarının rəisləri; ç) dövlət yanğından mühafizə nəzarəti orqanları; d) sərhəd mühafizə orqanları; e) dövlət təhlükəsizliyi orqanlarıdlr. Onlar öz səlahiyyətləri çərçivəsində təhqiqat funksiyasını həyata keçirirdilər.

Bu Məcəllənin 114-cü maddəsində həmin müddəa təkrarlanır və göstərilir ki, "təhqiqat orqanları üzərinə cinayətlərin əlamətlərini və həmin cinayətləri törətmiş şəxsləri tapmaq məqsədilə lazımi əməliyyat-axtarış tədbirləri görmək vəzifələri qoyulur." Təhqiqat orqanları təxirəsalınmaz istintaq hərəkətlərinin (müayinə, axtarış, götürmə, şəxsi müayinə, şübhə edilən şəxsləri tutma və dindirmə və s.) aparılmasını cinayət işi başlanılan vaxtdan etibarən on gündən gec olmayaraq qurtarmalı və işi müstəntiqə verməli idi. Cinayət etmiş şəxsin tapılması mümkün olmamış iş müstəntiqə verildikdə təhqiqat orqanları cinayətkarı müəyyən etmək üçün əməliyyat-axtarış tədbirləri görməkdə davam edərək, bunun nəticələri haqqında müstəntiqə məlumat verməli idi. Bundan əlavə 44 və 114-cü, 118-ci maddələrdə axtarış hərəkətlərindən, 197-ci maddədə şəxsi axtarışdan,128-ci maddədə isə cinayət törətmiş şəxsin axtarışından bəhs olunur.

1995-ci ildə müstəqil Azətbaycan Respublikasının Konstitusiyası ƏAF sferasında mühüm müddəaları təsbit etməklə bu yönümdə qanunvericiliyin inkişafı üçün hüquqi baza yaratmışdır. Lakin yeni qanunvericiliyin formalaşması üçün müəyyən bir zaman tələb olundu. Hətta 1995-ci ildə qəbul olunmuş CPM-də qanunverici ƏAF-lə bağlı məsələyə ötərgi toxunulmuş, cəmisi bir neçə maddədə ümumi şəkildə "əməliyyat-axtarış tədbirləri" ifadəsi işlənmişdir. Yalnız 1999-cu il 28 oktyabr tarixində "Əməliyyat-axtarış fəaliyyəti" haqqında AR-in Qanunu qəbul olunduqdan sonra ƏAF sahəsində qanunvericiliyin inkişafında nəzərəçarpacaq dəyişikliklər baş vermiş, ictimai həyatın bütün sahələrdə olduğu kimi ƏAF sahəsində də şəffaflıq təmin olunmuş, qanunvericilik bazasının əsası qoyulmuşdur. Sonrakı illərdə bu Qanuna müəyyən düzəliş və əlavələr edildi. Belə ki, AR

Prezidentinin 19 iyun 2001-ci il tarixli "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyətlərinin bölgüsü haqqında" Fərmanına görə əməliyyat-axtarış tədbirlərinin hansı təhqiqat orqanı tərəfindən və hansı həcmdə tətbiqinin mümkünlüyü müəyyən edilmişdir.

Sözügedən fəaliyyət növü bir sıra mühüm əsasnamələrdə və qanunlarda ("AR-in Fövqəladə Hallar Nazirliyi haqqında", "AR-in Vergilər Nazirliyi haqqında" əsasnamələrdə, "AR-in Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin", "AR-in Dövlət Sərhəd Xidməti haqqında" əsasnamələrində, "Polis haqqında", "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında" AR-in qanunlarında), eləcə də digər qanunvericilik aktlarında öz əksini tapmışdır.

Artıq 2000-ci ildən başlamış 2011-ci ilədək əlavə və dəyişiklikləri özündə ehtiva edən 2011-ci ildə yeni Cinayət-Prosessual Məcəlləsi qəbul olundu. Əvvəlki məcəllələrdən fərqli olaraq bu CPM-də ƏAF-ə daha geniş diqqət və yer verilir, onun bir sıra maddələri (84.5.17; 85.4.5; 86.4.5, 86.5, 86.6; 86.7.3) əməliyyat-axtarış tədbirlərindən bəhs edir.

Məlum olduğu kimi, ictmai mənafelər baxımından insan, cəmiyyət və dövlət üçün mühüm əhəmiyyət kəsb edən ictimai münasibətlər hüquq normaları ilə əhatə olunur və tənzimlənir. Ancaq bir sıra normalar da var ki, onlar mühüm ictimai münasibətləri tənzimləməklə ictimai və dövlət təhlükəsizliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə yönəlmişdir. Belə sahələrdən biri ƏAF-dir. Əməliyyat-axtarış hüququnun əsas elementləri onun normalarında, yəni bu münasibətlərin iştirakçılarının konkret davranış qaydalarında ifadə olunur. Bu fəaliyyət növü əməliyyat-axtarış qanunvericiliyi ilə tənzimlənir və əməliyyat-axtarış hüquq münasibətlərini (bundan sonra ƏAH münasibətləri - E.N.) əhatə edir. Əməliyyat-axtarış qanunvericiliyi ƏAF-in təşkili və həyata keçirilməsi zamanı yaranan münasibətləri nizamlayır. Bu münasibətlərin başlaması ilə "hüquqi zona" formalaşır və tərəflərin öz hüquq və vəzifələrini həyata keçirmək üçün hüquqi əsas yaranır.

ƏAH münasibətləri dedikdə əməliyyat-axtarış hüquq normaları əsasında subyektlər arasında yaranan, həyata keçirilməsi aşkar fazadan başlayan zərurət aradan qaldırıldıqda isə xitam verilən, dövlət tərəfindən tənzimlənən və mühafizə olunan, iştirakçıları qarşılıqlı hüquq və yuridik vəzifələrə malik olan hüquqi əlaqə anlaşılır. Spesifiklik, ilk növbədə ondadır ki, bu fəaliyyət növü aşkar və qeyri-aşkar üsullarla həyata keçirilir ki, bu da onun hüquqi təbiətindən irəli gəlir. Bu spesifiklik həm də tərəflərin və bu fəaliyyətdə iştirak edən dairələrin qarşılıqlı hüquq və vəzifələrində özünü büruzə verir. Konkret subyektiv hüquqlar və yuridik vəzifələr əməliyyat-axtarış hüquq normalarından irəli gəlir. Hüquq normaları ilə nəzərdə tutulmuş şərtlər olduqda həmin münasibət iştirakçıları hüquq və vəzifələrin daşıyıcıları kimi çıxış edir.

ƏAH münasibətləri ƏAF-lə bağlı olduğundan sonuncu məsələyə bir dəqiqlik gətirmək də yerinə düşər. Belə ki, ƏAF-i sözün geniş və dar mənasında fərqləndirmək lazımdır. Geniş mənada ƏAF ictimai və dövlət təhlükəsizliyinin təmin

olunmasına yönəlməklə özündə həm kriminalla mübarizəni (cinayət axtarışı), həm də ayrıca bir istiqamət olaraq siyasi axtarış, kəşfiyyat və əks-kəşfiyyat məsələlərini əhatə edir. Onların hər birinin öz məqsədləri, vəzifələri, təyinatı və spesifik cəhətləri mövcuddur. Sözün dar mənasında isə ƏAF əsasən cinayətkarlıqla mübarizənin təmin olunmasına xidmət edir. Bu çərçivədə də kəşfiyyat mövcuddur ki, bu da qeyri-aşkar fazaya aiddir. ƏAF-ə daha çox cinayətkarlıqla mübarizə sahəsində rast gəlindiyindən mövzu çərçivəsində əsasən məhz bu yönümdə yaranan ictimai münasibətlər araşdırılır.

ƏAH münasibətlərindən danışarkən qanunvericilikdə öz əksini tapmış əməliyyat-axtarış hüququnun mənbələri ilə bağlı məsələyə toxunmaq məqsədəmüvafiqdir. Belə ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanununun 2-ci maddəsinin I hissəsində ƏAF-in hüquqi əsası kimi AR Konstitusiyası (onun bir sıra maddələri ƏAF-lə birbaşa əlaqədədir), bu Qanun, digər normativ hüquqi aktlar, habelə AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr göstərilir. Göründüyü kimi, burada sadalanan normativ hüquqi aktların tam əksəriyyəti qanundur və əməliyyat-axtarış hüququnun mənbələri qismində çıxış edir. ƏAH münasibətlərinin tənzimlənməsi baxımından "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanunu mühüm rol oynayır. Qanunun 2-ci maddəsinin II hissəsində göstərilir ki, ƏAF-in subyektləri "öz səlahiyyətləri daxilində AR qanunvericiliyinə uyğun olaraq əməliyyat-axtarış tədbirlərinin təşkilini və taktikasını tənzimləyən normativ hüquqi aktlar qəbul edirlər." Burada əsasən təlimat xarakterli qanunvericilik aktları nəzərdə tutulur.

Hər bir dövlətdə insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin edən və cinayətlarlıqla mübarizə aparan dövlət orqanları fəaliyyət göstərir. Azərbaycan Respublikasında bunlar Dövlət Təhlükəsizlik Xidməti, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidmətidir.

Yuxarıda qeyd olunan AR Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanına əsasən sadalanan dövlət orqanları əməliyyat-axtarış tədbirlərini həyata keçirməkdə səlahiyyətlidirlər. Fərmanda göstərildiyi kimi, bunlar əməliyyat-axtarış tədbirlərini (bundan sonra ƏAT – E.N.) həyata keçirən Daxili işlər, Ədliyyə, Vergilər, Fövqəladə hallar nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsidir. Məhz bu dövlət orqanları daxilində mövcud olan müvafiq qurumlar ƏAF-in subyektləri qismində fəaliyyət göstərir. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanununun 5-ci maddəsinin I hissəsinə əsasən cinayətkarlıqla mübarizə sferasında bu, təhqiqat orqanları və korrupsiya ilə bağlı cinayətlər üzrə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanıdır. Bu maddənin məzmunundan belə qənaətə gəlmək olar ki, yalnız göstərilən orqan ƏAF-in subyekti qismində çıxış edir, halbuki AR Prezidentinin müvafiq fərmanından göründüyü kimi, bu fəaliyyəti digər hüquq mühafizə və xüsusi xidmət orqanları da həyata keçirir. Fikrimizcə, onların da "Əməliyyat-ax-

tarış fəaliyyəti" haqqında Qanunda öz əksini tapması məqsədəmüvafiqdir.

ƏAH münasibətləri ƏAF-in və onun subyektlərinin hüquq və vəzifələri ilə bağlıdır. ƏAF-in vəzifələri aşağıdakılardır: 1) hazırlanan və törədilən cinayətlərin qarşısının alınması; 2) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması; 3) cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi; 4) məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması; 5) naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi ("Əməliyyat-axtarış fəaliyyəti" haqqında Qanunun 1-ci maddəsinin III hissəsi). Bu vəzifələrdən isə ƏAF-in subyektlərinin vəzifələri (insan və vətəndaş hüquq və azadlıqlarının, fiziki və hüquqi şəxslərin qanunla müdafiə olunan mənafelərinin, ictimai və dövlət təhlükəsizliyinin qorunması üçün öz səlahiyyətləri daxilində bütün qanuni tədbirlərin görülməsi; əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair məhkəmə qərarlarının, istintaq orqanlarının qərarlarının və ya cinayət işləri üzrə yazılı tapşırıqlarının, əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektlərinin qərarlarının yerinə yetirilməsi və s.) irəli gəlir (Qanunun 6-cı maddəsi).

ƏAH münasibətlərində əsas məsələlərdən biri tərəflərin, yəni bu münasibətlərdə iştirak edən dairələrin müəyyən edilməsidir. Fikrimizcə, bu münasibətlərin iştirakçılarına sözün dar və geniş mənasında yanaşmaq olar. Dar mənada bu münasibətlər iki tərəf arasında yaranır. Əməliyyat-axtarış qanunvericiliyi ilə ilk öncə, bir tərəfdən, əməliyyat-axtarış funksiyasını realizə edən subyektlərlə, digər tərəfdən isə həmin funksiyanı həyata keçirən subyektlərin diqqətini cəlb etmiş (barəsində ƏAT həyata keçirilən) şəxslər arasında yaranan ictimai münasibətlər tənzim olunur.

Sözün geniş mənasında isə bu münasibətlərdə qanunvericilikdə nəzərdə tutulmuş qurum və şəxslər iştirak edir. Belə ki, ƏAF-in vəzifələrının yerinə yetirilməsində bu və ya digər dərəcədə iştirak edən (bu fəaliyyətin həyata keçirilməsinə kömək edən qurum və şəxslər, o cümlədən, konfidensial əsaslarla əməkdaşlıq edən şəxslər), eləcə də müəyyən mənada qanunvericilikdə nəzərdə tutulmuş əməliyyat-axtarış işinin aparılması ilə bağlı qurum və şəxslər (bilavasitə nəzarətedici orqanlar - ƏAF-in subyektinin rəhbərliyi, prokurorluq orqanları, məhkəmə, eləcə də öz səlahiyyətləri çərçivəsində tapşırıq verən səlahiyyətli şəxslər) ƏAH münasibətlərinin iştirakçıları sırasında göstərilə bilər. Bu baxımdan, ƏAF-i bilavasitə həyata keçirən subyektləri onların tabe olduğu yuxarı instansiyalardan və onlara nəzarət edən qurumlardan, tapşırıq (göstəriş) verən vəzifəli şəxslərdən fərqləndirmək lazımdır.

Tərəflərin hüquq və vəzifələri onlar arasında yaranan hüquq münasibətlərinin məzmununu təşkil edir. Prof. M.Məlikovanın qeyd etdiyi kimi "hüquq münasibətlərində bir şəxsin davranışı digər şəxsin tələblərinə uyğun olmalıdır, yəni hüquqi vəzifələr daşıyan şəxs məhz səlahiyyətli şəxsin ondan tələb etdiyi hərəkətləri yerinə yetirməyə borcludur. Bu mənada hüquq münasibətlərinin iştirakçıları bir-biri ilə qarşılıqlı hüquq və vəzifələrlə əlaqəlidirlər" (11, 306).

Tərəflər onlara verilmiş hüquq və vəzifələri həyata keçirməklə ƏAH mü-

nasibətlərinə daxil olurlar. Belə hüquq və vəzifələr arasında sıx əlaqə diqqəti çəkir. Çünki hüquq münasibəti tərəflər arasında hüquqi əlaqə yaradır. Qanunvericiliklə tərəflərdən birinin üzərinə müəyyən vəzifənin qoyulması qarşı tərəfin müvafiq hüququnu yaradır və onun həyata keçirilməsini təmin edir. Məs., əməliyyat-axtarış fəaliyyəti zamanı ehtiyac yarandığı təqdirdə fiziki şəxslər yaşayış və qeyri-yaşayış binalarını, otaqlarını, öz nəqliyyat vasitələrini və digər əmlakını istifadəyə verməyə borcludurlar. Fiziki şəxsin göstərilən vəzifəsi qarşı tərəfin müvafiq hüququnu şərtləndirir. Sözügedən Qanunun 7-ci maddəsinin 4-cü bəndinə əsasən ƏAF-in subyektləri "əməliyyat-axtarış fəaliyyəti zamanı müqavilə və ya şifahi razılığa əsasən fiziki və hüquqi şəxslərin yaşayış və qeyri-yaşayış binalarından və otaqlarından, nəqliyyat vasitələrindən və digər əmlakından istifadə etmək hüququna" malikdirlər. Subyektin bu hüququndan qarşı tərəfin tələb olunan əmlakı təqdim etmək vəzifəsi yaranır.

Bunu başqa bir misaldan da sezmək olar. Belə ki, Qanunun 14-cü maddəsinin IX hissəsində ƏAF həyata keçirilərkən vətəndaşların şəxsi və ailə həyatına aid olan məlumatların aşkarlanmaması təsbit olunur. Bu isə o deməkdir ki, belə məlumatları aşkarlamamaq ƏAF-in subyektinin vəzifəsidir, bu müddəa pozulduğu təqdirdə isə vətəndaş şikayət etmək hüququna malikdir. Bu qarşılıqlı hüquqi əlaqə vasitəsilə tərəflərin hüquq normaları ilə nəzərdə tutulmuş hüquq və vəzifələri realizə olunur. Hüquq münasibətlərinin məzmununu onun subyektlərinin hər hansı davranışı deyil, hüquq normalarının göstərişlərinə tam uyğun həyata keçirilən davranış, yəni ümumməcburi qarşılıqlı əlaqə təşkil edir (16, 296).

Bu münasibətlərdə bir tərəf həmişə bəllidir. Bu, ƏAF-in subyektləri qismində çıxış edərək dövlət iradəsini həyata keçirən yuxarıda qeyd olunan hüquq mühafizə və xüsusi xidmət orqanlarıdır (daha dəqiq desək onların səlahiyyətli subyektləridir). Fikrimizcə, ƏAF-in subyektlərini və onların timsalında müvəkkil olunmuş şəxsləri yuxarıda göstərilən hakimiyyət orqanlarını təmsil edən əsas tərəf adlandırmaq olar.

Məlum olduğu kimi, dövlət hüquq vasitəsilə ictimai münasibətlərə hüquqi forma verir. ƏAH münasibətlərinə hüquqi formanın verilməsi ilə dövlət milli təhlükəsizliyin, cəmiyyətdə sabitliyin təmin olunmasının, cinayətkarlıqla mübarizənin zəruriliyini bildirir və bunun üçün qanun çərçivəsində bütün mövcud imkan və vasitələrdən istifadə olunmasının vacibliyini vurğulayır. Bu da ƏAH münasibətlərinin zəruriliyinin ilkin sosial şərti kimi göstərilə bilər. Bu növ hüquq münasibətlərində dövlət iradəsinin daşıyıcıları qismində ƏAF-in subyektləri çıxış edir. Əməliyyat-axtarış qanunvericiliyi ilə ƏAF-in subyektlərinə geniş məcburedici səlahiyyətlərin verilməsi nəticəsində onlarla qarşı tərəf arasında öncə birtərəfli hakimiyyət tabelik münasibətləri yaranır, sonra isə ƏAH münasibətləri həyata keçirilir ki, bu da bu növ fəaliyyətin xüsusiyyətlərindən irəli gəlir. Bununla əlaqədar səciyyəvi cəhət ondadır ki, bu münasibətlər bir çox halda başlayan zaman iki fazadan – öncə qeyri-aşkar, sonra isə aşkar fazadan keçir ki, bu da ƏAF-in aşkar və gizli üsullarla həyata keçirilməsindən irəli gəlir.

Aşkar üsullarla həyata keçirildiyi təqdirdə qarşı tərəf bundan məlumatlanır

və bu səbəbdən tərəflər arasında ƏAH münasibətləri həmin andan yaranır və onlar qanunla müəyyən olunmuş subyektiv hüquq və vəzifələri həyata keçirə bilirlər. Bir çox halda isə ƏAF başlayarkən qeyri-aşkar üsullarla həyata keçirildiyindən heç də həmişə ƏAH münasibətləri dərhal yaranmır. Öncə məxfi (qapalı) xarakter daşıyan və müvafiq təlimatlarla tənzimlənən birtərəfli hakimiyyət səlahiyyətləri həyata keçirilir. Bu da həmin fəaliyyətin təbiətindən - konspirasiya qaydalarına əməl etmək zərurətindən irəli gəlir. Belə hallarda şəxsin xəbəri olmadan onun barəsində məlumatlar, o cümlədən şəxsi və ailə həyatına aid konfidensial məlumatlar toplanıla bilər (telefon danışıqlarına qulaq asmaq, məhkumların məktublarının yoxlanılması, insanların güdülməsi, cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi və s.). Qarşı tərəf bundan xəbərsiz olduğundan o, əməliyyat-axtarış qanunvericiliyi ilə nəzərdə tutulmuş müvafiq subyektiv hüquqlarını da həyata keçirə bilmir.

Bu səbəbdən belə hallarda müəyyən müddət (əməliyyat tədqiqində olan obyektdə axtarış aparılana, qarşı tərəf saxlanılana, ifşa olunana, məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxs tapılana qədər) tərəflər arasında ƏAH münasibətləri deyil, birtərəfli hakimiyyət səlahiyyətli hərəkətlər həyata keçirilir. Sonuncu halda şəxs məlum olsa da onun harada olması naməlum ola bilər ki, bu da ƏAH münasibətlərinin yaranmasına imkan vermir. Məs., şəxsin cinayət törətməsi, itkin düşməsi hüquqi fakt olaraq birtərəfli hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsinə səbəb olur. Həmin şəxsin saxlanılması və ya mənzilinə baxış keçirilməsi ilə birtərəfli qeyri-aşkar münasibətlər bu fazadan aşkar fazaya keçir. Bu da tərəflər arasında hüquq münasibətlərinin yaranmasına gətirib çıxarır. Səlahiyyətli subyektlərin fəaliyyəti (hərəkətləri) qarşı tərəfə bəlli olduqdan sonra sonuncu qanunvericiliklə ona verilmiş müvafiq hüquq və vəzifələri həyata keçirə bilir.

Birtərəfli hakimiyyət səlahiyyətli hərəkətlər dedikdə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsində təsbit olunmuş ƏAT-ləri nəzərdə tutulur. Belə hərəkətlər həmin Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş səbəblər (daxil olan məlumatlar, sorğular, tapşırıqlar) və əsaslar (müvafiq qurumların qərarları) olmaqla bir sıra halları əhatə edir (başlanmış cinayət işi mövcud olduqda, cinayəti hazırlayan, törədən və ya törətmiş şəxs barəsində etimad doğuran, məlum və qərəzsiz mənbədən məlumat daxil olduqda, dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisə baş verdikdə, yaxud onun qarşısı alındıqda, şəxs məhkəmə, istintaq və ya təhqiqat orqanlarından gizləndikdə, cəza çəkməkdən boyun qaçırdıqda, yaxud itkin düşdükdə, naməlum meyit aşkar edildikdə). Təbii ki, belə tədbirlərin keçirilməsi insanların konstitusion hüquqlarının məhdudlaşdırılması ilə müşahidə olunur və məxfi xarakter daşıdığından qarşı tərəflə hüquq münasibətləri üçün səciyyəvi olan subyektlər arasında hüquqi əlaqə də yaranmır.

Məxfi keçirilən fazada birtərəfli hakimiyyət səlahiyyətli hərəkətlər olan ƏAT elə təşkil olunmalıdır ki, qarşı tərəf bunu hiss etməsin. Əks təqdirdə əməliyyat tədbiri pozula bilər. Məs., kimin və ya kimlərinsə tərəfindən törədilməsi

məlum olmayan cinayət baş verdikdə aparılan ƏAT nəticəsində müəyyən zamandan sonra şübhəli şəxslər məlum ola bilər. Bu zaman onlar əməliyyat nəzarətinə götürülür və müvafiq ƏAT həyata keçirilir. Bununla belə istisna deyil ki, onların izlənilməsi, telefonlarının nəzarətə götürülməsi məxfi şəkildə həyata keçirilsə də bəzi hallarda həmin şəxslər müəyyən səbəblərdən bunu hiss edə, hətta müəyyən yollarla bu barədə məlumatlana bilərlər. Sonuncu halda barəsində ƏAT keçirilən şəxs bunu bildirmir, lakin hiss etdiyindən və ya bunu bildiyindən müəyyən müddət (ifşa olunmamaq üçün, məsuliyyətdən yayınmaqdan ötrü) kriminal xarakterli fəaliyyətdən çəkinir, dəlil sübutları məhv edir və yaranmış vəziyyətdən "təmiz" çıxmağa çalışır. Təbii ki, belə hallarda da barəsində ƏAT həyata keçirilən şəxslər ƏAH münasibətləri çərçivəsində öz hüquq və vəzifələrini hələ rəsmən həyata keçirə bilmir.

Göründüyü kimi, tərəflər arasında öncə yaranan hüquqi əlaqə birtərəfli hakimiyyət səlahiyyətləridir və aşkar fazadan fərqli olaraq tərəflər arasında qarşılıqlı hüquq və vəzifələr yaratmır (cinayət başında yaxalanana, saxlanılana qədər qarşı tərəf əməliyyat-axtarış qanunvericiliyi ilə nəzərdə tutulmüş hüquq və vəzifələri həyata keçirə bilmir). Bundan əlavə nəzərə almaq lazımdır ki, birtətəfli hakimiyyət səlahiyyətləri həyata keçirilməyə başlanarkən heç də həmişə qarşı tərəf dərhal məlum olmur. Yalnız müəyyən tədbirlərin nəticəsi olaraq şübhəli şəxslərin dairəsi müəyyən oluna bilər. Hətta bəzən baş vermiş hadisənin kriminalla bağlı olub olımadığı belə naməlum ola bilər. Həm də qeyd etmək lazımdır ki, ƏAT-lərinin keçirilməsinə yönəlmiş birtərəfli hakimiyyət səlahiyyətli münasibətlər ƏAH münasibətləri ilə paralel olaraq da keçirilə bilər.

Digər əsas tərəf isə barəsində ƏAT həyata keçirilən, o cümlədən kriminalla, baş vermiş və ya baş verə biləcək cinayətlə (bəzi hallarda isə hadisə ilə) bağlı fiziki və hüquqi şəxslər, onları təmsil edərək qanuni hüquqlarını müdafiə edən şəxslər, vəzifəli şəxslər, axtarışda olan şəxslər və s. ola bilər. Bu sırada şübhəli şəxsi xüsusi olaraq qeyd etmək lazımdır. Həm ƏAF-ə, həm də cinayət-prosessual qanunvericiliyinə birbaşa aidiyyəti olan şübhəli şəxsin statusu, hüquq və vəzifələri AR CPM-in 90-cı maddəsində təsbit olunmuşdur. Bundan əlavə, naməlum meyitlərin (zərərçəkmişin) yaxınlarının müəyyən edilməsinə yönəlmiş ƏAF keçirilə bilər ki, bu da daha çox köməkçi tərəfə aiddir.

ƏAF-in başlanması üçün məlumatın daxil olması mühüm hüquqi şərt olaraq törəmə hüquqi faktdır, yəni cinayətin törədilməsindən irəli gələn və ƏAF-in vəzifələrinin həyata keçirilməsi ilə bağlı yaranan vacib hüquqi əsasdır. Yalnız bundan sonra ƏAT-ə başlanılır, yəni məxfi qaydada birtərəfli hakimiyyət hərəkətləri həyata keçirilir. Bu hərəkətlər həyata keçirilərkən öz hüquq və səlahiyyətlərindən sui-istifadə hallarına yol verilməməsi üçün qanunvericilikdə (4 və 8-ci maddələrdə) bir sıra qadağaların nəzərdə tutulması qarşı tərəfin müvafiq hüquqlarını şərtləndirir. Belə ki, ƏAF-in subyekti öz səlahiyyətlərini icra edərkən hər hansı şəxsi qanun pozuntularına təhrik etməməlidir. Əks təqdirdə qarşı tərəf bundan şikayət etmək hüququna malikdir.

Yalnız şəxs saxlanıldıqda, ifşa olunaraq hadisə yerində yaxalandıqda,

əməliyyat tədqiqində olan obyektdə axtarış aparıldıqda, axtarışda olan, itkin düşən tapıldıqda və ƏAF-in başqa bu kimi vəzifələri yerinə yetirildikdə əsas tərəf (barəsində müvafiq zəruri tədbirlər həyata keçirilən şəxs və ya şəxslər) qarşı tərəfi (səlahiyyətli subyekti) görə, tanıya bilir və onlar arasında canlı ünsiyyət yaranaraq sözügedən münasibətlər (ilk növbədə 1-ci dərəcəli əsas tərəf üçün) aktiv fazaya (qanunvericilikdə nəzərdə tutulmüş hüquq və vəzifələri həyata keçirmək imkanına malik olma fazasına) keçir. Bundan sonra isə barəsində ƏAT keçirilmiş şəxslər əsas qarşı tərəf kimi çıxış edərək saxlanılmanın səbəblərini (nəyə görə saxlandığını) bilmək, öz hüquqları ilə tanış olmaq, ƏAT barədə protokol tərtib olunduqdan sonra onunla tanış olmaq, izahat vermək, sualları cavablandırmaq, vəkilin xidmətindən istifadə etmək, ƏAF-in subyektlərinin müvəkkil olunmuş şəxslərinin qanunsuz hərəkətlərindən şikayət etmək hüququna malik olurlar.

Eyni zamanda həmin şəxslər hakimiyyət nümayəndəsinin tələbini yerinə yetirməli, şübhəli şəxs qismində saxlanılarkən üzərində baxışa və şəxsi axtarışa məruz qalmasına razılıq verməlidir. Onların ƏAF-in subyektləri ilə əməkdaşlığa cəlb oıunması da qanunvericilikdə xüsusi olaraq nəzərdə tutulur və qanunla belə əməkdaşlığın müəyyən qədər stimullaşdırılması ("Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 17-ci maddəsinin III hissəsi), fikrimizcə, ƏAF-in vəzifələrinin daha operativ yerinə yetirilməsi və cinayətin üstünün tez bir zamanda açılması, aşkarlanması və ya qarşısının alınması baxımından məqsədəmüvafiqdir.

Bunu praktiki misalda təsvir edək. Sabirabad rayonu Nizami kənd sakini E adlı şəxsin qanunsuz olaraq narkotik vasitələrin qəbulu və satışı ilə məşğul olması və tez-tez Bakı şəhərinə getməsi barədə DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinə (bundan sonra BNMİ- E.N.) məlumat daxil olur. Bununla əlaqədar E.-nin ifşa olunması istiqamətində Bakı şəhəri və Sabirabad rayonu ərazisində ƏAT-ın keçirilməsi barədə BNMİ-nin baş əməliyyat müvəkkili tərəfindən qərar qəbul olunur. Zərurətdən çıxış edərək onun üzərində baxış yoxlama keçirildiyi halda həmin şəxsin hüquqlarını müdafiə etmək üçün iş üzrə müdafiəçinin dəvət olunması qərara alınır. Sonra ƏAT-nin həyata keçirilməsi və maddi sübutların götürülməsi barədə tərtib olunan protokolda göstərilir ki, saxlanılan şəxsin, hal şahidlərinin, vəkilin iştirakı ilə BNMİ-yə daxil olmuş məlumatın yoxlanılması üzrə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair qərarın icra edilməsi ilə əlaqədar həmin şəxs Bakı şəhəri Qaradağ rayonu Qobustan qəsəbəsi, 5-ci massiv adlanan ərazidə "Qızıl qum" kafesinin yaxınlığında yolun kənarında tədbir iştirakçıları tərəfindən saxlanılmışdır. Saxlanılan şəxs əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi barədə qərarla tanış edildikdən sonra orada dəvət olunmuş hal şahidlərinin iştirakı ilə E.-nin üzərinə baxış keçirilmiş və onun cibindən bir ədəd salafan kəsiyə bükülmüş halda təxmini çəkisi 80 qram olan tiryəkə oxşar maddə aşkar olunaraq götürülmüşdür. Həmin maddə hal şahidlərinin iştirakı ilə oradaca ekspertiza tədqiqatına göndərilmişdir. İlkin sorğu zamanı E-dən götürülən maddənin tiryək olduğunu, həmin narkotik vasitəni Salyan rayonunda üzdən tanıdığı, lakin adını bilmədiyi şəxsdən 1 qramının 5 manatdan olmaqla 80 qramına 400 manat verməklə şəxsi istifadəsi üçün aldığını bildirmişdir. Saxlanılan şəxsin hü-

quqlarının müdafiə olunmasından ötrü dəvət olunmuş vəkilin iştirakı ilə protokol tərtib edilmiş, AR CPM-in 51.2, 51.3, 96.4.2, 207.4 və 445.2-ci maddələrinin və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 11-ci maddəsinin IV hissəsinin 3-cü bəndinin tələbləri əsas götürülmüşdür. Sonuncu müddəaya əsasən ƏAF-in səlahiyyətli subyektinin qərarı "cinayət işinin başlanmasına kifayət qədər əsaslar olmasa da, cinayət hazırlayan, törədən və ya törətmiş şəxs barəsində etimad doğuran, məlum və qərəzsiz mənbələrdən məlumat daxil olduğu halda" qəbul oluna bilər.

Gətirdiyimiz bu nümunədə ƏAH münasibətləri kontekstində diqqəti bir neçə vacib məqama yönəldək. İlk növbədə qeyd edilməlidir ki, şəxsdə narkotik vasitənin aşkar edilməsi təsadüf deyildi. Məlumat daxil olduğu andan şəxs əməliyyat nəzarətinə götürülmüş, ünvanı, əlaqələri, davranışı, telefonu izlənilmiş və konkret məkanda və zamanda üstündə narkotik maddənin olması müəyyən olunduqdan sonra üzərinə baxış keçirmə kimi ƏAT həyata keçirilmiş və şəxs saxlanılmışdır. Bununla əlaqədar narkotik vasitənin qəbulu və satışının bir cinayət olaraq hüquqi fakt qismində çıxış etməsi, bu faktla bağlı məlumatın daxil olması, faktla bağlı ƏAT-ın keçirilməsi barədə qərarın qəbul olunması, bunların əsasında öncə məxfi xarakter daşıyan birtərəfli hakimiyyət səlahiyyətlərinin keçirilməsi, şəxs saxlanıldıqdan sonra isə əməliyyat-axtarış hüquq münasibətlərinin başlanması, daha konkret desək, saxlanılan şəxsin üzərinə baxış keçirilməsi, onun ilkin sorğuya məruz qalması, bu prosesdə vəkilin iştirak etməsi (deməli, şəxsin saxlandığı andan onun əməliyyat-axtarış qanunvericiliyi ilə nəzərdə tutulmuş hüquq və vəzifələrini həyata keçirmək imkanının reallaşması), saxlanılan şəxsdən əldə olunan məlumatın yoxlanılması üçün ƏAF-in yeni şəxsə çıxması, yəni ƏAT-ın (eyni zamanda birtərəfli hakimiyyət tabelik münasibətlərinin) yeni istiqamət götürməsi və bu yönümdə davam etməsi, şəxsdə tapılan maddənin ekspertiza tədqiqatına göndərilməsi kimi vacib məqamlar ortaya çıxır. Sonuncu məqam, eləcə də CPM-in göstərilən maddələrinin rəhbər tutulması ƏAF-in prosessual qanunvericiliklə sıx əlaqədə olduğunu göstərir. Həyata keçirilmiş ƏAT-dən sonra araşdırma həm də prosessual müstəviyə keçir.

Məxfi keçirilən fazada tərəflər arasında bir növ "qiyabi" xarakter daşıyan bu "ünsiyyət" formasını, eyni zamanda münaqişəli münasibəti bir növ "oyuna" bənzətmək olar. Bu oyunda iki tərəf qarşı qarşıya gəlir. ƏAF başlayan zamandan ta məxfi faza başa çatanadək tərəflər arasında birtərəfli hakimiyyət hərəkətləri çərçivəsində bir növ gözə görünməz mübarizə, qarşıdurma yaşanır. Bu qarşıdurmada tərəflər "oyunçu", onların davranış xəttinin seçilməsi isə strateji xəttin seçilməsi, hər bir oyunçu tərəfindən oyun gedişində nail olduğu və kəmiyyət formasında ifadə olunduğu effekt isə faydalılıq funksiyası adlanır. Xüsusi hüquq ədəbiyyatında bunun qanunauyğun hal olduğu qeyd olunur, çünki əməliyyat-axtarış prosesinin subyektləri hüquqazidd əməllərin qarşısını almaq və açmaq üçün kriminal informasiyanın aşkarlanması, onun işlənilməsi və qarşısının alınması ilə bağlı vəzifələri həll etməlidir (15, 52-53).

Deyilənlər göstərir ki, kriminalla bağlı hallarda bu münasibətlərin iştirak-

çılarının məqsəd və hərəkətləri bir-birinə tam ziddiyyət təşkil edir. Bir tərəfin məqsədi, vəzifələri və fəaliyyəti baş vermiş cinayətin aşkarlanmasına, açılmasına və s. yönəlmişdirsə, qarşı tərəfin məqsəd və davranışı, bir qayda olaraq düşünülmüş cinayəti uğurla həyata keçirmək, aşkarlanmasına və açılmasına imkan verməmək, onları hazırlayan, törədən və törətmiş şəxslərin müəyyən edilməsinə yol verməmək, axtarışdan, məsuliyyətdən boyun qaçırmaq və s. bu kimi hərəkətlər təşkil edir. Bu da bir çox hallarda ƏAH münasibətlərinin münaqişəli münasibətlər olduğuna dəlalət edir.

Bu hüquq münasibətlərinin digər səciyyəvi cəhəti ondadır ki, barəsində əməliyyat-axtarış tədbirləri həyata keçirilən şəxs onun iradəsindən asılı olmayaraq bu münasibətlərə daxil olmaq məcburiyyətindədir. Buna səbəb isə onun kriminal yönümlü əməllər törətməsi, qanuna zidd əmələri ilə təhlükələr yaratması, yaranmış təhlükələrin qarşısını almaması, məsuliyyətdən, cəza çəkməkdən boyun qaçırması və s. ola bilər. Bu xüsusda qeyd etmək lazımdır ki, ƏAF-in subyektinin və onun müvəkkil olunmuş şəxslərinin əsasən qarşı tərəflə (bir sıra hallarda həm də köməkçi tərəflə) hüquq münasibətləri imperativ xarakter daşıyır, bəzi hallarda isə dispozitiv normalara əsaslanır. Əgər qarşı tərəf hansısa hərəkəti etmək məcburiyyətindədirsə o zaman bu münasibətlər imperativ normalarla, qarşı tərəfin seçim hüququ (etmək və ya etməmək hüququ) olduğu halda isə münasibətlər dispozitiv normalarla tənzim olunur. Məs., şəxs üzərində baxış keçirilməsinə etiraz edə bilməz. Bu halda ƏAF-in subyektinin göstərişi məcburi xarakter daşıyır. Şəxsin əməkdaşlıq edib etməməsi isə onun hüququdur və o, bundan imtina edə bilər.

Qeyd etmək lazımdır ki, ƏAF çərçivəsində elə hallar da var ki, onlar təhlükəsizliyi təmin etmək zərurətindən irəli gəlir. Belə hallarda birtərəfli hakimiyyət səlahiyyətli hərəkətlər məxfi fazadan aşkar fazaya keçmir və ƏAH münasibətləri də yaranmır. Məs., məsul dövlət vəzifəsinə namizəd olan şəxslərin həmin vəzifəyə layiq olub-olmadığını yoxlamaq məqsədilə xüsusi yoxlanışdan keçməsi.

ƏAH münasibətlərinin spesifik cəhətlərinə dair hüquq ədəbiyyatında mübahisəli fikirlərə rast gəlinir. Belə ki, Y.Q.Tkaçenko "birtərəfli hüquq münasibətləri" konsepsiyasını irəli sürür və göstərir ki, belə hallarda sanki qarşı tərəfin müvafiq vəzifələri olmadan müvafiq hüquqlara malik olan səlahiyyətli subyektin (vəzifəli şəxsin, dövlət orqanının) fəaliyyəti imperativ xarakter daşıyan hüquq normalarına əsaslanır (17, 152-168).

Bu mövqe ilə razılaşmayan V.A.Azarov haqlı olaraq bu konsepsiyada hüquqi tənzimləmənin vasitələri kimi "hüquq münasibətinin" və "subyektiv hüququn" anlayışlarının qarışdırılmasını qeyd edərək göstərir ki, hüquqi təcrübədə mövcud olan (ƏAF üçün səciyyəvi sayılan) birtərəfli hakimiyyət səlahiyyətləri hüquq münasibətləri çərçivəsində deyil, müvəkkil edilmiş vəzifəli şəxslərin və dövlət orqanlarının fərdi imperativ hərəkətlərinin həyata keçirilməsi gedişində realizə olunur. Belə hallarda hüquq münasibətlərindən deyil, daha çox birtətəfli hakimiyyət səlahiyyətlərinin realizəsindən danışmaq daha düzgün olar (12,73).

V.A.Azarovun və bu mövqedə duran digər alimlərin fikirləri ilə tam razılaşmaq olar. Həqiqətən də hüquq münasibətlərində iki əsas tərəf mövcuddur

və onlar qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri real surətdə həyata keçirmək imkanına malik olmalıdır. Subyektiv hüquq və vəzifələrin əlaqəsi hüquq münasibətlərinin strukturunun tərkib hissəsidir. Bu münasibətlərdə həmişə ən azı iki tərəf olmalıdır ki, onlar qanunvericilikdə nəzərdə tutulmuş hüquq və vəzifələrin daşıyıcıları kimi çıxış edə bilsinlər. Hüquq münasibətlərinin mövcudluğu faktı o deməkdir ki, bir-birilə müəyyən münasibətdə olan iki tərəf mövcuddur ki, məhz bu cəhət də hüquq münasibətlərinin məğzini anlamaq üçün əsas məqamdır (12,73).

ƏAH münasibətləri çərçivəsində nəzarətedici orqanlara gəldikdə bu, ƏAF-i həyata keçirən orqanlarla onlara nəzarət edən qurumlar arasındakı münasibətdir. Qeyd olunduğu kimi, belə qurumlara ƏAF-in subyektinin tabe olduğu yuxarı orqan, prokuror və məhkəmə aiddir. Bunu həmin Qanunun 4-cü maddəsinin IV hissəsindən sezmək olar. Burada göstərilir ki, "Əməliyyat-axtarış fəaliyyətinin subyektinin hərəkəti nəticəsində hüquq və azadlıqları pozulmuş hər bir şəxs həmin əməliyyat-axtarış fəaliyyətinin subyektinin tabe olduğu yuxarı orqanın rəhbərinə, prokurora və ya məhkəməyə şikayət etmək hüququna malikdir". ƏAF-ə məhkəmə nəzarəti həmin qanunun 19-1-ci maddəsində nəzərdə tutulmuşdur.

Nəzarətedici orqanların bu funksiyasına ƏAH münasibətləri həyata keçirilərkən rast gəlinir. Sözügedən Qanunun 20-ci maddəsinə əsasən "əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər." "Prokurorlar əməliyyat-axtarış fəaliyyətinə dair qanunların tələblərinin əməliyyat-axtarış orqanları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirlərinin keçirilməsi və onların qəbul etdiyi qərarların qanuniliyi üzərində nəzarəti onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməklə həyata keçirirlər" (10, 288). Bu orqanlar arasında subordinasiya xarakterli ƏAH münasibətlərinə həmin Qanunun digər maddələrində də rast gəlmək olar.

ƏAF-in həyata keçirilməsinə, onun subyektlərinə kömək edən qurum və şəxslər ƏAH münasibətlərinin həyata keçirilməsində mühüm rol oynayırlar. Lakin onlar bu münasibətlərdə əsas tərəf kimi deyil, köməkçi tərəf qismində çıxış edirlər. Bu baxımdan onları müəyyən mənada "2-ci dərəcəli" tərəf kimi göstərmək olar. Məs., ƏAF-in vəzifələrindən biri naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi ilə bağlıdır. Bu cür hallar aşkarlandıqda onun şəxsiyyətinin müəyyən edilməsi üçün zəruri tədbirlər keçirilir. Yalnız şəxsiyyəti müəyyən olunduqdan sonra onun yaxın qohumları bu hüquq münasibətlərində qanuni nümayəndə olaraq köməkçi tərəf kimi çıxış edə və qanunvericilikdə nəzərdə tutulmuş hüquq və vəzifələri həyata keçirə bilər.

Hüquq ədəbiyyatında ƏAH münasibətlərinin iştirakçılarına dair müəyyən fikirlərə rast gəlmək olur. Belə ki, A.Y.Şumilov bu münasibətlərin subyektlərinin iki əsas qrupunu fərqləndirir. O, birinci qrupa dövlət orqanlarını və onların vəzifəli şəxslərini, habelə əməliyyat-axtarış işinin aparılması ilə bağlı digər şəxsləri aid edir. İkinci qrupu isə o, iki yarımqrupa bölərək bu fəaliyyəti həyata keçir-

məyə kömək edən şəxsləri və yoxlanılan, əməliyyat tədqiqində (axtarışda) olan şəxsləri fərqləndirir (18, 56).

Fikrimizcə, müəyyən əlavələr etməklə bu yanaşma ilə razılaşmaq olar. Bu məsələdə tərəflərin, əməliyyat-axtarış işinin aparılması ilə bağlı digər şəxslərin (güman etmək olar ki, müəllif bu kateqoriyaya həm də nəzarətedici qurum və şəxsləri aid edir), eləcə də ƏAH münasibətləri iştitrakçılarının məqsəd, hüquq və vəzifələri müxtəlifdir. Birinci qrupa daxil olan qurum və şəxslər (ƏAF-in subyektləri və onların müvəkkil olunmuş şəxsləri, eləcə də bilavasitə nəzarətedici qurumlar) səlahiyyətli olduğu halda yerdə qalanları (barəsində ƏAT keçirilən tərəf və kömək edən qurum və şəxslər daxil olmaqla) yalnız hüquq və vəzifələrin daşıyıcıları kimi çıxış edir. Birinci qrupa həm də Azərbaycan Respublikası ərazisində ƏAF-i həyata keçirmək hüququ verilmiş xarici dövlətlərin müvafiq orqanlarını, eləcə də beynəlxalq hüquq mühafizə təşkilatlarını aid etmək lazımdır. Bu sırada Beynəlxalq Kriminal Polis Təşkilatı olan İnterpolu, Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunu, MDB-nin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıqla mübarizənin əlaqələndirilməsi üzrə Büronu və s. qeyd etmək olar.

Göründüyü kimi, ƏAH münasibətlərində ƏAF-in həyata keçirilməsinə kömək göstərən tərəf də (müəyyən mənada "2-ci dərəcəli" tərəf) mövcuddur. Həmin Qanunun 9-cu maddəsinin I hissəsinə görə onlar yardımçı funksiyanı yerinə yetirən qurumların – dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxsləridir. Onlar gizli və açıq surətdə yardım göstərməklə öz fəaliyyəti, hərəkətləri ilə ƏAF-in müvəffəqiyyətlə həyata keçirilməsinə öz töhfələrini verir.

Lakin bu "2-ci dərəcəli" tərəfin dairəsi daha genişdir. Bunlara vəzifələrinə bilavasitə ƏAF-i həyata keçirmək daxil olmayan idarə və təşkilatlar, ƏAF-in subyektləri ilə əməkdaşlıq edən şəxslər, cinayətlə, fövqəladə, texnogen halların qarşısının alınması ilə bağlı məlumata malik olan və bu məlumatı çatdıran şəxslər - (informatorlar), məxfi məlumatlara və ya xüsusi icazə tələb edən işlərə buraxılan şəxslər aid edilir. Onların bəziləri həm birtərəfli hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsində, həm də ƏAH münasibətlərinin yaranmasında, dəyişməsində mühüm rol oynayırlar.

Belə şəxslərdən biri "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 7-ci maddəsinin 2-ci bəndində təsbit olunmuş ƏAF-in subyektlərinə məxfilik əsasında kömək etməyə razılaşan əvəzli və ya əvəzsiz qaydada əməkdaşlıq edən şəxslərdir. Belə əməkdaşlıq ƏAF-in konkret vəzifəsinin yerinə yetirilməsi ilə bağlı ola bilər. Konfidentlə razılıq həm kontrakt (yazılı) formada, həm də şifahi formada ola bilər. Əməliyyatçı şübhəli şəxs qismində saxlanılmış şəxsi əməkdaşlığa cəlb etməklə onu cinayət barədə danışmağa sövq etmək, bu yönümdə ondan lazımi məlumatları əldə etmək üçün kompromis nöqtələr tapmağa çalışmalıdır. Bu da müəyyən mənada tərəflər arasında sazişdir. Qanunun 17-ci maddəsinin II hissəsində göstərilir ki, "əməliyyat-axtarış tədbirlərində şəxslərin könüllü iştirakı bağlanmış müqavilə əsasında həyata keçirilə bilər". Əgər bu, sazişdirsə, o zaman tərəflərin müvafiq hüquq və vəzifələri və kontrakta aid digər məsələlər həmin sənəddə öz

ifadəsini tapmalıdır.

Müəyyən mənada şəxsin könüllü olaraq gəlib törətdiyi cinayəti etiraf etməsi və onun tam açılması üçün hər cür köməklik göstərməsi həmin şəxsin "2-ci dərəcəli tərəfə" aid olmasına əsas verir.

"2-ci dərəcəli tərəfə" həmin Qanunun digər maddələrində də rast gəlmək olar. ƏAT-nin keçirilməsində texniki bölmələrin rolu əvəzolunmazdır. Belə ki, Qanunun 5-ci maddəsinin IV hissəsində göstərilir ki, "Poçt göndərişlərinin, teleqraf və digər məlumatların yoxlanılması, mülkiyyət formasından asılı olmayaraq rabitə xidmətləri göstərən, rabitə vasitələri təqdim edən idarə, müəssisə və təşkilatların, fiziki və hüquqi şəxslərin stansiya avadanlığına qoşulmaqla telefon danışıqlarının qulaqasması, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması ilə bağlı əməliyyat-axtarış tədbirləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı tərəfindən tətbiq edilir." Bundan əlavə, hər bir şəxs ƏAF-in subyektlərinə onların səlahiyyətlərinin yerinə yetirilməsinə kömək göstərə bilər (9-cu maddənin П hissəsi). Məs., sadə vətəndaşın axtarışda olan şəxs barəsində və ya naməlum meyitin şəxsiyyəti barəsində məlumat verməsi.

ƏAH münasibətlərinin iştirakçılarından bəhs edən K.S.Lakbayev isə (Qazaxstan Respublikasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanununu əsas götürərək) bu münasibətlərin iştirakçılarını bir qədər də konkretləşdirərək onları yeddi əsas qrupa bölür. Bu sırada o, ƏAF-i həyata keçirən dövlət orqanlarını, ƏAF-i həyata keçirmək hüququ verilmiş digər dövlətlərin müvafiq orqanlarını (Qazaxıstan ərazisində - E.N.), habelə beynəlxalq hüquq mühafizə təşkilatlarını, cinayət ədliyyəsi sisteminə daxil olan, lakin əməliyyat-axtarış funksiyalarının bilavasitə həyata keçirilməsi ilə məşğul olmayan digər orqanları (cinayət prosesini aparan orqanları), ƏAF-i həyata keçirən orqanlara münasibətdə özünü göstərən iyerarxiyalaşdırılmış əlaqələri və bu fəaliyyətə nəzarət edən subyektləri, ƏAF-i həyata keçirən orqanlara köməklik göstərən şəxsləri; iki yarımqrupa böldüyü yoxlanılan şəxsləri: a) (ehtimalla (və ya həqiqi olaraq) baş vermiş cinayətlə əlaqədar ƏAF sferasına cəlb olunmuşları); b) qanunvericiliklə müəyyən olunmuş bəzi sahələrdə işləmək üçün yararlılığını yoxlamaq zərurəti ilə bağlı ƏAF sferasına cəlb olunmuşları, həyatına, sağlamlığına, hüquqlarına, azadlıqlarına, qanuni mənafelərinə və mülkiyyətinə hüquqazidd qəsdlər nəticəsində zərər vurulmuş şəxsləri qeyd edir. Müəllif düzgün olaraq, hətta bu siyahının artırılmasının mümkünlüyünü də istisna etmir (14, 53-54).

K.S.Lakbayevin fikri ilə müəyyən dərəcədə razılaşmaq olar. Zənnimizcə, ƏAH münasibətləri kontekstində fikir elə ifadə olunmalıdır ki, nəzarətedici orqanlar bu münasibətlərə cəlb olunmuş və cəlb oluna bilən dairələrdən dəqiqliklə fərqlənsin və bu münasibətlərin bütün iştirakçıları tam əhatə olunsun. Bu baxımdan A.Y.Şumilovun yanaşması, bir qədər ümumi olsa da, fikrimizcə, daha məqbuldur. Hərçənd ki, K.S.Lakbayevin mövqeyi də diqqətə layiqdir. O, nəzarətedici orqanları xüsusi qeyd etmir, onları ümumi şəkildə "əməliyyat-axtarış funk-

siyalarını bilavasitə həyata keçirməyən, lakin cinayət ədliyyəsi sisteminə daxil olan digər orqanlar" kimi göstərir. ƏAH münasibətlərinin iştirakçıları dedikdə, ilk növbədə tərəflər və bu münasibətlərə cəlb olunmuş qurum və şəxslər aid edilir. Fikrimizcə, səlahiyyətli nəzarətedici orqanlar (ƏAF-in subyektinin rəhbərliyi, prokurorluq, məhkəmə) bunlara daxil deyil. Bu baxımdan sonuncular sözün dəqiq mənasında bu münasibətlərin iştirakçıları deyil, nəzarətedici funksiyanı yerinə yetirən qurumlar kimi ayrıca göstərilməlidir.

K.S.Lakbayevin düzgün olaraq qeyd etdiyi kimi göstərilən siyahını bir qədər artırmaq olar. Bu fikrə qoşularaq hesab edirik ki, tərəflərlə bağlı məsələyə müəyyən əlavələr etmək mümkündür. Xüsusilə bunu ƏAH münasibətlərinin iştirakçılarına aid etmək olar. Maraqlı hal ondan ibarətdir ki, ƏAF-in diqqətini cəlb edərək əsas tərəf kimi çıxış edən şəxs həm də ƏAF-in keçirilməsinə kömək edən şəxs ola bilər. Məs., cinayətin açılmasında cinayətkar qrupun üzvü fəal iştirak edə bilər ("ƏAF haqqlnda" Qanunun 17-ci maddəsinin VIII hissəsi). Belə halda o, həm də ƏAH münasibətlərinə kömək edən 2-ci dərəcəli tərəf qismində çıxış edir. Zənnimizcə, zərərçəkmiş şəxsin qohumlarını, azyaşlı uşaqların qanuni nümayəndələrini, konspirasiya məqsədilə uydurma idarə, müəssisə və ya təşkilatın (hüquqi şəxsin) yaradılmasında iştirak edən qurumları, müəyyən mənada məhkəməni (hakimi), istintaq orqanlarını (onlar ƏAT-lərinin həyata keçirilməsi üçün qərar verməkdə səlahiyyətlidirlər) bu sıraya əlavə etmək olar.

Bununla yanaşı, ƏAF-in subyektlərinin özlərinin kömək göstərməsi də qanunvericilikdə nəzərdə tutulur ("ƏAF haqqında" Qanunun 6-cı maddəsinin 4-cü bəndi). Burada göstərilir ki, ƏAF-in subyektlərinin vəzifələrindən biri "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən xarici dövlətlərin hüquq mühafizə orqanlarının və müvafiq beynəlxalq təşkilatlarının sorğularına cavab verməkdir". Müəyyən hallarda belə cavablar vermək üçün ƏAF-in keçirilməsinə ehtiyac yarana bilər.

Hüquqi mövqeləri müxtəlif olan sadalanan tərəflərin, qurum və şəxslərin hüquqi statusu da müxtəlifdir. Təbii ki, statusuna uyğun olaraq onların hüquq və vəzifələri də fərqlənir. Bununla əlaqədar əhəmiyyətli məsələlərdən biri əməliyyatçının hüquqi statusu məsələsidir. Əməliyyat-axtarış qanunvericiliyində bu məsələyə xüsusi diqqət verilmir. Fikrimizcə, onun statusunu təhqiqatçının statusuna bərabər tutmaq düzgün olardı. ƏAF-in digər işrirakçılarına gəldikdə bu fəaliyyət gedişində yeni faktların üzə çıxması ilə ƏAH münasibətlərinin iştirakçılarının statusu dəyişə bilər. Məs. şahid şübhəli şəxsə çevrilə bilər.

ƏAF-in həyata keçirilməsi prosesində qeyri-prosessual formada qanunvericilik çərçivəsində bu fəaliyyətin vəzifələrinə uyğun olaraq müəyyən hərəkətlər, tədbirlər həyata keçirilir. Bu tədbirlər ƏAF-in qanunla müəyyən olunmuş vəzifələrinin yerinə yetirilməsində, bu prosesdə iştirak edən şəxslərin hüquqlarının qorunmasında mühüm rol oynayır. Bu qeyri-prosessual forma cinayətlərin, eləcə də yanğınlar, partlayışlar, bina və qurğuların uçması və s. kimi fövqəladə hallardan qorunması və bu cür hərəkətlərin qarşısının alınması, cinayətlərin aşkarlanması, açılması, onları törədənlərin müəyyən edilməsi və b. bu kimi vəzifələrin

qeyri-prosessual qaydada yerinə yetirilməsi ilə sıx bağlı olduğundan onun məxfi, qeyri-prosessual əməliyyat-axtarış forması kimi göstərilməsinə əsas verir. Cinayət prosessual forma prosessual qanunvericiliklə müəyyən olunduğu kimi qeyri-prosessual əməliyyat-axtarış forması da əməliyyat-axtarış qanunvericiliyi ilə müəyyən edilir. Qeyri-prosessual xarakterli vəzifələr yerinə yetirildikdən sonra fəaliyyət cinayət prosessual müstəviyə keçərək davam edir.

ƏAF-ə ehtiyac olduğu hallarda bu fəaliyyət növü prosessual hərəkətlərə keçməyin vacib şərti və ilkin mərhələsi kimi çıxış edir. Əgər prosessual müstəvidə əsas məsələlərdən biri sübutların toplanılmasıdırsa, qeyri-prosessual müstəvidə bəzən aşkar, çox zaman isə gizli üsullarla əməliyyat-axtarış xarakterli məlumatların toplanılmasına üstünlük verilir. Təbii ki, onlardan gələcəkdə sübut kimi istifadə etmək üçün prosessual qanunvericiliyin tələblərinə uyğunlaşdırılması da nəzərə alınır. "ƏAF haqqında" Qanunun 16-cı maddəsinin I hissəsində göstərilir ki, "Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar bu Qanuna müvafiq əldə edildikdə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər". Əldə edilmiş və ya daxil olmuş faktiki məlumatlara prosessual forma vermək mümkün olmadığı halda isə cinayət işi başlaya bilməz. Bu məsələyə toxunan Ş.Hüseynov qeyd edir ki, belə hallarda əlavə ƏAF-in keçirilməsinə ehtiyac duyulur (9,167).

Cinayət-prosessual fəaliyyət başlandıqdan sonra isə zərurət olduğu halda hər iki fəaliyyət növü parallel olaraq davam edə bilər. Məs., dindirmə zamanı əldə olunan məlumat ƏAF-in keçirilməsi üçün əsas və ya istiqamət ola bilər. İctimai təhlükəli əməlin, həm də onu törədən şəxslərin müəyyən edilməsinin ƏAF nəticəsində mümkün olduğunu qeyd edən F.Abbasova göstərir ki, "məhz buna görə də, ƏAF-in nəticələri cinayət işinin başlanması, yəni müəyyən anlamda cinayət mühakimə icraatının başlanması üçün səbəb kimi çıxış edə bilər" (6, 21). Bu da ƏAF-lə cinayət prosesinin bir-biri ilə sıx əlaqədə olduğunu göstərir. Təsadüfi deyil ki, ƏAH münasibətlərinə dair müddəalara cinayət-prosessual qanunvericilikdə də rast gəlinir. Bu əlaqə ilk növbədə hər iki fəaliyyət növünün vəzifələrində özünü göstərir. İstər əməliyyat-axtarış hüququ, istərsə də cinayət-prosessual hüquq hüquq mühafizə və xüsusi xidmət orqanlarına, onların vəzifəli şəxslərinə cinayətkarlıqla mübarizə üçün qanuni imkanlar yaradır.

Bu baxımdan cinayət-prosessual hüququn əhəmiyyətinə toxunan F.Abbasovanın fikrini qeyd etmək yerinə düşər. O göstərir ki, bu hüquq "cinayət mühakimə icraatının vəzifə və prinsiplərini, vəzifəli şəxslərin və icraatda iştirak edən bütün digər şəxslərin hüquq və vəzifələrini, cinayətin açılması, cinayət törətmiş şəxslərin ifşa edilməsi və onların cəzalandırılmasının prosessual vasitə və tədbirlərini, bu tədbirlərin tətbiq edilməsi şərtlərini, əsaslarını və qaydalarını, cinayətin törədilməsinə kömək etmiş səbəblərin və şəraitin aşkar edilməsi yollarını müəyyən edir" (6, 35). Göstərilən vəzifələrin bir qismi ƏAF-in vəzifələri ilə, demək olar ki, eyniyyət təşkil edir.

Deyilənlər göstərir ki, əməliyyat-axtarış hüquq normalarının realizəsinin

əsas forması kimi çıxış edən ƏAH münasibətləri cinayətkarlıqla mübarizədə, cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş əməllərin – düşünülən, planlaşdırılan, hazırlanan, törədilən, törədilmiş cinayətlərin qarşısının alınmasında, aşkarlanmasında, açılmasında, qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirilməsində, eləcə də fövqəladə halların və qeyri-kriminal təhlükələrin (bədbəxt hadisələrin) aşkarlanmasında və qarşısının alınmasında, bütövlükdə isə təhlükəsizliyin təmin olunmasında mühüm vasitədir.

Cinayət əməli hüquqi fakt olaraq cinayət hüquq münasibətlərinin yaranmasına səbəb olursa, onun aşkarlanması, açılması və qanunvericilkdə nəzərdə tutulmuş başqa bu kimi kriminal və qeyri-kriminal hadisələrlə bağlı vəzifələrdən yaranan zərurət həmin növ münasibətlər üçün hüquqi əsas qismində çıxış edir. Başqa sözlə desək, ƏAF-in başlanmasına, keçirilməsinə ehtiyac yaradan hüquqi hal bu növ hüquq münasibətləri üçün hüquqi fakt sayılır.

Beləliklə, əməliyyat-axtarış hüquq münasibətləri ƏAF-in subyektləri ilə bu münasibətlərdə iştirak etməyə məcbur edilən, bəzən isə öz iradəsi ilə iştirak edən fiziki və hüquqi şəxslər arasında yaranır. Bu münasibətlər çərçivəsində qeyri-aşkar və aşkar faza fərqləndirilir. Birinci fazada birtərəfli hakimiyyət hərəkətləri həyata keçirilir. ƏAH münasibətləri isə məhz aşkar fazadan başlayır. Qeyri-aşkar fazada ƏAH münasibətləri potensial formada mövcud olduğu halda aşkar fazada bu münasibətlər real forma alır. ƏAF yeni açılmiş hallar üzrə də keçirilə bilər. ƏAF-ə ehtiyac qalmadığı təqdirdə isə həmin münasibətlərə də xitam verilir ("Əməliyyat-axtarış fəaliyyəti" haqqında AR Qanununun 14-cü maddənin VI hissəsi).

Əsas tərəf kimi, birinci qrupa ƏAF-in subyektləri və onların vəzifəli şəxsləri, eləcə də bu yönümdə işin aparılması ilə bağlı şəxslər və ölkə daxilində ƏAF-i həyata keçirmək hüququ verilmiş xarici dövlətlərin müvafiq qurumları və beynəlxalq hüquq mühafizə təşkilatları aiddir. Çünki sadalanan qurumlar və vəzifəli şəxslər səlahiyyət sahibi kimi çıxış edirlər. İkinci qrup isə daha rəngarəngdir. Burada söhbət bu münasibətlərə bu və ya digər dərəcədə cəlb olunmuş şəxslərdən gedir. Yalnız ƏAT aşkar fazaya keçdikdən sonra (məs., şəxs saxlandıqdan sonra) bu növ hüquq münasibətləri yaranır və tərəflər öz hüquq və vəzifələrini həyata keçirməyə başlayır.

Yardımçı funksiyanı yerinə yetirən "2-ci dərəcəli tərəf" həm birtətəfli hakimiyyət səlahiyyətləri həyata keçirilən fazada, həm də ƏAH münasibətləri həyata keçirilərkən iştirak edə bilər. Əsas tərəflə bu münasibətlər həm mühafizəedici, həm də tənzimləyici xarakter daşıdığı halda, "2-ci dərəcəli tərəflə" bu hüquq münasibətləri əsasən tənzimləyici səciyyə daşıyır. Sonuncu "tərəflə" bu münasibətlər hüquqi faktla və əsas tərəflər arasında yaranan münasibətlə əlaqədar yarana bilər. ƏAF həyata keçirildiyi zamanda bu münasibətlərin iştirakçıları öz hüquqlarını həyata keçirir, vəzifələrini icra edirlər.

**ƏDƏBİYYAT**

1. AR Konstitusiyası. Bakı: Ədliyyə Nəşriyyat Evi, 2009.
2. AR Cinayət-Prosessual Məcəlləsi. Bakı: Qanun, 2011, 612 s.

3. AR Cinayət-Prosessual Məcəlləsi. Bakı, 1995, 159 s.
4. Azərbaycan SSR-nin Cinayət-Prosessual Kodeksi. Bakı: Azərnəşr, İctimai-ekonomik şöbə, 1939, 115 s.
5. Azərbaycan SSR-nin Cinayət-Prosessual Məcəlləsi. Bakı: Azərnəşr, 1988, 304 s.
6. Abbasova F. Cinayət prosesi. Ümumi hissə. Dərslik. (Yenidən işlənmiş 2-ci nəşr). Bakı, 2015, 412 s.
7. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR 28.X.1999-cu il 728-IQ saylı Qanunu // www.e.qanun.az
8. "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" AR Prezidentinin 19.VI. 2001-ci il 507 saylı Fərmanı //www.e.qanun.az
9. Əməliyyat-axtarış fəaliyyətinin əsasları. Mülahizələr toplusu. Dərs vəsaiti. Bakı: Mütərcim, 2008, 372 s.
10. Qəfərov M., Abışov V., Eyvazov H. Azərbaycan Respublikasının Hüquq mühafizə orqanları. Dərslik (əlavə və dəyişikliklər edilməklə 2-ci nəşr). Bakı: Qanun, 2006, 599 s.
11. Məlikova M. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: Maarif, 1988, 379 s.
12. Азаров В.А. Содержание и форма оперативно-розыскных правоотношений. / Государство и право. 1998, № 10. М.: Наука, с.71-75
13. Комаров С.А. Общая теория государства и права. Курс лекций (Издание 2-е, исправленное и дополненное). М.: 1995, с. 204
14. Лакбаев К.С. Об участниках оперативно-розыскных правоотношений. «/Оперативник (сыщик)» №4 (17) ноябрь 2008, с. 52-54.
15. Основы оперативно-розыскной деятельности. Учебник для юридических вузов. Издание второе, исправленное и дополненное. Под общей ред. В.Б.Рушайло. Санкт-Петербург: 2000, 720 с.
16. Теория государства и права. Ленинград. Изд. Ленинградского ун-та. Отв. редакторы: д.ю.н. А.И. Королев, д.ю.н. Л.С.Явич.1982, 382 s.
17. Ткаченко Ю.Г. Методологические вопросы теории правоотношений. М.: Юрид. лит. 1980, 176 с.
18. Шумилов А.Ю. Проблемы законодательного регулирования оперативно-розыскной деятельности в России. Моногр. /А.Ю.Шумилов, М.: Шумилова И.И., 1997, 218 с.

## СТОРОНЫ В ОПЕРАТИВНО-РОЗЫСКНЫХ ПРАВООТНОШЕНИЯХ

**Э.Г.НАБИЕВ**

**РЕЗЮМЕ**

В статье кратко затрагивается история оперативно-розыскной деятельности в современный период, отмечается появление этого термина в законодательстве Азербайджана, а также важнейшие законодательные акты в этой области. В этой связи выдвигаюся некоторые предложения по совершенствованию законодательства, дается понятие оперативно-розыскных правоотношений, рассматриваются права и обязанности сторон, некоторые спорные точки зрения, и в этом контексте выдвигаются некоторые новшества в данной области, делается попытка различить негласную фазу, в рамках которой проводятся односторонние властно-полномочные действия и гласную фазу, когда стороны реально могут осуществлять свои права и обязанности в рамках этих правоотношений.

**Ключевые слова:** оперативно-розыскная деятельность, оперативно-розыскные правоотношения, оперативно-розыскные меры, права и обязанности сторон, односторонние властно-полномочные действия, негласная фаза, гласная фаза.

**THE PARTICIPANTS OF THE LEGAL RELATIONS OF OPERATIONAL SEARCH**

**E.NABIYEV**

**SUMMARY**

The history of operational search activities and the presence of this expression in the legislation of Azerbaijan, as well as main legislative acts in this field are briefly studied in the article. Therefore, some suggestions for enhancement of the legislation are proposed, operational search activities are interpreted, the rights and responsibilities of the participants, and some controversial points are discussed. In this respect, some innovations are put forward, and an attempt is made to differentiate the covert phase (that involves unilateral authority-plenipotentiary activities) and the overt phase (when parties can conduct their rights and responsibilities in the frame of these legal relations) and the range of the participants of these legal relations is specified.

**Keyword:** operational search activities, legal operational search relations, operational search steps, rights and responsibilities of the participants, unilateral authority-plenipotentiary activities, covert phase.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2018*

UOT 342.7

# BİRLƏŞMƏK HÜQUQU SAHƏSİNDƏ DÖVLƏTDAXİLİ (MİLLİ) VƏ BEYNƏLXALQ HÜQUQUN MÜQAYİSƏLİ TƏHLİLİ

**D.M.QƏNBƏROV**
***Bakı Dövlət Universiteti***
***bsu_istuc@rambler.ru***

*Elmi məqalədə birləşmək hüquqlarına dair beynəlxalq aktlar təhlil olunur. Qeyd olunur ki, assosiasiya hüququ kifayət qədər zəngin hüquqi və tənzimləyici spektrə malikdir. Araşdırma nəticəsində müəyyən edilir ki, birləşmək hüququnun tənzimlənməsi, təmin olunması üçün xeyli sayda beynəlxalq aktlar mövcuddur. Bu fakt birləşmək hüququ insan hüquqları sisteminin mərkəzi məsələlərindən olduğunu göstərir. Məqalədə eyni zamanda ayrıca olaraq azadlığın beynəlxalq standartlarına diqqət çəkilir. Vurğulanır ki, beynəlxalq hüquqi aktlar dövlətləri birləşmək hüququnun həyata keçirilməsi üçün lazımi şərait yaratmağa sövq edir. Elmi məqalədə assosiasiya hüququ, birləşmək azadlığı üzrə beynəlxalq sənədlər hərtərəfli təhlil edilir.*

**Açar sözlər:** insan hüquqları, birləşmək hüququ, dövlət, beynəlxalq aktlar, ictimai təşkilatlar, BMT, vətəndaş, siyasi hüquqlar, konvensiyalar.

Birləşmək hüququnun beynəlxalq normativ əsaslarının zənginliyi də onun xüsusi əhəmiyyətli hüquqlar kateqoriyasına aid edildiyini təsdiqləyir. Birləşmək hüququnun əsas insan hüquqları sistemində önəmli yerə malik olmasını həm də onu tənzimləyən çoxsaylı ciddi beynəlxalq aktların olmasıdır. Birləşmək hüququnu tənzimləyən beynəlxalq aktlar haqqında daha dolğun təsəvvürlərə malik olmaq üçün hər şeydən öncə, birləşmək azadlığı sahəsində beynəlxalq standarları araşdırmaq lazımdır. Yəni bu beynəlxalq aktlarda birləşmək hüququnun hansı şəkildə ifadə olunmasının müəyyənləşdirilməsi məqsədəuyğundur. Birləşmək hüququ məzmunu etibarilə ictimai təşkilatlar yaratmaq hüququ prizmasından nəzərdən keçirilir. Təbii ki, məsələyə birmənalı olaraq bu istiqamətdə yanaşmaq obyektivliyi tam əks etdirmir. Belə ki, birləşmək hüququ özünün konstitusion məzmununa görə ictimai, dini sahibkarlıq və s. birliklərin yaradılması hüquqlarını ifadə edir. Məsələyə kompleks yanaşma onun mahiyyətini tam şəkildə açmaq mümkündür. Ümumiyyətlə, birləşmək hüququ anlayışı fiziki şəxslərin istənilən növ birliyin yaradılması istiqamətində fəaliyyətlərini ifadə edir.Həm beynəlxalq müstəvidə, həm də milli qanunvericilik səviyyəsində bieləşmək hüququnun qorunması ilə bağlı müddəalar dəqiqliklə təsbit olunmuşdur. Belə ki, vətəndaşların birləşmək hüququ qırılmaz şəkildə digər insan hüquq və azadlıqları ilə əlaqəlidir. Birləşmək hüququnun qorunması fundamental insan hüquqlarının qorunması kimi qəbul olu-

na bilər. Diqqət yetirilməsi vacib olan mühüm məqamlardan biri də ondan ibarətdir ki, müasir mərhələdə birləşmək hüququnun təmin olunması həm də demokratiyanın prinsiplərinə əməl olunması anlamına gəlir.

**BMT nizamnaməsində birləşmək hüququnun təsbiti**

insan hüquqlarının beynəlxalq müdafəsinin hüquqi bazası ilk dəfə BMT nizamnaməsində əksini tapmışdır. BMT-nin insan hüquqlarının qorunması məsələsinə xüsusi diqqət ayırmasının səbəbləri təşkilatın nizamnaməsinin preambulasında ifadə olunmuşdur. Bu səbəblər aşağıdakı kimi təqdim olunur:

-birincisi, İkinci Dünya müharibəsi zamanı tapdanmış əsas insan hüquqlarına, ləyaqətinə və dəyərlərinə olan inamı möhkəmləndirmək;

-ikincisi, təmin olunması üçün BMT-nin yaradıldığı dövlətlərin sülh və təhlükəsizliyi ilə insan hüquqları arasında sıx əlaqənin mövcudluğunu göstərmək. Yalnız sülh və təhlükəsizlik şəraitində insan hüquq və azadlıqları tam şəkildə təmin oluna bilər. İstənilən münaqişə hər şeydən öncə, insan hüquq və azadlıqlarının kobud pozuntuları ilə müşayiət olunur.

BMT nizamnaməsinin hazırlanması zamanı ABŞ-ın təşəbbüsü ilə ona Əsas insan hüquqları deklarasiyası da əlavə olunmuşdur. Lakin təsisçi dövlətlər arasındakı fikir ayrılığı yalnız ümumi şəkildə insan hüquqlarının beynəlxalq müdafiəsinin məqsəd və istiqamətlərinin BMT nizamnaməsində ifadə olunmasını şərtləndirmişdir. Bu zaman həm də insan hüquqlarının reallaşdırılması üzrə məsuliyyət daşıyan orqanlar müəyyənləşdirilmişdir. Bu məqam insan hüquqlarının beynəlxalq müdafiəsinin hüquqi əsaslarının yaradılmasında BMT nizamnaməsinin həlledici rolunu sübut edir. Bu rol insan hüquqlarının qorunması sahəsində beynəlxalq standartların işlənib hazırlanmasında özünü xüsusilə aydın büruzə verir.

Tədqiqatlarımız göstərir ki, əksər beynəlxalq sənədlərdə "qeyri-hökumət təşkilatları" anlayışı kifayət qədər geniş tətbiq olunmuşdur [11]. Bu anlayış 1945-ci ildə BMT Nizamnaməsində qəbul olunması ilə elmi dövriyyəyə daxil edilmişdir. Ötən əsrin 70-ci illərindən etibarən isə daha sıx-sıx işlədilməyə başlamışdır. Belə ki, bu dövrdən başlayaraq istənilən təşkilati-hüquqi formada olan qeyri-kommersiya təşkilatlarını ifadə etmək üçün qeyri-hökmət təşkilatı ifadəsi tətbiq olunmuşdur. Müasir dövrdə isə beynəlxalq təşkilatlarda daha sıx-sıx "vətəndaş cəmiyyəti təşkilatı" ifadəsi işlədilməkdədir. Təbii ki, "qeyri-hökumət təşkilati" ifadəsi də aktuallığını saxlamaqdadır. Bu iki anlayış, demək olar ki, yanaşı tətbiq olunmaqdadır. Avropa insan hüquqları konvensiyası çərçivəsində "assosiasiya" anlayışı müstəqil məna kəsb edir. Belə ki, məhkəmə insanların hər hansı birgə fəaliyyətinin Konvensiya müstəvisində assosiasiya olub-olmadığını özü müəyyənləşdirir. Elmi ədəbiyyatlarda "qeyri-hökumət təşkilatları" ilə yanaşı "qeyri-dövlət təşkilatları", "ictimai təşkilatlar", "könüllü təşkilatlar", "vətəndaş təşkilatları", "transmilli təşkilatlar" və s. kimi ifadələr də geniş işlədilir [10, 356].

Birləşmək hüququ dünya təcrübəsində şəxsiyyətin hamılıqla qəbul olunmuş hüququdur. Xatırlatmaq yerinə düşərdi ki, 1948-ci il Ümumdünya insan hüquqları deklarasiyasında göstərilmişdir: "Hər bir insan dinc toplaşmaq və birləşmək hüququna malikdir. Heç bir zorla hər hansı birliyə cəlb oluna bilməz" [1]. Birləşmək

hüququ digər ayrılmaz hüquqlarla yanaşı insan şərəf və ləyaqətinin, azadlığının əsasını təşkil edir. Ümumi məlumat üçün qeyd edək ki, Ümumdünya insan hüquqları deklarasiyası 10 dekabr 1948-ci ildə BMT BA-nın üçüncü sessiyasında qəbul olunmuşdur. Ümumdünya insan hüquqları deklarasiyasının otuz maddəsində əsas vətəndaş, siyasi, iqtisadi və mədəni insan hüquq və azadlıqları ifadə olunmuşdur. Bu hüquqlar dünya miqyasında dəstəklənir. Ümumdünya insan hüquqları deklarasiyasında tarixdə ilk dəfə olaraq insan hüquqlarının universallığı və ayrılmazlığı prinsipi öz əskini tapmışdır. Birləşmək hüququ ilə bağlı daha ciddi müddəa Ümumdünya insan hüquqları deklarasiyasının iyirminci maddəsində təsbit olunmuşdur. Birləşmək hüququ sıx əlaqəli olan on səkkizinci və on doqquzuncu maddələri də vurğulamaq lazımdır. Belə ki, deklarasiyanın 18-ci maddəsində də hər bir insan fikir, vicdan və din azadlığı hüququna malik olduğu aydın şəkildə ifadə olunmuşdur. Deklarasiyanın 19-cu maddəsində isə hər bir kəsin düşüncə azadlığının olması və onları sərbəst ifadə etmə hüququnun olması təsbit olunmuşdur. Təbii ki, bu hüquq həm də eyni düşüncə sahiblərinin bir birlik daxilində sərbəst fəaliyyət göstərmələri imkanlarını təsdiq edir. Ümumdünya insan hüquqları deklarasiyasının 20-ci maddəsi isə birbaşa birləşmə hüququnu ifadə edir. Bu maddə iki bənddən ibarətdir:

Hər bir insan dinc toplaşma və assosiasiya azadlığı hüququna malikdir.

Heç kim zorla hər hansı bir assosiasiyaya cəl oluna bilməz.

Nəzərə çatdırmaq lazımdır ki, Ümumdünya insan hüquqları deklarasiyası qətnamə kimi qəbul olunmuşdur. Bu baxımdan, hüquqi qüvvəyə malik deyildir və tövsiyə xarakterlidir. Lakin müşahidələr göstərir ki, Ümumdünya insan hüquqları deklarasiyasının müddəaları hüquqi öhdəlik xarakteri daşıyırlar. Bunu onunla əsaslandırmaq mümkündür ki, bu müddəalar adi beynəlxalq hüquq normaları statusu kəsb etmişlər və əksər ölkələrin konstitusiyalarında və məhkəmələrində tətbiq olunurlar. Bundan başqa, bu normalar insan hüquqları haqqında, həmçinin birləşmək hüququ haqqında beynəlxalq hüquqi aktların əsasını təşkil etmişlər.

1966-cı ildə insan hüquqları ilə bağlı daha bir mühüm sənəd qəbul olunmuşdur. "Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktda" insanların dinc toplaşma hüququnun olması aydın ifadə olunmuşdur. Təbii ki, bu mühüm beynəlxalq sənəddə bizim üçün maraqlı olan əsas məqam birləşmək hüququ ilə bağlıdır. Sənəddə qeyd olunur: "hər bir insan həmkarlar ittifaqları yaratmaq və öz maraqlarının müdafiəsi üçün onlara qoşulmaq hüququ da daxil olmaqla başqaları ilə assosiasiya yaratmaq hüququna malikdir" [6]. "Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq pakt" BMT BA tərəfindən 16 dekabr 1966-cı ildə qəbul olunsa da, 23 mart 1976-cı il tarixində qüvvəyə minmişdir. "Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq pakt" universal beynəlxalq müqavilədir və 1948-ci ildə qəbul olunmuş Ümumdünya insan hüquqları deklarasiyasında ifadə olunmuş bütün vətəndaş və siyasi hüquqları əhatə edir. Ümumdünya insan hüquqları deklarasiyasından fərqli olaraq bu beynəlxalq sənəd bütün iştirakçı dövlətlər üçün mütləq qüvvəyə malikdir. "Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktı" BMT-nin İnsan hüquqları üzrə Komitənin yaradılmasını və fəaliyyətini

nəzərdə tutur. Bu komitənin insan hüquqlarının qorunması sahəsində kifayət qədər geniş imkanları vardır. Hətta dövlətlərin bir-birilərindən olan şikayətlərinə də baxmaq səlahiyyətləri vardır. "Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktının" 22-ci maddəsində qeyd olunur ki, hər kəsin digəriləri ilə assosiasiya azadlığı hüququ vardır və hər bir həmkarlar ittifaqı yaratmaq və ona daxil olmaq hüququna malikdir. Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq pakta aid fakültativ protokol da qəbul olunmuşdur. Məhz bu protokola əsasən BMT-nin İnsan hüquqları üzrə Komitəsinin ayrı-ayrı şəxslərin fərdi şikayətlərinə baxmaq səlahiyyəti vardır. Ümumiyyətlə, bu məqamda qeyd etmək yerinə düşərdi ki, BMT Nizamnaməsində insan hüquq və azadlıqlarına hörmətin təbliğ olunması xüsusi məqam kimi ifadəsini tapmışdır. Bu zaman irqi, cinsi, dil və din ayrıseçkiliyinə yol verilməsi qəbul edilməz sayılır. İnsan hüquqları üzrə məsələləri BMT əsas orqanlarında olan İqtisadi və Sosial Şura tənzimləyir. İnsan hüquqları üzrə ali komissar və İnsan hüquqları üzrə komissiya məhz BMT-nin bu orqanı qarşısında hesab verirlər. Qeyd etmək yerinə düşərdi ki, BMT-də ümumi islahatlar çərçivəsində, həmçinin onun insan hüquqları ilə məşğul olan orqanları sistemində müəyyən dəyişikliklər edilir. Belə dəyişikliklər insan hüquq və azadlıqlarının, həmçinin birləşmək hüquqlarının daha etibarlı təmin olunması üçün yeni imkanlar açır və mexanizmlər təqdim edir. Məsələn, İnsan hüquqları üzrə komissiyanın və İnsan hüquqları üzrə şuranın yaradılması xüsusi qeyd etmək lazımdır. BMT Baş Asambleyasına tabe olan bu orqanlar insan hüquq və azadlıqlarının təmin olunmasının səmərəliliyinin artırılması istiqamətində irəliyə doğru mühüm addım idi. İnsan hüquqları üzrə şura 2006-cı ildə BMT Baş Asambleyasına köməkçi orqan kimi yaradılmışdır [8]. Şura insan hüquq və azadlıqlarının qorunması istiqamətində əməkdaşlığa görə məsuliyyət daşıyır. Həmçinin insan hüquqlarının pozulması ilə vəziyyətləri araşdırır. Dövlətlər tərəfindən insan hüquqlarının gözlənilməsi ilə bağlı öhdəliklərə əməl olunması sahəsini də nəzarətdə saxlayır.

Qeyd etmək lazımdır ki, BMT-nin İnsan hüquqları üzrə ali komissarı BMT-nin insan hüquqları sahəsində fəaliyyətinə görə cavabdehlik daşıyan vəzifəli şəxsdir. İnsan hüquqları üzrə ali komissar dörd illik səlahiyyət müddətinə seçilir və olduqca mühüm vəzifələri həyata keçirir. Bunlardan aşağıdakıları qeyd etmək mümkündür [11]:

-bütün insan hüquqlarının səmərəli həyata keçirilməsinə köməklik;

-insan hüquqlarının gözlənilməsi məqsədilə beynəlxalq əməkdaşlığa yardım;

-BMT sistemi çərçivəsində insan hüquqları sahəsində fəaliyyətin stimullaşdırılması;

-insan hüquqları sahəsində yeni standartların işlənib hazırlanmasına köməklik;

-insan hüquqları haqqında müqavilələrin ratifikasiyasına yardım.

Yuxırda qeyd etdiklərimizdən başqa, Ali komissar insan hüquqlarının pozulduğu hallarda tədbirlər görmək və xəbərdaredici addımlar atmaq imkanlarına malikdir. Göründüyü kimi, BMT çərçivəsində insan hüquqlarının qorunmasının kifayət qədər işlək, səmərəli sistemi mövcuddur. Bu sistemin təkmilləşdirilməsi istiqamətində davamlı addımlar atılmaqdadır. Müvafiq olaraq, birləşmək hüququ-

nun daha etibarlı təmininin normativ əsaslarının zənginləşdirilməsi, daha təsirli mexanizmlərinin tətbiq olunması istiqamətində də ciddi fəaliyyət reallaşdırılmış olur.

**Digər beynəlxalq hüquqi aktlarda birləşmək hüququnun təsbiti**

Birləşmək azadlığı və həmkarlar ittifaqında birləşmək hüququnun müdafiəsi haqqında Beynəlxalq Əmək Təşkilatının Konvensiyası 1948-ci ilin iyul ayının 8-də qəbul olunmuşdur. Bu konvensiya 1950-ci ilin iyulunda qüvvəyə minmişdir. Bu məqamda xüsusi olaraq qeyd etmək lazımdır ki, beynəlxalq səviyyədə birləşmək azadlığı ilə bağlı müasir standartların əsası hələ İkinci Dünya müharibəsinə qədər formalaşmışdır. Belə ki, Beynəlxalq Əmək Təşkilatının Konvensiyasının 1948-ci ildə qəbul olunmasına baxmayaraq, təşkilatın özü 1919-cu ildə yaradılmışdır. Beynəlxalq Əmək Təşkilatının yaradılması ilə birləşmək azadlığı və ya hüququ beynəlxalq səviyyədə ilk ifadəsini tapmış oldu. Beynəlxalq Əmək Təşkilatının təşkilati strukturu üçtərəflidir: hər bir dövlətin nümayəndələri dövlət orqanlarının, həmkarlar ittifaqlarının və digər təşkilatların nümayəndələrindən ibarət olurlar. Müvafiq olaraq Beynəlxalq Əmək Təşkilatında üç qrup meydana çıxır. Bunlar aşağıdakılardan ibarətdir [9, 116]:

-dövlətlərin nümayəndələri;

-işə qəbul edənlər;

-işçilər.

Yuxarıda qeyd etdiyimiz qruplar əmək və sosial münasibətlər sahəsində hamı üçün münasib olacaq beynəlxalq standartları işləyib hazırlayırlar. 1945-ci ildə BMT-nin yaradılması ilə insan hüquqları, həmkarlar ittifaqının yaradılması haqqında hüquqlar üzrə ümumi razılaşma üzərində işlər başlamışdır. Əksər beynəlxalq aktlarda birləşmək hüququ xüsusi olaraq təsbit olunmuşdur. Beynəlxalq Əmək Təşkilatı ilk yaradılmış təşkilatlardan biri olmaqla, BMT sistemində ilk ixtisaslaşdırılmış təsisata çevrilmişdir. Beynəlxalq Əmək Təşkilatı öz konvensiyalarında və tövsiyələrində əməyin tənzimlənməsinin beynəlxalq standartlarını müəyyənləşdirir. Bu konvensiyalar dünya dövlətlərinin əksəriyyəti tərəfindən ratifikasiya olunmuşdur. Əlavə olaraq qeyd edək ki, 1998-ci ildə Beynəlxalq Əmək Təşkilatının Baş Konfransında əmək sahəsində əsas prinsiplər və hüquqlar haqqında deklarasiya qəbul olunmuşdur. Bu deklarasiyaya əsasən, Beynəlxalq Əmək Təşkilatına üzv olan bütün dövlətlər işçilərin və işə qəbul edənlərin əsas birləşmək prinsiplərini və hüquqlarını gözləməlidirlər. Bu dövlətlərin müvafiq konvensiyaları və deklarasiyanı ratifikasiya edib-etməmələri bu zaman hər hansı bir rol oynamır. Yəni üzv dövlətlər müvafiq sənədləri retifikasiya etmədən belə birləşmək hüquqlarını və prinsiplərini gözləməlidirlər. Bu məqamın özü birləşmək hüququnun daha səmərəli tənzimlənməsi baxımından olduqca əhəmiyyətlidir.

Konvensiya dövlətlərin üzərinə bütün əmək fəaliyyəti ilə məşğul olanların və sahibkarların əlavə icazə olmadan öz təşkilatlarını yaratmalarını və onların işində iştirak etmələrini təmin etməklə bağlı öhdəliklər qoyur. Bu konvensiya əmək hüquqlarının qorunması ilə bağlı müddəaları əhatə edən ilk beynəlxalq sənədlərdən biridir. Artıq qeyd etdiyimiz kimi, konvensiya bu istiqamətdə dövlətlə-

rin konkret öhdəliklərini nəzərdə tutur. Əmək sahəsində əsas prinsiplər və hüquqlar haqqında 1998-ci ildə qəbul olunmuş deklarasiyaya əsasən Beynəlxalq Əmək Təşkilatına üzvlük hər hansı bir xüsusi konvensiyanın ratifikasiya olunmasından asılı olmayaraq, əmək sahəsində insanların sərbəst birləşmək hüququnun təmin olunmasını nəzərdə tutur.

Ümumiyyətlə, diqqət yetirsək, görərik ki, insan hüquqları ilə bağlı, demək olar ki, bütün beynəlxalq sənədlər birləşmək hüququnu xüsusi ifadə etmişdir. Ümumdünya insan hüquqları deklarasiyasının qəbul olunmasından sonra birləşmək hüququnu özündə təsbit edən çoxsaylı beynəlxalq normativ aktlar meydana gəlmişdir. Hətta qeyd etmək olar ki, sonrakı beynəlxalq sənədlər mütləq şəkildə həm də birləşmək hüququnu əhatə etmişdir. Müxtəlif xarakterli sənədlər, deklarasiyalar, müqavilələr həyat fəaliyyətinin ən fərqli sahələrində insan hüquq və azadlıqlarını tənzimləyirlər. Bu normativ aktların, demək olar ki, hamısında mütləq şəkildə birləşmək hüququ və onunla bağlı olan digər normalar əksini tapır. Məsələn, bir neçə nümunə göstərmək mümkündür. Belə ki, 1966-cı ildə qəbul olunmuş "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktda" insanların birləşmək hüququ aydın təsbit olunmuşdur. Pakt 1976-cı ilin yanvar ayının 3-də qüvvəyə minmişdir. "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt" iqtisadi, sosial və mədəni hüquqlar sahəsində əsas beynəlxalq müqavilə sayılır. Pakt insanın əmək və məişət, məşğulluq, təhsil, sosial müdafiə sahələrində vəziyyətinə aid olan normaları əhatə edir. Bu normalar insanın qeyd edilən sahələrdə potensialını sərbəst şəkildə reallaşdırması üçün müvafiq şəraitin yaradılmasını nəzərdə tutur. "İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktın" 8-ci maddəsi hər bir kəsin həmkarlar ittifaqını yaratmaq və ona daxil olmaq hüququnu, həmçinin bu sahədə sərbəst fəaliyyətini təmin edir.

1950-ci ildə "İnsan hüquq və əsas azadlıqları haqqında Avropa konvensiyası" qəbul olunmuşdur. Diqqət yetirsək, bu konvensiyada da birləşmək hüququnun kifayət qədər dəqiq təsbit olunduğunu görmüş olarıq. Belə ki, "Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktda" olduğu kimi, burada hər bir insanın dinc toplaşamaq və başqaları ilə müəyyən maraqların təmin olunması üçün birləşmək hüququnun olması aydın ifadə olunmuşdur [3]. İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının müəyyən səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq mümkündür. Belə səciyyəvi xüsusiyyətlərdən biri ondan ibarətdir ki, fəaliyyət əsasən şəxsiyyətə və onun əsas hüquqlarının müdafiəsini istiqamətləndirilmişdir. Bununla da Avropa Konvensiyası beynəlxalq münasibətlərdə insan hüquq və azadlıqlarının qorunmasının hüquqi əsaslarını formalaşdırmışdır. Konvensiya onu imzalamış bütün Avropa dövlətlərinin vətəndaşlarının hüquq və azadlıqlarını qoruyur. Təbii ki, burada Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlar nəzərdə tutulur. Avropa Konvensiyasının başlıca səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onu imzalamış dövlətlər üçün təsir gücünə malik olan hüquq və öhdəliklər statusuna malikdir [2, 231]. Bundan başqa, Avropa Konvensiyası iştirakçı ölkələrin vətəndaşlarının fərdi qaydada hüquqlarının pozulduğu halda onun nəzarətçi orqanlarına şikayətlə müraciət etmək imkanlarını təsbit etmişdir. Təbii

ki, bu, milli səviyyədə hüquq və azadlıqlarının qorunmadığı halda aktual olur. İnsan hüquq və əsas azadlıqları haqqında Avropa Konvensiyasına 11 saylı Protokolla edilmiş dəyişikliyə əsasən Avropa Məhkəməsinə istənilən fiziki şəxsdən, qeyri-hökumət təşkilatından və ya sadəcə insanlar qrupundan şikayət daxil ola bilər. Bu məqam, Avropa Konvensiyasını imzalamış dövlətlərin cavabdehliyini əhəmiyyətli dərəcədə artırır. Müvafiq olaraq insan hüquq və əsas azadlıqlarının qorunmasında daha yüksək səmərəlilik təmin olunur.

Birləşmək hüququnun təmin olunmasının beynəlxalq normativ-hüquqi əsasları ətrafında təhlillər apararkən Avropa sosial xartiyasından da bəhs etmək vacibdir. Öncə qeyd edək ki, 1961-ci ildə qəbul olunmuş Avropa sosial xartiyası əmək və məşğulluq məsələlərinə aiddir. Xartiyada işçilərin yerli, milli və beynəlxalq təşkilatlar yaratmaq hüququnu ifadə edir. Burada, həmçinin kollektiv danışıqların aparılması hüququnu təsbit edir və dövlətlərdən məşvətətçi və arbitraj mexanizmlərinin yaradılmasını tələb edir. Avropa sosial xartiyası Avropa Şurasına üzv olan ölkələrin vətəndaşlarının sosial-iqtisadi hüquqlarının təmin edilməsinin etibarlı aləti rolunda çıxış edir. Qeyd edək ki, ilk vaxtlarda Avropa sosial xartiyası insan hüquqlarının qorunması sahəsində ciddi təsir gücünə malik deyildir. Sonradan edilmiş əlavə və dəyişikliklər xartiyanı sosial-iqtisadi hüquqların qorunmasının işlək alətinə çevrilməsini şərtləndirmişdir. Belə ki, 1988-ci ildə Xartiyaya əlavə protokol qəbul olunmuşdur. Bu protokola əsasən xartiyanın qoruması altında olan hüquqların sırası əhəmiyyətli dərəcədə genişləndirilmişdir. 1991-ci ildə isə xartiyanın nəzarət mexanizminin səmərəliliyinin yüksəldilməsinə yönəlmiş Əlavə protokol qəbul olunmuşdur. Həmçinin qeyd edək ki, 1996-cı ildə yenidən nəzərdən keçirilmiş Sosial xartiya qəbul olunmuşdur və 1999-cu ildə qüvvəyə minmişdir. Bu baxımdan, Xartiya çərçivəsində müvafiq olaraq birləşmək hüququnun da daha etibarlı təmin olunması üçün real zəmin yaranmışdır. Xartiyanın yeni layihəsində kollektiv şikayət sisteminin tətbiqi də nəzərdə tutulmuşdur ki, bu sosial-iqtisadi hüquqların qorunması sahəsində ciddi keyfiyyət dəyişikliyini şərtləndirmişdir. Vurğulamaq lazımdır ki, protokolda nəzərdə tutulmuş şikayət sistemi hüquqi, məhkəmə xarakterinə malik deyildir. Onun əsasən bir müəyyənləşdirici və ya araşdırıcı funksiyanı yerinə yetirdiyini demək daha doğrudur. Belə ki, həqiqətən də, təcrübədə Sosial hüquqlar üzrə Avropa Komitəsi bir qayda olaraq sosil və iqtisadi xarakterli kollektiv şikayətlərin qəbul oluna bilmə səviyyəsini müəyyənləşdirir. Yazılı təqdimat əsasında komitə ən əhəmiyyətli kimi müəyyənləşdirilmiş məsələlərə baxır. Bundan başqa, məsələnin mahiyyətindən və əhəmiyyətlilik dərəcəsində çıxış olunaraq ictimai dinləmələrin keçirilməsi təmin edilir və Avropa Şurası Nazirlər Komitəsinə hesabat ünvanlayır və o da öz növbəsində Avropa sosial Xartiyasını pozan dövlətlərlə bağlı qətnamə qəbul edir. Qəbul olunmuş qətnamədə xartiyanı pozan dövlətlərə müvafiq tövsiyələr yer alır. Bu məqamda qeyd etmək lazımdır ki, sosial Avropa Komitəsinə müraciət etmək hüququ və ya imkanları aşağıdakı subyektlərə məxsusdur:

-işçilərin və işə qəbul edənlərin beynəlxalq təşkilatlarına. Bu kateqoriyadan olan təşkilatlara Avropa həmkarlar konfederasiyasını, Avropa sənayeçilər və

sahibkarlar konfederasiyası ittifaqı və Beynəlxalq sahibkarlar təşkilatı;

-Avropa Şurasında məşvərətçi statusuna malik olan qeyri-hökumət təşkilatlarına. Belə təşkilatlar bir qayda olaraq hökumət komitəsi tərəfindən xüsusi siyahıya daxil edilirlər;

-Yuxarıda qeyd etdiyimiz Əlvaə protokola üzv olan ölkələrin sahibkarlar və həmkar ittifaqları təşkilatlarına.

Qeyd edək ki, kollektiv şikayət vermək hüququna malik olan təşkilatlar Avropa Sosial Xartiyasına 1995-ci il ildə əlavə olunmuş Protokolun birinci maddəsində ifadə olunmuşdur [7].

Yuxarıda qeyd etdiklərimizdən başqa, Avropa Sosial Xartiyasına 1995-ci il əlavə Protokolunun ikinci maddəsinin birinci bəndinə əsasən, digər hallarda da sosial-iqtisadi hüquqların pozulması ilə bağlı kollektiv şikyayətlərin verilməsi imkanları tanınır. Belə ki, dövlət ərazisində fəaliyyət gösətərən və müəyyən xüsusiyyətləri ilə fərqlənən qeyri-hökumət təşkilatların kollektiv şikayət vermək hüququnu nəzərdə tuta bilər [7].

Onu da qeyd edək ki, sosial-iqtisadi hüquqlar üzrə kollektiv şikayət mexanziminin səmərəliliyini tam əsaslandırmaq imkanları geniş deyildir. Belə ki, araşdırmalarımız göstərdi ki, bu mexanizm tam formalaşmamışdır və onun təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Bundan başqa, artıq nəzərdən keçirdiyimiz kimi, bu müstəvidə baxılan məsələlərin çevrəsi olduqca dardır. Bu baxımdan, müvafiq sahələrdə birləşmək hüququnun təminatı ilə bağlı mübahisəli məsələləri səmərəli şəkildə tənzimlənməsi imkanları olduqca məhduddur. Bundan başqa, kollektiv şikayətlərə baxılmanın nəticəsi olaraq sosial-iqtisadi xarakterli hüquqları pozan dövlətlərə münasibətdə yalnızca müəyyən tövsiyələr hazırlana bilər ki, bu da müvafiq istiqamətdə vəziyyətin yaxşılaşdırılması üçün çox da təsirli addımların atılmasına imkan vermir. Bütün bunları nəzərə alaraq, hesab edirik ki, dövlətlərə münasibətdə təkcə tövsiyə xarakterli deyil, nisbətən sərt tədbirlərin həyata keçirilməsi mexanizmlərinin işlənib hazırlanmasına ehtiyac vardır.

Yuxarıda nəzərdən keçirdiyimiz məqamlardan aydın görünür ki, birləşmək hüququnun qorunması istiqamətində kifayət qədər zəngin beynəlxalq normativ baza mövcuddur. Hətta 1990-cı ildə qəbul olunmuş "Uşaq hüquqları konvensiyasında" birləşmək hüququ öz ifadəsini tapmışdır. Bu konvensiyaya qoşulan dövlətlər uşaqların sərbəst şəkildə birləşmək hüququnu təmin etməklə bağlı üzərlərinə öhdəliklər götürmüşlər [4]. Onu da qeyd edək ki, konvensiyaya əsasən 18 yaşına çatmamış hər bir kəs uşaq hesab olunur. Diqqəti cəlb edən məqamlardan biri də ondan ibarətdir ki, hazırda beynəlxalq müstəvilə yanaşı, dünya dövlətlərinin konstitusiyalarında birləşmək hüququ insanın ayrılmaz hüququ kimi təsbit olunmuşdur. Məsələn, Avropanın aparıcı dövləti olan Almaniyanın konstitusiyasının doqquzuncu maddəsində qeyd edililir: "bütün almanlar öz ittifaqlarını və birliklərini yaratmaq hüququna malikdirlər" [5, 156]. Həmçinin digər ölkələrin konstitusiyalarında da birləşmək hüququ aydın şəkildə təsbit olunmuşdur. Bundan başqa, artıq qeyd etdiyimiz kimi, dünya dövlətləri müxtəlif beynəlxalq konvensiyalara, müqavilələrə, paktlara qoşulmaqla, birləşmək hüququnun təmin olunması ilə bağlı

üzərlərinə öhdəliklər götürmüşlər.

**Nəticə**

Birləşmək hüququnun qorunması fundamental insan hüquqlarının qorunması kimi qəbul oluna bilər. Diqqət yetirilməsi vacib olan mühüm məqamlardan biri də ondan ibarətdir ki, müasir mərhələdə birləşmək hüququnun təmin olunması həm də demokratiyanın prinsiplərinə əməl olunması anlamına gəlir. Birləşmək hüququnun təmin olunması ümumilikdə insan hüquqlarının qorunmasının göstəricisidir. Bu baxımdan, ümumi insan hüquqlarının müdafiəsini aktuallıq kəsb etdiyi bir vaxtdan birləşmək hüququnun diqqət mərkəzinə gəldiyini söyləmək mümkündür. Nəzərə almaq lazımdır ki, insan hüquqlarının qorunması mexanizmləri daha fəal şəkildə İkinci Dünya müharibəsindən sonra formalaşmağa başlamışdır. Belə ki, insan hüquqlarının beynəlxalq müdafəsinin hüquqi bazası ilk dəfə BMT nizamnaməsində əksini tapmışdır. BMT-nin insan hüquqlarının qorunması məsələsinə xüsusi diqqət ayırmasının səbəbləri təşkilatın nizamnaməsinin preambulasında ifadə olunmuşdur. Birləşmək hüququnun beynəlxalq normativ əsasları zənginliyi ilə diqqəti cəlb edir. Çoxsaylı tövsiyə xarakterli və mütləq hüquqi qüvvəyə malik olan konvensiyalar birləşmək hüququnun səmərəli tənzimlənməsini təmin edir. Mövcud beynəlxalq hüquqi normalar və ya aktlar hər kəsə sərbəst şəkildə müəyyən məqsədlərin həyata keçirilməsi üçün digərləri birləşmək və mövcud birliyə qoşulmaq hüququnun olduğunu aydın şəkildə ifadə edir. Belə hüquqların pozulmasının qarşısının alınması üçün işlək mexanizmlərin tətbiqi nəzərdə tutulmuşdur.

**ƏDƏBİYYAT**


1. Всеобщая декларация прав человека 1948 г.//Права человека: Сб. международных документов. М., 1986, статья 29-30
2. Глотов С.А. Право Совета Европы и Россия. Краснодар, 1998, 600 с.
3. Европейская конвенция о защите прав человека и основных свобод 1950 г.//Права человека и судопроизводство: Сб. документов. Издание OSCE, Часть 1, ст.11
4. Конвенция о правах ребенка 1990 г.//Права человека. Статья 15
5. Конституции зарубежных государств. М.: БЕК, 1998, 584 с.
6. Международный пакт о гражданских и политических правах 1966 г.//Права человека, статья 21.
7. Протокол 1995г. к Европейской Социальной Хартии 1961, с.2, п.1
8. Резолюция Генеральной Ассамблеи ООН от 6 апреля 2006 .A/RES/60/251
9. Handbook of Procedures relating to International Labour Conventions and Recommendations, International Labour Standards Department, International Labour Office, Parts VI and XI, 1995, p.116
10. Willetts P. Transnational Actors and International Organizations in Global Politics // J.B.Baylis and S. Smith (eds.), The Globalisation of World Politics, Oxford and New York: Oxford University Press, II Edition, 2001, pp. 356-383
11. https://refdb.ru/look/2483863-pall.html(müraciət tarixi:05.05.2018)

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ВНУТРЕННЕГО (НАЦИОНАЛЬНЫЙ) И МЕЖДУНАРОДНОГО ПРАВА В ОБЛАСТИ ПРАВА АССОЦИАЦИИ

**Д.М.ГАНБЕРОВ**

**РЕЗЮМЕ**

В научной статье рассматриваются международные акты о правах на объединения. Отмечается, что право на объединения имеет достаточно богатую нормативно-правовую основу. Многочисленные международные нормативные акты урегулируют право на объединения. Это свидетельствует о том, что право на объединения занимает центральное место в системе прав человека. В статье внимание также обращается на международные стандарты свободы. Международные нормативно-правовые акты обязывают государств мира создать необходимые условия для реализации право на объединения. В научной статье всесторонне анализируются международные акты о праве на объединения.

**Ключевые слова:** права человека, право на объединения, государство, международные акты, общественные объединения, ООН, гражданин, политические права, конвенции.

## COMPARATIVE ANALYSIS OF DOMESTIC (NATIONAL) AND INTERNATIONAL LAWS IN THE FIELD OF ASSOCIATION LAW

**D.M.GANBAROV**

**SUMMARY**

Te paper studies the international acts on the rights to associations. It is noted that the right to associations has rather rich legal regulatory basis. Numerous international regulations will settle the right to associations. It demonstrates that the right to associations takes the central place in system of human rights. The paper pays peculiar attention to international standards of freedom. The international regulatory legal acts oblige the states of the world to create necessary conditions for implementation of the right to associations. The article comprehensively analyzes the international acts of the right to associations. It proves that each international act accurately reflects the right to associations.

**Keywords:** human rights, right for associations, state, international acts, public associations, UN, citizen, political rights, conventions.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№3 Sosial-siyasi elmlər seriyası 2018***

**UOT – 342.537**

# HÜQUQİ DÖVLƏT KONSEPSİYASININ TƏŞƏKKÜL TAPMASINA TƏKAN VERƏN HUMANİST İDEYALARIN TƏHLİLİ

**Z.A.ƏSGƏROV**
***Bakı Dövlət Universiteti***
***ziyafat.asgerov@meclis.gov.az***

*Məqalədə hüquqi dövlət konsepsiyasının meydana gəlməsi və tarixi inkişafına təsir göstərən antik və orta əsr mütəfəkkirlərinin humanist ideyaları təhlil edilir, hüquqşünas alimlərin hüquqi dövlət nəzəriyyəsinin antik dövrdə formalaşması ilə bağlı ideyaları tənqid edilir və göstərilir ki, hər hansı ictimai konsepsiyanın yaranması üçün mütləq müəyyən tarixi, iqtisadi, siyasi və sosial şərait mövcud olmalıdır. Müəllif qeyd edir ki, hüquqi dövlət konsepsiyasının tam olaraq təşəkkül tapması yeni dövrə təsadüf etsə də onun formalaşmasına təsir göstərən ilkin ideyalar məhz antik dövr və orta əsr mütəfəkkirlərinə məxsusdur. Bu baxımdan məqalədə antik dövr yunan filosoflarının, roma hüquqşünaslarının və orta əsr maarifçilərinin hüququn aliliyi, hüququn təbii mənşəyə malik olması və dövlət tərəfindən insanın təbii hüquqlarının tanınması zəruriliyi, hüququn azadlığa və ədalətə söykənməsi, insanların hüquq bərabərliyi, dövlətin ictimai müqaviləyə əsaslanması kimi müddəalara nəzəri hüquqi münasibətləri təhlil edilir.*

**Açar sözlər:** hüquqi dövlət, insan hüquqları konsepsiyası, hakimiyyətlərin bölünməsi prinsipi, “rule of law”, hüquqi müəyyənlik, ictimai müqavilə

Hüquqi dövlət konsepsiyasının nə zaman yaranması və təşəkkül tapması ilə bağlı hüquq elmində müxtəlif, bəzən isə bir-birinə tamamilə zidd olan yanaşmalar mövcuddur. Bir çox hüquqşünas-alimlər hüquqi dövlətin tarixinin antik dövrdən başladığını iddia edirlər. Məsələn, V.S.Nersesyants sübut etməyə çalışır ki, hüquqi dövlət nəzəriyyəsi qədim Yunanıstanda meydana gəlmişdir. Bu zaman o, “yeddi müdrik”in, Platonun, Aristotelin və digər qədim yunan filosoflarının fikirlərinə istinad edir [9, 644-659]. V.N.Xropanyuk da belə hesab edir ki, hüquqi dövlət bir konsepsiya olaraq yeni dövrdə deyil, ondan xeyli əvvəl, daha doğrusu, antik dövrdə, Sokratın, Demokritin və digər mütəfəkkirlərin əsərlərində təşəkkül tapmışdır [12, 72]. Y.M.Baturin və R.Z.Livşits də hüquqi dövlət ideyasının çoxəsrlik tarixə malik olduğunu və onun antik cəmiyyətdə yarandığını qeyd edirlər [4, 13].

Hesab edirik ki, hüquq ədəbiyyatında rast gəlinən bu cür fikirlər dərin elmi araşdırmalara söykənmir. Həmin tədqiqatçılar nəzərə almırlar ki, hər hansı ictimai konsepsiyanın yaranması üçün mütləq müəyyən tarixi, iqtisadi, siyasi və sosial

şərait mövcud olmalıdır. Məzmunundan asılı olmayaraq, dövlət və hüquq haqqında istənilən nəzəriyyə heçdən yaranmır və onun təşəkkül tapması və inkişafı üçün uzun tarixi dövr lazımdır. Hüquqi dövlət konsepsiyası da uzunmüddətli inkişaf tarixinə malikdir.

Bitkin bir konsepsiya kimi hüquqi dövlət yalnız istehsal münasibətlərinin inkişafı ilə cəmiyyətdaxili qüvvələr nisbəti əhəmiyyətli dərəcədə dəyişdiyi, daha doğrusu, hakimiyyətə iddia edən, hakimiyyətin mütləqiliyinə və inhisarlaşdırılmasına etiraz edən yeni sosial təbəqələr ortaya çıxdığı, insanların bərabərliyi, bütün fərdlərin təbii və ayrılmaz hüquqlara malik olması, dövlət hakimiyyətinin hüquqla məhdudlaşdırılması obyektiv zərurət olaraq dərk edildiyi dövrdə yarana bilərdi. Məhz bu obyektiv amilləri və tarixi zərurəti əsas götürərək, bəzi tədqiqatçılar haqlı olaraq hüquqi dövlət konsepsiyasının XIX əsrdə meydana gəldiyini qeyd edirlər [10, 8; 7, 6-17]. Hüquqi dövlət haqqında bir sıra elmi araşdırmaların müəllifi F.M.Rayanov qəti şəkildə bildirir ki, "Platonu və Aristoteli hüquqi dövlət haqqında ideyanın baniləri sırasına aid etmək tarixi tərəqqi və dövlətçiliyin inkişafı üzərində istehzadan savayı bir şey deyildir" [10, 8]. Doğrudan da, hüquqi dövlət konsepsiyasının antik dövrdə yarandığını necə iddia etmək olar ki, o dövrün görkəmli mütəfəkkirləri hüquqi dövlətə xas olan elementləri, ümumiyyətlə, qəbul etmirdilər. Bir misalla kifayətlənək. Məsələn, Sokrat demokratik quruluşa nifrət edirdi və Sparta aristokratiyasına haqq qazandırırdı. O, xalqın dövlətdə iştirak etməsinə etiraz edirdi.

Beləliklə, hüquqi dövlət konsepsiyasının meydana gəlməsi üçün onun məzmununu təşkil edən komponentlərin – təbii hüquq nəzəriyyəsinin, insan hüquqları konsepsiyasının, hakimiyyətlərin bölünməsi prinsipinin və digər mühüm siyasi-hüquqi nəzəriyyələrin təşəkkül tapması zəruri idi.

Hüquqi dövlətin mənşəyi barədə məsələni nəzərdən keçirərkən aşağıdakı fenomenlər arasında nəzəri və metodoloji baxımdan fərq qoyulması prinsipial əhəmiyyətə malikdir: a) dövlətin təşəkkül tapmasının və inkişafının erkən mərhələlərində meydana gəlmiş və sonrakı dövrlərdə analoji ideyaların yaranmasına təkan vermiş tarixən ilk humanist ideyalar; b) XIX əsrdə təşəkkül tapmış və sonradan bir növ konstitusion prinsip kimi qəbul olunmağa başlamış hüquqi dövlət konsepsiyası; c) hüquqi dövlət ideyasının reallaşması, onun əsas tələblərinin həyata keçməsi [7, 15].

Hüquqi dövlət konsepsiyası yeni dövrdə yaransa da, yuxarıda qeyd etdiyimiz kimi, onun məzmununu təşkil edən ideyalara, məsələn, ədalətli dövlət, qanunun hər şeydən, o cümlədən hökmranın iradəsindən üstün olması, hüququn azadlığa və ədalətə söykənməsi haqqında ideyalara hələ qədim yunan, Roma, Hindistan və Çin filosoflarının və mütəfəkkirlərinin əsərlərində və mülahizələrində rast gəlmək olar. Buna görə də hüquqi dövlət konsepsiyasının genezisini və inkişafını araşdırarkən ilk növbədə antik dövrün humanist ideyalarını, habelə sonrakı dövrlərin görkəmli mütəfəkkirlərinin dövlət və hüquq haqqında baxışlarını qisaca təhlil etməyi məqsədəuyğun hesab edirik.

Antik dövrün mütəfəkkirləri cəmiyyətdə hüququn rolunun gücləndirilməsi

ideyasını ardıcıl olaraq müdafiə edirdilər. Likofron fərdin ayrılmaz hüquqlarının mövcud olduğunu və fərdin dövlət tərəfindən müdafiə olunmasının zəruri olduğunu birbaşa bəyan edirdi. Demokrit ilk dəfə olaraq dövlətin ictimai müqavilə olması barədə ideyasını irəli sürmüşdü [6, 87]

"Yeddi müdrik" kimi tanınan qədim yunan filosofları dövlətdə ədalətli qanunların əhəmiyyətini yüksək dəyərləndirirdilər. Hər kəsin qanuna tabe olmasını onlar bir prinsip kimi qəbul edirdilər. Onların fikrincə, dövlət qayda-qanuna möhtacdır, qayda və qanun onun üçün ən böyük sərvətdir.

Qədim Yunanıstanda dövlət daha çox idarəetmə forması aspektindən nəzərdən keçirilirdi və cəmiyyət-dövlət-şəxsiyyət əlaqələri də bu aspektdən qoyulurdu. Burada dövlətin idarəetmə formasından asılı olaraq, dövlət bir halda aristokratların, başqa halda isə çoxluğun dövləti hesab olunurdu. Qədim yunan polislərində dövlət haqqında təsəvvürlər antik demokratiya ilə sıx əlaqəli idi. Bu dövrdə hələ şəxsiyyət müstəqilləşmədiyindən və fərdi mənafe ümumi mənafedən ayrılmadığından dövlətin əsas vəzifəsi kimi bütün cəmiyyət üzvlərinin mənafeyinin təmin olunması qəbul olunurdu. Buna görə də optimal və yaxud qədim mütəfəkkirlərin dediyi kimi, düzgün idarəetmə formasına malik dövlətdən bəhs olunduqda ilk olaraq ümumi mənafenin təmin olunması imkanları araşdırılırdı.

Görkəmli yunan filosofu Platon vurğulayırdı ki, "o yerdə ki, qanunun qüvvəsi yoxdur və kiminsə hakimiyyəti altındadır, orada dövlətin yaxın zamanda məhvi labüddür. Amma o yerdə ki, qanun idarə edənlər üzərində hökmrandır, onlar isə onun qullarıdırlar, mən orada dövlətin nicatını və allahların dövlətlərə bəxş edə bildiyi bütün nemətləri görürəm". Platon hesab edirdi ki, "qanunların bir neçə adamın maraqları üçün müəyyən olunduğu yerdə söhbət dövlət quruluşundan deyil, yalnız daxili nifaqdan gedir" [8, 203].

Platon özünün ideal dövlət layihəsinin iki əsas şərtindən birini ədalətli qanunların olmasında görürdü. Belə hesab olunur ki, Platon hüquqi dövlət ideyasının müəyyən cizgilərini yaradan ilk mütəfəkkirdir. "Qanunlar" əsərində o, dövlətin iki növünü fərqləndirir. Birinci halda hamıdan yüksəkdə hökmdarlar durur, ikinci halda isə hökmdarların özləri də qanuna tabe olurlar [3, 29].

Analoji ideyalar Aristotelin əsərlərində də öz əksini tapmışdı. Məsələn, o yazırdı ki, "başqalarını zorakılıqla tabe etdirməyə cəhd etmək hüquq ideyasına ziddir. Qanunun hakimiyyəti olmayan yerdə hər hansı dövlət quruluşu formasına da yer yoxdur. Qanun hamının üzərində hökmran olmalıdır". Aristotelin qənaətinə görə, cəmiyyəti adamlar deyil, qanunlar idarə etməlidir.

Aristotel qanuna tarazlaşmış ağıl kimi baxırdı, hüquq və dövlətin daxili əlaqəsinin zəruriliyini göstərirdi. O, qeyd edirdi ki, ədalətin meyarı olan hüquq siyasi həyatın nizamlayıcı normasıdır. Aristotelin fikrincə, hər bir qanun mahiyyət etibarilə hüquqdur; hüquq öz ifadəsini qanunda tapmalıdır. Qanunun hüquqdan geri çəkilməsi despotiyaya və zorakılığa doğru addım olardı.

Bununla belə, dövlətdə qanunun rolundan danışarkən Aristotel hüququ əsas sosial dəyər kimi nəzərdən keçirmirdi. Onun mülahizələrində müasir hüquqi dövlət anlayışı ilə ümumi heç nə yoxdur və əslində ola da bilməz.

Aristotel təbii hüququ və dövlət tərəfindən müəyyən olunan hüququ fərqləndirirdi. Onun fikrincə, təbii hüququn tələbləri hər yerdə eyni qüvvəyə malikdir və onlar dövlətin verdiyi hüquqdan yuxarıda dayanır. Görkəmli filosof təbii hüququ ideal kimi deyil, faktik qüvvədə olan hüquq kimi nəzərdən keçirirdi. Aristotelin bu mülahizələri sonrakı tarixi dövrlərdə, xüsusən H.Hrotsi tərəfindən təbii hüquq nəzəriyyəsinin irəli sürülməsi və inkişaf etdirilməsi üçün əhəmiyyətli rol oynamışdı.

Digər görkəmli yunan mütəfəkkiri Demosfen yazırdı ki, dövlətin rifahı, onun demokratik quruluşu hər şeydən öncə qanunlara söykənir. Hiperid hesab edirdi ki, insanların rifahı üçün lazımdır ki, kiminsə qəzəbi və ya hökmü deyil, məhz qanunun səsi qüvvəyə malik olsun, vətəndaşların təhlükəsizliyi hökmranlara yaltaqlıq edənlərdən və vətəndaşlara böhtan atanlardan deyil, qanunlara sədaqətdən asılı olsun. Esxin qeyd edirdi ki, demokratik dövlətdə sadə insan qanunun köməyilə və səs hüququ ilə hökmranlıq edir. Digər məşhur mütəfəkkir və orator İsokrata görə, hətta "ən pis təşkil olunmuş demokratiya" qeyri-demokratik quruluşla müqayisədə daha az zərər törədir, "yaxşı idarə olunan demokratiya" isə daha ədalətlidir, bütün cəmiyyət üçün faydalıdır və belə bir ictimai quruluşda yaşayan vətəndaşlar üçün daha müqabildir.

Hüquqi dövlət nəzəriyyəsinin bu və ya digər elementlərini özündə ehtiva edən oxşar mütərəqqi ideyalar Qədim Romada da irəli sürülmüşdü.

Qədim Roma mütəfəkkiri Siseronun əsərlərində hüquq, azadlıq, insan ləyaqəti və humanizm haqqında ideyalar çoxdur. Siseron hesab edirdi ki, dövlət xalqın sərvəti olaraq, "bir yerə toplanmış hər hansı insan məcmusu kimi deyil, hüquq məsələlərində ümumi razılıqla və ortaq maraqlarla bir-birləri ilə bağlı olan insanlar məcmusu kimi" başa düşülür. Siserona görə, hüquqla qarşılıqlı münasibəti baxımından dövlət "ümumi hüquq qaydası"ndan başqa bir şey deyildir. O, dövləti hüquqi hesab edirdi. Siseron təbii hüquq nəzəriyyəsinə söykənərək iddia edirdi ki, hüquq və azadlıqlar bağışlanılmır və kimsə tərəfindən müəyyənləşdirilmir. Bu hüquqlar insana onun təbiətinə görə xasdır. Siserona görə, hüquq qanun anlayışından əvvəl yaranmışdır.

Siseron yazırdı ki, "yalnız bəzi, seçilmiş vətəndaşlar deyil, hamı qanuna tabe olmalıdır". O, dövlət orqanlarını azad vətəndaşlara və hətta qullara qarşı humanist münasibət bəsləməyə çağırırdı.

Məşğuliyyətindən və cəmiyyətdəki mövqeyindən asılı olmayaraq bütün insanların ruhi azadlığı ideyası Senekanın əsərlərində mühüm yer tuturdu.

Məşhur filosof Lukretsi Kar dövlətin və hüququn ictimai müqavilə əsasında yarandığını qeyd edirdi. O göstərirdi ki, insanlar ictimai bərabərsizliyi və hərcmərcliyi aradan qaldırmaq üçün hakimiyyətin və qanunların verilməsi qaydalarını öyrənirlər.

Bu cür humanist baxışlar, cəmiyyətdə zorakılığın, şərin və özbaşınalığın deyil, hüququn və qanunun hökmran olması barədə ideyalar Qədim Hindistanda və Çində də yayılmışdı. Məsələn, qədim Çin filosoflarının qənaətinə görə, dövlətdə qanuna əsaslanan qayda olmalıdır. İddia edilirdi ki, ölkədə zorla qayda yaratmaq olmaz, ölkə ədalətlə idarə olunmalıdır.

Bütün bu ideyalar və mühakimələr, şübhəsiz ki, bütün sonrakı dövrlərdə siyasi və hüquqi təlimlərin, o cümlədən hüquqi dövlət doktrinasının yaranmasına və inkişafına əhəmiyyətli təsir göstərmiş oldu.

Hüquqi dövlət konsepsiyasının təşəkkül tapması üçün müəyyən mənada baza rolunu oynayan mühüm humanist ideyalar orta əsrlərdə və sonrakı dövrdə də müxtəlif filosof və mütəfəkkirlər tərəfindən irəli sürülmüşdü. Bu ideyaların bəziləri antik dövrdən əxz olunmuş və o dövrdəki şəraitə uyğunlaşdırılmış fikirlər, bəziləri isə yeni tarixi dövrün spesifik xüsusiyyətləri ilə şərtlənən ideyalar və mülahizələr idi.

Erkən orta əsrlərin siyasi-hüquq fikir tarixinə müraciət edərkən ilk növbədə görkəmli Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusini qeyd etmək lazımdır [1; 2; 11, 21].

Şərqin ilk professional dövlət nəzəriyyəçisi hesab olunan Tusi dövləti insanların ittifaqı kimi səciyyələndirirdi. Onun fikrincə, dövlət insanların qarşılıqlı razılığı əsasında yaranmışdır və dövlətin meydana gəlməsi insanların qüvvəsini bir yerə cəmləşdirmək zərurəti ilə bağlıdır. Tusi hesab edirdi ki, ədalətli dövlət quruluşunun əsasında idarəetmə məharətinin hökmdar siyasəti ilə əlaqələndirilməsi durur ki, bu da öz növbəsində qarşılıqlı yardıma və ittifaqa əsaslanır [11, 210]. O qeyd edirdi ki, dövlət insanların tələbatını ödəmək məqsədilə yaranır və onlara xidmət edir. Xüsusilə vurğulanmalıdır ki, Tusi görkəmli Qərb mütəfəkkirlərindən (H.Hrotsi, D.Didro və digərlərindən) xeyli əvvəl dövlətin ictimai muqaviləyə əsaslanması barədə fikir irəli sürmüşdü.

Tusi qeyd edirdi ki, hər bir dövlətdə nizam-intizam olmalı, qanunlara və ictimai davranış qaydalarına ciddi surətdə əməl olunmalıdır. Bunlar dövləti möhkəm və sarsılmaz edən mühüm şərtlərdir. Əslində «dövlət» və «cəmiyyət» anlayışlarını eyniləşdirərək, Tusi belə qənaətə gəlirdi ki, insanların birgə yaşamasını və fəaliyyət göstərməsini şərtləndirən amillər yoxdursa, dövlət dağıla bilər.

Tusi yazırdı ki, dünya iki şeydən əzab çəkir: birincisi, ölkədə istibdad üsulu hakim olanda, ikincisi, ölkə özbaşına qalanda.

Görkəmli mütəfəkkir müasir dövr üçün də aktual olan dövlətin və insanların qarşılıqlı məsuliyyət konsepsiyasını işləyib hazırlamışdı. Onun qənaətinə görə, insanlar cəmiyyət və dövlət qarşısında müəyyən vəzifələr daşıyırlar. Bu vəzifələr sırasında o, qanunlara və ictimai davranış qaydalarına riayət olunmasını ön plana şəkirdi. Eyni zamanda dövlət də insanlar qarşısında vəzifələr daşıyır. Maarifçi monarxiyaya üstünlük verən Tusi sosial ədalətin qorunmasını, hər bir insanın maraqlarının nəzərə alınmasını, insanlara ləyaqətli həyat şəraitinin yaradılmasını belə bir dövlətin başlıca vəzifələri hesab edirdi.

Tusi yazırdı ki, dövlətdə bütün münasibətlər qanunlarla nizamlanmalıdır. O, cəmiyyətin inkişafında hüquqi tənzimləmənin və məhkəmənin böyük əhəmiyyəti olduğunu vurğulayırdı. Tusi dövləti idarə edən aşağıdakı orqanları dövlətin dayaqları kimi səciyyələndirirdi: 1) qanunları tənzimləyənlər; 2) qanunların ədalətliliyinə və insanların bərabərliyinə nəzarət edən orqanlar; 3) dövləti mühafizə edənlər; 4) dövlətin mövcud olmasının qayğısına qalan orqanlar [11, 25-26].

Tusinin qənaətinə görə, xalqın rəyi dövlətin müəyyən etdiyi qanunların həyata keçirilməsində mühüm rol oynamalıdır. O qeyd edirdi ki, yeni etik və hüquqi normalar xalqın rəyinə verilməli və xalqın səsinə əsaslanmalıdır.

Tusi qanunları insan təfəkkürünün məhsulu kimi nəzərdən keçirirdi. Onun fikrincə, qanunlara ehkam kimi baxmaq olmaz, onlar mütəmadi olaraq inkişaf etdirilməli və təkmilləşdirilməlidir.

Kapitalizmin təşəkkül tapması və bu tarixi prosesə müvafiq surətdə məhsuldar qüvvələrin inkişafı, sosial və siyasi münasibətlərin köklü dəyişikliklərə məruz qalması ilə dövlətə və onun cəmiyyətin idarə olunmasında roluna yeni yanaşmaların ortaya çıxmasını zəruri edir. Yeni yaranmış sosial təbəqə – kapitalistlər ənənəvi dövlət-şəxsiyyət əlaqəsindən (dövlət-təbəə) razı deyildilər və bunun nəticəsi kimi yeni əlaqələrin axtarışı başlandı. Gücü bilavasitə dövlətə və onun məcburetmə aparatına söykənməyən, özünün iqtisadi imkanlarını və müstəqilliyini önə çəkən yeni təbəqə intellektuallarının axtarışları nəticəsində hüquqi dövlətin əsasını təşkil edən fikirlər meydana gəlməyə başladı.

Belə bir şəraitdə dövlət həyatının hüquqi təşkili problemləri prinsipial əhəmiyyət kəsb edir: hər kəsin qanun qarşısında bərabərliyini və fərdi azadlığı təmin etmək, hakimiyyətin bir şəxsin əlində cəmləşməsinə yol verməmək kimi ümdə missiyanı hüquq öz üzərinə götürməyə başlayır.

Həmin tarixi dövrün görkəmli mütəfəkkirləri cəmiyyətdə hüququn və dövlətin rolu barədə mütərəqqi fikirlər irəli sürmüş, bununla da hüquqi dövlət haqqında gələcək konsepsiyanın ayrı-ayrı elementlərini inkişaf etdirmişlər.

N.Makiavelli əsərlərində öz dövrünün tələblərinə optimal surətdə cavab verən ideal dövlətin səciyyəvi cəhətlərini şərh etmiş, dövlətin əsas məqsədinin mülkiyyətdən sərbəst istifadəyə imkan yaratmaqdan və hər kəsin təhlükəsizliyinə təminat verməkdən ibarət olduğunu göstərmişdi. O, idarəçilik forması kimi respublikaya üstünlük verirdi, çünki yalnız respublika, onun fikrincə, azadlığa və bərabərliyə təminat verə bilər.

Makiavelli tərəfindən dövlət və cəmiyyətin bir-birindən fərqləndirilməsi intibah dövrü dövlətinə və onun təşkilinə, habelə dövlət-şəxsiyyət əlaqələrinin inkişafına təkan verdi. Təbii hüquq nəzəriyyəsinin geniş dəstəklənməsi ilə tədricən bu cür ideyalar özünə yol açdı ki, insanlar hakimiyyətə qarşı üsyan etmək hüququna malikdirlər və dövlət insanların təbii və ayrılmaz hüquqlarını tanımalı və onları qorumalıdır. Həmin dövrün əsas fikir axınları mütləqiyyətə və mütləq hakimiyyətə qarşı yönəldiyindən və aparıcı sosial təbəqənin – burjuaziyanın təsiri altında formalaşdığından dövlətin sosial həyata müdaxiləsi minimuma endirilir, əvəzində şəxsiyyətin müstəqilliyi şişirdilirdi. Belə qəbul olunurdu ki, cəmiyyət özü-özünü tənzimləmə mexanizminə malikdir və dövlətin işi yalnız insanları mühafizə etmək olmalıdır. Məsələn, C.Lokkun fikrincə, dövlətin işi yalnız mülkiyyəti mühafizə etməkdir. T.Peyn belə fikir irəli sürmüşdü ki, cəmiyyət özü hökumətin edə biləcəyi hər şeyi edə bilər. Bu dövrdə dövlət və şəxsiyyət qarşı-qarşıya qoyulur və dövlətin ictimai həyata müdaxiləsinin zəruriliyi inkar edilirdi. Digər tərəfdən, xalq artıq müstəqil subyekt kimi səciyyələndirilirdi.

J.Boden siyasi fikir tarixində ilk dəfə olaraq suverenliyi dövlətin ən vacib əlaməti kimi səciyyələndirmişdir. O hesab edirdi ki, suverenlik qanunların ədalətli olub-olmamasından deyil, onların gücündən və yaradılması imkanlarından asılıdır. Görkəmli fransız mütəfəkkiri suverenliyin elementləri sırasında hər kəsə, o cümlədən dövlət orqanlarına ünvanlanmış qanunların qəbul edilməsini və məhkəmənin fəaliyyətini xüsusi qabardırdı. Boden yazırdı ki, dövlət ədalətə və təbiət qanunlarına uyğun olan hüquqi idarəetmədir. Onun fikrincə, dövlətin məqsədi daxili asayişi, ədaləti, azadlığı və sosial harmoniyanı təmin etməkdən ibarətdir. Boden zənn edirdi ki, ən yaxşı dövlətçilik forması monarxiyadır, belə ki, bu dövlətçilik suveren hakimiyyətə, onun vahidliyinə və bölünməzliyinə birbaşa cavab verən idarəçilik formasıdır. O, xalq hakimiyyətini və demokratiyanı qətiyyən qəbul etmirdi. Bununla belə, Boden quldarlıq institutuna çox mənfi yanaşırdı və onun ləğv edilməsinə tərəfdar çıxırdı.

H.Hrotsi hüquqi dövlət konsepsiyasının məğzində dayanan təbii hüquq məktəbinin banilərindən biri hesab olunur. O, təbii hüququ və iradə ilə müəyyən olunmuş hüququ fərqləndirirdi. Hrotsi yazırdı ki, təbii hüquq insanın təbiətindən irəli gəlir. Başqasının əmlakına yiyələnməmək, vurulmuş zərərin əvəzini ödəmək, təqsirli şəxslərə layiqli cəzalar vermək kimi müddəalar təbii hüquqa aiddir. Dövlətin müəyyən etdiyi hüquq (iradə ilə müəyyən olunmuş hüquq) təbii hüquqa tam uyğun olmalıdır. Hrotsi hesab edirdi ki, dövlətin məqsədi hər bir insana öz əmlakından sərbəst surətdə istifadə etməyə təminat verən hüquq normaları vasitəsilə xüsusi mülkiyyəti mühafizə etməkdən ibarətdir. Onun fikrincə, dövlətin istənilən formasının kökündə xalqla dövlət arasında bağlanmış ictimai müqavilə dayanır və idarəçilik formasının dəyişdirilməsi yalnız həmin ictimai müqavilənin hər iki tərəfinin razılığı ilə mümkün ola bilər.

B.Spinoza demokratik dövlətin nəzəri əsaslarını yaradan mütəfəkkirlərdən biri hesab olunur. Onun fikrincə, dövlət qanunlarla bağlıdır və insanın hüquqlarını və azadlıqlarını təmin edir. Dövlət yalnız o halda qüdrətli hesab oluna bilər ki, o, hər bir vətəndaşın təhlükəsizliyini qorumaqla yanaşı, onun maraqlarının təminatçısı kimi çıxış edir. Spinoza qeyd edirdi ki, dövləti idarə edənlər mülkiyyətə, təhlükəsizliyə, azadlığa, ləyaqətə və digər bəşəri nemətlərə qətiyyən qəsd etməməlidirlər.

T.Hobbs İngiltərədə mütləq monarxiyanı müdafiə etsə də, cəmiyyətdə hüququn prioritet roluna dair bir sıra mütərəqqi ideyalar irəli sürmüşdü. O, qanun qarşısında bərabərliyi, insan azadlığını ön plana çəkirdi. Hobbsun bu gün də xüsusi əhəmiyyət kəsb edən fikirlərindən biri ondan ibarət idi ki, azadlıq qanunla qadağan olunmayan hər şeyi etmək hüququdur.

C.Lokk vurğulayırdı ki, dövlət insanın təbii hüquqlarını müdafiə etmək üçün yaradılır. Belə dövlətdə təbii, ayrılmaz mülkiyyət hüquqlarına, fərdi azadlığa və bərabərliyə təminat verən qanun hökmranlıq edir. Onun fikrincə, azadlıq qanunun qadağan etmədiyi bütün hallarda insanın öz arzusuna uyğun hərəkət etmək azadlığı və digər insanın iradəsindən asılı olmaması kimi başa düşülür.

Hakimiyyətlərin bölünməsi ideyasını irəli sürməklə yanaşı, Ş.L.Monteskyö siyası azadlıq barədə mütərəqqi baxışları ilə də məşhurdur. O, siyasi azadlığı qanunçuluğun və təhlükəsizliyin müəyyən olunması kimi başa düşürdü. Monteskyö vurğulayırdı ki, hakimiyyətdən sui-istifadənin qarşısını almaq üçün hər kəs

qanuna riayət etməlidir. T.Hobbs və C.Lokk kimi o da belə bir fikirdə idi ki, azadlıq qanunlarla qadağan olunmayan hər şeyi etmək hüququdur; əgər vətəndaş bu qanunlarla qadağan olunanları edə bilsəydi, o halda o, azadlığa malik olmazdı, ona görə ki, eyni şeyi digər vətəndaşlar da edə bilərdilər.

D.Didro dövlət hakimiyyətini ictimai müqavilənin məhsulu kimi səciyyələndirirdi və hakimiyyətin suverenliyinin ictimai müqavilə üzərində qurulduğunu iddia edirdi. O hesab edirdi ki, dövlət hakimiyyəti suveren olan xalqın iradəsinə söykənir. Xalq hakimiyyətinin qətiyyətli tərəfdarı olan Didro yazırdı ki, yalnız xalq əsl suverendir, yalnız xalq əsl qanunverici ola bilər və yalnız xalq siyasi hakimiyyətin mənbəyidir. Onun fikrincə, dövlətin başlıca məqsədi vətəndaşların ayrılmaz hüquqlarını və onların xoşbəxtliyini təmin etməkdir. Didronun bu ideyaları sonralar İ.Kantın hüquqi dövlət nəzəriyyəsində daha da inkişaf etdirildi və təkmilləşdirildi.

XVIII əsrdə Fransanın siyasi və hüquq fikrində fərdilik konsepsiyası ön plana çıxır. Bu konsepsiyanın kökündə fərdi azadlıq, ümumi bərabərlik, mütləqiyyətin inkarı, xalq suverenliyi kimi mütərəqqi ideyalar dayanırdı. Göstərilən mütərəqqi baxışlar Fransada XVIII əsrin sonlarında əhəmiyyətli sosial-siyasi dəyişikliklərin həyata keçirilməsi üçün həlledici amil olmuşdu. Həmin dəyişikliklər bir sıra hüquqi aktlarda öz təsbitini tapmışdı ki, onların sırasında 1789-cu ildə qəbul olunmuş və bu günə kimi öz konstitusion əhəmiyyətini saxlayan İnsan və vətəndaşın hüquqları bəyannaməsi xüsusi yer tutur.

Xalq suverenliyi nəzəriyyəsinin ifrat forması J.J.Russonun əsərlərində öz əksini tapmışdı. O hesab edirdi ki, xalq özü ona məxsus hakimiyyəti realizə etməlidir. Bunun üçün seçkili şuralar təşkil olunmalı və onlar da hakimiyyəti həyata keçirməlidirlər. Xalq hakimiyyətinin aliliyini qəbul edən Russo bu səbəbdən də onun təcəssümü olan qanunverici orqan üzərində icra hakimiyyətinin nəzarətini heç cür qəbul etmirdi və belə düşünürdü ki, qanunverici hakimiyyət bütün digər hakimiyyət orqanlarından yüksəkdə duraraq onları idarə etməlidir. Müasir dövrdə demokratiyanın məhək daşı sayılan bu müddəa kifayət qədər mücərrəd və ümumi olduğundan onun realizəsi üçün bir sıra digər normaların, təşkilati mexanizmlərin müəyyən edilməsi lazım gəlir.

Russo hesab edirdi ki, dövlətdə mövcud olan hər üç hakimiyyət – qanunverici, icra və məhkəmə hakimiyyəti vətəndaşlarla birlikdə qanuna tabe olurlar və ölkədə qanunun aliliyi gerçəkləşir. Bununla da hüquqi dövlət insanın azadlığını və hüquqlarını qorumaqla yanaşı, dövlət hakimiyyətini də möhkəmləndirir, qanunun köməyilə vətəndaş cəmiyyəti təsisatlarının prinsip və dəyərlərinin səmərəli fəaliyyəti üçün şərait yaradır.

T.Peyn də xalq suverenliyini və seçki hüququnu müdafiə edir, xalqın üsyan etmək hüququna malik olduğunu əsaslandırırdı. O, xalqın seçki yolu ilə formalaşdırdığı demokratik respublikanı ən mütərəqqi idarəçilik forması hesab edirdi. Peynin qənaətinə görə, insanların təbii bərabərliyi problemi yalnız o zaman reallaşa bilər ki, ümumi seçki hüququ əsasında seçilən ali qanunverici hakimiyyət yaradılmış olsun. Peynin fikrincə, hakimiyyət vətəndaşların azadlığını və təhlükəsizliyini təmin etməlidir və cəmiyyətin bütün üzvlərinin mənafeyinə xidmət etməlidir.

Peyn təbii hüquqlarla vətəndaş hüquqlarını fərqləndirirdi. Təbii hüquqlar

insanın təbiətindən irəli gəlir. Cəmiyyətin və dövlətin yaranması nəticəsində insanlar öz hüquqlarının bir hissəsini dövlətə verirlər və bununla da onlar cəmiyyətin üzvü kimi vətəndaş hüquqları əldə edirlər. Bu cür əldə olunan hüquqlara Peyn misal olaraq mülkiyyət hüququnu göstərirdi.

Peyn yazırdı ki, dövlətin meydana gəlməsi və cəmiyyətdə ədalətin qorunub saxlanılması üçün əsas vasitə insanlar arasındakı ictimai müqavilədir.

1776-cı il iyulun 4-də təsdiqlənmiş "Amerika Birləşmiş Ştatlarının Müstəqillik haqqında Bəyannaməsi"nin müəllifi Tomas Cefferson təbii hüquq nəzəriyyəsinin və xalq suverenliyi ideyasının prinsipial tərəfdarı idi. Onun qənaətinə görə, bütün vətəndaşlara dövlət hakimiyyətinin təşkilində bərabər əsasda iştirak etmək hüququ təmin olunmalıdır. Ceffersonun əsas mülahizələrindən biri bu idi ki, əgər hakimiyyət xalqın hüququnu pozursa, xalq mövcud hakimiyyəti dəyişdirməli və öz mənafeyinə uyğun yeni dövlət hakimiyyət strukturu yaratmalıdır. O, dövlətin fərdə qarşı hər hansı özbaşınalığını yolverilməz hesab edirdi.

Cefferson yazırdı ki, heç kəs təbii hüquqdan məhrum edilə bilməz. O, təbii hüququ dəyişilməz hesab edirdi: "dünyada təbii hüquqdan başqa hər şey dəyişir". Ceffersonun fikrincə, təbii hüquq dövlət hakimiyyətinin verdiyi qanunlardan daha yuxarıda dayanır.

Diqqətəlayiq haldır ki, Ceffersonun müəllifi olduğu "Amerika Birləşmiş Ştatlarının Müstəqillik haqqında Bəyannaməsi"ndə xalqın suverenliyi, zülmkar hakimiyyətə qarşı üsyan hüququ, xalqın iradəsinə uyğun olan siyasi rejimə keçmək hüququ öz əksini tapmışdı. Xüsusilə vurğulamaq istərdik ki, "Amerika Birləşmiş Ştatlarının Müstəqillik haqqında Bəyannaməsi" tarixdə xalq suverenliyi ideyasını dövlətin əsası elan edən ilk hüquqi sənəddir. Bunlarla yanaşı, Bəyannamədə göstərilirdi ki, təbii, ayrılmaz insan hüquqları mövcuddur və həmin hüquqların təmin edilməsi üçün dövlət yaradılır. Rəsmi dövlət doktrinası üçün bu, tamamilə yeni bir müddəa idi, çünki o vaxta qədər belə hesab olunurdu ki, insanlara hüquqları dövlət verir.

1780-ci ildə, Massaçusetsin Konstitusiya layihəsi üzərində işləyərkən sonralar ABŞ-ın ikinci prezidenti olmuş Con Adams bəyan etmişdi ki, "biz adamların deyil, qanunların idarəçiliyini qurmalıyıq" [5].

## ƏDƏBİYYAT


1. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Lider, 2005, 280 s.
2. Quliyev A.İ. XIII əsrin sonu XIV əsrin əvvəllərində Azərbaycanda siyasi-hüquqi təlimlər. Bakı: Qanun, 1993, 120 s.;
3. Şirəliyev H., Əhmədov Ə. Politologiya. Ali məktəblər üçün dərslik. Üçüncü nəşr. Bakı: Apostroff, 2014, s. 391.
4. Батурин Ю.М., Лившиц Р.З. Социалистическое правовое государство: от идеи к осуществлению. М., 1989, 256 с.
5. Головко Ю.М. Правовые идеи американцев перед революцией (1776 - 1783 гг.): Джон Адамс // http://www.justicemaker.ru/view-article.php?id=26&art=2325
6. Демокрит в его фрагментах и свидетельствах древности / Под ред. Г.К.Баммеля. М.: ОГИС, 1935. 384 с.
7. Марченко М.Н. Правовое государство и гражданское общество (теоретико-правовое исследование). Учебное пособие. М., 2015, 646 с.
8. Платон. Сочинения в четырех томах. Том 3. часть 2 под общей редакцией А.Ф.Лосева и В.Ф.Асмуса, Перевод с древнегреческого, Санкт-Петербург, 2007, 752 с.

9. Проблемы общей теории права и государства. М., 1999, с. 814.
10. Раянов Ф.М. Теория правового государства. Проблемы модернизации. Уфа, 2010, 136 с.
11. Рзаев А. Насиреддин Туси /политико-правовые воззрения/. Баку: Элм, 1983, 230 с.
12. Хропанюк В.Н. Теория государства и права. М., 1997, 570 с.

## АНАЛИЗ ГУМАНИСТИЧЕСКИХ ИДЕЙ, СПОСОБСТВОВАВШИХ СТАНОВЛЕНИЮ КОНЦЕПЦИИ ПРАВОВОГО ГОСУДАРСТВА

**З.А.АСКЕРОВ**

**РЕЗЮМЕ**

В статье рассматриваются гуманистические идеи античных и средневековых мыслителей, оказавшие влияние на возникновение и историческое развитие концепции правового государства, подвергаются критике мнения юристов-правоведов относительно возникновения теории правового государства в период античности, подчеркивается значение исторических, экономических, политических и социальных условий, обусловивших формирование данной концепции. Автор отмечает, что несмотря на то, что полное становление концепции правового государства приходится на современный период, первичные идеи, оказавшие влияние на ее формирование, принадлежат античным и средневековым мыслителям. С данной позиции в статье рассматриваются идеи древнегреческих философов, римских юристов и средневековых просветителей о верховенстве права, естественном происхождении права, необходимости признания государством естественных прав человека, базировании права на свободе и справедливости, правовом равенстве людей, а также возникновении государства на основе общественного договора.

**Ключевые слова:** правовое государство, концепция прав человека, принцип разделения властей, Rule of law, правовая определенность, общественный договор.

## ANALYSIS OF HUMANISTIC IDEAS AS AN IMPETUS TO THE FORMATION OF THE CONCEPT OF RULE OF LAW

**Z.A.ASGAROV**

**SUMMARY**

The article analyzes the humanistic ideas of antique and medieval thinkers, influencing the formation and development of the concept of rule of law, and criticizing the ideas of legal scholars on the formation of the theory of the rule of law during antiquity, and indicates that there should be definite historical, economic, political and social conditions for emergence of any social concept. The author notes that although the concept of rule of law was fully formed in new era, the original ideas influencing its formation belong to antiquity and medieval thinkers. From this point of view, theoretical legal relationships of the Greek philosophers, Roman lawyers and medieval educators to the supremacy of law, natural origin of law, inevitability of the recognition of natural human rights by the state, law based on freedom and justice, human rights equality, and the state based on a social contract are analyzed in the article.

**Keywords:** rule of law, concept of human rights, principle of separation of powers, legal certainty, social contract

_BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2018

УДК 342

# ПОНЯТИЕ ПРАВА НА ПОЛУЧЕНИЕ КВАЛИФИЦИРОВАННОЙ ПРАВОВОЙ ПОМОЩИ

**А.Р.БАГИРОВ**
***Коллегия адвокатов Азербайджанской Республики***
***anar.baghirov@barassociation.az***

*Целью данной статьи является исследование понятия права на получение квалифицированной правовой при помощи методов научного познания, данное право рассматривается через призму таких категорий как сущность, содержание и форма.*

*На основе исследования автором права каждого на получение квалифицированной правовой помощи определяется как конституционная гарантия права каждого человека, находящегося в затруднительном (финансовом и фактическом) положении, на содействие в решении проблем правового характера, которое должно отвечать международным стандартам и обеспечиваться государством.*

**Ключевые слова:** правовая помощь, юридическая услуга, квалифицированная правовая помощь, правовая гарантия, государства

Одной из форм внешнего выражения права, формой существования права является законодательство, в том числе в Азербайджанской Республике. В связи с интенсивным развитием общественных отношений, обусловленным глобализационными процессами в мире, возникает необходимость в появлении нового, а также в постоянном изменении и дополнении такого динамичного источника права. Также постоянное, все возрастающее количество правовых отношений в обществе вызывает повышенный спрос на рынке юридических услуг. Именно в связи с этим возникает тотальная необходимость в принятии нормативно-правового акта, который регулировал бы правоотношения на предмет обеспечения государством права каждого на квалифицированную правовую помощь. И, как большинство нормативно-правовых актов, он должен начинаться с определения основных понятий, в том числе понятия «право каждого на получение квалифицированной правовой помощи».

Роль определения данной дефиниции нельзя недооценивать, поскольку правильное понимание данного понятия предопределяет дальнейший вектор регламентации соответствующих правоотношений. Кроме этого степень совершенства понятийно-категориального аппарата закона свидетельствует об уровне эффективности такой регламентации. Поэтому, для создания (формирования) эффективного нормативно-правового акта, который регулировал

бы правоотношения касательно обеспечения государством права каждого на квалифицированную правовую помощь, является крайне важным правильное определение соответствующего понятия.

Чтобы достичь указанной цели целесообразно воспользоваться таким методом научного познания, как диалектика. А именно, рассмотрим право каждого на квалифицированную правовую помощь через призму таких категорий как сущность, содержание и форма.

Исходя из того, что все указанные категории это категории философские, то согласно философской энциклопедии под «сущностью» понимается внутреннее содержание предмета, выражающееся в устойчивом единстве всех многообразных и противоречивых форм его бытия [10, 682]. Также под «сущностью» понимается внутренняя, скрытая от непосредственного восприятия, относительно постоянная сторона, что обуславливает качественную специфику и господствующую тенденцию изменения предмета или процесса. … Сущность не лежит на поверхности явлений и проявляется в многообразности явлений. Это и есть отображение неисчерпаемости самой сущности. … Сущность глубже явления, она есть проявление внутренне необходимых связей. Сущность выражает общее [15, 196-197].

То есть, под сущностью конституционного права каждого на получение квалифицированной правовой помощи нужно понимать то внутреннее и постоянное, что не изменяется при многообразности его явлений. Многообразность явлений в данном аспекте это виды правовой помощи. А внутреннее и постоянное, что присуще праву каждого на получение квалифицированной правовой помощи, независимо от видов и субъектов предоставления такой помощи, является то, что это право является гарантией конституционно-правового статуса человека и гражданина. Следовательно, сущностью анализируемого права является то, что оно есть гарантией. Именно так и следует рассматривать указанное выше конституционное право. Только через призму диалектического симбиоза неотъемлемого права человека и гражданина на получение правовой помощи, входящего в систему общих прав, сущность которого проявляется как конституционная гарантия, возможно создать эффективный механизм его реализации.

Философские категории содержание и форма отражают одну из диалектических закономерностей связи между теми сторонами предметов и явлений объективной действительности, которые определяют их сущность. Под содержанием принято понимать совокупность элементов предмета, которые составляют его основу; под формой - способ соединения, организации этих элементов, структуру предмета. Любому явлению присущи как содержание, так и форма; нет формы без содержания, а содержание в свою очередь выступает в определенной форме. Между содержанием и формой существует диалектическая взаимосвязь, в котором содержание играет определяющую роль касательно формы, его изменения обусловливают изменение формы [15, 296].

Так, содержанием права каждого на квалифицированную правовую помощь является все разнообразие видов оказания правовой помощи соответственными субъектами (адвокатами, нотариатом, юрисконсультом и т.д.), например, устная консультация, письменное разъяснение, посредничество, представительство в суде, в органах власти, составление заявлений, исков, жалоб, ходатайств и др. Немало ученых-правоведов раскрывают понятие правовой помощи именно через категорию «содержание».

Однако определение рассматриваемой дефиниции только через категорию «содержание», минуя категорию «сущность» и «форма», является неполным и не лишенным некоторых недостатков. Кроме этого, в научной юридической литературе часто говоря об одном и том же правовом явлении используется разная терминология. Так, в аспекте рассматриваемого нами вопроса, одно и то же правовое явление называют «правовая помощь», «юридическая помощь», «квалифицированная юридическая помощь», «юридические услуги» и т.д.

Представляется необходимым уточнить смысл указанных понятий. Для начала остановимся на понятиях «правовая помощь» и «юридическая помощь».

По этому поводу отражена интересная полемика в монографическом исследовании Панченко В.Ю. Так, Милинчук В.В. и Лазутин Л.А. считают, что термин «правовая помощь» употребляется прежде всего в международном праве для обозначения отношений сотрудничества между государствами в правовой сфере [7; 9]. Также утверждает и Фадеев П. О. Считая, что правовая помощь в уголовном процессе рассматривается в двух плоскостях: на национальном (внутригосударственном) и международном (межгосударственном) уровнях. В первом случае граждане, выступая субъектами уголовного процесса, через государственные органы, а также либо с помощью защитника, либо самостоятельно реализуют свои права. Во втором – они в основном опосредованно через государства, являющиеся субъектами международного права, обеспечивают защиту своих прав и свобод [17, 73].

На приводимые выше тезисы Панченко В.Ю. предлагает следующее. В целях необходимости терминологической точности для характеристики одного явления следует использовать один термин – за термином «правовая помощь» целесообразно оставить смысл, придаваемый ему в международном праве, а для обозначения вида помощи в правовой сфере использовать словосочетание «юридическая помощь», поскольку именно оно получило конституционное закрепление в ст. 48 гл. 2 «Права и свободы человека и гражданина» Конституции РФ [11, 70-80].

Однако, приводимые аргументы Панченко В.Ю. являются дискуссионными. Так, во-первых, разграничение понятий «правовая помощь» и «юридическая помощь» в аспекте международного права и внутригосударственного является не вполне логичным, поскольку сущность действий при оказании правовой помощи в данном понимании не отличается от сущности

действий при оказании юридической помощи. Поэтому такое разграничение является формальным. Во-вторых, отдание преимущества понятию «юридическая помощь» всего лишь на том основании, что так закреплено в Конституции Российской Федерации представляется совсем не убедительным. Ведь, например, в Конституциях других стран, в том числе Азербайджанской Республики, речь идет именно о правовой помощи.

Анализируя соотношение понятий «правовая помощь» и «юридическая помощь», напрашивается вывод, что их разграничение в научной юридической литературе является лишь искусственной и надуманной проблемой, которая вовсе не оправдывает себя, а создает лишь большую путаницу. Ведь этимология слова «юридический» происходит от лат. «jus» - «право; справедливость», а также «juridicus» - «судья». И хотя «juridicus» переводится одним словом «судья», однако в словаре указано, что оно состоит из двух слов «jus» и «dico», что обозначает «право», «возвещать, провозглашать, утверждать, устанавливать» [2]. Исходя из лексико-семантического анализа, слово «юридический» обозначает связанный с правовыми нормами, правовым законодательством и их практическим применением; относящийся к юристам, а также к изучению правоведения, юриспруденции; официальный, имеющий или дающий законное право на что-либо. То есть слово «юридический» имеет непосредственную лексико-семантическую и этимологическую связь с словом «право». Само слово «право» происходит от старославянского слова «правъ», поэтому можно смело утверждать, что слово «юридический» есть лишь заимствованным словом латинского происхождения и является синонимом слова «правовой».

Теперь попробуем разобраться с понятиями «правовая/юридическая помощь» и «юридические услуги». Анализ научной юридической литературы показал, что при исследовании данных понятий акцент, в основном, ставился на изучение содержания слова «юридическая/правовая» (для того, чтобы не путаться, в дальнейшем будем использовать слово «правовая»), оставляя без внимания слово «помощь». Однако, по нашему глубокому убеждению, качественное определение дефиниции «правовая помощь» невозможно без исследования словосочетания в целом.

Шаров Г.К. считает, что «бессмысленно искать различия в понятиях «юридическая помощь» и «юридические услуги» [18, 45], тем самым отождествляя их. Однако стоит не согласиться с данным мнением, по скольку слова «помощь» и «услуга» придают совсем разное содержательное наполнение данному словосочетанию.

Слово «помощь» происходит от глагола «мочь», т.е. быть в состоянии, обладать возможностью и способностью сделать что-либо. «Мочь» и «мощь» – слова родственные. Быть в состоянии мочь – значит обладать мощью этого «моженья», обладать потенцией вообще. Отсюда «ч» и «щ» в ходе развития языка, по–видимому, сплелись, стали взаимозаменяемыми. Приставка «по» означает не что иное, как приложение постороннего или некой

внешней силы к тому, что сам человек сделать не может [5, 17].

Помощью называют ситуацию, когда вы оказываете содействие, поддержку кому-либо. Если кто-либо зовёт на помощь, значит, он просит спасения в какой-либо трудной ситуации [14].

То есть под «помощью» следует понимать, во-первых, содействие иного лица, во-вторых, такую жизненную ситуацию, когда момент необходимости помощи уже наступил (должно было уже что-то произойти, что бы лицу понадобилось чье-то содействие), в-третьих, такое содействие является неотложным (поэтому слово «помощь» употребляют еще и в таких словосочетаниях как «скорая помощь», «первая помощь» и т.д.)

Главным отличием услуги от помощи является не такой срочный ее характер, а также, как правило, платность таких действий. Приведем пример, существуют понятия «скорая помощь» и «медицинские услуги». Под «скорой помощью», по общему правилу, понимается оказание первой бесплатной медицинской помощи доктором и медсестрой, ездящих на автомобиле по срочным вызовам. Медицинские услуги можно получить от тех же доктора или медсестры, но уже в поликлинике или в больнице на платной или безвозмездной основе (если речь идет о государственных учреждениях). Данную аналогию можно провести и с понятиями «правовая помощь» и «правовые услуги». Правовая помощь предоставляется в исключительных случаях при необходимости на безвозмездной основе. Собственно, именно о ней идет речь в Конституции Азербайджанской Республики, когда провозглашается право каждого на квалифицированную правовую помощь, подразумевая также и право малоимущих слоев населения на правовую помощь. Поэтому она оказывается безвозмездно.

Данное мнение поддерживается и другими учеными-правоведами. Так, Заборовский В.В. [6, 133-135] считает, что ключевым в понимании термина «помощь» является его восприятие как деятельности, направленной на содействие (поддержку, помощь) лицу, в том числе, когда она находится в беде. Необходимость оказания помощи нуждающемуся лицу, заключается в том, что ее неполучения характеризуется возможностью причинения такому лицу существенный вред.

Развивая данную мысль, автор говорит, что предвидя возможность наступления в жизни человека сложных (проблемных) правовых ситуаций, государство должно обеспечивать существование надлежащего правового механизма защиты его прав, именно поэтому государство, закрепляя право каждого на квалифицированную правовую помощь на конституционном уровне, берет на себя обязанность гарантировать обеспечение прав и свобод человека как одних из основных жизненных ценностей человека.

… Все это дает возможность разграничить понятия «правовая помощь» и «правовая услуга» и по сфере их правового регулирования, соблюдая при этом позиции, согласно которой правовые услуги относятся к сфере гражданско-правовых правоотношений, тогда как правовая помощь является

прежде всего институтом конституционного права. Как умело отмечает Т.Б. Вильчик, указанное конституционное регламентирование гарантирует гражданам право на правовую помощь как категорию реализации их прав, но не гарантирует им услугу как категорию межсубъектных гражданско-правовых отношений как экономическое благо [3].

Исходя из выше изложенного, отличительными чертами понятий «правовой помощи» и «правовых услуг» является срочная необходимость в совершении определенного содействия (то есть наличие конкретной безотлагательной проблемы правового характера), безвозмездность, а также разная их правовая отраслевая принадлежность.

Дальнейшее исследование содержания понятия «право на квалифицированную правовую помощь» ставит задачу определить содержание слова «квалифицированный» касательно правовой помощи.

В юридической практике наличие высшего юридического образования у лица, оказывающего квалифицированную юридическую помощь, является обязательным условием, однако для оказания именно квалифицированной юридической помощи его недостаточно [13, 2].

Согласно Постановлению Конституционного Суда РФ государство, гарантируя право на получение именно квалифицированной юридической помощи, должно, во-первых, обеспечить условия, способствующие подготовке квалифицированных юристов для оказания гражданам различных видов юридической помощи, и, во-вторых, установить с этой целью определенные профессиональные и иные квалификационные требования, и критерии [12]. Однако, в российском законодательстве, как и в азербайджанском, критерии (стандарты) квалифицированной юридической помощи не определены [1, 21].

Интересным представляется подход С.Н. Гаврилова к толкованию слова «квалифицированная» в аспекте юридической помощи. Так, по его мнению, квалифицированность помощи – это необходимое, но недостаточное условие достижения соответствующего требованиям качества помощи, а Конституция РФ гарантирует квалифицированную помощь, но не гарантирует качественную помощь [4, 19].

Однако позволим себе не согласиться с таким подходом. Ведь исходя из этимологии слова, термин «квалификация», согласно переводу с латинского языка, состоит из слов «qualificatio» («какой, какого качества») и «facere» («делать»), то есть «делать качественно». Поэтому, если в Конституции делается указание именно на квалифицированную правовую помощь, то несомненно речь идет об оказании качественной правовой помощи.

Выяснив содержание права каждого на получение квалифицированной правовой помощи можно перейти к определению его формы. За своей формой конституционное право каждого на получение квалифицированной правовой помощи – это мера, способ, активная форма поведения субъектов оказания и получения правовой помощи. Опосредованное содержанием и сущ-

ностью, данное конституционное право является наиболее динамичным компонентом указанного явления. Форма дает возможность не только внешне очертить, систематизировать это право-гарантию, но и «процессуализирует» его. Отвечая на вопрос «как?», форма является возможностью и процедурно-процессуальным аппаратом использования и защиты человеком и гражданином этого права-гарантию в порядке, определенном Конституцией и другими законами. Определение формы указанного явления имеет большой как теоретический, так и прикладной интерес. Ведь в свое время, еще К. Маркс и Ф. Енгельс писали, что если бы форма проявления и сущность вещей непосредственно совпадали, то всякая наука была бы излишня [8, 26].

Анализ рассматриваемого нами права через призму категорий сущности и содержания дает возможность утверждать, что формой конституционного права каждого на получение квалифицированной правовой помощи является активная деятельность (процесс) оказания и получения бесплатной квалифицированной правовой помощи.

Рассмотрев право каждого на получение квалифицированной правовой помощи через призму категорий сущность, содержание и форма в качестве выводов можем предложить авторское видение данной дефиниции. Так, право каждого на получение квалифицированной правовой помощи – это конституционная гарантия каждого человека, находящегося в затрудненном (финансовом и фактическом) положении на содействие в решении проблем правового характера, которое должно отвечать международным стандартам и обеспечиваться государством.

Данная дефиниция отображает сущность, содержание и форму рассматриваемого правового явления. Более того, указание на «проблемы правового характера», а не на перечисление видов правовой помощи делает дефиницию универсальной, а потенциальную перспективную законодательную норму гибкой. Ведь с развитием общественных отношений появляется необходимость в предоставлении новых видов правовой помощи, поэтому не имеет смысла в данной дефиниции перечислять виды правовой помощи. То же самое касается и субъектов оказания правовой помощи.

## ЛИТЕРАТУРА


1. Амельков Н.С. Оказание квалифицированной юридической помощи заявителю и свидетелю в уголовном судопроизводстве: дисс. ... канд. юрид. наук: 12.00.09 / Н.С.Амельков. М., 2014, 172 с.
2. Большой латинско-русский словарь по материалам словаря И. Х. Дворецкого [Электронный ресурс]. – Режим доступа: http://linguaeterna.com/vocabula/index.php
3. Вільчик Т.Б. Конституційно-правовий статус адвокатури України / Т.Б.Вільчик // Теорія і практика правознавства, 2015, Вип. 2 (8). [Електронный ресурс]. – Режим доступа : http://tlaw.nlu.edu.ua/article/view/63588/ 59052.
4. Гаврилов С.Н. К вопросу о толковании отдельных терминов в контексте построения корпоративной системы менеджмента качества юридической помощи (услуг) в адвокатуре / С.Н.Гаврилов // «Адвокатская практика», 2010, № 5, с. 4-19.
5. Дудкин А.С. Социальная помощь как форма общественных отношений (социально–

философский аспект): дис. … канд. филос. наук.: 09.00.11 / А.С.Дудкин. Пенза, 2006, 144 с.
6. Заборовський В.В. Співвідношення понять «правова допомога» та «правова послуга» в аспекті визначення сутності професійної діяльності адвоката / В.В. Заборовський // Науковий вісник Ужгородського національного університету. Серія «Право», 2016. Вип. 40. т. 2, с. 131-137
7. Лазутин Л.А. Правовая помощь по уголовным делам как комплексное формирование в международном уголовном и уголовно–процессуальном праве: дис. … д-ра юрид. наук : 12.00.10 / Л.А.Лазутин. Екатеринбург, 2008, 434 с.
8. Маркс К. Избранные сочинения. в 9 т. / К.Маркс, Ф.Энгельс. М.: Политиздат., 1984–1988, т. 7, 1987, 812 с.
9. Милинчук В.В. Взаимная правовая помощь по уголовным делам: общие условия оказания и формы (действующая практика и перспективы развития): дис. … канд. юрид. наук.: 12.00.09 / В.В.Милинчук. М., 2001, 320 с.
10. Новая философская энциклопедия: В 4 т./Ин-т философии РАН, Нац. общ.-научн. фонд; Научно-ред. совет: предс. В.С.Степин, заместители предс: А.А.Гусейнов, Г.Ю.Семигин, уч. секр. А.П.Огурцов. М.: Мысль, 2010-2010, т. III. 2010, 692 с.
11. Панченко В.Ю. Юридическая помощь (вопросы общей теории): монография [Текст] / В.Ю.Панченко. Красноярск: Сиб. федер. ун-т, 2011, 279 с.
12. Постановление Конституционного суда Российской Федерации от 28 января 1997 г. N 2-П «По делу о проверке конституционности части четвертой статьи 47 Уголовно-процессуального кодекса РСФСР в связи с жалобами Б.В.Антипова, Р.Л.Гитиса и С.В.Абрамова» – [Электронный ресурс]. – Режим доступа: http://www.consultant.ru/cons/cgi/online.cgi?req=doc&base=LAW&n=13370&fld=134&dst=1000000001,0&rnd=0.3685133031268035#0
13. Семеняко Е.В. Критерии квалифицированного и профессионального характера адвокатской помощи как ценностный аспект законодательства об адвокатской деятельности и адвокатуре / Е.В.Семеняко // “Адвокатская практика”, 2009, № 5, с. 2-5
14. Толковый словарь русского языка Дмитриева Д.В. [Электронный ресурс]. – Режим доступа : http://dic.academic.ru/dic.nsf/dmitriev/3897/%D0%BF%D0%BE%D0%BC%D0%BE%D1%89%D1%8C
15. Українська Радянська Енциклопедія: в 17 т. / [Бажан М.П. та ін.]. – К.: Книжково-журнальна фабрика Головполіграфвидаву Міністерства культури УРСР, 1959–1965. – (Академія наук Української Радянської Соціалістичної Республіки). Т.14, 1963, 592 с.
16. Українська Радянська Енциклопедія: в 17 т. / [Бажан М. П. та ін.]. – К.: Книжково-журнальна фабрика Головполіграфвидаву Міністерства культури УРСР, 1959–1965. (Академія наук Української Радянської Соціалістичної Республіки). Т. 5, 1961, 560 с.
17. Фадеев П.О. О понятии правовой помощи личности в уголовном процессе // Уголовное право, 2002, № 1, с. 72-74.
18. Шаров Г.К. Российская адвокатура на рынке юридических услуг // Вестник Федеральной палаты адвокатов России, 2006, № 4, с. 44–57

**İXTİSASLI HÜQUQİ YARDIM ALMAQ HÜQUQUNUN ANLAYIŞI**

**A.R.BAĞIROV**

**XÜLASƏ**

Hazıkı məqalənin məqsədi elmi idrakın dialektika metodunun köməyilə ixtisaslı hüquqi yardım almaq hüququnun anlayışını mahiyyət, məzmun və forma anlayışlarının prizmasından təhlil etməkdir.

Aparılmış tədqiqatlar əsasında, müəllif tərəfindən ixtisaslı hüquqi yardım almaq hüququna çətin (maliyyə və ya faktiki) vəziyyətə düşən hər bir şəxsin problemlərinin həllinə beynəlxalq tələblərə cavab verən və dövlət tərəfindən təmin edilən köməklik göstərilməsinin konstitusion təminatı şəklində tərif verilir

**Açar sözlər:** yardım, hüquqi yardım, hüquqi xidmət, ixtisaslı hüquqi yardım.

## THE DEFINITION OF THE RIGHT TO THE QUALIFIED LEGAL AID

**A.R.BAGHIROV**

**SUMMARY**

The purpose of this article is the research of the concept of the right to the qualified legal aid by methods of scientific knowledge as dialectics, considering the right of everyone for the qualified legal aid through a prism of such categories as essence, contents and a form.

On the basis of the research, the author defines the right of everyone to receive the qualified legal aid as the constitutional guarantee of each person who is in a complicated (financial and actual) situation for assistance in the solution of problems of legal character which has to meet the international standards and be provided with the state.

**Keywords:** the help, legal help, legal service, legal aid, the qualified legal help.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2018

UOT 343.1.

# CİNAYƏT PROSESİNİN "DÖVLƏTİLİK", "RƏSMİLİK" YOXSA "PUBLİKLİK" PRİNSİPİ?

**Q.V.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***qehreman79@mail.ru***

*Qüvvədə olan cinayət-prosessual qanunvericiliyə əsasən, təhqiqatçı, müstəntiq və ya prokuror hazırlanan, yaxud törədilən cinayətin əlamətlərini əks etdirən əməllər barədə məlumat aldıqda və ya cinayət hadisəsini bilavasitə aşkar etdikdə qanunla müəyyən edilmiş qaydada cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməli, həmçinin öz səlahiyyətləri daxilində dərhal təhqiqat və ya istintaq aparmalıdırlar. Qanunun məhz bu müddəası özündə cinayət prosesinin publikliyi prinsipinin mahiyyətini əks etdirir. Lakin bu müddəanın CPM-in cinayət prosesinin prinsiplərinə həsr edilmiş fəslində təsbit edilməməsi səbəbindən, bu prinsipin adı və məzmunu barədə məsələlər müzakirəyə açıq qalır. Məqalə bu prinsipin hüquq ədəbiyyatında ən geniş yayılmış adlarından hansının daha məqsədəuyğun olması məsələsinə həsr edilmişdir.*

**Açar sözlər:** cinayət prosesi, prinsip, terminologiya, dövlətilik, rəsmilik, publiklik, təhlil, müqayisə.

Prof. M.F.Məlikovanın qeyd etdiyi kimi, hüququn prinsipləri hüququn mahiyyətini, ictimai təyinatını və məqsədyönlülüyünü xarakterizə edən ilkin başlanğıclar və əsaslardır (5, 162). Milli cinayət-prosessual hüquq elminin banilərindən biri olan professor C.H.Mövsümovun qeyd etdiyi kimi, cinayət prosesinin prinsipləri dedikdə, cinayət prosesinin demokratik təbiətini və sosialist xarakterini (nəzərdən keçirlən anlayış sovet cinayət prosesinin prinsiplərinə verildiyi üçün burada "sosialist" xarakterin xüsusi vurğulanmasına normal yanaşmaq lazımdır – Q.V.Cəfərov), habelə onun vəzifələrini müəyyən edən hüquq normalarında möhkəmləndirilmiş əsas rəhbər müddəalar başa düşülür (6, 46).

Cinayət prosesinin hər bir prinsipi hansısa bir ideyanın "hüquqi formulunu" nəzərdə tutur və bu "hüquqi formul" qüvvədə olan qanunvericilikdə təsbit edilərkən daha da konkretləşir, lakonik bir adla, hətta bəzən bir sözlə ifadə oluna bilir. Məsələn, cinayət prosesində "qanunçuluq" prinsipi dedikdə, hər kəs cinayət mühakimə icraatında tətbiq edilən normativ-hüquqi aktların iyerarxiyasına ciddi riayət edilməli olması haqqında ideyanın nəzərdə tutulduğunu başa düşür (1, 89).

Bununla belə, cinayət-prosessual hüququn elə prinsipləri də vardır ki,

qüvvədə olan cinayət-prosessual qanunvericilikdə bu prinsipləri təsbit edən müstəqil maddələrin nəzərdə tutulmaması səbəbilə onların necə adlandırılmalı olması və "hüquqi formuluna" hansı müddəaların aid edilməli olması məsələsi müzakirəyə açıq qalır. Cinayət prosesində "dispozitivlik", eləcə də "publiklik" kimi prinsiplər belə prinsiplərin bariz nümunələridirlər. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin şərh edilməsinə dair" 15 iyul 2011-ci il tarixli Qərarında göstərilir ki, zərər çəkmiş şəxsin təqsirləndirilən şəxslə barışması nəticəsində təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsilə əlaqədar cinayət işinə xitam verilməsinin əsaslarının və şərtlərinin müəyyənləşdirilməsi cinayət hüququnda və cinayət prosesində dispozitivlik prinsipinin (cinayət prosesi subyektinin özünün maddi və prosessual hüquqlarından istifadə etmək imkanının) gücləndirilməsi kimi çıxış edir. Lakin CM-in 73-cü maddəsində bu prinsip CPM-in 37.2-ci maddəsindən fərqli şəkildə özünü büruzə verir. Xüsusi ittihamlı işlərdən fərqli olaraq, böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə dispozitivlik prinsipi cinayət işinin başlanılması mərhələsinə təsir göstərmir. CM-in 73-cü maddəsində isə imperativ norma ifadə edilməmişdir. Bu maddəyə müvafiq olaraq dispozitivliyin təsiri ictimailiklə bir müstəviyə qoyula bilməz. Belə ki, aralarında barışığa gəlmiş zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin iradələrini ifadə etmələri işə xitam verilməsinə dair qərarın qəbul edilməsinə səbəb olmur, sadəcə səlahiyyətli orqanlar tərəfindən belə qərarın qəbul edilməsini mümkün edən şərtlərdən biri qismində çıxış edir. Qanun belə qərarın qəbul edilməsini səlahiyyətli orqanların vəzifəsi deyil, hüququ kimi müəyyən etmişdir.

Konstitusiya Məhkəməsinin qərarından götürülmüş bu hissəyə diqqətlə baxdıqda, aşkar görünür ki, Konstitusiya Məhkəməsi öz qərarında "cinayət prosesində dispozitivlik prinsipi", "ictimailik prinsipi" kimi ifadələrə yer verir, lakin biz CPM-in II Fəslinə diqqət etdikdə, həmin prinsiplərin CPM II Fəslində müstəqil normalar qismində təsbit edilmədiyinin şahidi oluruq.

Bununla yanaşı, konkret normativ ifadəsi mövcud olmadığına görə, həmin prinsiplər, xüsusən də publiklik prinsipi, nəzəri mənbələrdə fərqli-fərqli terminlərlə adlandırılır. Bu da, öz növbəsində, hüquq ədəbiyyatının dərk edilməsi, yeni elmi tədqiqat işlərinin aparılması işini və s. çətinləşdirir.

Başqa sözlə, Azərbaycan Respublikasında cinayət prosesi üçün ictimai maraqların və dövlət maraqlarının üstün hesab edildiyi hallarda cinayət təqibinin zərərçəkmiş şəxsin iradəsindən asılı olmayaraq, dövlət orqanları tərəfindən başlanmalı və davam etdirilməli olması haqqında ideya mövcud olsa da, bu ideyanın konkret ad altında bir prinsip kimi təsbit edilməmiş olması aktual problemlərdəndir.

Qeyd edilən hüquqi ideyanın doktrinal izahı üçün professor C.H.Mövsümov cinayət prosesinin prinsiplərinin sisteminə "Cinayət işi başlama və cinayəti açma – dövlətilik prinsipi" kimi bir prinsipi də aid etmişdir. Maraqlıdır ki, bu prinsipin adı müəyyən qədər dəyişdirilərək professor M.Ə.Cəfərquliyev tərəfindən də cina-

yət prosesinin prinsipləri sisteminə aid edilmişdir. Sonuncu, bu prinsipi "Cinayət işi başlama və cinayəti açma dövlətçilik prinsipi" adlandırmışdır (3, 96).

Göründüyü kimi, professor C.H.Mövsümov nəzərdən keçirilən prinsipin ifadə edilməsi üçün "dövlətilik", professor M.Ə.Cəfərquliyev isə "dövlətçilik" sözlərindən istifadə etməyə üstünlük vermişdir. İstər-istəməz sual yaranır, görəsən baxılan prinsipin mahiyyətinin ifadə edilməsi üçün hansı söz daha məqsədəuyğundur? Bu suala cavab verə bilmək üçün, ilk növbədə, həm "dövlətilik" həm də "dövlətçilik" sözlərinin mənalarından xəbərdar olmaq lazımdır.

Azərbaycan dilinin izahlı lüğətində "dövləti" sözünün aşağıdakı mənaları qeyd edilmişdir: dövlətə aid; dövlətə məxsus (məsələn, dövləti müəssisə); dövlət üçün; dövlət nöqteyi-nəzərindən əhəmiyyətli olan (məsələn, dövləti məsələ); dövlət tərəfindən görülən (məsələn, dövləti tədbirlər). İzahlı lüğətin özündə də qeyd edildiyi kimi, "dövləti" sözü ərəb mənşəli söz olub, sifət kimi çıxış edir (2, 690).

Azərbaycan dilinin qrammatikasına əsasən, -lıq$^4$ şəkilçisi daha çox yerbildirən isimlər düzəlsə də, (məsələn, daşlıq, meşəlik, çəmənlik və s.) o, həm də mücərrəd mənalı isimlər düzəldir (məsələn, yaxşılıq, insanlıq, düzlük və s.) Nümunələrdən göründüyü kimi, bu cür isimlər daha çox sifətdən düzəlir. Başqa sözlə, professor C.H.Mövsümovun araşdırılan prinsipin adlandırılması üçün istifadə etdiyi "dövlətilik" sözü "dövləti" sifətinə -lıq$^4$ şəkilçisinin əlavə edilməsilə yaradılmış bir isimdir və istifadə edildiyi kontekstdən asılı olaraq, "dövləti" sözünün bütün mənalarını özündə ehtiva edə bilər.

Çox maraqlıdır ki, Azərbaycan dilinin izahlı lüğətində "dövlətçilik" sözünün mənaları qeyd edilməmişdir. Göründüyü kimi, bu söz "dövlət" sözünə "-çılıq$^4$" şəkilçisinin əlavə edilməsi ilə yaradılmışdır. Azərbaycan dilində şəkilçilərin bir qismi bir neçə şəkilçinin birləşməsi yolu ilə əmələ gəlmişdir ki, "-çılıq$^4$" şəkilçisi də bunlardan biridir. Həmin şəkilçi bir sıra sözlərin tərkibində özünü mürəkkəb şəkilçi kimi göstərir. Bu şəkilçinin tərkib hissələrinin hər biri (-çı$^4$ və -lıq$^4$) müstəqil şəkilçidir. Həmin şəkilçilərlə dilimizdə çoxlu miqdarda söz yaradılmışdır. Məsələn, "dil" sözündən "-çi" şəkilçisi ilə "dilçi", bundan isə "-lik" şəkilçisilə "dilçilik" şözü düzəldilmişdir. Bəzən isə həmin şəkilçilərin birləşməsi (-çı$^4$ və -lıq$^4$) mürəkkəb şəkilçi əmələ gətirir. Söz birbaşa olaraq, "-çılıq", "-çilik", "-çuluq", "-çülük" şəkilçiləri ilə yaradılır. Məsələn, tələbəçilik, peşmançılıq və s. (4, 74).

Dilimizdə "dövlətçi" sözü mövcud olmadığına görə, aşkardır ki, "dövlətçilik" sözü "dövlət" sözünə "-çilik" şəkilçisinin birbaşa əlavə edilməsi ilə yaradılmışdır. Bəs bu söz nəyi ifadə edir? Azərbaycan dilinin izahlı lüğətində "dövlətçilik" sözü izah edilmədiyi üçün, fikrimizcə, bu sözün mənası onun əks etdirdiyi ideyanın mahiyyətinin dərk edilməsi hesabına başa düşülə bilər.

Siyasi-hüquqi ədəbiyyatda "dövlətçilik" anlayışı bir neçə mənada işlənir: inkişafda olan dövlət; dövlətin sosiuma münasibəti; dövlət quruluşu, cəmiyyətin siyasi təşkili. Siyasi-hüquqi ədəbiyyatda "dövlətçilik" dedikdə, dövlət-hüquqi strukturların və təsisatların, milli-dövlət ideyasının və onların reallaşmasının sosial praktikasının da daxil olduğu cəmiyyətin dövlət-təşkilati formasını nəzərdə tutulur. Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir, xalqımı-

zın siyasi varlığında dövlətçilik mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda dövlətçilik ənənələrinin tarixi 5 min il əvvəllərə gedib çıxır. Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı (7, 3). Siyasi anlamda dövlətçilik ideyası etatizmdən irəli gələn yanaşma kimi də başa düşülə bilər. Fransızca "eta" sözündən yaranan, "etatizm" dövlət mənasını ifadə etməklə siyasi-iqtisadi müstəvidə "dövlətçilik" anlamı kimi, tətbiqini tapır. Etatizm bir termin olaraq XIX əsrin sonunda isveç burjua liberalı N.Dro tərəfindən ədəbiyyata gətirilmişdir. İlk başlanğıcda dövlət mərkəziyyətçiliyi prinsipi mənasında, sonradan, imperializm dövründə burjua dövlətinin iqtisadi funksiyalarının güclənməsi ilə əlaqədar olaraq kapitalist ölkələrinin təsərrüfatının inkişafında dövlətin iqtisadi siyasətinin rolunu səciyyələndirən anlayış kimi istifadə olunmuşdur. Müasir dövrdə etatizm dövlət institutunun bütün digər institutlardan üstün tutulması ideologiyasını ifadə edir (9).

Beləliklə, biz, ilk növbədə, "dövlətilik" və "dövlətçilik" sözlərinin mənalarını aydınlaşdırdıq və göründüyü kimi, onlar eyni məna verən sözlər deyildirlər. İndi isə biz, nəzərdən keçirilən prinsipin bu sözlərdən hansı ilə ifadə edilməsinin daha doğru olduğunu müəyyən etməliyik. Bunun üçün, fikirlərinə istinad edilən hər iki alimin bu prinsipin mahiyyətini necə izah etdiyinə diqqət yetirmək lazımdır.

Professor C.H.Mövsümov "dövlətilik" prinsipini izah edərkən göstərmişdir ki, cinayət prosesində cinayətin açılması, istintaqı və məhkəmədə baxılması vəzifəsini dövlət öz üzərinə götürür. Bu vəzifələrin həyata keçirilməsi qabaqcadan qanunla müəyyən edilmiş dövlət orqanlarına və ya vəzifəli şəxslərə həvalə edilmişdir. Cinayət prosesində dövlətilik prinsipi tələb edir ki, cinayət prosesini həyata keçirən dövlət orqanları və vəzifəli şəxslər öz vəzifələrini proses iştirakçılarının iş üzrə tədqiq olunan faktlara münasibətindən asılı olmayaraq, onlara verilən səlahiyyət dairəsində dövlət və ictimai marağa müvafiq həyata keçirsinlər (6, 48-49).

Professor M.Ə.Cəfərquliyevin də "dövlətçilik" prinsipinə verdiyi izaha nəzər salanda görürük ki, o da, "dövlətçilik" adlandırdığı prinsipi mahiyyətcə, "dövlətilik" prinsipi ilə eyniləşdirir, yəni professor C.H.Mövsümovla eyni hüquqi ideyanı nisbətən fərqli ad altında izah edir: "cinayət prosesində dövlətçilik prinsipi tələb edir ki, cinayət prosesini həyata keçirən dövlət orqanları və vəzifəli şəxslər öz vəzifələrini proses iştirakçılarının iş üzrə tədqiq olunan faktlara münasibətlərindən asılı olmayaraq, onlara verilən səlahiyyət dairəsində dövlət və ictimai marağa müvafiq həyata keçirsinlər" (3, 117-118).

Fikrimizcə, "dövlətilik" və "dövlətçilik" sözlərinin mənalarını və bu mənalar arasındakı prinsipial fərqi nəzərə alaraq, ifadə edilmiş hüquqi ideyanı əks etdirmək qabiliyyəti baxımından "dövlətilik" termini daha uğurlu hesab edilə bilər. Lakin müasir dövrdə, nəzərdən keçirilən hüquqi ideyanın adlandırılması üçün bu termin özü nə dərəcədə uğurludur? "Dövlətilik" terminində məntiqi vurğunun "dövlət" kateqoriyası üzərinə düşməsi cinayət prosesində dövlət maraqlarının ictimai və şəxsi maraqlardan üstün tutulması kimi təəssürat yarada bilərmi? Hesab

edirik ki, bu kimi suallar müzakirəyə açıq suallardır və fikrimizcə, onlar, hüquq ədəbiyyatında baxdığımız hüquqi ideyanın "publiklik prinsipi" kimi adlandırılması üçün zəmin yaradan əsas səbəblərdəndir.

Hüquq ədəbiyyatında, tərəfimizdən tədqiq edilən prinsip bəzən "rəsmilik" prinsipi də adlandırılır. Bu yanaşma tərəfdarları belə hesab edirlər ki, cinayət prosesini həyata keçirən orqanlar cinayət mühakimə icraatında onlara rəsmi şəkildə (qanunla) verilmiş səlahiyyətlərlə əlaqədar iştirak edirlər. Başqa sözlə, bu yanaşmaya görə, cinayət prosesini həyata keçirən orqanlar cinayət mühakimə icraatında *ex officio*, yəni vəzifə borcu olaraq iştirak edirlər (10).

Nəhayət, hüquq ədəbiyyatında baxılan hüquqi prinsip üçün ən geniş yayılmış ad "publiklikdir". Publiklik prinsipi A.M.Yusubov tərəfindən hələ sovet cinayət-prosessual hüququnun prinsipi kimi nəzərdən keçirilirdi (11). Publik hüquq, dedikdə, ümumdövlət və ya ictimai maraqların təmin edilməsi ilə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Publik hüquq üçün ayrı-ayrı şəxslərin daxil olduğu hüquq münasibətlərinin hüquqi tənzimlənməsi deyil, bir tərəfinin dövlət olduğu, yaxud bütövlükdə cəmiyyətin maraqları naminə yaranan və davam hüquq münasibətlərinin tənzim edilməsi xarakterikdir (8, 220).

Əvvəldə qeyd etdiyimiz kimi, ictimai maraqların və dövlət maraqlarının üstün hesab edildiyi hallarda cinayət təqibinin zərərçəkmiş şəxsin iradəsindən asılı olmayaraq, dövlət orqanları tərəfindən başlanmalı və davam etdirilməli olması haqqında ideya CPM-in II Fəslində müstəqil maddə qismində nəzərdə tutulmadığı üçün, biz bu prinsipin adını CPM-ə istinadən müəyyən edə bilmirik. Əgər CPM-in II Fəslində bu ideyanı əks etdirən hər hansı maddə təsbit edilmiş olardısa, qanunvericilik texnikasına əsasən, həmin maddəyə müəyyən bir ad verilməli idi. Bu zaman biz, həmin maddənin adını nəzərdən keçirilən prinsipin adı kimi qəbul edə bilərdik. Məsələn, CPM-in II Fəslinə aid olan 10-cu maddə "Qanunçuluq" adlandırıldığı üçün hüquq ədəbiyyatında müvafiq prinsip də heç bir problem yaşanmadan və fikir ayrılığı yaranmadan "qanunçuluq prinsipi" kimi adlandırılır.

Bu məntiqlə, CPM-in II Fəslində "cinayət mühakimə icraatının ictimailiyi", "cinayət mühakimə icraatının publikliyi" və s. bu kimi adlarda maddə təsbit edilmiş olardısa, məqalənin həsr edildiyi problem, prinsipcə, öz həllini tapmış olardı.

Lakin ədalət naminə qeyd edilməlidir ki, bu problem əksər MDB dövlətlərinin cinayət-prosessual qanunvericiliyi üçün xarakterikdir. Belə ki, müqayisəli tədqiqatlar onu göstərir ki, Qırğızıstanın 2 fevral 2017-ci il tarixli CPM-in "Cinayət mühakimə icraatının vəzifələri və prinsipləri" adlanan II Fəslində də (7-22-ci maddələr ayrı-ayrı prinsipləri nəzərdə tutur), Qazaxıstanın 4 iyul 2014-cü il tarixli CPM-in "Cinayət prosesinin vəzifələri və prinsipləri" adalanan II Fəslində də (10-31-ci maddələr ayrı-ayrı prinsipləri nəzərdə tutur), Tacikistanın 3 dekabr 2009-cu il tarixli CPM-in "Cinayət prosesinin qanunvericilik prinsipləri" adlanan II Fəslində də (7-23-cü maddələr ayrı-ayrı prinsipləri nəzərdə tutur), Türkmənistanın 18 aprel 2009-cu il tarixli CPM-in "Cinayət prosesinin vəzifələri və

prinsipləri" adlanan II Fəslində də (9-29-cu maddələr ayrı-ayrı prinsipləri nəzərdə tutur), Rusiyanın 18 dekabr 2001-ci il tarixli CPM-in "Cinayət mühakimə icraatının prinsipləri" adlanan II Fəslində də (6.1-19-cu maddələr ayrı-ayrı prinsipləri nəzərdə tutur) məqalədə nəzər saldığımız hüquq ideyasını (cinayət mühakimə icraatının publikliyini) əks etdirən müstəqil maddə təsbit edilməmişdir. Halbuki, cinayət prosesində publiklik prinsipi bu dövlətlərin hamısının cinayət mühakimə icraatı üçün xarakterikdir.

Adları yuxarıda sadalanmamış MDB dövlətlərinin CPM-də isə, tədqiq etdiyimiz hüquq ideyası müxtəlif formalarda normativləşdirilmişdir. Bunlardan ən uğursuz model Ermənistan modelidir, çünki Ermənistanın 1 sentyabr 1998-ci il tarixli CPM-in "Cinayət mühakimə icraatının prinsipləri" adlanan II Fəslində "Məhkəmə icraatının publikliyi" adlanan 16-cı maddə təsbit edilmiş olsa da, erməni qanunvericisi "publiklik" və "aşkarlıq" ideyalarını bir-biri ilə tamamilə səhv salmış və "publiklik" adlanan prinsip adı altında faktiki olaraq, cinayət mühakimə icraatının aşkarlığına dair müddəalar – məhkəmə iclaslarının açıq həyata keçirilməsi, qapalı məhkəmə iclaslarına yol verilən hallar və s. bu kimi müddəalar təsbit etmişdir.

Tədqiq etdiyimiz məsələ baxımından Moldova modeli daha maraqlıdır. Moldovanın 14 mart 2003-cü il tarixli CPM-in "Cinayət mühakimə icraatının ümumi prinsipləri" adlanan II Fəslində "Cinayət prosesinin rəsmi xarakteri" adlı 28-ci maddə təsbit edilmişdir. Həmin maddə iki hissədən ibarətdir. Maddənin 1-ci hissəsinə əsasən, prokuror və cinayət təqibi orqanı öz səlahiyyətləri daxilində cinayətin törədilməsi haqqında ərizənin daxil olduğu hallarda cinayət işi başlamalı, cinayət əməlinin və təqsirli şəxsin müəyyən edilməsi üçün zəruri hərəkətləri həyata keçirməlidir. Maddənin 2-ci hissəsinə əsasən, prosessual hərəkətlərin cinayət prosesinin tərəflərinin tələbi əsasında həyata keçirilməli olduğu qanunla nəzərdə tutulmuş hallardan başqa, məhkəmə instansiyası prosessual hərəkətləri öz təşəbbüsü ilə və öz səlahiyyətləri daxilində həyata keçirir.

Publiklik prinsipinin CPM-də təsbiti baxımından Belorusiyanın da modei maraq kəsb edir. Belə ki, Belorusiyanın 16 iyul 1999-cu il tarixli CPM-in "Cinayət prosesinin vəzifələri və prinsipləri" adlanan II Fəsində "Cinayət prosesinin publikliyi" adlı 15-ci maddə mövcuddur. Həmin maddə də 2 hissədən ibarətdir. Maddənin 1-ci hissəsində qeyd edilir ki, dövlət hər kəsə cinayətkar qəsdlərdən müdafiəyə dair təminat verir. Maddənin 2-ci hissəsinə əsasən isə, cinayət təqibini həyata keçirmək səlahiyyəti verilmiş dövlət orqanları və vəzifəli şəxslər öz səlahiyyətləri daxilində cinayətlərin aşkar edilməsinə və onları törətmiş şəxslərin müəyyən edilməsinə, cinayət işinin başlanmasına, təqsirkarların qanunla nəzərdə tutulmuş məsuliyyətə cəlb edilməsinə və məhkəmə tərəfindən qanuni, əsaslı və ədalətli hökmün çıxarılması üçün şərait yaradılmasına dair zəruri tədbirləri görməlidirlər.

Nəhayət, Özbəkistan modelinə də diqqət yetirmək istərdik. Özbəkistanın 22 sentyabr 1994-cü il tarixli CPM-in "Cinayət prosesinin prinsipləri" adlanan II Fəslində "Cinayət işinin başlanması vəzifəsi" adlı 15-ci maddə mövcuddur. Hə-

min maddə cəmi 1 cümlədən ibarətdir: "Prokuror, müstəntiq və təhqiqatçı öz səlahiyyətləri hüdudlarında cinayət əlamətlərinin aşkar edilməsinin hər bir halında cinayət işi başlamalı, cinayət hadisəsinin, cinayət törətməkdə təqsirli olan şəxslərin müəyyən edilməsi və cəzalandırılması üçün qanunla nəzərdə tutulmuş bütün tədbirləri görməlidirlər".

## ƏDƏBİYYAT


1. Abbasova F.M. Cinayət prosesi. Dərslik. Ümumi hissə. Yenidən işlənmiş 2-ci nəşr. Bakı: Zərdabi LTD, 2015, 412 s.
2. Azərbaycan dilinin izahlı lüğəti / redaktor A. Axundov. 4 cilddə, I c. Bakı: Şərq-Qərb, 2006, 744 s.
3. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı: Qanun, 2008, 768 s.
4. Əhmədli N. Qısalıq ağlın ruhudur // Təfəkkür, 2014, № 3, s. 70-76.
5. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: Maarif, 1979, 300 s.
6. Mövsümov C.H. Sovet cinayət prosesi. Dərslik. Bakı: Maarif, 1989, 312 s.
7. Ömərov V. Azərbaycanda dövlətçilik ənənələri // Səs qəzeti, 5 iyul 2017-ci il, s. 3.
8. Вагина Н.М. Понятие публичного права // Вестник Волжского университета им. В.Н. Татищева, 2004, № 42, с. 219-226.
9. Исмаилов Б.И., Газиев К.Ж. Политико-правовые доктрины эпохи глобализации. Монография. Тверь: ТГЮИ, 2013, 213 с.
10. Федулов А.В. Реализация принципа публичности (официальности) в современном уголовном судопроизводстве России. Диссертация на соискание ученой степени кандидата юридических наук. Нижний Новгород, 2002, 236 с.
11. Юсубов А.М. Принцип публичности в советском уголовном процессе. Диссертация на соискание ученой степени кандидата юридических наук. М., 1988, 184 с.


## ПРИНЦИП «ГОСУДАРСТВЕННОСТИ», «ОФИЦИАЛЬНОСТИ», ЛИБО «ПУБЛИЧНОСТИ» УГОЛОВНОГО ПРОЦЕССА?


**Г.Б.ДЖАФАРОВ**


## РЕЗЮМЕ


Согласно действующему уголовно-процессуальному законодательству, дознаватель, следователь или прокурор, получив сообщение о деяниях, отражающих признаки готовящегося или совершенного преступления, либо непосредственно обнаружив уголовное происшествие, обязаны в порядке, установленном законом, принять меры к сохранению и изъятию следов преступления, а также немедленно произвести дознание или следствие в пределах своих полномочий. Именно данное положение закона отражает в себе суть принципа публичности уголовного процесса. Но, в связи с тем, что оно не закреплено в главе УПК, посвященной принципам уголовного процесса, вопросы о наименовании и о содержании данного принципа остаются открытыми. В статье рассмотрены наиболее распространенные наименования, используемые для данного принципа в юридической литературе.



**Ключевые слова:** уголовный процесс, принцип, терминология, государственность, официальность, публичность, анализ, сравнение.

## PRINCIPLE OF "STATEHOOD", "OFFICIALITY", OR "PUBLICITY" OF CRIMINAL PROCEEDINGS?

**G.V.JAFAROV**

**SUMMARY**

According to the existing criminal procedure legislation, the investigator or the prosecutor, having received the message about the acts reflecting signs of the prepared or committed crime, or having directly found a criminal incident, is obliged to take in the order established by the law measures to preservation and withdrawal of traces of crime and also to immediately hold inquiry or the investigation within the powers. This provision of the law captures in itself the essence of the principle of publicity of criminal proceedings. Yet, because it is not enshrined in a chapter of the Code of Criminal Procedure devoted to the principles of criminal proceedings, questions of the name and of the content of this principle remain open. The article considers the most widespread names used for this principle in legal literature.

**Keywords:** criminal trial, principle, terminology, statehood, officiality, publicity, analysis, comparison.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 Sosial-siyasi elmlər seriyası 2018

UOT 34

# ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV MÜTƏFƏKKİR VƏ İCTİMAİ-SİYASİ XADİM KİMİ

**T.K.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***
***tkzeynalova@gmail.com***

*Görkəmli mütəfəkkir, ictimai-siyasi xadim Ə.B.Topçubaşovun sosial-siyasi və praktiki fəaliyyətinə həsr olunmuş elmi məqalədə onun dövlət-hüquqi ideyaları, dövlət aparatının formalaşdırılması, ictimai-dövlət quruluşunun demokratikləşdirilməsi üzrə islahatların həyata keçirilməsində Şərqdə ilk demokratik respublikanın digər görkəmli ictimai-siyasi xadimləri ilə yanaşı, onun dəyərli rolu araşdırılır. Məqalədə, həmçinin Ə.B.Topçubaşovun Azərbaycan Xalq Cümhuriyyətinin digər aparıcı dünya dövlətləri ilə siyasi və iqtisadi münasibətlərinin qurulmasına, suveren dövlət kimi Cümhuriyyətin de-fakte və de-yure tanınmasına nail olunmasına yönələn xarici siyasi fəaliyyətinin təhlilinə də xüsusi yer ayrılmışdır.*

**Açar sözlər:** müstəqil milli dövlət, istiqlal, milli-mədəni inkişaf, Qafqaz Konferederasiya Paktı, Paris Sülh Konfransı

Azərbaycan Xalq Cümhüriyyətinin digər görkəmli ictimai-siyasi xadimləri ilə (M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.B.Yusifbəyli, H.B.Ağayev, Ə.B.Hüseynzadə, X.B.Xasməmmədov və başqaları) yanaşı, Əlimərdan bəy Topçubaşovun da dövlət-hüquqi ideyaları dövlət aparatının formalaşdırılması, ictimai-dövlət quruluşunun demokratikləşdirilməsi üzrə islahatların həyata keçirilməsində böyük rolu olmuşdur.

Müstəqil Azərbaycan diplomatiyasının əsasını qoyan şəxslərdən biri olan Ə.B.Topçubaşovun tarixi xidmətləri yalnız Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti ilə məhdudlaşmır. Mütəfəkkirin XX əsrin əvvəllərində Azərbaycanda ideoloji mühitin formalaşmasında və milli dövlətçilik haqqında ideyaların inkişafında özünəməxsus rolu olmuşdur. Mükəmməl hüquq təhsilinə, ictimai-siyasi dünyagörüşə malik olan Ə.B.Topçubaşov ötən əsrin əvvəllərində genişlənən milli hərəkata başçılıq etməklə yanaşı, Qafqaz və Rusiya müsəlmanlarının milli oyanışında, onların siyasi bir qüvvə kimi təşkilatmasında, mübarizə medanına çıxmasında və milli ideyalarına qovuşmasında əvəzsiz xidmətlər göstərmişdir.

İctimai-siyasi fəaliyyətinin əsas məqsədini azadlıq, milli oyanış və milli-mədəni yeniləşmə ideyaları təşkil edən Ə.B.Topçubaşov bir çox tərəqqipərvər ziyalılarımız kimi azadlıq uğrunda mübarizəyə maarifçilikdən başlamışdır. Siyasi fəa-

liyyətinin ilk mərhələsində istiqlala nail olmağın yolunu milli-mədəni inkişafda, yeniləşmədə görən mütəfəkkir azadlığa aparan yolun milli oyanışdan və mədəni tərəqqidən keçməsi haqqında fikirlər irəli sürmüşdür. Buna görə də onun ictimai-siyasi ideyalarında milli-mədəni geriliyin, savadsızlığın, cəhalətin aradan qaldırılması ilə bağlı məsələlər mühüm yer tuturdu.

Sadalananları xalqın milli oyanışının əsas amilləri hesab edən Ə.B.Topçubaşov cəmiyyətin inkişafında ziyalıların rolunu xüsusi olaraq qiymətləndirmişdir. O, "Kaspi» qəzetində dərc olunmuş «Qafqaz mənzərələri» adlı məqaləsində yazırdı: «...vətənimizin indiki vəziyyətində, yaradıcı insanların çatışmadığı mövcüd şəraitdə hər bir yerli ziyalının borcu imkanı çatdığı qədər xalq kütlələrinin inkişafına çalışmaq, onların cəhalət yuxusundan oyanmasında əvəzsiz rolu olan aşkarlıq mühitinə yardım göstərməkdir. Qoy hər bir ziyalı rast gəldiyi eybəcər fakt, yaşadığı bu və ya digər ehtiyacları, çatışmazlıqları, xoşagəlməz adətləri, vaxtı keçmiş ənənələri və s. barədə yazsın. ... Ələlxüsus «Kaspi»nin səhifələri bu mövzulara hər zaman açıqdır» [3, 66-67].

Ə.B.Topçubaşov ictimai fəaliyyətə Bakıya gəldikdən, xüsusilə də «Kaspi» qəzetinin redaktorluğundan başlamışdır. “Kaspi” qəzetinin redaktorluğu əslində Ə.Topçubaşovun çoxcəhətli ictimai-siyasi fəaliyyətinin milli-mədəni yeniləşmə, tərəqqi uğrunda mübarizəsinin başlanğıc mərhələsi idi. Qəzetin qarşısında dayanan vəzifələrin - «Kaspi»nin qarşısında müqəddəs vəzifə kimi, milli və dini mənsubluğundan, maddi vəziyyətindən asılı olmayaraq bütün Qafqaz əhalisi arasında maarifin intişarını daim təbliğ etmək..., ...cəmiyyətin tələbat və ehtiyaclarını gücü çatan qədər izah etmək, ... din və millətlərlə bağlı məsələyə gəldikdə, ... heç bir tərəfə əyilmədən yalnız ədalət mövqeyində dayanacaq, bütün xalqlara eyni münasibət bəsləyəcək, hər birinin sərbəst mövcudluq haqqına hörmətlə yanaşmaq» - bütün çətinlik və məsuliyyətini [3, 18-21] dərk etmiş redaktor “Kaspi”ni sözün əsil mənasında vətənpərvərlik, vətəndaş və milli hüquqlar tribunasına çevirmişdi. Ə.B.Topçubaşovun qəzetdə dərc olunmuş məqalələrində dövrün, demək olar ki, bütün aktual, ən başlıcası isə milli maraqlar baxımından mühüm məsələlər, xüsusən də müsəlmanların hüquqlarının qorunması, mədəniyyət və təhsil, səhiyyə, yerli özünüdarə sahələrində islahatların keçirilməsi ilə bağlı tələblər öz əksini tapmışdı. Əslində müstəqil milli dövlətə - Azərbaycan Cümhuriyyətinin qurulmasına gedən yol elə «Kaspi»dən başlanmışdı.

XIX əsrin sonu-XX əsrin əvvəllərində siyasi-hüquqi ideologiya müxtəlif cərəyanlar və istiqamətlər (sosial-demokrat, inqilabçı-demokrat, liberal demokrat və s.) çərçivəsində inkişaf edirdi. Bu cərəyanların meydana gəlməsi Ə.B.Topçubaşovun da ictimai-siyasi görüşlərinə təsirsiz ötməmişdir. Mütəfəkkirin birinci rus inqilabı dövründə digər deputatlarla birlikdə (İ.Ziyadxanov, Ə.Haqverdiyev) Xalq Azadlığı Partiyası ilə (kadetlər) yaxınlığı «Bütün millətlərin hüquq bərabərliyi» şüarı, müsəlmanların imperiyanın tamhüquqlu vətəndaşı olması ideyası ilə əlaqədar idi [6, 137]. Bu partiya ilə əməkdaşlıq Ə.B.Topçubaşovun islahatçılıq ideyalarının formalaşmasına mühüm təsir göstərmişdi. Məhz elə bu mənada mütəfəkkir konstitusiyalı quruluşa üstünlük verən, yerli özünüidarənin genişləndiril-

məsinin, tədricən islahatlar aparılmasının tərəfdarı kimi çıxış edən Azərbaycan liberalizminin banisi hesab edilir [2, 8]. Bununla əlaqədar M.Ə.Rəsulzadə yazırdı ki, Ə.Topçubaşov "…yetişdiyi zaman və mənsub olduğu nəsil etibarilə içindəki əndişənin, bəlkə də şüuraltı bir sazişin vasitəsilə Rusiya liberalizminə könül vermiş çar idarəsinin devrilməsindən öz xalqı üçün fayda ummuşdu" [5, 18].

Ə.B.Topçubaşovun ictimai-siyasi ideyalarının təşəkkülünə, formalaşmasına keçən əsrin əvvəllərində baş verən tarixi hadisələr, ictimai-siyasi proseslər çox böyük təsir göstərmişdir. Həyatının son dərəcə dinamik dövrünü əhatə edən 1906-1918-ci illərdə Ə.Topçubaşov gərgin ideya axtarışları yolunu keçməklə milli hərəkatın liderinə çevrilərək Rusiya imperiyasında yaşayan bütün müsəlman türklərinin azadlıq mübarizəsinə ideoloji-siyasi hazırlığın təşkilində ön sıraya çıxmışdır.

Ə.Topçubaşov ictimai-siyasi ideyaların inkişafının ilkin dövrlərindəki məqalələrində Rusiyanın Azərbaycanda yürütdüyü siyasətə - «müsəlmanların qəlbində tapındıqları hər şeyi məhv etməyə çalışan, süni əngəl və maneələrlə mənəvi-iqtisadi inkişaflarını ləngidən, çoxsaylı qadağalarla vətəndaşlıq hüquqlarından lazımınca istifadəyə imkan verməyən, onları ictimai fəaliyyət və dini məsələlərdə ikinci dərəcəli vətəndaşa çevirən, ... əsrlər boyu islamın davamçılarını dinlərindən ayırmaq, uzaqlaşdırmaq üsün nə qədər qüvvə, enerji, maddi vəsait sərf edən» siyasi hərəkətlərinə özünün tənqidi münasibətini bildirmişdi. 1905-ci il 17 oktyabr Manifestinə böyük ümidlər bəsləyən mütəfəkkir «Müsəlmanlar azadlıq hərəkatında» adlı məqaləsində yazırdı: «Həmin gündən etibarən müsəlmanlar daha «qeyri-xristian» deyil, eyni hüquqlara malik Rusiya vətəndaşları idilər. Vicdan azadlığının oxşar şəkildə gerçəkləşməsi ilə 17 oktyabrdan etibarən müsəlmanlara münasibətdə qanunvericilik, idarəetmə, təhsil, məhkəmə və digər instansiyalarda istisnasız surətdə hər şeyə dini münasibətə əsaslanan yanaşma tərzi ortadan götürüləcək. ... Müsəlmanların seçivncinin səbəbi bax burada - azad vətəndaş hüququnun qazanmalarıdır» [3, 80-81].

Ə.Topçubaşov müsəlmanları «heç nəyə baxmadan tarixi məqamdan yararlanmağa», «özünü yeni şəraitdə dirçəlməkdə olan rus cəmiyyətinin layiqli üzvü kimi təsdiq etməyə», «hamının qoşulduğu azadlıq mübarizəsindən kənarda qalmamağa» çağırırdı. O, «Müsəlmanların dirçəliş erası» adlı məqaləsində yazırdı: «Ümumi vətənimizin gələcəyi dövlətimizin mənafeyi, nəhayət, milli maraqlarımız fəal olmağı bütün Rusiya müsəlmanlarından tələb edir. ...Bütün bünlar yaşadığımız dövrdə müsəlmanların dirçəliş erasının başlandığını aydın göstərən əlamətlərdir» [3, 89-90].

1906-cı ildə Bakı Dumasının və Rusiyanın ilk qanunverici orqanının - I Dövlət Dumasının üzvü olmuş Ə.B.Topçubaşov imperiyanın ali nümayəndəli orqanında fəaliyyəti dövründə quberniyalarda torpaqların milliləşdirilməsi, milli əlamətə görə hüquqi məhdudiyyətlərin ləğv olunması, dini işlərdə tam muxtariyyat və bütün imperiya məkanında xırda özünüidarəetmə vahidləri və quberniya müşavirələrinin təsis olunması, bununla da yerlərdə geniş muxtariyyatlı idarəetmə sisteminin yaradılması, milli dildə təhsil almaq hüquqlarının verilməsi və s. kimi

məsələləri irəli sürmüşdür. Müsəlman deputatların böyük ümidlər bəslədiyi I Dövlət Dumasının buraxılması ilə əlaqədar xalq nümayəndələri xalqa müraciət, çağırış layihəsi hazırlamış və məşhur Vıborq bəyannaməsini imzalayanlar içərisində Ə.B.Topçubaşov da olmuşdu. Çağırışı imzalamış şəxslərə qarşı cinayət işinin açılmasından sonra o, xalqa ünvanlanmış xüsusi çağırış vərəqəsi ilə Rusiya əhalisini itaətsizliyə və qanuna qarşı çıxmağa sövq etməkdə təqsirləndirilmiş, üç aylıq həbs cəzasına məhkum edilmiş, gələcəkdə Dövlət Dumasının tərkibinə seçilmək hüququndan məhrum edilmişdir. Lakin Ə.B.Topçubaşov 1907-ci il fevral ayının 15-də keçirilmiş Bakı Şəhər Dumasının iclasında Dumada fəaliyyət göstərməkdən «müvəqqəti kənarlaşdırılmış» hesab edilsə də, ümumiyyətlə, bu qurumun tərkibindən çıxarılmışdır [6, 147-150].

Ə.Topçubaşov I Dünya müharibəsi illərində də ictimai-siyasi fəaliyyətini geniş arenada davam etdirmiş, gələcəkdə müsəlmanların həllini gözləyən problemlərini daim diqqətdə saxlamışdı. O, türk-müsəlman qurultaylarının təşkilində, Rusiyada yaşayan müsəlmanların vahid təşkilatının - ümumrusiya müsəlman siyasi partiyası "İttihadi-müslim"in yaradılması və fəaliyyətində yaxından iştirak etmiş, onun rəhbərliyinə seçilmiş, proqram və nizamnaməsini tərtib etmişdir. Nijni-Novqorodda, Sankt-Peterburqda keçirilmiş I-IV qurultaylar, demək olar ki, onun sədrliyi ilə keçmiş, "İttifaqi müslümün"qurultaylar tərəfindən seçilmiş MK-nın daimi bürosunun üzvü olmuşdur. 1916-cı ildə Tiflisdə toplaşan Qafqaz millətləri yığıncağında, 1917-ci ilin may ayında keçirilmiş Qafqaz və Rusiya müsəlmanlarının qurultayında və Müvəqqəti hökumətin çağırdığı dövlət müşavirəsində milli məsələni ön plana çəkmiş, müsəlman xalqların əsas tələblərini səsləndirmişdir.

Rusiyada 1917-ci il Fevral inqilabı nəticəsində mütləqiyyət üsul idarəsinin devrilməsindən sonra yaranmış Müvəqqəti Hökumət 1917-ci il 2 mart tarixli bəyannaməsində demokratik dəyişikliklər edəciyini – söz, mətbuat, yığıncaq, ittifaq və s. siyasi azadlıqlar veriləcəyini, silki, irqi, milli, dini bərabərsizliklərin aradan qaldırılacağını elan etsə də, bu vədlərin heç biri reallaşdırılmadı. Həmin ilin iyul ayında baş verən hadisələr hakimiyyət böhranı yaratmış, Dövlət Şurasının çağırılması ölkədəki ağır vəziyyəti müzakirə etmək məqsədi daşımışdı.

Ə.B.Topçubaşov Rusiya müsəlmanlarının 8 demokratik təşkilatının qabaqcılı kimi 1917-ci ilin avqust ayında Moskvada Dövlət Şurasının iclasında cəsarətlə həmin təşkilatların: Ümumrusiya Müsəlman Şurasının, Ümumrusiya Müsəlman Hərbi Şurası, Zaqafqaziya Müsəlmanları mərkəzi Komitəsinin funksiyasını yerinə yetirən Müsəlman İctimai Təşkilatlarının Bakı Komitəsi, Şimali Qafqaz və Dağıstan dağlılarının Birləşmiş Mərkəzi Komitəsi, Türküstan Ölkə Şurası, Krım Vilayət Komitəsi, Qırğızıstan və Başqırdıstan vilayəti Şuraları adından onların ümumi mövqeləri barədə fikirlərini elmi-nəzəri cəhətdən əsaslandırmaqla geniş nitq söyləmişdir. Öz nitqində Ə.B.Topçubaşov Rusiyada "Dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratının təyini şüarını qoyduğunu" da bəyan etmişdir. Bu bəyanatın mahiyyəti ondan ibarətdir ki, bütün Rusiyada yaşayan müsəlmanların əqidə, din və mədəni asılılığı ləğv olunmalı, azad şəkildə öz müqəddəratlarını təyin etmək hüququ qazanmalıdırlar. "...müsəlmanlar əmindirlər ki,

azad, demokratik Rusiya özündə bütün xalqların, o cümlədən də müsəlman xalqlarının bərabərlik və qardaşlığının bərqərar ediləcəyi gün uzaqda deyil… o vaxt biz də bir səslə deyəcəyik: Günəş Şərqdən doğur!” [4, 187] .

1917-ci ilin ortalarına doğru baş vermiş proseslər Ə.B.Topçubaşovun mübarizəsini daha da gücləndirdi. O, 1917-ci ilin sonuna qədər Bakıda Azərbaycan Milli Komitəsinə sədrlik etmiş, elə həmin il Gəncədən Rusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir. Bu ali orqanın işində uğurla fəaliyyətini davam etdirən Ə.B.Topçubaşov yenə də bir çox dəyərli təklifləri ilə seçilmişdir.

1917-ci il oktyabr çevrilişi, 1918-ci mart-aprel aylarında azərbaycanlılara qarşı törədilən qətliam Ə.B.Topçubaşovu federasiya haqqında fikirlərdən uzaqlaşdırmış, bir çox tərəqqipərvər ziyalılar, mütəfəkkirlər kimi onu da milli dövlətçilik ideyalarının işlənib hazırlanmasının, müstəqil milli dövlətin yaradılmasının zəruriliyi qənaətinə gəlmyə sövq etmişdi.

Ə.B.Topçubaşovun Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizəsinin ən mühüm mərhələsi Xalq Cümhuriyyətinin elan edilməsi, müstəqilliyin ağır dövrlərə qədəm qoyması ilə başlanmışdır. Dövlət xadimi kimi Ə.Topçubaşov öz siyasi fəaliyyətini Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində daha da genişləndirmiş, gənc demokratik dövlətin elan olunmasında, onun təşkilində, xarici siyasətinin formalaşmasında mühüm işlər görmüşdür. Əvvəlki ictimai-siyasi fəaliyyətindən fərqli olaraq Ə.Topçubaşov mürəkkəb bir şəraitdə milli dövlətçiliyin siyasi-hüquqi strukturunun müəyyənləşdirilməsində, müstəqil Azərbaycan Cümhuriyyətinin təhlükəsizliyinin qorunmasında, xüsusilə də müstəqil dövlətin beynəlxalq aləmdə - dünya ölkələri tərəfindən tanınmasında əvəzsiz xidmətlər göstərmişdir. O, nəzəri hazırlığı və siyasi sahədə təcrübəsi sayəsində istər Rusiya ilə, istərsə də Avropa ölkələri ilə uğurlu əlaqələr qurmağa müvəffəq olmuş, istər Rusiya, istərsə də Avropa ölkələri ilə xarici siyasətdə son dərəcə ehtiyatlı siyasi-diplomatik addımlar atmış, müəyyən uğurlara nail ola bilmişdir.

Cümhüriyyət dövründə əvvəl Xarici İşlər Naziri, 1918-ci ilin noyabrında isə Türkiyədə Azərbaycanın səfiri təyin olunmuş Ə.B.Topçubaşov diplomatik fəaliyyəti dövründə Azərbaycanın ərazi bütövlüyü probleminin həllini milli dövlətçiliyin əsas təminatı hesab etmiş və bu istiqamətdə əməli addımlar atmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Hökuməti ölkənin başının üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınmasından ötrü də böyük iş aparırdı. Belə ki, Cümhuriyyətin Parlamenti 1918-ci il dekabr ayının 28-də Parlamentin sədri Ə.B.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Dağılmış Rusiya imperiyasının ərazisində yeni yaranmış müstəqil milli dövlətlər kimi, Azərbaycan Xalq Cümhuriyyəti də dünya dövlətləri tərəfindən tanınmaq, beynəlxalq birliklərin bərabərhüquqlu üzvü olmaq, respublikanın suverenliyi və ərazi bütövlüyünü təmin etmək baxımından Paris Sülh Konfransına böyük ümid bəsləyirdi. Bununla əlaqədar İstanbuldan Parisə gələn Ə.Topçubaşov hazırladığı siyasi və tarixi-hüquqi səciyyəli sənəd olan «memurandum»da əsas diqqəti Azərbaycan dövlətinin müstəqilliyinin,

suverenliyinin, ərazi bütövlüyünün tanınması məsələsinə yönəltmişdi. Bu sənəddə Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur mahallarının Azərbaycanın ayrılmaz hissəsi olması, xüsusilə vurğulanırdı ki, bu həm də ermənilərin yürütdükləri ərazi iddialarının heç bir əsası olmadığını göstərirdi [5, 22].

Parisə gələn Azərbaycan nümayəndələri Polşa, Gürcüstan, İran, ABŞ, İngiltərə və s. ölkələrin nümayəndə heyətləri ilə görüşmüş və gənc respublikanın siyasi-iqtisadi vəziyyətilə əlaqədar söhbətlər aparmışlar. Ə.B.Topçubaşovun rəhbərliyi ilə Azərbaycan nümayəndələrinin ən başlıca müvəffəqiyyətlərindən biri dövrünün görkəmli siyasi xadimi ABŞ prezidenti V.Vilsonla görüşü olmuşdur.1919-cu il mayın 28-də Azərbaycan nümayəndə heyətinin ABŞ prezidenti V.Vilson tərəfindən qəbulu zamanı Ə.B.Topçubaşov böyük əminliklə bildirmişdi ki, müstəqil yaşamaq üçün Azərbaycanda bütün imkanlar vardır : "...Biz bildiririk ki, ... köhnə imperiyanın hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri-birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz parlamentimizi və öz hökumətimizi tanıyırıq və tanıyacağıq" [5, 22].

Ə.B.Topçubaşov ağır çətinlikləri dəf edərək 1920-ci il yanvar ayının 11-də keçirilmiş Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin böyük dövlətlər tərəfindən de-fakto tanınmasına nail oldu. Bu, Ə.B.Topçuboşov başda olmaqla, Azərbaycan diplomatiyasının böyük qələbəsi idi. Böyük çətinliklər və məhrumiyyətlər hesabına əldə edilmiş bu nailiyyətlərlə əlaqədar Ə.B.Topçubaşov Parisdən Azərbaycan hökumətinin başçısı N.Yusifbəyliyə göndərdiyi məktubda yazırdı: “hər hansı real bir formada bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlandı. … Azərbaycan xalqı müstəqil yaşaya biləcəyinə, müstəqilliyə nail olacağına inanırdı… Belə dəyərli xoşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq” [1, 445].

Lakin XI Qızıl Ordunun Şimali Azərbaycanı işğal etməsi ilə Ə.B.Topçubaşovun bu sahədəki fəaliyyəti yarımçıq qaldı. Nümayəndə heyətinin rəhbəri və onu muşayiət edən Cümhuriyyət xadimləri bir daha vətənə dönə bilmədilər və siyasi mühacir həyatı sürməyə məcbur oldular.

Bolşevik Rusiyasının hərbi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Ə.B.Topçubaşovun bütövlükdə həyatında, o cümlədən ictimai-siyasi fəaliyyətində artıq başqa bir mərhələ başlanır. 1920-1934-cü illərdə yaşadığı ağır siyasi mühacirlik dövründə də Ə.Topçubaşov özünün ictimai-siyasi fəaliyyətini dayandırmamış, Azərbaycanın milli-müstəqil dövlətçiliyinin bərpa olunmasına çalışmış, siyasi proseslərin Azərbaycan xalqının xeyrinə dəyişməsində fəal iştirak etmişdir.

1920-ci ildə Azərbaycanın bolşeviklər tərəfindən işğalı ilə bağlı Avropa mətbuatında müxtəlif ziddiyyətli və yanlış məlumatlar verilirdi. Ə.B.Topçubaşov başda olmaqla Azərbaycanın sülh nümayəndə heyəti tərəfindən bu məlumatlar təhlil edilir, qaranlıq məqamlara aydınlıq gətirilirdi. Ə.B.Topçubaşovun Azərbaycanın itirilmiş müstəqilliyinin bərpa olunması yolunda xidmətləri içərisində onun 1920-ci il iyun ayında Paris Sülh konfransının Ali Şurasına, iyul ayında Spa kon-

fransına etdiyi müraciətləri qeyd etmək lazımdır. Müraciətdə Azərbaycanın de-yure tanınması, ölkənin siyasi və iqtisadi maraqlarının müdafiəsi üçün ona yardım göstərilməsi məsələsində müvafiq qərarların verilməsi qeyd olunmuşdu. Daha sonra onun 1920-ci ilin avqust ayında ABŞ-ın Parisdəki səfirinə ünvanlanmış notada deyilirdi: «Azərbaycan nümayəndə heyəti inanmaq istəyir ki, böyük dövlət kimi Amerika və onun məşhur prezidenti, millətlərin öz müqəddəratını təyinetmə huququnun əsas carçısı olan V.Vilson Azərbaycan xalqının artıq həyata keçmiş öz müqəddəratını təyinetmə hüququnu tanıyacaqdır. .... Azərbaycan nümayəndə heyəti bu bəyənnaməni Sizə təqdim edərək bildirir ki, Azərbaycan xalqı hökumət formasından asılı olmayaraq rus dövlətinə birləşdirilməyəcək və müstəqil Azərbaycan Xalq Cümhuriyyəti olaraq yaşamağa davam edəcək» [2, 458-469] .

Təəssüflər ki, Ə.M.Topçubaşovun ciddi cəhdlərinə baxmayaraq Azərbaycanın Cenevrədə yerləşən Millətlər Cəmiyyətinin beynəlxalq birliyinə qəbul edilməsi mümkün olmadı.

Mühacirətdə olarkən Ə.Topçubaşov Azərbaycanın itirilmiş müstəqilliyinin beynəlxalq aləmdə hüquqi cəhətdən müdafiəsi istiqamətində fəaliyyətini digər Qafqaz mühacirlərinin fəaliyyəti ilə əlaqələndirməyə çalışmışdır. Hələ I Dünya müharibəsi ərəfəsində o, Rusiya imperiyasının milli azadlıq hərəkatlarını boğmaq üçün Qafqaz xalqları arasında düşmənçiliyi qızışdırmaq əməllərinin qarşısının alınması yolunu Konfederasiyanın yaradılmasında görürdü. 1921-ci il mayın 8-də onun təşəbbüsü ilə Qafqaz mühacirləri Azərbaycan Xalq Cümhuriyyətinin Parisdəki nümayəndəliyində toplaşaraq Qafqaz Konfederasiyası ideyasını müzakirə edirlər. İyun ayının 10-da isə Ə.Topçubaşovun sədrliyi ilə keçirilən yığıncaqda üç Qafqaz Respublikalarının səlahiyyətli təmsilçiləri öz aralarında "siyasi, iqtisadi ittifaq yaratmaq" qərarına gəldilər.

Ə.B.Topçubaşov 1923-cü ildə Lozanna konfranslarında Sovet nümayəndə heyətlərinin etirazlarına baxmayaraq, Cümhuriyyət tərəfindən ona verilmiş mandatla iştirak edərək, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunduğunu həmin konfransların iştirakçılarının diqqətinə çatdırmış və bolşeviklərin Azərbaycanda törətdikləri cinayətlər haqqında geniş məlumatlar vermişdir.

1925-ci ildən sonra mühacirət təşkilatlarının yaranması ətrafında mübahisələr, müəyyən fikir ayrılıqları meydana gəldi. Ə.Topçubaşov M.Ə.Rəsulzadə ilə birlikdə bütün azərbaycanlı mühacirləri vahid bir təşkilatın ətrafında birləşdirməyə çalışırdı.

Ə.Topçubaşovun mühacirət həyatında göstərdiyi çoxcəhətli fəaliyyətində diqqət yetirdiyi əsas önəmli məsələlərdən biri də milli istiqlaliyyətə qovuşmaq naminə Qafqaz xalqlarının birliyinin təmin edilməsi yolunda "Qafqaz evi"nin yaradılması ideyasının gerçəkləşdirilməsi məsələsi olmuşdur. O, hesab edirdi ki, Qafqazda baş verən milli qırğınların, xalqlar arasındakı ədavətin qarşısını məhz bu yolla almaq olar. Erməniləri ruslar qırğınlara daha da təhrik etməklə xalqlar arasında nifaqı dərinləşdirir, münasibətləri pozur, bununla da Qafqazı işğal altında saxlamaq üçün özünə imkan yaratmış olur. Ə.Topçubaşov bu fikrini nəinki Gürcüstan və Dağıstan xalqlarının siyasi liderləri ilə, habelə Avropanın nüfuzlu si-

maları ilə görüşlərində daim ortaya qoymuşdur.

Ə.Topçubaşovun mühacirətdə ən böyük xidmətlərindən elə biri də Qafqaz Konfederasiyası paktının imzalanması və Qafqaz Konfederasiyası Şurasının yaradılması ilə bağlı olmuşdur.

1934-cü il iyulun 14-də Azərbaycan Milli Mərkəzi adından M.Ə.Rəsulzadə və Ə.B.Topçubaşov, Şimali Qafqaz Milli Mərkəzi adından M.G.Suns, İ.Çulik, T.Şakman, Gürcüstan Milli Mərkəzi adından N.Jordaniya, A.Çxenkeli tərəfindən Brüsseldə imzalanan "Qafqaz Konfederasiyası Misaqı"nda qeyd olunurdu ki, Milli mərkəzlər öz fəaliyyətlərinin birinci mərhələsini başa çatdırır və bundan sonra bütün siyasi, inqilabi fəaliyyətlər Qafqaz Konferederasiya Paktının səlahiyyətlərinə keçir. Paktda "bir millətin tam inkişafının, ancaq tam bir istiqlal şərti ilə mümkün ola biləcəyi", "təkmil Qafqaz qüvvələrinin tək və müştərək bir hüdud daxilində birləşmədən, bu məqsədə nail olmanın son dərəcədə müşgül olacağı", "Qafqaz millətlərinin xarici siyasət və milli müraciətlərinin müştərək bir tərzdə ifadə edilməsinin zəruriliyi", "Qafqaz Cümhuriyyətləri Konfederasiyasının məmləkətin siyasi və iqtisadi vəhdətindən irəli gələn siyasi bir şəkil olduğu" bəyan edilir.

Həmin sənəddə Qafqaz Konfederasiyasının müştərək siyasi hüdudları və bu hüdudların cümhuriyyətlərin ordularından təşkil olunan və vahid komandanlıq altına alınan ümumi ordu tərəfindən müdafiə olunacağı, xüsusilə qeyd olunur. Onun konfederasiya ideyası Azərbaycanın istiqlal amalını Qafqazın ümumi mənafeyi ilə vəhdətdə təmsil edirdi. Lakin Ə.Topçubaşov bu məsələ ilə bağlı arzularını istədiyi kimi reallaşdırmağa müvəffəq ola bilmədi.

Ə.B.Topçubaşov Azərbaycanın istiqlalı uğrunda 50 illik fəaliyyəti dövründə özünün diplomatik bacarığı ilə vətənini beynəlxalq aləmdə tanıtmış, Avropada sistemli təbliğatın əsasını qoymuşdur. O, yalnız diplomat deyil, həmçinin yeni cəmiyyət, dövlət quruluşu uğrunda mübarizənin təşkilinə, qabaqcıl ideyaların praktikada realizə edilməsinə çalışan, öz xalqının və gənc milli dövlətinin hüquqlarının müdafiəsi istiqamətində qətiyyətlə mübarizə aparan ictimai-siyasi xadim olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə. 5-ci cild. Bakı: Elm, 2001, 672 s.
2. Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan Bəy Topçubaşov. Bakı: Azərbaycan Diplomatiya Akademiyası, 2013, 588 s.
3. Topçubaşov Ə. «Kaspi»dən seçmələr. Toplayan və tərtib edən: V.Quliyev. Bakı: Zərdabi LTD MMC, 2018, 128 s.
4. Hacıyev F.M. ADR yaranması ərəfəsində mövcud ictimai-siyasi şərait. Müstəqillik uğrunda mübarizənin güclənməsində Əlimərdan bəy Torçubaşovun fəaliyyəti. // Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası, 2010, № 4, s. 185-189.
5. Hacıyev F.M. Əlimərdan bəy Topçubaşovun ictimai-siyasi görüşləri // fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün diss. avtoreferatı. Bakı, 2011, 27 s.
6. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: OKA ofset, 2004, 348 s.

## А.Б.ТОПЧИБАШЕВ КАК МЫСЛИТЕЛЬ И ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЙ ДЕЯТЕЛЬ

**Т.К.ЗЕЙНАЛОВА**

**РЕЗЮМЕ**

В научной статье посвященной социально-политической и практической деятельности видного мыслителя, общественно-политического деятеля А.Б.Топчибашева, исследованы его государственно-правовые идеи, его неоценимая роль вместе с другими видными общественно-политическими деятелями первой на Востоке демократической республики, в проведении реформ по формированию государственного аппарата, демократизации общественного и государственного строя. В статье особое внимание также уделено анализу внешнеполитической деятельности А.Топчибашева, направленной на установлении политических и экономических отношений АДР с ведущими странами мира, на достижение признания de-fakte и de-yure АДР как суверенного государства.

**Ключевые слова:** суверенное национальное государство, независимость, национально-культурное развитие, Пакт Кавказской Конфедерации, Парижская Мирная Конференция.

## A.B. TOPCHIBASHEV AS A THINKER AND SOCIAL-POLITICAL FIGURE

**T.K.ZEYNALOVA**

**SUMMARY**

The research paper devoted to the socio-political and practical activities of the eminent thinker, social and political figure A. B. Topchibashev studies his state-legal ideas, his invaluable role alongside with other prominent public and political figures of the first democratic republic in the East, who carried out reforms on the formation of the state apparatus, the democratization of the social and state system. The article also focuses on the analysis of the foreign political activities of Alimardan Bey Topchibashev, aimed at establishing political and economic relations between Azerbaijan Democratic Republic and the leading countries of the world, attaining de facto and de jure recognition of ADR as a sovereign state.

**Keywords:** sovereign national state, independence, national-cultural development, Pact of the Caucasian Confederation, Paris Peace Conference.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 Sosial-siyasi elmlər seriyası 2018

## İQTİSADİYYAT

УДК 327.57

# РОССИЙСКО-БЕЛОРУССКИЕ ОТНОШЕНИЯ В СОВРЕМЕННЫЙ ПЕРИОД

**Ф.Ш.ГУСЕЙНОВ**
***Бакинский Государственный университет***
***farhadh@gmail.com***

*Статья посвящена изучению российско-белорусских отношений в современном мире. В центре внимания находятся факторы, обуславливающие межгосударственные отношения. Анализу подвергаются причины конфликтных ситуаций, а также возможные пути их урегулирования. Отмечается, что российско-белорусские отношения являются самыми продвинутыми в сфере межгосударственной интеграции на постсоветском пространстве. Наряду с этим утверждается мысль о том, что для прогресса необходима политическая воля обеих сторон, направленная на преодоление существующих разногласий.*

**Ключевые слова:** сотрудничество, Беларусь, Россия, национальные интересы, конфликт, интеграция

Отношения Российской Федерации и Республики Беларусь являются примером одновременно наиболее тесного двустороннего сотрудничества на постсоветском пространстве и регулярно возникающих противоречий. Строятся белорусско-российские отношения на основе Договора о дружбе, добрососедстве и сотрудничестве, подписанном 21 февраля 1995 г. Создание условий для формирования единого экономического пространства, координации финансовой, таможенной политики, а также открытость границ и ликвидация пограничного контроля были основными целями, провозглашенными в данном документе. Договор об образовании Сообщества России и Белоруссии был подписан в 1996 г. и предполагал формирование единого экономического пространства, постепенный переход к единому законодательству. Между сторонами также были достигнуты договоренности согласовывать свою внешнюю политику, вопросы обеспечения безопасности, борьбы с преступностью, а также охраны государственных границ. Кульминацией развития отношений стало преобразование 2 апреля 1997 г. Сообщества в Союз России и Белоруссии. День этот отмечается как День единения народов двух стран, что является свидетельством особости отношений.

Можно утверждать, что термин «special relationship», традиционно описывающий отношения между Великобританией и США, является более подходящим именно для белорусско-русских отношений. Как отмечают исследователи, «из всех бывших республик СССР Беларусь долгие годы в наибольшей степени была готова к интеграции с Россией и интегрировала багаж совместного прошлого в свою государственную идентичность. Уже в силу этого политического факта проект российско-белорусской интеграции был обречен стать модельным для постсоветского пространства – как в случае его успеха, так и в случае неудачи» (5, 30). Так, через два года после образования Сообщества было создано Союзное государство (договор о его создании вступил в силу 26 января 2000 г.). Однако, несмотря на стремление к унификации и объединению, в отношениях между странами периодически возникают разногласия. Так, в последнее десятилетие между странами несколько раз возникали острые противоречия в частности по вопросам поставок белорусского продовольствия в РФ. В 2009 г. Россия запретила ввоз на свою территорию несколько сотен наименований белорусских молочных продуктов из-за их несоответствия новому российскому техническому регламенту. В ответ Белоруссия официально заявила об отказе принимать участие в заседании глав государств в рамках Совета коллективной безопасности ОДКБ, проходившего в Москве. Спустя несколько дней экспорт белорусской молочной продукции возобновился. Количество разногласий увеличилось после конфликта в Украине в 2014 году. В августе 2014 г. в ответ на санкции ЕС и США Россия ввела ограничения на импорт продовольственных товаров из ряда западных стран. В результате Белоруссия стала крупным экспортером и реэкспортером многих видов пищевой продукции, ранее не поставлявшейся в Россию. При этом представители Россельхознадзора неоднократно фиксировали попытки ввоза из Белоруссии сомнительной растительной продукции, а также заявляли, что треть белорусских товаров поставляется в Россию в обход временных контрольных пунктов пропуска. В 2016 г. Россельхознадзор приостановил ввоз мяса кур и других видов мяса в Россию с нескольких крупных предприятий Белоруссии. Неоднократные нарушения ветеринарно-санитарных требований Евразийского экономического союза послужили причиной принятия такого решения. Летом того же года надзорное ведомство ввело поэтапный запрет на ввоз продукции с ряда белорусских молочных предприятий. В ответ президент Белоруссии А.Лукашенко жестко раскритиковал претензии Россельхознадзора к белорусскому продовольствию.

Продовольственные конфликты являются наиболее острой проблемой и в 2018 году. Так в самом начале текущего году «Россельхознадзор» неожиданно сообщил о предстоящем введении временного запрета на поставки из Беларуси молочного сырья. Необычность складывающейся ситуации заключается в том, что если ранее ограничения вводились лишь в отношении отдельных предприятий, к которым имелись претензии, то теперь запрет

вводится сразу для всей белорусской молочной отрасли. Причем такие меры в прошлом году принимались неоднократно и стали, в общем-то, уже привычными. Тем не менее, белорусская сторона каждый раз указывает на несоответствие введенных запретов нормам ЕАЭС. Так, вице-премьер правительства Беларуси М.Русый заявил, что «введение ограничений является нарушением пункта 175 положения о едином порядке проведения совместных проверок объектов и отбора проб товаров (продукции), подлежащих ветеринарному контролю (надзору), утвержденного решением Совета Евразийской экономической комиссии от 9 октября 2014 г. №94. Никто не имеет права игнорировать решение Совета комиссии» (9). Белорусская реакция вполне объяснима. Экспорт в РФ приносит большие доходы. В 2016 г. объем только официального молочного экспорта в Россию оценивался в $1,6 млрд. В 2017 году поставки белорусского молока и сливок в РФ выросли почти на четверть (9). При этом республика является почти монопольным экспортером в РФ целого ряда молочных продуктов. Российские эксперты причиной введения запрета называют реэкспорт Беларусью молочной продукции из третьих стран. В независимости от причин, стоящих за угрозой запрета, РФ в течение марта 2018 года третий раз отложила введение запрета.

Президент Белоруссии Александр Лукашенко посоветовал белорусским производителям молока искать другие рынки сбыта, пока существуют проблемы с поставками продуктов в Россию. В настоящее время в Россию запрещены поставки с нескольких белорусских мясных и молочных предприятий. Таким образом, сегодня на фоне мер, предпринимаемых РФ для роста производства молока, происходят так называемые «молочные войны». Длящиеся уже несколько лет эти "молочные войны" между Россией и Белоруссией даже стали предметом обсуждения глав государств — Россию не устраивает также качество поставляемого из Белоруссии молока. Показательно, что министр сельского хозяйства РФ А.Ткачев недавно заявил, что «значительная часть сухого молока поставляется в Россию через соседнюю Белоруссию. Она вообще является крупнейшим экспортером молочной продукции в Россию — почти 120 белорусских молочных предприятий ввозят к нам свою продукцию — в 2017 году ее доля в общем объеме поставок составила 86% — это 950 тысяч тонн молочной продукции. Рост за 3 года на 24%. И, конечно, белорусы должны искать новые рынки сбыта, потому что у нас серьезные намерения напоить россиян отечественным молоком, как я уже сказал. Мы планируем в ближайшие 5-7 лет закрыть этот вопрос, но пока видим, что нормальному развитию рынка мешает недобросовестная конкуренция с молочной продукцией» (1). Под недобросовестной конкуренцией А.Ткачев имеет в виду также демпинг, осуществляемый белорусскими производителями.

Этот конфликт также выводит на передний план проблему функционирования общего рынка в рамках ЕАЭС. Ведь, министр сельского хозяйства РФ обвиняет Беларусь именно в некачественности их продукции и тем

самым призывает вытеснить ее производителей с российского рынка. Очевидно, что других поводов в условиях зоны свободной торговли и общего рынка у А.Ткачева быть не может. Министр продолжает: «слабый контроль при поставках молочной продукции из стран ЕАЭС — это не только экономическая проблема. Мы много раз поднимали вопрос ввоза некачественной продукции или откровенного фальсификата в Россию. Дело в том, что существующие технические регламенты и юридические нормы позволяют ввозить молочные продукты из стран ЕАЭС по упрощенной процедуре. То есть на границе достаточно предъявить Декларацию соответствия молочной продукции требованиям технических регламентов — и двери российского рынка для импортируемой молочной продукции открыты. И что ввозится через эту "открытую дверь"? Как показали проверки Россельхознадзора, начиная с июля 2017 года, в белорусской молочной продукции находят растительные жиры, а также остатки антибиотиков. А это уже не только вопрос экономики, некачественная молочная продукция — это, без преувеличения, вопрос здоровья нации»(1). Стоит отметить, что белорусская сторона всяческие обвинения в том, что их продукция не соответствует нормам, отрицает. Таким образом, как видим, создается тупиковая ситуация. Ведь если проблема заключается исключительно в некачественной продукции, то ее можно решить, создав единые органы контроля качества в условиях общего рынка. Но, как видим, министр сельского хозяйства открыто говорит о том, что «у нас серьезные намерения напоить россиян отечественным молоком». В таком случае проблема конкуренции, естественным образом возникающая на любом рынке, является характерной чертой развития и евразийских интеграционных процессов. Однако, решаться все же она должна не с помощью административных директив о запрете той или иной продукции, а исключительно рыночными механизмами, такими как – соотношение цена-качество, спрос и предложение. В этом контексте весьма показательны слова Государственного секретаря Союзного государства России и Беларуси Григория Рапоты: «Я сторонник рыночных отношений, хоть и родом из нерыночного СССР. Считаю, должна быть свободная конкуренция. Как мы иначе будем общий рынок создавать? Здесь выбор небольшой. Либо мы сохраняем этот рынок, либо мы закрываем границу. Вводим импортные пошлины и забываем про Союз России и Беларуси, как, впрочем, и про Евразийский экономический союз» (4).

Однако, несмотря на острые разногласия в сельскохозяйственной сфере, сотрудничество между двумя странами в других сферах остается на высоком уровне. Примером тому может явиться и вышеуказанное Союзное государство, которому в 2018 году исполнился 21 год. Есть мнение, что СГ – это наиболее продвинутый из всех постсоветских интеграционных проектов. Ученые отмечают, что по некоторым показателям Союзное государство обгоняет даже такие продвинутые проекты, как Европейский союз. Например, в сфере обеспечения безопасности СГ прогресс достигнут в большей степе-

ни, нежели в ЕС. Создана единая система ПВО. Имеется общая военная доктрина, обновленная редакция которой должна быть принята в этом году. Проходят союзные учения, примером чего являются маневры «Запад-2017». Стоит отметить, что совместные стратегические учения является плановым мероприятием и проводится раз в два года в соответствии с Решением Президента Российской Федерации и Президента Республики Беларусь от 2009 года.

В 2001 году была принята Военная доктрина Союзного государства. С 2009 года действует соглашение между Российской Федерацией и Республикой Беларусь о совместной охране внешней границы Союзного государства в воздушном пространстве и создании Единой региональной системы противовоздушной обороны. В том же году был подписан Договор о развитии военно-технического сотрудничества. Активно развивается сотрудничество России и Белоруссии в рамках Организации Договора о коллективной безопасности (ОДКБ) и коллективных сил оперативного реагирования (КСОР) ОДКБ. На проблему белорусско-российской границы существенное влияние оказал конфликт в Украине. В настоящий момент переходами через российско-белорусскую границу могут пользоваться только граждане России и Белоруссии. 29 декабря 2016 г. директором Федеральной службы безопасности России Александром Бортниковым был подписан приказ о введении погранзоны в приграничных с Белоруссией регионах РФ. Вступил он в силу 1 февраля 2017 г. По мнению ряда обозревателей, организация погранзоны может быть связана с решением белорусских властей о введении с 11 февраля 2017 г. пятидневного безвизового режима для граждан США, ЕС и некоторых других стран.

Другой немаловажной сферой является обеспечение прав граждан Союзного государства. Так, в социальной сфере действует Договор о равных правах граждан от 1998 года. Огромным шагом в его осуществлении явилось создание равных возможностей в получении бесплатного образования и при трудоустройстве, а также обеспечение одинаковых имущественных прав граждан двух стран. В 2006 году был подписан пакет соглашений по обеспечению равенства прав граждан РФ в Белоруссии и белорусских граждан в России в сфере здравоохранения, социального обеспечения и налогообложения. Это значительно активизировало процесс унификации возможностей граждан двух государств. Обеспечение равных прав в сфере образования также является одним из важных направлений деятельности. По данным Федеральной службы государственной статистики, в 2016-2017 годах в университетах России училось более 12 тысяч белорусских студентов. (**2**) Для тех, кто работает при переезде в соседнее государство, обеспечивается право на получение медицинской помощи.

Что касается торгово-экономических отношений, то товарооборот Республики Беларусь с Российской Федерацией в 2017 году составил 32,4 млрд. долларов и увеличился к уровню 2016 года на 23,5 процента. На долю Рос-

сии приходится 51,1 процента всего товарооборота Республики Беларусь (в 2016 г. — 51,2 процента), в том числе — 43,9 процента экспорта (в 2016 г. — 46,2 процента) и 57,2 процента импорта (в 2016 г. — 60,5 процента). (3) При чем о**сновными товарными позициями белорусского экспорта явились в основном продовольственные продукты, а также продукция тяжелой промышленности. В то время как основные товары в структуре импорта:** нефть сырая, включая газовый конденсат — 27,1 процента всего российского импорта в Беларусь; природный газ — 14,2 процента; нефтепродукты — 5,5 процента. **Сальдо торговли товарами в 2017 году для Беларуси сложилось отрицательным в размере 6,8 млрд. долларов. В целом же, следует отметить, что в**нешнеторговый оборот России и Белоруссии за 2000-2015 годы вырос в три раза с 9,3 до 27,5 миллиардов долларов (8).

Особое место в двусторонних связях занимают вопросы сотрудничества в топливно-энергетической сфере. Россия является основным поставщиком нефти и газа в Белоруссию. Так, «в последние годы поставки в страну составляли около 21 миллиона тонн нефти и 20 миллиардов кубометров газа. В 2016 году были озвучены планы, что Россия будет поставлять в Белоруссию ежегодно 24 миллиона тонн нефти с 2016 по 2024 годы, однако начиная со второго полугодия 2016 года объем поставок снизился. Министр энергетики России Александр Новак, комментируя снижение объемов, заявил, что это связано с недоплатами белорусской стороны за нефть и газ» (8). Однако, Россия и Беларусь все же смогли согласовать индикативный баланс поставок нефти на 2018 год. Как и предполагалось, РФ поставит соседней республике 24 миллиона тонн нефти. Также предполагается, что до 2024 года ежегодные поставки нефти сохранятся на том же уровне, сообщал в апреле вице-премьер Республики Беларусь Владимир Семашко. Из них 18 миллионов тонн уйдут на местные нефтеперерабатывающие заводы, еще шесть миллионов тонн - на дальнейший экспорт (7). Что касается газа, то в 2018 г. изменились расценки на российский газ. Если в 2017 г. средняя стоимость российского газа составила $146,2 за тыс. куб. м, то в 2018 г. действует фиксированная цена – $129 за тыс. куб. м, в 2019 г. она будет снижена до $127, а с 2020 г. стороны и вовсе договорились приравнять Беларусь к российским регионам, т.е. цена будет такой же, как в Смоленской области плюс стоимость доставки (10).

Развивается сотрудничество в сфере атомной энергетики. 15 марта 2011 года было подписано Соглашение между правительствами двух стран о сотрудничестве в строительстве на территории Белоруссии атомной электростанции. В этой связи стоит упомянуть, что 21 февраля 2018 г. министр энергетики Беларуси В.Потупчик сообщил, что впервые в своей истории Беларусь отказалась от импорта электроэнергии из других государств и теперь является самодостаточной в этом сегменте страной (10). Связано это именно с вышеуказанным строительством атомной электростанции. Необходимо отметить, что отказ Минска от импорта электроэнергии ожидался, но пред-

полагалось, что это произойдет как минимум в 2019 г., когда планируется запустить первую очередь строящейся Белорусской АЭС мощностью 1200 МВт. Второй энергоблок аналогичной мощности должен вступить в строй в 2020 г. В случае, если бы Беларусь направила весь объем вырабатываемой на АЭС электроэнергии на внутренний рынок, это позволило бы полностью ликвидировать дефицит. Атомная станция сможет вырабатывать около 18 млрд кВт·ч в год, а объем импорта электроэнергии в 2017 г. составил 2,733 млрд кВт·ч. (весь объем получен из России) (10). В таком случае Беларусь не только откажется от закупок, но и получит возможность экспорта электроэнергии.

Таким образом, подводя итоги всему вышесказанному, можно с полной уверенностью, что степень взаимозависимости двух стран достаточно высок. Экономически страны сотрудничают очень тесно. Ради примера стоит упомянуть, что товарооборот между РФ и КНР почти соизмерим с товарооборотом РФ и Республики Беларусь, 35 млрд. долларов против 32 млрд. соответственно. Однако, периодически возникающие конфликты, главным образом, в продовольственной и нефтегазовой сфере наносят существенный вред развитию двусторонних отношений. Однако, как выявил доклад, подготовленный Российско-белорусским экспертным клубом при официальном издании Парламентского собрания Союза Беларуси и России «Союзное вече», самым существенным негативным политическим фактором — низкий уровень доверия между политическими элитами РФ и РБ (6,16). На наш взгляд, вопрос доверия является в целом краеугольным в деле установления равноправного межгосударственного сотрудничества. Тот факт, что недоверие является самым негативным политическим фактором в отношениях между двумя наиболее интегрированными странами однозначно не вселяет веру в межгосударственное сотрудничество. Тем не менее, при должном проявлении политической воли, а также усилении роли межгосударственных институтов возможно достижение межгосударственного консенсуса и поддержание его, путем взаимных консультаций и компромиссом, смягчающих последствия фактического неравенства государств.

**ЛИТЕРАТУРА**


1. Александр Ткачев: белорусские молочники должны искать новые рынки сбыта. https://ria.ru/interview/20180405/1517966089.html
2. Как гражданину Белоруссии поступить в российский вуз. https://studyinrussia.ru/actual/articles/kak-grazhdaninu-belorussii-postupit-v-rossiyskiy-vuz/
3. Об итогах внешней торговли Республики Беларусь с Российской Федерацией в 2017 году. http://www.embassybel.ru/trade-relations/
4. Панина Т. Сделано в Союзе. Григорий Рапота – о молоке, визах и военных учениях. https://rg.ru/2017/08/23/grigorij-rapota-o-moloke-vizah-i-voennyh-ucheniiah.html
5. Петров А.В. Страны постсоветского пространства. Иркутск: Изд-во ИГУ, 2012, 172 с.
6. Российско-белорусские отношения в горизонте до 2020 года: итоги форсайт-сессии / под ред. А.Д.Саулина. М.:ООО «Интеграйия: Образования и Наука», 2017, 96 с.
7. Россия и Беларусь согласовали объем поставок нефти на 2018 год.

https://rg.ru/2017/12/05/rossiia-i-belarus-soglasovali-obem-postavok-nefti-na-2018-god.html
8. Торгово-экономическое сотрудничество России и Белоруссии. РИА Новости https://ria.ru/spravka/20170330/1491040412.html
9. Шустов А. «Молочный спор» России и Беларуси: Позиции сторон http://eurasia.expert/molochnyy-spor-rossii-i-belarusi-pozitsii-storon/
10. Юшков И. Сможет ли Беларусь отказаться от российской электроэнергии? http://eurasia.expert/smozhet-li-belarus-otkazatsya-ot-rossiyskoy-elektroenergii/

**MÜASİR DÖVRDƏ RUSİYA-BELARUS MÜNASİBƏTLƏRİ**

**F.Ş.HÜSEYNOV**

**XÜLASƏ**

Məqalə Rusiya-Belarus münasibətlərinin müasir dünyada öyrənilməsinə həsr olunub. Dövlətlərarası münasibətləri müəyyən edən amillər diqqət mərkəzindədir. Münaqişələrin səbəbləri və onların həll yolları hərtərəfli təhlil olunur. Qeyd olunur ki, Rusiya-Belarus münasibətləri postsovet məkanında dövlətlərarası inteqrasiya sahəsində ən qabaqcıl nümunə hesab oluna bilər. Bununla yanaşı, fikir irəli sürülür ki, tərəqqi naminə hər iki tərəfin mövcud ziddiyyətlərini aradan qaldırmaq üçün siyasi iradəsi tələb olunur.

**Açar sözlər:** əməkdaşlıq, Belarus, Rusiya, milli maraqlar, münaqişə, inteqrasiya

**CONTEMPORARY STATE OF RUSSIA-BELARUS RELATIONS**

**F.Sh.HUSEYNOV**

**SUMMARY**

The article deals with the study of Russian-Belarusian relations in the modern world. The factors that determine interstate relations are the center of attention. The causes of conflict situations, as well as possible ways to resolve them are analysed. It is noted that Russian-Belarusian relations are the most advanced in the sphere of interstate integration in the post-Soviet space. Along with this, the idea is asserted that the progress requires the political will of both sides to overcome existing contradictions.

**Key words:** cooperation, Belarus, Russia, national interests, conflict, integration

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3* *Sosial-siyasi elmlər seriyası* *2018*

**PEDAQOGİKA**

**UOT 37.02; 371**

# TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ TAKSONOMİYANIN ROLU

**İ.Ə.SÜLEYMANOVA, G.M.MƏMMƏDLİ**
***Bakı Dövlət Universiteti***
***irada_suleymanova@mail.ru; mli_gulnar@mail.ru***

*Məqalədə təlim məqsədlərinin sistemli şəkildə xarakterizə olunması, təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatı üçün taksonomiya anlayışından istifadə olunur. Təhsildə taksonomiya qarşıya düzgün məqsəd qoymaq, təhsil alanın tapşırıqları düzgün formalaşdırmaq, adekvat qiymətləndirmə vasitələrini seçmək və əsasən təlim nəticələrini düzgün təhlil aparmaq üçün lazımdır.*

**Açar sözlər:** taksonomiya, təlim məqsədləri, şagird

Ənənəvi təlim monoloji təlim idi, bir səsin (müəllimin) təlimi idi. Müəllim sinifdə hakimi-mütləq idi. Pedaqoji fəaliyyətdə müəllimin dominant rolu bu anlama əsaslanırdı. Müəllim hər şeyi bilir, həqiqət işığı ilə biliksiz şagirdi maarifləndirir, sonra isə onun həqiqəti necə əxz etdiyini yoxlayır. Dərs monoloqa çevrilir. Şagird danışanda da əslində müəllim monoloquna davam etdirirdi. Belə şəraitdə şagird təlimin obyektinə çevrilir. Belə təlimdə, təbii ki, təlim məqsədləri, sadəcə olaraq, şagirdin yaddaşına əsaslanırdı. Şagird ən yaxşı halda təlim materialını əzbərləyir, mexaniki şəkildə ifadə edirdi. Müasir dövrdə informasiyalı cəmiyyətdə öyrənənlərin idrak fəallığını təmin etməkdən ötrü, ilk növbədə, onları tənqidi düşünməyə yönəltməkdən, dərketmə, düşünmə səviyyələrini nizamlamaqdan ibarətdir. Tənqidi düşüncə bizə - biz nə düşünürük, niyə başqa cür deyil, məhz belə düşünürük kimi suallar üzərində fikirləşmə imkanı verir. Tənqidi baxışla düşünə bilmək, düşüncələrimizin şüurlu olaraq bu məqsədə yönəlməsi deməkdir. Düşüncə və fikirlərimiz əvvəlcədən verilmiş hökmlərlə bağlı deyil, məntiqimizə və fərqli mənbələrdən toplayaraq süzgəcdən keçirib bir yerə cəmlədiyimiz məlumatlara söykənir. Tənqidi düşünə bilən şagirdlər öyrənməkdən zövq alırlar. Öhdələrinə götürdükləri ən çətin tapşırıqlarda belə bunun özünü inkişaf etdirmək və özünüifadə etmək fürsəti olduğunun fərqinə varırlar. Təbii ki, bu prosesdə müəllimin peşəkar bələdçiliyi vacibdir. Müəllimlər üçün də öyrətmə təcrübəsini maraqlı və cəlbedici edən bu amillərdir.

Ötən əsrin 30-cu illərindən başlayaraq öyrənənlərdə tənqidi düşüncəni formalaşdırmaqdan böyük əhəmiyyət kəsb edən taksonomiya konkret tədqiqat obyekti kimi araşdırılmağa başlamış, müxtəlif konseptual modellər yaradılmışdır. "Təhsil məqsədlərinin taksonomiyası" nəzəriyyəsini ilk dəfə Çiqaqo universitetinin professoru Benjamin Blum 1956-cı ildə təklif etmişdir. Blum əsasən idrak taksonomiyasını tədqiq etmişdir. O, öyrənənlərdə tənqidi təfəkkürü inkişaf etdirmək, yaradıcı dərkertmənin 6 səviyyəsini müəyyən etmişdir. Hazırda təlim məqsədlərinin taksonomiyası Milli Kurikulumun elmi-nəzəri və psixoloji əsasını təşkil edir. Təhsil pillələri hər sinif üzrə müəyyən olunmuş təlim nəticələrini (standartları) əsasında üçtərkibli taksonomiya durur. Məzmun standartları iki tərkib hissədə - bilik və fəaliyyətdən ibarətdir. Həmin tərkib hissələrin əsasını üç tərkibli taksonomiyaların öyrənmə və inkişaf səviyyələri (taksonlar) təşkil edir. Öyrənmə səviyyəsində təhsilin məzmun tərəfi – öyrəniləcək bilik, bacarıq və vərdişlər, anlama, tədqiq və qiymətləndirmə nəzərdə tutulur. Öyrənən yeni faktları bilir, öyrədilənləri spesifik informasiyasını xatırladır, anlama səviyyəsində yeni informasiyaların mənasını dərk edir, fikir yürüdür, tədqiqetmə səviyyəsində həmin informasiyaları fərqli situasiyalarda istifadə edir, nümayiş etdirir. İnkişaf səviyyəsində məzmun standartlarının tərkib hissəsinin əsasını təşkil edir. İnkişaf taksonları çoxcəhətlidir. Onlar analizetmə səviyyəsində öyrənən məlumatı bir neçə hissəyə ayırır, tədqiqat aparır, müqayisə edir. Əvvəlki biliklərə istinad edib, yeni ideyalar irəli sürür, ümumiləşdirir, faktları cəmləşdirir, tənqidi təfəkkürün, yaradıcı təxəyyülün əsasında biliklərini sadə formada tətbiq edir, şagird öyrənə-öyrənə inkişaf edir.

B.Blum taksonomiyası idraki davranışları faktiki olaraq sadədən mürəkkəbə doğru altı kateqoriyaya görə təsnif edir. Bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə (dəyərləndirmə).

Bilik – yadda saxlamanı, eləcə də yada salma və tanımanı vurğulayan kateqoriyadır, informasiyasına eşidildiyi formada təkrar çatdıra bilmək qabiliyyətidir;

Anlama – informasiyaları daha anlaşıqlı şəkildə qabiliyyətidir. Anlama digər səviyyələrə aparan mühüm qapıdır, əgər şagirdlər heç nəyi düşünmürlərsə, onlar materialdan keyfiyyətcə yüksək səviyyə tələb edən problemi həll edə və təhsil proseslərini həyata keçirə bilməzlər.

Tətbiqetmə - təklikdə və qrup halında problemin həllinə nail olmaq üçün istifadə olunmalıdır.

Analiz – müxtəlif kompleks proseslərin necə izah olunmasının məqsədini təşkil etmək və müəyyən bir məqsədə çatmaq üçün birgə işləməkdir, müəyyən bir ideyanın səbəblərini, nəticələrini və digər tərkib hissələrini tapa bilmək bacarığı, hər hansı vəziyyət və hadisəni götürərək müxtəlif fikirləri bir araya gələrək yekun effektini nümayiş etdirmək bacarığıdır;

Sintez – yeni və unikal mahiyyət yaratmaq üçün elementlərin kreativ (yaradıcı) şəkildə əlaqələndirilməsi bacarığı; əvvəllər mövcud olmayan struktur və ya nümunələri təşkil edən hissələrin birləşməsi prosesidir, bir neçə ideyanın bir yeni ideya halında birləşdirilməsi, köhnə ideyanın, yeni variantının yaradılması;

Qiymətləndirmə (dəyərləndirmə) – mübahisəli mövzularda qərar qəbul etməyi və bu qərarları möhkəm səbəblərlə əsaslandırmağı əks etdirir. Qiymətləndirmə şagirdlərin fikirlərini və düçüncələrini əsaslandırmağı, mühakimə yürütməyi və bunları nəyə əsaslandırdığı ilə bağlı kriteri təqdim etməyi tələb edir.

Təlim məqsədlərinin sistemli şəkildə xarakterizə olunması, təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatı üçün taksonomiya anlayışından istifadə olunur. Taksonomiya nədir və o təlimə hansı yenilikləri gətirmişdir? Taksonomiya yunan sözüdür (taxis – qayda ilə yerləşmə, namos – qanun deməkdir). Təlim məqsədlərinin sistemli və ya şəbəkəli təsnifatına taksonomiya deyilir. Təlim məqsədlərinin sistemli və ya şəbəkəli təsnifatı, yəni təlim məqsədlərinin taksonomiyası tədris prosesinin elmi-metodik səviyyəsində planlaşdırmaq və onun nəticələrini müəyyən etməyə imkan verir. Təhsildə taksonomiya qarşıya düzgün məqsəd qoymaq, təhsil alanın tapşırıqları düzgün formalaşdırmaq, adekvat qiymətləndirmə vasitələrini seçmək, təlim nəticələrini əsasən düzgün təhlil aparmaq üçün lazımdır.

B.Blumun idrak taksonomiyasında təfəkkürün 3 növü – məntiqi, yaradıcı və tənqidi növü çagird tərəfindən həyata keçirilir. Tənqidi təfəkkür daha çox analiz, sintez və qiymətləndirmə mərhələsində üzə çıxır. Təhlil mərhələsində şagirdin məntiqi, sintezdə yaradıcı, qiymətləndirmə mərhələsində isə tənqidi təfəkkürü reallaşır.

XXI əsrin ilk illərində, yəni 2001-ci ildə B.Blumun ardıcıllarından olan D.Krosvol və L.Anderson idrak taksonomiyasının sintez və qiymətləndirmə mərhələlərinin yerini dəyişməyə cəhd göstərilmişdir. Krosvol və L.Anderson belə hesab edirlər ki, idrak prosesinin ən yüksək mərhələsi yaradıcı təfəkkürdür. Qiymətləndirmə prosesi isə tənqidi təfəkkürə aid olduğu üçün mürəkkəbliyinə görə yaradıcı proseslərdən aşağı səviyyədədir. Fərqi yoxdur, istər klassik B.Blum taksonomiyası olsun, istərsə də müasir dəyişdirilmiş hər ikisində öyrənən məntiqi yaradıcı və tənqidi təfəkkürü inkişaf edir. Dərsin kurikulum formasının təşkilində əsas məqsəd öyrənənlərin düşünmək dərketmə, isbat etmə, fikirlərini əsaslandırma keyfiyyətlərinə, bir sözlə idrak fəallığına nail olmaqdan ibarətdir.

B.Blum taksonomiyası üzrə hər bir dərsin sonunda mövzuya uyğun olaraq müəyyən ardıcıllıqla suallar verib öyrənənlərin idrak fəallığını təmin etmək olar.

Məsələn: "Sizə verdiyim məlumatda nə tanış idi?", "Yeni məlumatlar hansılar idi?", "Öyrəndiyiniz yeni sözləri sadalayın?", "Yeni sözlərin mənası nədən ibarətdir?", "Yeni sözlərin mənasını öyrənmək nəyə lazımdır?", Müxtəlif yeni sözlərin mənasını xarakterizə edin?" və s. Öyrənənlərə bu mərhələlərə aid verilən bu tipli suallar onların təfəkkürünü inkişaf etdirdiyi kimi, həm də öyrənənin bir şəxsiyyət kimi yetişməsinə yardımçı olur. Suallar əsasında öyrənənlərin fəal çalışmasının zəruri olduğu inkar edilməzdir. Ancaq müəlimlər sadəcə yaddas və xatırlama tələb edən suallardan daha mürəkkəb suallara keçərək öyrənənlərin konkret məlumatlar əldə edərkən belə tənqidi düşünmənin yuxarı səviyyəsinə çıxmalarına kömək etmiş olacaqdır. Məsələn: aşağı səviyyədəki suallarda daha çox yaddasaxlama, anlama və tətbiq etmə səviyyəsi, analiz, simtez və qiymətləndirmə

(dəyərləndirmə), düşünmə səviyyəsini, daha mürəkkəb suallar yaratma – yuxarı səviyyəni ehtiva edir. Yuxarı səviyyəli suallar vermək və yuxarı səviyyədə hədəflərə çatmaq müəllimlərin sinifləri tənqidi tətbiq edilməsini dəstəkləyəcək şəkildə yenidən formasını gərəkli hesab edir. Bu növ siniflərdə həm müəllimlər, həm də öyrənənlər artıq öyrənməyə və tənqidi düşünməyə dəyər verir və dəstəkləyirlər. Öyrənənlər arasında, yaxud da müəllimlərlə öyrənənlər arasında tez-tez canlı və mədəni mübahisələr baş verir. Bu mübahisələr əksərən öyrənənlərdən birinin, yaxud da müəllimlərin soruşduğu hər hansı bir sualla başlayır. Sualların səviyyəsi, növü və quruluşu yaranacaq mübahisənin müəyyənliyi üçün önəmlidir. Bu suallar öyrənənlərin yuxarı səviyyədə daha mürəkkəb tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmələrinə kömək edir.

Standartlarda nəzərdə tutulan II əsas məsələ öyrənənlərin dəyərlərə münasibətini inkişaf etdirməkdən ibarətdir. Bu məsələlərin həllində emosional (affektiv) taksonomiyaların rolu əvəzsizdir. Emosional (affektiv) taksonomiyalar öyrənənlərin hiss, yanaşma, dəyər və emosiyaların yaranmasında böyük əhəmiyyətə malikdir. David Krosvol 1964-cü ildə emosional taksonomiyaların təsnifat sistemini yaratmışdır.

Müasir təhsilin müvafiq məqsədləri emosional taksonomiyalara xidmət edir. Bu taksonomiyalar öyrənənlərin hisslərinin, davranışının, dəyərlərinin və emosiyalarının inkişafından ibarət olan emosional və ya affektiv taksonomiyalar adlanır. Burada səmimilik və düzgünlük kimi bəzi affektiv məqsədlər əsas məqsədlərdir. Onun vasitəsilə öyrənənlərin təlimə dəyər kimi münasibəti və dəyərləri daha da yaxşılaşdırdığı hiss olunur, çünki müəllimlər təlimə təsir göstərən motivasiyanın nədə olduğunu müəyyənləşdirməyi öyrənirlər. Bu taksonomiyanın 5 mərhələsi müəyyən olunmuşdur:

- Məqbul saymaq (qəbul etmək);
- Reaksiya vermək (cavablandırmaq);
- Dəyərləndirmək;
- Təşkil etmək;
- Dəyər və ya dəyərlər sistemini xarakterində əks etdirmək.

Bu 5 kateqoriya da, idrak taksonomiyalarının kateqoriyalarında olduğu kimi digər kateqoriyalara bölünür.

Emosional taksonomiyanın ideyası davranış və dəyərlərin inkişafından ibarətdir. Bu prosesdə I addım öyrənmək istəyənlərin təşəbbüskarlığından asılıdır. Bu ilkin səviyyədə öyrənənlərin bəzi məlumatlarını məqbul saymaq istəkləri yaranır. O, affektiv məlumatı qəbul etmək üçün söhbətin nədən getdiyini anladığından əmin olur, bu isə məqbul saymanın II mərhələsidir. Öyrənənlər hər hansı bir təlim prosesində iştirak etmək üçün stimullaşdırılır. Bu standartlarda məsələlər mahiyyətin mövcudluğunun anlamadan ona seçimli yanaşmaya qədər davam edir. Bu ən aşağı səviyyədir. Öyrənən soruşur, seçir, təsvir edir, müəyyən edir, adlandırır, göstərir, cavab verir, iştirak edir.

**Reaksiya vermək (cavablandırmaq).** Emosional taksonomiyalarda II səviyyə reaksiya verməkdir. Öyrənən təlim prosesində fəal iştirak edir, suallara ca-

vab, hadisələrə reaksiya verir, kömək edir, müzakirə edir, təhrik edir, nümayiş etdirir, oxuyur, hesabat verir, danışır, yazır və s. Gördüyü işdən zövq alır. Cavablandırma həvəsi göstərir.

**Dəyərləndirmə**. Emosional taksonomiyanın III əsas kateqoriyası dəyərləndirmə adlanır. Dəyərləndirmə birinin əhəmiyyət anlamını dərk etməsidir. Dəyərləndirmə sadəcə bir reaksiya kimi deyil, əsaslandırılmış və düşünülmüş davranışın nümayiş etdirilməsidir. Dəyərləndirmədə 3 əsas bölmə vardır. Dəyəri məqbul saymaq, qəbul etmək; dəyərə üstünlük vermək; seçim. Dəyərin qəbul edilməsi o deməkdir ki, şagird inanır ki, müvafiq dəyər digərləri tərəfindən də üstün hesab olunur. Öyrənən hər hansı əşya və ya hadisəni dəyərləndirir, şərh edir, qoşulur, dəvət edir, mübadilə edir, bəraət qazandırır, işləyir, öyrənir və s. Bu davranış şagirdin dəyər göstərdikləri seçimi ilə əsaslandırılır.

**Təşkil etmək**. Təlim təcrübəsi artdıqca dəyərlər ardıcıllıq sıralanmasına düzülür. Öyrənən fəaliyyətdə olur. Təşkil etmək iki hissədən ibarətdir: dəyər konsepsiya səviyyəsində təqdim olunur. Bu dəyərin mücərrəd səviyyədə bir-birinə əlaqələndirilməsini müəyyənləşdirərkən meydana gəlir. Təşkil etmənin II bölümü dəyər sistemini təşkil etməkdən ibarətdir. Bu, öyrənənlərin təşəbbüskarlığını ardıcıllıq şəklə gətirmək üçün mövcud olan bir səviyyədir. Öyrənən əlaqələndirir, tərtib edir, dəyişir, birləşdirir, müdafiə edir, hazırlayır və s.

**Dəyərin daşıyıcısı olmaq (səciyyələndirmək)**. Emosional taksonomiyaların ən yüksək səviyyəsidir. Bu mərhələdə fərd, davranışlarını nəzarətdə saxlayan və həyat tərzini müəyyənləşdirən dəyərlər sisteminə malikdir. Dəyərlər öyrənənlərin özləri tərəfindən idarə olunduğu kimi, həm də onların düşüncəsinə təsir göstərir. Öyrənən qətiyyət göstərir, seçimli yanaşır, aşkar edir, təsir göstərir, dinləyir, təklif edir, dəqiqləşdirir, sınayır və s.

Milli kurikulumda öz əksini tapmış III əsas psixomotor taksonomiyadır, bacarıqlardır. Bu bacarıqlar əzələ inkişafını və hərəki fəaliyyəti əhatə edir. Kurikulumda psixomotor sahənin ən vurğulandığı fənn fiziki tərbiyə, əmək təlimi, musiqi fənləridir. Digər fənnlər də bu və ya digər dərəcədə iradi və ya qeyri-iradi psixomotor bacarıqlarla birbaşa əlaqədardır. Bu taksonomiyanı Kennes Mur təklif etmişdir. K.Mur psixomotor taksonomiyaları 3 mərhələyə ayırır:

- Təqlid (imitasiya);
- İdarə (monipulyasiya);
- Dəqiq icra.

**Təqlid mərhələsində** şagirdlər müəllimin etdirdiklərini təqlid edirlər ki, bu da hərəki bacarıqların ilkin mərhələsi kimi dəyərləndirilir. Bu mərhələ təlimin təşkilində müəllimin dəstəyi kimi qəbul olunur. Bu mərhələ şagirdin hər hansı bacarığını nümayiş etdirməsinə ilkin cəhdi kimi qiymətləndirilir. Bu zaman icra axıcı və koordinasiyalı şəkildə həyata keçirilməyə bilər. Məsələn, topun hədəfə düzgün atılması hərəkətlərini şagird təqlid edərkən nümunələri qeyri-dəqiq icra edə bilər.

**İdarə mərhələsində** şagird hər hansı hərəki bacarığını müstəqil şəkildə müəllimin yardımı olmadan nümayiş etdirə bilir. Bu mərhələdə hərəkətlərin icrası

zamanı şagirdin sərbəstlik nümayiş etdirməsi mühüm şərt olsa da, icranın qeyri-dəqiqliyi yol veriləndir.

**Dəqiq icra** psixomotorun ən yüksək mərhələsidir. Bu mərhələdə şagirdlər hərəkətləri bacarıqla, müstəqil və dəqiq icra edirlər.

Göründüyü kimi, taksonomiyalar təhsil və təlim məqsədlərinin səviyyəsini, mümkün zəncirvari düzülüşünü təmin edir, məsələyə müxtəliflik qatır, məqsədlərə genişlik və dəqiqlik verir, məqsədlərin ardıcıllığını reallaşdırır, şagirdin yaxşı oxuması üçün təlim-təcrübə mühiti yaradır, idraki strukturu təmin etməklə şagirdlərin faktları təhlil, tərkib və tədbiq etmələrinə şərait yaradır, bir sözlə, təlimi gücləndirir.

## ƏDƏBİYYAT


1. Məmmədov F., İmamverdiyeva N., Şıxəliyeva İ. Pedaqogika. Bakı, 2015.
2. Ə.Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
3. Bloom B.S Taxanomod Educational Objectives, New York, 1971/


## РОЛЬ ТАКСОНОМИИ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБУЧЕНИЯ


**И.А.СУЛЕЙМАНОВА, Г.М.МАМЕДЛИ**


**РЕЗЮМЕ**


В статье характеризуется систематическая характеристика целей обучения, использование концепции таксономии в сетевой или систематической классификации целей обучения. Необходимо создать надлежащую таксономию в образовании, правильно сформулировать обязанности педагога выбрать адекватные инструменты оценки, провести правильный анализ результатов обучения.



**Ключевые слова:** таксономия, цели обучения, студент


## THE ROLE OF TAXONOMY IN RAISING THE QUALITY OF TRAINING


**I.A.SULEYMANOVA, G.M.MAMMADLI**


**SUMMARY**


In the article, systematic characterization of learning objectives, networking or systematic classification of learning objectives is used in the concept taxonomy. It is necessary to set up a proper taxonomy in education, to properly formulate the responsibilities of the education, to select adequate assessment tools and conduct the correct analysis of learning results.



**Key words:** taxonomy, learning objectives, student

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2018

UOT 37

# QİYMƏTLƏNDİRMƏNİN TƏHSİL ALANLARDA KREATİVLİYİN İNKİŞAFINA TƏSİRİ

**N.E.ZEYNALOVA**
***Azərbaycan Dillər Universiteti***
***nigarzeynalova777@gmail.com***

*Məqalədə ali məktəbdə təhsilin keyfiyyətinin yüksəldiməsi istiqamətində görülən işlərlə yanaşı keyfiyyətinin artırılmasına bilavasitə təsir göstərən qiymətləndirmə haqqında bəhs edilmişdir. Kreativliyin inkişafına təsir göstərən qiymətləndirmə haqqında ətraflı məlumat verilmiş, qiymətləndirmənin təhsilalanlarda kreativliyin formalaşmasında müsbət təsiri açıqlanmışdır. Bununla yanaşı, aparıcı xarici ölkə universitetlərində kreativliyin qiymətləndirilməsinə dair aparılan eksperiment haqqında ətraflı məlumat verilmişdir. Müəllif ali məktəbdə formativ qiymətləndirilmənin aparılma zərurətini əsaslandırmış, onun yollarını ətraflı təsvir etmişdir. Qeyd olunmuşdur ki, summativ qiymətləndirmənin səmərəsini artırmaq üçün formativ qiymətləndirmə xüsusi əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** kreativlik, ali məktəb, qiymətləndirmə, formativ, summativ, tələbat, düşüncə bacarıqları

Hazırda təkcə Azərbaycanda deyil, dünyanın aparıcı ölkələrinin də təhsil sistemində sürətli dəyişikliklər baş verir. Səbəb isə əmək bazarının daim yenilənən tələbatlarının qarşılanması, onları ödəyən mütəxəssislərin hazırlanmasıdır. Deməli, əmək bazarının dinamik tələbatlarının ödənilməsi üçün mövcud ali təhsil sisteminə yenidən nəzər salınmalı və tədricən islahatlar aparılmalıdır.

Müasir gənclər keyfiyyətli təhsil almaq niyyətindədirlər. Hazırda abituriyentlər seçim etməzdən əvvəl ali məktəb tələbələri arasında sorğu keçirir, universitetdə təlim prosesi, maddi-texniki baza, məzunların işlə təminatı, tədrisin təşkili ilə bağlı araşdırmalar aparır, nəticə çıxararaq qərarlarını dəqiqləşdirirlər. Öyrənənlər təhsilə qoyduqları sərmayənin, vəsaitin doğru istiqamətdə xərclənməsi və gələcəkdə onlara qayıtması arzusundadırlar. Təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına, inkişafına zəmin yaradan amillər arasında ən vacibi keyfiyyətin təminatının ölçü vahidi olan qiymətləndirmədir. Dünyanın aparıcı universitetlərində bununla əlaqədar geniş araşdırmalar aparan təşkilatlar öz tədqiqatlarında, hesabatlarında qiymətləndirmənin təşkili, aparılması və optimallaşdırılması ilə bağlı məlumatlar paylaşırlar.

Ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən

işlərlə yanaşı, ona bilavasitə təsir göstərən qiymətləndirməyə xüsusi diqqət yetirmək lazımdır. Tədris prosesindəki mövcud problemlərdən ən başlıcası geniş tələbə kütləsini təmin edə bilməyən, tələbatları ödəməyən qiymətləndirmə metodlarının tətbiqi məsələsidir. Bu fikri dəstəkləyən Gibbs vurğulayır ki, tapşırıqların əksəriyyəti öyrənənləri təlim fəaliyyətinə həvəsləndirmir(12, 33). "Anlamanın nümayişini tələb edən" irihəcmli, mürəkkəb və bir neçə həlli olan tapşırıqlardan istifadə isə təlimə maraq oyadır, tələbələri stimullaşdırır. Qərb tədqiqatçıları son illər ərzində ali məktəbin qiymətləndirmə siyasətində və təcrübəsində baş verən dəyişiklikləri daha dərindən araşdırır, qiymətləndirmənin tələbələrin asudə vaxtlarının təşkilinə təsiri, səylərini hansı istiqamətə yönəltməsi ilə əlaqədar müzakirələr aparırlar(4; 5). Hazırda məzunların əmək bazarının tələbatlarını ödəməsinə, onların işlə təmin olunmasına, ömürboyu, fasiləsiz təhsilə xüsusi diqqət yetirilir. Bununla da tələbələrə şəxsi təlim proseslərini planlaşdırmaq və nəticələrinin monitorinqini həyata keçirmək bacarığı qazandırmaq prioritet kimi önə çıxır. Bryan və Kliq qeyd etmişlər ki, "müasir dövrdə təlim prosesinin təkmilləşdirilməsində qiymətləndirmənin pedaqogikaya təsiri diqqətdən kənarda qalmışdır"(6, 3). Əslində, müasir qiymətləndirmə biliklərin səviyyəsini ölçən məhdud imkanlara malik ənənəvi dəyərləndirmə sistemindən irəli getməlidir.

Kraft bildirmişdir ki, "kreativlik Qərb dünyasında universallaşmış müzakirənin bir hissəsi olmuş, təhsilə dair hüquqi normativ sənədlərdə və proqramlarda öz əksini tapmış, müvafiq status qazanmışdır"(8). Deyiləndən belə nəticəyə gəlinir ki, artıq qərb universitetlərində kreativ düşüncəyə malik mütəxəssis hazırlığı ön plandadır və çevik iqtisadi, texniki dəyişikliklərə məruz qalan dünyada innovativ inkişafa, kreativ tələblərə cavab verən işçi qüvvəsi, mütəxəssis hazırlığı üçün təxirəsalınmaz tədbirlər görülməlidir. Yaradıcılıq şəxsi və ictimai inkişafın əsas aspekti kimi nəzərdən keçirilməlidir (1). Əksər tədqiqatçılar təhsilalanlarda kreativliyin inkişafının vacibliyini vurğulasa da (8;13;14;17), nəinki Azərbaycanda, hətta dünyanın aparıcı ali məktəblərində kreativliyin qiymətləndirilməsi mexanizmləri tam işlənməmişdir. Məhz bu səbəbdən yaradıcı təxəyyül lazımınca ölçülmür, bəzən isə onun qarşısı alınır. Kleiman bildirmişdir ki, problemlə bağlı zəngin ədəbiyyatın olmasına baxmayaraq, kreativlik anlayışına düzgün tərif verilmir, istilahın mənası, məzmunu tam açıqlanmır, istifadə dairəsi dəqiq müəyyənləşdirilmir, barəsində çoxşaxəli və yekdil fikir formalaşdırılmır(14). Məsələn, Qardner kreativliyi fənn üzrə bilik, daxili motivasiya, çeviklik, uyğunlaşma və ziddiyyətli yanaşmaların sınaqdan keçirilməsinə hazırlıq kimi xüsusi koqnitiv (idraki) bacarıqların vəhdəti şəklində qəbul edir(11). Bayron isə ona daha geniş tərif vermiş, açıq suallara, problemlərə yeni və fərqli cavab olaraq dəyərləndirmişdir (7). Böyük Britaniyanın Kreativlik və Mədəni Təhsil Milli Məsləhət Komitəsi kreativliyə "orijinal və dəyərli nəticələr çıxarmaq üçün təsəvvür edilən fəaliyyətdir" tərifini vermiş, lakin həmin ifadələrin hansı mənada işləndiyini açıqlamamışdır(19).

Təhsilalanların kreativliyinin qiymətləndirilməsi mürəkkəb və ziddiyyətli məsələlərdəndir, ona görə də ali məktəblərdə onun ölçülməsi məsələsinə aydınlıq

gətirilməsinə böyük ehtiyac vardır(2;10;16).

Tələbələrin yaradıcılıq bacarıqlarını inkişaf etdirmək üçün qeyri-ənənəvi təlim metodlarından və qiymətləndirmə strategiyalarından istifadə olunmalıdır, onların indiyədək tətbiq edilənlərdən fərqli formada hazırlanması zəruridir (22, 443). Gözlənilməz risklərin nəzərə alınmasını, seçim azadlığını özündə cəmləşdirən qiymətləndirmə sisteminin tənzimlənməsi ənənəvi metodlar vasitəsilə mümkün deyil, kreativlik yeni meyarlar əsasında ölçülməlidir. Votsonun fikrincə, ali məktəblərdə təhsil siyasəti, həmçinin mövcud vəziyyət və hazırkı qiymətləndirmə sistemi kreativliyin inkişafına ciddi maneələr törədir (23). Azərbaycanın təhsil müəssisələrində də belə vəziyyət hökm sürür. Reallıq onu göstərir ki, təlim prosesi təhsilalanların kreativ fəaliyyətinin qarşısını alır, önünə sədd çəkir. Halbuki qiymətləndirmənin praktik, real həyatla əlaqəli tapşırıqlar əsasında aparılması prosesin daha da optimallaşmasına xidmət edə bilər. Tələbələr nümayiş etdirdikləri kreativliyin qiymətləndirməyə və yekun qiymətə necə təsir göstərməsi haqqında dərin məlumata malik olmadıqları üçün orijinal ideyalar irəli sürməkdən, maraqlı düşüncə tərzi sərgiləməkdən çəkinir, riskə getməyə həvəs göstərmir, stimullaşmırlar.

Bəzi tədqiqatçılartələbələr üzərində eksperiment apararaq belə nəticəyə gəlmişlərki, hər bir təhsilalan kreativ potensiala malikdir, lakin həmin daxili imkanı üzə çıxarmaq üçün innovativ təlim təcrübəsi və açıq problemlər təklif olunmalıdır. Öyrənənlərin portfoliosununtəhlili də həmin qənaətə gəlməyə zəmin yaradır. Araşdırmalar və intensiv tədqiqatlarəsasən Şərqi İngiltərə Universitetinin (UEA) ibtidai sinif müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrini əhatə etmişdir. Eksperiment xarakterli fənn təhsil müəssisələrində işlə təminat imkanlarını nəzərə alaraq öyrənənlərin kreativ, tənqidi və konseptual düşüncəsinin inkişafını, onlara çoxseçimli, stimullaşdırıcı, problemli təlim mühiti yaratmağı prioritet kimi götürmüşdür. “Kreativlik və təlim” modulu 3-cü kurs tələbələrinialternativ, kreativ təlim təcrübəsi ilə təmin etmək, “hər kəs kreativ potensiala malikdir” fikrini dəstəkləmək, Kraftın “aşağı kreativlik” fikrinəəsaslanaraq “kreativlik öyrədilə və inkişaf etdirilə bilər” ideyasını sübuta yetirmək məqsədilə hazırlanmışdır(8). Həmin fənn yalnız kreativ tələbələri seçmək üçün deyil, həm də onlarda yaradıcılığı inkişaf etdirmək, daxili imkanları üzə çıxarmaq, müxtəlif qabiliyyətləri müəyyənləşdirmək və müvafiq pedaqoji yanaşmalar təqdim etmək məqsədilə tədris olunur. Tədris prosesində tələbələr ideyaların araşdırılması və generasiyasında təxəyüllərini işə salmağa, yeni vəziyyətlərə orijinal münasibət bildirməyə, əlaqələr yaratmağa, şəxsi kreativliyə dair məlumat toplamağa həvəsləndirilirlər. Artıq 12 həftədən sonra öyrənənlər mühazirə, interaktiv seminar, müstəqil fəaliyyət vasitəsilə təhsildə kreativlik siyasəti və fəlsəfəsi, mövcud nəzəriyyələr, təcrübə haqqında araşdırmalar aparmağı bacarmışlar. Bununla yanaşı, praktik və özünürefleksiyaya imkan yaradan təlim fəaliyyətinə cəlb olunmuş, planlaşdırma, qurma və təqdimat vasitəsilə şəxsi kreativliklərini araşdırmışlar.

Kreativlik anlayışının dərk edilməsi üçün müxtəlif, lakin bir-birini tamamlayan amilləri nəzərdən keçirmək vacibdir: fənn üzrə biliklər, motivasiya,

öyrənmə yolları və fərdi xüsusiyyətlər.

Koqnitiv (idraki) proseslərə (Torrans)(20) əsaslanan tərifə görə, şəxsi inkişaf (Qardner) (11) kreativ təcrübənin təsiri ilə formalaşır.

Fənn üzrə təlim nəticələrini əldə etmək məqsədilə tələbələr ənənəvi esse və kreativ portfolio hazırlamışlar, onların hər biri summativ qiymətləndirmə zamanı 50% daha çox uğur qazanmışdır. Qiymətləndirmə ilə bağlı ədəbiyyatlarda çoxsaylı məlumatlar mövcuddur, lakin ali məktəbdə kreativliyin ölçülməsinə dair istər xaricdə, istərsə də Azərbaycanda kifayət qədər tədqiqat aparılmamışdır. Bu istiqamətdə ciddi boşluqlar var.

Tədqiqatın əsas məqsədi açıq tipli, müxtəlif həll yolu olan tapşırıqların qiymətləndirilməsinin tələbələr tərəfindən necə qarşılandığını müəyyənləşdirmək idi. Sonu məhsulun hazırlanması ilə nəticələnən tapşırığın icra prosesi addım-addım sənədləşdirilmiş, ideyaların qeydiyyatı aparılmış, prosesin təşkili ilə bağlı qısa rəy bildirilmişdir. Portfolio fənnin tədrisinin son günü tələbələrin hazırladıqları işin (məhsulun) təqdimatından sonra qiymətləndirilmişdir.

Təlim prosesinin bu şəkildə, yəni ənənəvi təlimdən fərqli formada təşkili və qiymətləndirilməsi tələbələr tərəfindən rəğbətlə qarşılanmışdır. Onlar arasında keçirilən sorğular zamanı "mən işin təşkilini yenilik kimi qəbul edirəm, bu bizə stimul verir, təlim tapşırığına marağımızı artırır, əvvəlki fəaliyyətlərdən kəskin şəkildə fərqlənir" kimi fikirlər söylənmişdir. Bu, tədqiqatın müəllifi Uotsonu tələbələrin təlim və qiymətləndirməyə dair daha dərin araşdırmalar aparmağa həvəsləndirmişdir. O, iki istiqamətə xüsusi diqqət yetirmişdir:

- Tələbələrin kreativ təlim mühitində fəaliyyəti;
- Tələbələrin öz bilik səviyyələrini müəyyənləşdirmələri, yaradıcılıq, şəxsi, peşəkar xüsusiyyətlərini üzə çıxarmaları (22).

Tədqiqat zamanı toplanılan materiallar, əldə edilən nəticələr sübut etmişdir ki, tələbələr alternativ təlim metodlarından və tədris yanaşmalarından istifadənin üstünlüklərini maraqla qarşılayır, artıq təhsil aldıqları universitetlə əlaqədar müsbət fikirlər söyləyirlər. Araşdırma innovativ təlim prinsipləri və ümumbəşəri dəyərlərin dəstəkləndiyi mühitin, müxtəlif həll yolu olan problemlərin, onların qiymətləndirilməsi üçün hazırlanan meyarların, praktik, refleksiv və kollaborativ (əməkdaşlıq) təlimin bütün təhsilalanların kreativ potensialını ortaya çıxarması ideyasını təsdiqləmişdir. Nayt qeyd edir ki, "bizim tələbələri necə qiymətləndirməyimiz, hansı ölçmə vasitələrindən istifadə etməyimizsahib olduğumuz dəyərin göstəricisidir(15). Mən çox istərdim ki, qiymətləndirmə prosesihəm fərd, həm də qrup üçün dəstəkləyici şəraitdə fəal təlim təcrübəsinin ayrılmaz hissəsi olsun". Kreativ proses və məhsulun hazırlanması ictimai (sosial) xarakter daşıyır, yəni o, birgə fəaliyyətin nəticəsidir (9). Kraft həmin fikirləri bir az da genişləndirmişdir: tələbələrə riskəgetməyə, səhvləri üzərində işləməyə imkan yaradan, cəzadan azad mühit təşkil olunmalıdır (8). Sadalanan pedaqoji prinsiplər qiymətləndirmə meyarlarına da öz təsirini göstərir. Qiymətləndirmə meyarları aşağıdakı xüsusiyyətləri özündə əks etdirməlidir:

- Tədqiqat, araşdırma apararkən, ideya və materialları seçərkən risk etmək;
- Tənqidi refleksiya vasitəsilə tədqiqatın istiqamətini şəxsə görə müəyyənləşdirmək;
- Prosesi sənədləşdirmək, qeydiyyatını aparmaq və icrasını reallaşdırmaq;
- Fərdi vəqrup təqdimatları zamanı aktivlik göstərmək.

Treffinger vəonun yanaşmasının tərəfdarlarıilkin sorğu, anket, müsahibə, müşahidə, tələbələrin işlərindən əldə olunan məlumatlar toplamış və multimetodlu (çoxmetodlu) qiymətləndirmənin tərifini vermişlər: "fərd (və ya qrup) tərəfindən "materialların yapışdırılması" prosesi məlumatın müxtəlif mənbələrdən toplanması, onların mənalı şəkildə təşkili və sintezidir"(21). Tədqiqatçıların iddia etdiyi kimi, kreativliyin çoxölçülü təbiəti bir alət və ya analitik prosedur vasitəsilə səmərəli şəkildə və hərtərəfli müəyyənləşdirilə bilməz. Anket sorğuları tələbələrin gözləntilərini müəyyənləşdirmək məqsədilə fənnin tədrisinin əvvəlində keçirilmişdir. Öyrənənlərin ilkin cavabları növbəti müsahibə mərhələsində maraqlı suallar formalaşdırmaq imkanı yaratmışdır.

İlkin təcrübə tələbələri qorxutsa da, ümumilikdəkreativ tapşırıqlar rəğbətlə qarşılanmışdır, çünki bu çalışmalar öyrənənlərə özünəinam qazandırmışdır. Anket sorğusu və müsahibədən əldə olunan məlumatların təhlili göstərmişdir ki, tələbələr təlimin belə formada təşkilindən məmnundurlar. Sorğuda səsləndirilən fikirlərə nəzər yetirək: "biz dərs prosesində əvvəlcədən təlimatlandırılmağa, hər bir məsələnin əvəzimizə təşkil olunmasına öyrəşmişik", "təlimin praktik tapşırıqlar üzərində təşkili məsələsini öncə tərəddüdlə qəbul etdim", "təlimin təşkilində riskə getmək, araşdırmaq, tədqiqat aparmaq kimiməsələlərin nəzərə alınması məni fəallaşdırır, ideyalar irəli sürməyimə zəmin yaradır, belə olan halda özümü daha rahat, güvənli, sərbəst və kreativ hiss edirəm". Tələbələrdən yekun məhsul (iş) haqqında nə düşündüklərini soruşduqda əksəriyyəti mürəkkəb fəaliyyətin sonunda real iş nümayiş etdirməkdən qürur duyduqlarını vurğulamışdır: "yekun məhsulun ortaya çıxması mənə gözəl nailiyyət qazandığım hissini yaşadır", "özüm üçün aydınlaşdırdım ki, uzun, lakin əhəmiyyətli bir səyahətin sonuna gəldim", "yekun işimdən çox razı qaldım, təəssüf ki, təqdimat zamanı çoxsaylı ideya və proseslərdən yalnız biri nümayiş olundu".

Müsahibə və müşahidələrin təhlili göstərmişdir ki, məhsulun üzərində birgə fəaliyyət kreativliyin inkişafına dair fikirləri genişləndirir, onları daha dolğun və anlaşıqlı edir. Buna misal olaraq: "düşünürdüm ki, kreativlik yalnız bəzi bacarıq və xüsusiyyətlərin inkişafı deməkdir, lakin indi onun gözəçarpan, real nəticələrlə yekunlaşan prosesin bir hissəsi olduğunu anladım". Digər tələbə işinin qrupun ümumi fəaliyyətinə verdiyi töhfəni gördükdə, fikirlərini belə ifadə etmişdir: "qazandığım nailiyyət fikir və hisslərimi formalaşdırmaqla yanaşı, qrupun kreativ ideyalarına da böyük təsir göstərmişdir". Deməli, kreativ ideya və məhsul başqaları tərəfindən də tanınmalı, fərdin kreativ inkişafına zəmin yaratmalıdır. Öyrənənlərin təcrübələrinə, maraqlarına, münasibətlərinə, hisslərinə, yaşıdları, müəllimləri ilə ünsiyyətlərinə, nəzəriyyələri araşdırmaq, tədqiqatlar aparmaq baca-

rıqlarına təsir edən bir çox amillərin təsviri onu göstərir ki, təqdim olunan hər bir iş özlüyündə mürəkkəb proses və yeni məhsulun unikal kombinasiyasıdır.

Məhsulun hazırlıq prosesi təbii ki, qiymətləndirmədə də öz əksini tapmalıdır. Bu, tədqiqatın müxtəlif mərhələlərində qiymətləndirmənin tələblərinin tələbələr tərəfindən qavranılmasını labüdləşdirir. Təhsilalanların əksəriyyəti prosesin müxtəlif yollarla qiymətləndirilməsində fərqli metodlardan istifadənin, yeniliklərin tətbiqinin danılmaz olduğunu bildirmişdir. Müxtəlif qiymətləndirmə metodlarından istifadəfərdin kreativ imkanlarını üzə çıxarır, öyrənənin maraq və təcrübələrini, yaradıcılığını nümayiş etdirməyə imkan yaradır. Fikirlərin təhlili qiymətləndirmənin metod və vasitələrinə xüsusi diqqət göstərməyi qaçılmaz edir. Qiymətləndirmə zamanı təkcə faktların təkrarlanması deyil, həm də müxtəlif həyati situasiyalarda materialın istifadəsi ölçülməlidir. Yenə də tələbələrin bu mövzu ilə əlaqədar nə düşündüklərinə diqqət yetirək: "mən çox arzu etmişəm ki, kreativ olum, lakin sonda kreativliyin mənə hansı qiyməti qazandıracağı ilə əlaqədar böyük narahatlıq keçirmişəm", "düşünürəm ki, mən həqiqətən öyrənməyi öyrənməliyəm, təəssüf ki, cəmiyyətimizdə elə vəziyyət formalaşmışdır ki, son nəticə hər şeydən önəmli hesab edilir".

Araşdırmalar göstərmişdir ki, təlim nəticələrinin qazanılmasına istiqamətlənən qiymətləndirmə meyarlarının, səviyyələr üzrə təsvirlərin açıq, şəffaf və aydın olmasına baxmayaraq, bəzi tələbələr onların təcrübədə tətbiqində çətinlik çəkirlər: "mən müxtəlif həlli olan problemlərin tapşırıq qismində verilməsini alqışlayıram, lakin yüksək dəyərləndirilmək üçün işimdə hansı cəhətlərin nəzərə alınacağını bilmirəm". Belə fikirlər göstərir ki, qiymətləndirmə ilə bağlı işlədilən terminlər hər kəs tərəfindən fərqli şəkildə anlaşılır. Bu səbəbdən də öyrənənlərin çox hissəsi fərdi tyutor məsləhətinə ehtiyac duyur. Onlar fənnin tədrisi ilə paralel söhbətlərin aparılmasını, inkişaf dinamikasına xidmət edən vasitələrin müzakirə olunmasını istəyirlər. Tələbələrin bu arzusu çevik əks əlaqənin yaradılmasını zərurətə çevirir. Fəaliyyət zamanı tələbələrə köməyin göstərilməsi, müvafiq konstruktiv məsləhətlərin verilməsi işin daha keyfiyyətli yerinə yetirilməsinə zəmin yaradacaq. İşin sonunda verilən məsləhət və tövsiyələr vaxt itkisinə səbəb olur. Çünki hazır məhsula müdaxilə etmək, dəyişikliklər aparmaq mümkünsüzdür.Bununla əlaqədar tələbələr fikirləriniaşağıdakı kimi bildirmişlər: "müəllim tərəfindən verilən məsləhət işin yerinə yetirilməsinə dair istiqamət səviyyəsində deyil, şəxsi tənqid, demək olar ki, yoxdur". Bəzən iş və tələbələrin söylədikləri ideyalar haqqında rəy söyləmək bir o qədər də asan olmur. Çünki onları öyrəşdikləri düşüncə tərzini dəyişməyə məcbur edərkən tənqidi münasibət bildirilməsi istisna deyil, bu da təlimə mənfi təsir göstərir.

Summativ qiymətləndirmə üçün nəzərdə tutulmuş tapşırıqların ümumilikdə yaxşı qəbul olunmasına baxmayaraq, qiymətlə bağlı narahatlıqlar mövcuddur. Digərləri ilə nisbətdə aşağı səviyyəli iş nümayiş etdirən tələbələrdən biri bildirmişdir: "müəllimin işimi həvəsləndirici yazılı şərhlərlə müşayiət etməsinə baxmayaraq, məndə elə təsəvvür yarandı ki, yaşıdlarımdan daha az kreativəm". Bu fikrə əsaslanan Gibbsəgörə, yalnız təhsilalanların öyrənməsi zamanı deyil, daha

çox ümumi təqdimat müddətində (qiymət nəzərdə tutulur) qurulan əks əlaqənin keyfiyyət səviyyəsi diqqətin mərkəzləşməsinə təsir göstərir(12). Bununla yanaşı, müəllif iddia edir ki, belə qiymətləndirməəslində kreativliyin inkişafının qarşısını alır. Tələbələrdən biri summativ qiymətləndirmə zamanı ona verilən əksəlaqəyə vaxtında əhəmiyyət verməsə də, yekunda həmin şərhlərə yenidən baxdığını vurğulamışdır. Qiymətləndirmə meyarlarının öyrənənlərlə birlikdə tərtib olunması barədə fikir söyləyənlər də olmuşdur.

Məlumatın təhlili nəticəsində belə bir fakt ortaya çıxmışdır ki, tələbələr dəstəkləyici təlim mühitində, praktik və riskli tapşırıqların həllində, alternativ, kreativ qiymətləndirmənin tətbiqi prosesində daha çox stimullaşır və geniş fəaliyyət göstərirlər. Bununla yanaşı, öyrənənlər onların bilik, anlama və bacarıq səviyyələrinin müxtəlif yollarla nümayişinə imkan yaradan qiymətləndirmə üsullarını daha yüksək dəyərləndirirlər. Lakin bəzi tələbələr kreativ ideyalarını irəli sürməkdə tərəddüd edir vəbelə tapşırıqların həllinə həvəssiz yanaşırlar, çünki yekun qiymətləndirmədə hansı qiymət alacaqlarını bilmirlər, kreativliyin necə qiymətləndirilməsi haqqında heç bir məlumata malik deyillər. Problemin aradan qaldırılması məqsədilə tələbələrə fənnin tədrisinin əvvəlində təlim nəticələri, həmçinin onların əldə olunmasına zəmin yaradan qiymətləndirmə meyarları barədə qısa, lakin dəqiq informasiya ötürülməlidir. Kreativlik və qiymətləndirmə arasındakı ziddiyyətin ortadan götürülməsi yollarından biri tələbələrin semestr ərzində summativ və formativ qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsində yaxından iştirakını təmin etməkdir. Beləliklə, problemin qismən də olsa həllinə nail olmaq mümkündür. Praktik tədris sessiyalarında özünüqiymətləndirmə tapşırıqlarından istifadə və təhsilalanların diqqətini təlim nəticələri ilə fərdi məqsədlərin əlaqəsinə yönləndirərək onları həvəsləndirmək də məsələnin çözümünə müsbət təsir göstərir. Təlimdə həvəs, ümid, gözləntilər və görülən iş haqqında aydın və dəqiq təsəvvürə malik tələbələr verilmiş meyarlara əsasən kreativliklərini, həmçinin idarəetmə, istiqamətləndirmə, qiymətləndirmə bacarıqlarını nümayiş etdirmişlər. Lakin müəllim nəzərə almalıdır ki, sadalanan bacarıqlar təhsil müddəti ərzində tələbələrdə formalaşmayıbsa,sonradan onların tələb olunması düzgün deyil. Tədqiqatın nəticələrinin təhlili göstərmişdir ki, tələbələrin qiymətləndirmə meyarlarının müzakirəsinəcəlb edilməsionların fərdi inkişaflarının daha dərin və əhatəli monitorinqini aparmağa, fəaliyyətlərini nəzərdən keçirməyə imkan yaradacaq. Tapşırığın əvvəlindəqiymətləndirmə meyarları haqqında dəqiq və aydın izahatın verilməsi dəyərləndirmə zamanı onların qiymətdən narazı olma ehtimalını azaldacaq. Mun hesab edir ki, müəllim və tələbələr qiymətləndirmənin məqsəd və meyarlarını düzgün müəyyənləşdirdiyi təqdirdə o, təlim prosesinə müsbət təsir göstərir, lakin burada biliklərin ötürülmə yollarını diqqət mərkəzində saxlamaq lazımdır (18, 194). Tapşırıq bir neçə mərhələyə bölünməli, hər mərhələ ilə əlaqədar müəllimlə əks əlaqə yaradılmalı, pedaqoqun qeydləri, fikirləri geniş müzakirə olunmalı, yalnız bundan sonra növbəti mərhələyə keçid alınmalıdır. Qiymət və müəllimin şərhi kursun yekununda tələbələrə çatdırıldıqda, böyük ehtimal ki, onlar öyrənənlər tərəfindən oxunmayacaq, beləliklə, tamamlan-

mış fəaliyyətə heç bir fayda verməyəcəkdir. Bu səbəbdən kursun planlaşdırılması zamanı formativ qiymətləndirmə nəzərə alınmalı, semestr müddətində davamlı təşkil edilməlidir. Qiymətləndirmə tədris prosesinin önəmli hissələrindən olduğundan ali təhsil müəssisələrinin professor-müəllim heyəti üçün kreativ tapşırıqların tərtibi və qiymətləndirilməsi ilə bağlı müvafiq təlim və seminarlar keçilməlidir. Pedaqoqlar kreativlik, müxtəlif təlim vəziyyətləri, yeni üsul və vasitələrlə əlaqədar geniş müzakirələr aparmalı, kreativ pedaqoji yanaşmalar, ideyalarla bağlı təcrübələrini bölüşməlidirlər. Fəaliyyət məhsullarını əhatə edən portfolionun, təlim nəticələrinin ənənəvi metodlarla ölçülməsi və qiymətləndirilməsi mümkün deyil. Deməli, ali məktəblər təlim məqsədlərini bir daha nəzərdən keçirməli, ümumiyyətlə, qiymətləndirmə sisteminə bütövlükdə yenidən baxmalıdırlar. Summativ qiymətləndirmə üçün tapşırıqların hazırlanması ilə yanaşı, kreativ prosesə zəmin yaradan, onun inkişafına təkan verən praktikyönümlü çalışmaların tələbələrə təqdim edilməsi, nəticələrin formativ qiymətləndirmə vasitəsilə ölçülməsi yekunda uğur qazanmağa zəmanət verir.

Ali təhsil ocaqlarında qiymətləndirmə prosesində innovasiyalar tətbiq edilmədiyindən öyrənənlər təlimə həvəssiz yanaşırlar. Tələbələrin stimullaşdırılması, müasir, innovativ, kreativ tapşırıqlar vasitəsilə qiymətləndirilməsi mütləqdir. Mövcud qiymətləndirmə siyasəti ilk növbədə təhsil paradiqminin dəyişməsində öz əksini tapmalı, ənənəvi qiymətləndirmə metodlarından tamamilə imtina olunmalı və ya dövrün dinamik tələbləri ilə səsləşən interpretasiyada tətbiq edilməlidir. Kreativlik və qiymətləndirmə arasında mövcud ziddiyyətlərin aradan qaldırılması pedaqoji kollektivin problemlə bağlı konstruktiv dialoq masası ətrafında müzakirələr aparmasından asılıdır. İşin belə formada təşkili ali təhsil müəssisəsinin professor-müəllim heyətini qiymətləndirmə haqqında geniş məlumatla təmin edəcək, tələbələri qiymətləndirmə meyarlarından, formativ qiymətləndirmə tapşırıqlarından yararlanmağa yönəldəcək, bununla da proses keyfiyyətli sonluqla nəticələnəcək, qiymətləndirmə ilə kreativlik arasındakı ziddiyyətaradan qaldırılacaqdır.

**ƏDƏBİYYAT**


1. Amabile T. The Social Psychology of Creativity. New York: Springer-Verlag, 1983.
2. Beghetto R.A. “Does Assessement Kill Student Creativity?” The Educational Forum, Vol.29, No.2, pp.254-263, 2005.
3. Biggs J. Teaching for Quality Learning at University. Backingham: SRHE & Open University Press, 1999.
4. Boud D. and Falchikov K. Aligning Assessment with Long-Term Learning , Assessment and Evaluation in Higher Education, 10, 225-235.
5. Brown S. Assessment that Works at Work, the Newsletter for the Institute of Learning and Teaching in Higher Education, 11, 6-7, 2003.
6. Bryan C. and Klegg K. (ed.) Innovative Assessment in Higher Education. Abingdon: Routledge, 2006.
7. Byron K.Defining Boundaries for Creativity. Keynote Presentation at the Creativity or Conformity? Building Cultures of Creativity in Higher Education Conference , University of Wales Institute, Cardiff.8-10 January, 2007.

8. Craft A. Creativity in Schools, in Jackson N., Oliver M., Shaw and Wisdom J. (ed.) Developing Creativity in Higher Education: An Imaginative Curriculum. London: Routledge, 2006.
9. Csikszentmihalyi M. Implications of a Systems Perspective for the Study of Creativity, in Sternberg, R. (ed), Handbook of Creativity. Cambridge: Cambridge University Press, 1999.
10. Elton L. Assessing Creativity in an Unhelpful Climate, Art, Design and Communication in Higher Education, 5, 119-30, 2006.
11. Gardner H. Creativity, RSA Journal, 143(5), 33-42, 1995.
12. Gibbs G. How Assessment Frames Student Learning, in Bryan C. and Klegg K. (ed) Innovation Assessment in Higher Education. London: Routledge. 23-36, 2006.
13. Jackson N. Creativity in Higher Education: Creating Tipping Points for Cultural Change. Scholarly Paper3 – Surrey: Centre for Excellence in Professional Training and Education, University of Surrey, 2006.
14. Kleiman P. Beyond the Tingle Factor: Creativity and Assessment in Higher Education, The ESRC Creativity Seminar, University of Strathclyde. 7 October, 2005.
15. Knight P. (ed) Assessment for Learning in Higher Education. London: Kogan Page, 1995.
16. Loveless A. Creativity in Self-Actualizing people, in Rothenburg, A. and Hausman C.(ed) The Creativity Question. Durham, NC: Duke University Press, 1976.
17. McWlliam E. Unlearning pedagogy, Journal of Learning Design, 1, 1-11, 2005.
18. Moon J. A Handbook of Reflective and Experiential Learning, Theory and Practice. London: Routledge Falmer, 2004.
19. National Advisory Committee on Creative and Cultural Education (NACCCE),(1999).n All our Futures: Creativity, Culture and Education, Suffolk: DfEEPiirto Jane. Understanding Creativity; Great Potential Press, 2004.
20. Torrance E. Assessing the Further Reaches of Creative Potential, Journal of Creative Behaviour, 14 (1), 1-19, 1980.
21. Treffinger D., Young G., Selby E. and Shepardson C. Assesing Creativity: A Guide for Educators. Sarasota, Florida: Center for Creative Learning, 2002.
22. Watson J. Comfortably Uncomfortable: A Study of Undergraduate Students’ Responses to Working in a Creative Learning Environment, Learning Landscapes. 6 (1), 443-461, 2012.
23. Watson J. Creative development or high performance? An Alternative Approach to Assessing Creative Process and Product in Higher Education, 4$^{th}$ Assessment in Higher Education Conference. Birmingham, 26-27 June, 2013.

## ВЛИЯНИЕ ОЦЕНИВАНИЯ НА РАЗВИТИЕ КРЕАТИВНОСТИ ОБУЧАЮЩИХСЯ

**Н.Э.ЗЕЙНАЛОВА**

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы, влияющие на повышение качества образования, в том числе и вопросы оценивания. Дана подробная информация об оценивании, о его положительном влиянии на развитие и формирование креативности у обучающихся. Наряду с этим подробно анализированы эксперименты, посвящённые оцениванию креативности, проводимые в ведущих зарубежных университетах. Автор обосновал необходимость формативного оценивания в высшей школе, пути его проведения. Было подчёркнуто особое значение формативного оценивания для повышения эффективности суммативного оценивания.

**Ключевые слова:** креативность, высшая школа, форматив, сумматив, требования, навыки мышления

**THE INFLUENCE OF ASSESSEMENT TO THE DEVELOPMENT OF THE CREATIVITY OF EDUCATORS**

**N.E.ZEYNALOVA**

**SUMMARY**

The article deals with the influence of assessement to the development of the creativity of educators. It also states the importance of the works in the direction of the development of the quality of education at the higher education institution. The evaluation which influences to the development of the creativity has comprehensively been informed about in the article. The positive influence of assessement in the formation of the creativity of educators has been touched upon in the article as well. Besides, the experiment which is basing on the assessement of creativity in the universities of foreign countries has been stated in the article too. The author has justified the necessity of formative assessement in the higher education institutions and has thoroughly described its ways. It highlights the fact that the formative assessement plays a crucial role in increasing the advantage of the summative assessement.

**Key words:** creativity, high school, assessement, formative, summative, requirement, thinking skills

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Sosial-siyasi elmlər seriyası* 2018

**UOT 502/504 : 37.03**

## AZƏRBAYCANDA MÜASİR EKOLOJİ TƏHSİLİN PROBLEMLƏRİ

**S.M.İSKƏNDƏROVA**
***Bakı Dövlət Universiteti***
***sevda bdu @ mail. ru***

*Dünyanın müasir ekoloji vəziyyəti insanın təbiətlə qarışılıqlı münasibətlərin yenidən qiymətləndirilməsini nəzərdə tutur. Yeni ekoloji dünyagörüşünün formalaşdırılması özünün elmi əsaslandırılmasını tələb edir. Bununla əlaqədar ali təhsil sistemində mütəxəssis hazırlığına aşağıdakı zərurətlə ekoloji komponent daxil edilməlidir: təbiətə münasibətin sadə formalarından daha mürəkkəb, müasir və ilk növbədə, noosfer və envayronmental formalara keçidin vacibliyi.*

***Açar sözlər:*** ekoloji bilik, ekoloji düşüncə, ekoloji imperativ, ekoloji paradiqma, ekoloji dünyagörüşü, noosfer, envayronmental təfəkkür.

Ekoloji böhran şəraitində müasir dövrün ən mühüm problemlərindən biri təhsilə yeni yanaşmaların axtarışı problemidir. Bu problemin həll edildiyi mühüm şərait sosial inkişafın paradiqmasının dəyişilməsidir.

Tarixi dönüş vəziyyətində, Yer planetində insanın yaşaması haqqında məsələ gündəliyə çıxan vaxt insan şüurunda, ümumiyyətlə və xüsusən də ekoloji düşüncədə köklü dəyişikliklər edilməsi zəruridir. Bu yolda müsbət nəticələrə nail olmağın yolu ikidir: texnoloji və əxlaqi. Belə baxış aspektində insan şüuru üçün aşağıdakılar mühüm hesab edilir:

-texnoloji problemə münasibətdə əxlaqi problemin önləyici həllinin zəruriliyinin insan tərəfindən dərk edilməsi;

-vahid ümumplanetar əxlaqın formalaşması, yəni "biosferi zədələmək olmaz" ekoloji imperativinin təsdiq edilməsi;

-münaqişələrin həllində müharibəyə, zorakılığa yol verilməməsi;

-ümumplanet birliyinin hiss edilməsi [6, 18].

Müasir ekoloji təfəkkürün dinamikası elədir ki, "ekoloji şüur", "ekoloji təhsil", "ekoloji paradiqma" kimi anlayışlara şərh vermək lazımdır. Müasir dövrün ekoloji problemlərinə sistemli şəkildə baxmağa imkan verən inteqrativ elmin förmalaşması probleminə qayıtmaq zərurəti yaranır.

İctimai şüurun bir hissəsi hesab edilən ekoloji şüurun formalaşması üçün bəşəriyyət uzun bir yol keçmişdir. Ekoloji şüur elə bir hissələr, fikirlər, iztirablar,

əhval-ruhiyyə, ideya, təlimlər, konsepsiyalar toplusudur ki, onların vasitəsilə insan təbii mühitə öz münasibətini ifadə edir.

Ekoloji şüurun subyekti ekososial problemləri dərk edə bilən və envayronmental fəaliyyətdə öz biliklərini fəal sürətdə realizə edən fərd, sosial qrup, cəmiyyət, bəşəriyyətdir.

Ekoloji şüurun obyekti coğrafi, təbii mühitdir, Kainatdır, ekoloji şüur subyektinin maraqları və fəaliyyət dairəsinə daxil olan universiumdur.

Hər bir konkret tarixi vaxt, dövr, mərhələ üçün özünəməxsus ekoloji paradiqma xasdır. "Ekoloji paradiqma" "İnsan-Təbiət–Cəmiyyət" sisteminə münasibətdə həmin dövr üçün aparıcı hesab edilən, nisbətən dayanıqlı baxışlar sistemini, normaları, prinsipləri, ideyaları və dəyərli istiqamətləri ifadə edən anlayışdır.

Bir çox mənbələrdə qeyd edildiyi kimi, ekoloji paradiqma öz təkamülündə antroposentrizmdən müasir ekosentrizmə doğru hərəkət etməklə, dəyişikliklərə məruz qalmışdır. İnsan süurunun antroposentrik inkişafı heç kimdə etiraz doğurmur, ikinciyə, yəni ekasentrizmə gəldikdə isə fikrimizcə, onu dəqiqləşdirmək lazımdır. Belə həlli tam hesab etmirik.

Hər bir paradiqma ətrafında biliklərin cəmləndiyi mərkəzi həlqə və ya nüvə vardır. Antroposentrizm insanı təbii mühitə münasibətdə müstəsna mövqeyə qoyur. Hər şey insan naminə edilir. İnsan təbiətin inkişafının zirvəsi hesab edilir. Söylənilənləri ümumiləşdirərək, demək olar ki, antroposentrik ekoloji paradiqma üçün aşağıdakılar səciyyəvidir:

-insanın prioritetliyi ilə onun təbiətdən uzaqlaşması;

-təbiət insan fəaliyyətinin obyektidir;

-fəaliyyət təbiətə münasibətdə praqmatik məqsəd və motivlərlə müəyyən edilir;

-təbiət insan fəaliyyətinin manipulyasiya obyektidir;

-"İnsan-Təbiət-Cəmiyyət" sisteminə əxlaq şamil olunmur.

XX-ci əsirin 70-ci illəri yeni ekoloji paradiqmanın envayranmental və ya ekosentrik paradiqmanın fəaliyyət göstərməsinin başlanğıcı hesab edilir. Yeni ekoloji paradiqma aşağıdakılarla səciyyələnir:

-insan və təbiətin harmonik (ahəngdar) inkişafı ilə;

-insan və təbiətin qarşılıqlı münasibətlərində paritet aksiologiyalaşma, yəni dünyanın iyerarxik şəklinin itirilməsi ilə;

-insan təlabatının ödənilməsi probleminin həllində pasionallıqla, yəni təbii imkanları nəzərə almaqla;

-insanın təbiətlə qarışılıqlı münasibəti sistemi ekoloji imperativlə tənzimlənir;

-təbiət və insanın inkişafında qarışılıqlı faydalı birlik, koevolyusiya ilə;

-təbiəti mühafizə hərəkətləri və texnologiyanın qlobal sistemi ilə.

Envayromental paradiqmanın əsas müddəaları ilə biz razılaşırıq, lakin fikirimizcə, onun əsasını daha səhih olaraq ekosentrik deyil, ekoantroposentrik adlandırmaq daha düzgündür. Bununla da insan və təbiətin qarşılığlı münasibətlərində həm insanın, həm də təbiətin paritetliyi xüsusi qeyd edilir. Birinci planda

"eko" dayanır. Bu, fikrimcə daha doğrudur. Vaxtı ilə V.Vernadski deyirdi ki, insan biosferin funksiyasıdır. Təbiətsiz insan yaşaya bilməz. Təbiət insansız mövcud ola bilər. "Antropo" ikinci plandadır. Əgər onu götürsək, onda paritetlik, "İnsan-Təbiət-Cəmiyyət" sistemində münasibətlərin ahəngdarlığı pozular [7, 36].

İnsan yaşamalıdır, bunun sayəsində isə neorussoistlərin təklif etdiyi kimi, təbiət naminə öz təlabatlarından geri çəkilə bilməz. Təkamül spiralı geriyə dönmür, ona görə də insanın ilk təbiət naminə sivilizasiyanın bütün nailiyyətlərindən imtina etməsi qeyri-mümkündür. Təbiətin istifadəsində, onun təkcə istifadə edilməsini deyil, həm də mühafizəsi və bərpasını nəzərdə tutan ağıllı addımlar atılmalıdır. Bu proseslər elmi cəhətdən əsaslandırılmış mövqedən həyata keçirilməlidir. Hesab edirik ki, inkişaf prosesində insanın və təbiətin maraqlarının tam hormoniyası və üst-üstə düşməsi mümkün deyildir. Sistemlər hədsiz müxtəlifdir. Bu barədə artıq danışılmışdır. Lakin münasibətlərin ahəngdarlığına nail olmaq lazımdır və buna insanın ekoloji sosiallaşması prosesi kömək etməlidir. Yəni insanın təbiətdə öz yerini və təyinatını müəyyən etməyə imkan verən ekoloji şüurun, baxışlar, ideyalar, dəyərlər sistemi kimi ekoloji dünyagörüşünün formalaşmasına zərurət vardır [3].

Məlumdur ki, ekoloji sosiallaşma mexanizmləri arasında tərbiyə, təhsil və təlim fərqləndirilir. Bizim tədqiqatın aspektində ali təhsil sistemində ekoloji biliklərin formalaşdırılmasının bəzi problemləri üzərində dayanırıq.

Ekolo təhsil nədir? İlk dəfə bu termin 1970-ci ildə Təbiəti Mühafizə Beynəlxalq İttifaqının təşkil etdiyi konfransda dövriyəyə daxil edilmişdir. Daha sonralar bir çox konfranslarda, konqreslərdə, sammitlərdə və s. ekoloji təhsilə böyük diqqət yetirilirdi.

1992-ci ildə BMT-nin ətraf mühit və inkişaf üzrə konfransında ekoloji təhsilin vəzifələri dayanaqlı inkişafın şərti kimi müəyyən edilmişdir.

1. Bütün yaş qrupundan olan insanlar üçün inkişaf və ətraf mühitin mühafizəsinin bütün məsələləri üzrə maarifləndirmənin təmin edilməsi.

2. Ətraf mühitin inkişafı və mühafizəsi konsepsiyasının, o cümlədən əhaliyə dair konsepsiyaların əsas problemləri doğuran səbəbləri təhlil etməklə, bütün tədris proqramlarına daxil edilməsi.

3. İçməli suyun, sanitariya, qida məhsullarının təhlükəsizliyi məsələləri və təbii ehtiyatlardan istifadənin ekoloji nəticələri də daxil olmaqla, ətraf mühitin vəziyyətinin yerli və regional tədqiqatlarına şagirdlərin cəlb edilməsinin təmin olunması.

4. Məktəb və universitet məzunları üçün onların mövcud olmasına kömək edə biləcək sabit vasitələrin - dərslik proqramlarının işlənib hazırlanması.

5. Ətraf mühitdən səmərəli istifadə sahəsində kadr hazırlığında sənaye sahələri, universitetlər, hökumət, qeyri-hökumət ictimai təşkilatlar da daxil olmaqla, cəmiyyətin, bütün bölmələrin həvəsləndirilməsi.

6. Yerli icmaların qarşısında duran vəzifələrin, ilk növbədə, ətraf mühit problemlərinin həlli üçün özlərinin yaxşı hazırlanmış texniki mütəxəssislər ilə təmin edilməsi.

7. Əhalinin ətraf mühit problemlərinin müzakirəsində daha fəal iştirakını təşviq etmək üçün kütləvi informasiya vasitələri, teatr qrupları, əyləncə nümayəndələri və reklam sənayesi ilə birgə iş aparılması.

8. Təhsil və kadr hazırlığı sistemində dayanıqlı inkişaf probleminin aborigen xalqlar tərəfindən dərk olunması və onların təcrübəsindən istifadə edilməsi.

Göründüyü kimi sənəddə təhsil sistemində ekoloji problemlərin qloballaşması açıq-aşkardır. P.Korolyev yazır: "Ekologiya təhsil ilə əlaqədardır. Bu təkcə ekoloji şüurun formalaşması və xüsusi qlobal, regional və sistemli təfəkkür tərzinin işlənib hazırlanması deyil, həm də ictimaiyyətin və yeni nəsillərə idarəcilik funksiyasının verilməsi ilə bağlı gələcək quruculuq prosesinin digər xadimlərinin iştirakı ilə qərarların işlənib hazırlanmasıdır (ictimaiyyət və həmin xadimlər bu proseslərə qərar qəbul etmək və onları həll etmək məqsədilə cəlb edilirlər" [8].

Lakin təəssüf ki, sonralar bu sənədin yazılması işi davam etdirilmədi.

Ekoloji biliyin formalaşdırılmasının metodoloji əsaslarından biri varislik olmalıdır. Bununla əlaqədar müəllimin rolu və vəzifələri haqqında N.Moiseyevin fikirlərinə müraciət edək. Məlum olduğu kimi, "Müəllim" anlayışına təkcə orta və ali məktəb pedoqoji kadrların nümayəndələri deyil, həm də öz xalqının və planetin sivilizasiyasının gələcəyinə görə dünyaya həyəcan elementi yaymağa qabil olan bütün şəxslər aid edilir. Müəllim çətin anlarda sivilizasiya mədəniyyətinə biliklər verməyə qabil olan şəxsdir.

"Müəllim sisteminin formalaşması ən yaxşı üsulla təhsil məqsədlərinin realizəsində, xüsusən də təfəkkür, ənənə, davranış sterotiplərinin" dağılması dövründə təzahür edir. "Müəllim" sistemi bəşəriyyətin əsl hərəkətvericisi ola bilər. N.Moiseyev yazırdı ki, "Müəllim" sistemi ənənələrin müsbət təcrübəsini hər vaxt əmələ gələn yeni tələblərlə uzlaşdırmalı, həyat şəraitinin dəyişmə sürəti artdıqca, yeni təhsil və tərbiyə formalarının axtarış sürəti də artmalı, sistemə yeni biliklər daxil edilməli, köhnələr isə çıxdaş edilməlidir" [9].

Müasir təhsil zamanın (yəni yaranan vəziyyətin) nəticəsidir. Buradan isə bəşəriyyətin qlobal böhranı müasir təhsil sisteminin böhranını doğurdu ki, bu da üfiqi və şaquli əlaqələr olmadan dar ixtisas yanaşmasına yönəldilmiş mütəxəssislərin dar praqmatik oriyentesiyası ilə bağlıdır.

Müasir təhsil sisteminin böhranının ikinci səbəbi humanitar və təbiət elmlərinin, eləcə də texniki fənlərin bir-birindən sərt şəkildə ayrılmasıdır. Nəticədə mütəxəssis reallığın görünməsində və qiymətləndirilməsində fraqmentarlığa (natamamlığa) malikdir ki, bu da onun təhrif edilməsinə və deformasiyasına səbəb olur. Postindustrial, informasiya cəmiyyəti şəraitində real ekoloji situasiyanı, əxlaq normalarının devalvasiyasını və s. adekvat qiymətləndirilməyə nail olunmur.

Mütəxəssisin müasir təfəkkür paradiqması, fikirimizcə, təhsilin tamlığı və təməli olması ideyasına əsaslanır.

Beləliklə, təhsil sistemi təkcə xeyirxalqlıq və ağıl toxumu səpməməli, həm də preventiv (qabaqlayıcı) funksiya yerinə yetirilməlidir, yəni krizis epoxasında

insanı həyata hazırlamalıdır. Bu məqsədlə nail olmağın yollarından biri humanitar və təbiət elmlərinin vəhdətidir. İki mədəniyyətin hərəkəti yekunda yeni elmi təfəkkür paradiqması imkanını verir (təbiət elmləri dünyanın dərk edilməsinin rasional üsulunu, humanitar elmlər isə intuitiv, assosiativ-bədii üsulunu təqdim edir). Biz bir daha Kurt Qedelin natamamlıq haqqında nəzəriyyəsinə inam gətiririk: heç bir mədəniyyət yetərli deyildir və digər elmlərin metodlarını izah etmədən o, doğmaya və ya absurd xaosuna çevrilir.

Elmi biliklərin doldurulması və dərinləşdirilməsi, eləcə də onun diferen-siasiyası və inteqrasiyası gerçəkliyin sistemli dərk edilməsinə aparıb çıxarır. Bizim tədqiqatın aspektində təhsil insan və təbiətin qarşılıqlı münasibətlərinin sistemli tədqiqinə iddia etməlidir.

"İnsan-Təbiət-Cəmiyyət" sisteminin əsas fəlsəfi problemi sistemin inkişafının əsas mənbəyini və onların dərk edilməsi üsulunu müəyyən etməklə, hissə və tamen dixotomiyası (ardıcıl surətdə ikiliyə bölünmə) hesab olunur.

Biz ekoloji bilik, ekoloji paradiqmanın təşəkkül tarixinə müxtəlif fəlsəfi yanaşmaları nəzərdən keçirmişik. Onlardan bəziləri aşağıdakılardır:

1. Hissənin tam üzərində üstünlüyünü nəzərdə tutan *elementarist baxış.* İnkişaf mənbəyi sistemindən kənarda yerləşir.

2. Hissəyə münasibətdə tamın ilkinliyi haqqında ideyanı təsdiq edən xolist baxış. İnkişaf mənbəyi ideal faktorlarda görünür.

3. Tam və hissənin qarşılıqlı əlaqəsinin etiraf etməklə tamın hissə üzərində üstünlüyünü müdafiə edən *sistemli baxış.* İnkişaf mənbəyi özüinkişafı mənbəyi kimi sistemin daxilindədir.

"İnsan-Təbiət" dixotomiyasına nəzərən sistemlilik prinsipini aşağıdakı müddəalara müncər etmək olar:

1. İdrakda təbii mühit obyektlərinin inikas *adekvatlığı.*
2. "İnsan-Təbiət" sisteminin struktur elementlərinin əlaqələrinin *çoxfunk-sionallığı* və *çoxməzmunluğu.*
3. "İnsan-Təbiət" sisteminin dinamikliyi və onun tərkib hissələri.
4. "İnsan-Təbiət" sistemini elementlərinin inkişaf *spesifikliyi.*

Beləliklə, sistemlilik dialektikanın mühüm tərəfi hesab edilir. Müasir elm dəyişiklik və inkişafa xətti deyil, daha mürəkkəb şəkildə baxmağa əsas verir. Hesab edirik ki, mürəkkəb ekoloji problemlərin öyrənilməsində təbiətə, onun təkamülü və inkişaf perspektivinə daha dərindən nüfuz etmək imkanı verən sinergetik yarışmalardan istifadə etmək lazımdır. Bununla belə, sinergetika təkcə ekoloji bilik paradiqmasının formalaşmasında kommunikator rolunda çıxış etmir, həm də təhsil prosesinin özü sinergetik elementlərdən-qərarların çoxaspektliliyi, yanaşmaların dialoqluluğu və s.-keçməlidir ki, yekunda tədqiqatlara polikonsep-tuallıq təhsilə konkretlik və metadillik verə bilsin.

Ədəbiyyatda yeni təhsil paradiqması müxtəlif cür adlandırılır: "aktivist", "tədqiqat", "tənqidi təfəkkür", "problem-sentrist", "refleksiv". N.Yulinanın hesab etdiyi kimi: "onun mahiyyəti", "beynin açarına" dair iformasiya və ya hazır bilik həcminin iki dəfə artırılması ilə əsas aksentlərin (vurğuların) yerdəyişməsindən

ibarətdir. İbarəli desək, yeni paradiqma səyahətə yollanarkən insana çiyin heybəsini yalnız hazır biliklə doldurmağı məsləhət görmür, istənilən yerdə oriyentasiya etməyə imkan verən təfəkkür alətlərini və şübhəsiz, həmin alətləri idarə etmək bacarığını özü ilə götürməyi tövsiyə edir" [10, 22].

Ali təhsil sistemində bu gün fikirimizəcə, yeni ekoloji kursa zərurət vaxtı yetişmişdir. Artıq "Ekologiya" və "Həyat təhlükəsizliyinin mühafizəsi" kursları yetərli deyildir. Bu kurslar müasir tələblərə cavab vermir, belə ki, onlarda sosial dünyagörüşü aspekti çatışmır. Xüsusilə bu, texniki və təbiət elmləri ixtisası və istiqaməti olan tələbələrə təklif edilən kurslara aiddir [5].

Ekoloji biliyin müasir təsnifatı özünə aşağıdakı bölmələri birləşdirir: "Ekosistemlər və yer sahələri", "Ekologiya tədqiqat metodu kimi", "Bioekologiya", "İnsan və Təbiət", "İnsan və sosiomədəni mühit". Hər bir bölmənin təhlilinə varmayaraq qeyd edək ki, "İnsan və Təbiət" bölməsində "Arxiekologiya", "Tarixi ekologiya", "Mühəndis ekologiyası", "Şəhər ekologiyası", "Ekoloji təbabət" "Kənd təsərrüfatı ekologiyası", "Sənaye ekologiyası", "Rekreasiya ekologiyası", İnsan və sosio-mədəni mühit" bölməsinə aşağıdakı yarımbölmələr daxildir: "Ekologiya və mədəniyyət", "Ekologiya və əxlaq", "Ekologiya və hüquq", "İnsan ekologiyası", "Ekoloji təlim", "Ekologiya və proqnozlaşma", "Ekologiya və iqtisadiyyat", "Ekologiya və siyasət" [3].

050510 "Ekologiya" istiqamətli magistr proqramı üzrə yüksək ixtisaslı mütəxəsislər hazırlayarkən "Geoekologiya", "Təbiətdən istifadə", "Ümumi ekologiya", "Təbiətdən istifadənin iqtisadiyyatı", "Təbiətdən istifadənin idarə edilməsi", "Qlobal ekoloji problemlər", "Sosial ekologiya", "Təbiəti mühafizə", "Təbii və mədəni irs", "Ekoloji ekspertiza", "Ekoloji monitorinq", "İnsan ekologiyası", "Radioekologiya", "Ekologiyada menecment və marketinq", "Ekoloji təhlükəsizlik", "Urboekologiya", "Landşaft planlaşdırılması", "Ekoloji təhsil" fərqləndirilir [1].

Ekoloji bilik və istiqamətlər bölmələrinin uzun siyahısı bizə ona görə lazımdır ki, *birincisi*, ekoloji biliyin qloballığını, *ikincisi*, ekoloji təhsilə yeni yanaşmaların perspektivlərini göstərə bilək. Bu mühüm vəzifə "Vahid planet sivilizasiyasının saxlanması və inkişaf perspektivləri, Mədədniyyət, Ekologiya, Kosmos" adlı beynəlxalq konfransda Ümumi Noosfer Mənəvi-Ekoloji Konstitusiyasının hazırlanmasında qeyd edilmişdir. Müasir dövrün vəzifələrindən biri müasir təhsil fənlərinin inkişaf vasitəsi ola biləcək noosfer təhsilin qlobal sisteminin yaradılmasıdır.

Ali təhsil sistemində ekoloji və noosfer təhsilinin standartları işlənib hazırlanır. *Ekoloji təhsil* spesifik sosio-mədəni fəaliyyət, sosial institut və spesifik münasibətlər kimi sayıla bilər. Bizim tədqiqatın aspektində - bu şagirdlə müəllimin qarşılıqlı əlaqə prosesidir, bunun nəticəsində ən ümumi ekoloji problemlərin: ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə, təbiəti mühafizə qanunvericiliyi və professional vəzifələrin həllində həmin biliklərin tətbiqi – həllinə yönələn biliklərin verilməsi, möhkəmləndirilməsi və aprobasiyası həyata keçirilir.

Qarşıya qoyulmuş məqsədlərin həllinə bütün ixtisaslar və istiqamətlər üzrə mütəxəsis hazırlığının məzmununa ekoloji təhsilin daxil edilməsi, ətraf mühit və təbiətdən səmərəli istifadə sahəsində peşəkar hazırlıq və tələbələrin elmi-tədqiqat işlərinin inkişafı və ekologiya ilə bağlı ictimai təbiəti mühafizə yolu ilə nail olunur [2].

Ekoloji təhsil özündə yalnız sırf təhsil yükü deyil, həm də tərbiyə, təlim, maarifləndirmə yükü daşıyır.

Fəlsəfi anlamda *noosfer təhsili* daha genişdir. Noosfer təhsili dedikdə, təbiətdə elmi-texniki, metodiki və praktiki baxışlar sistemini ifadə edən və cəmiyyətin dayanıqlı inkişaf strategiyasının realizəsinə yönələn təbiət elmlərinin və ekologiyanın sosial problemlərinin fəlsəfi dərk edilməsinə biliklər oriyentasiyası başa düşülür.

“Neosfer təhsili konsepsiyası – bu, təhsilin təbiətinə dair elmi-texniki, qnoseoloji, metodoloji və praktiki baxışların və noosfer keçidi mərhələsində cəmiyyətdə onun effektiv nail olunmasına imkanlar sistemidir” [11].

Noosfer təhsili aşağıdakı tip məsələləri qaldırmaq qabiliyyətinə malikdir:

1. Noosfer təhsilinin təbiət elmi və humanitar problemlərini;
2. Noosfer təhsilinin fəlsəfəsini;
3. Noosfer təhsilinin metodoloji əsası kimi sinergetikanı;
4. Fikir tərzləri. Onların tipləri;
5. Açıq “İnsan-Təbiət-Cəmiyyət” özünütəşkil sistemi;
6. Noosfer təhsilinin texnologiyası.

Fikrimizcə, “İnsan-Təbiət-Cəmiyyət” sistemi struktur elementlərinin ahəngdarlığına və koevolyusiyasına nail olunmasına imkan verən sosial texnologiyalar strategiyası işlənilib hazırlanmalıdır.

Noosfer təfəkkürü *envayronmental məkanın* formalaşması üçün nəzəri və dünyagörüşü bazasına çevrilə bilər. Burada güclü faktor kimi insan fəaliyyəti faktoru olmalıdır. Bu faktorun effektivliyi fəaliyyətin əsas elementlərinin (bilik, məqsəd, qabiliyyət, istehsal vasitələri və s.) effektivliyi, fəaliyyət nəticələrinin mübadilə praktikası korporativlik, kooperasiya, kollektiv fikir fəaliyyəti və s.) və maddi, mənəvi irsin verilməsi sistemi ilə müəyyən edilir.

Noosfer təhsili, fikrimizcə, aşağıdakılara qabildir:

- ətraf mühit haqqında biliklərin yayılmasına və onların tarixi inkişafda vəziyyətinə köməklik göstərmək;
- ekoloji problemlərin həllinə rasional yanaşma sahəsində meyarların, standartların metodoloji əsaslarını işləyib hazırlamaq;
- şəxsi, sosial qrup artımının və özünürealizənin işlənib hazırlanmasına köməklik göstərmək;
- mülki məsuliyyətin və cəmiyyətin dayanıqlı inkişaf şəraitində ekoloji problemlərə aidiyyətin səviyyəsini artırmaq;
- mənəvi-imperativ əsasın etiraf edilməsinə əsaslanan, dünyanın ekoloji-humanist şəklinin formalaşmasında qiymətli oriyentasiyaları möhkəmlətmək;
- “İnsan-Təbiət-Cəmiyyət” sistemində münasibətlərin ahəngdarlığını tanıyan

envayronmental paradiqmanın formalaşmasını müəyyən etmək.

Məlumdur ki, ekoloji təhsilin maarifləndirici rol yerinə yetirilməsinə baxmayaraq yalnız biliklərin verilməsinə diqqət yetirilməsi müasir ekoloji situasiyanın dəyişməsinə gətirib çıxara bilməz. İnsanın islahatçı fəaliyyətində qazanılan və yoxlanılan nəzəri və praktik biliklərini bacarıqla birləşdirmək lazımdır. Bununla əlaqədar, aşağıdakıları qeyd etmək zəruridir:

***Kifayət qədər mürəkkəb yeni ekoloji biliklərin gerçəkliyə çevrilməsi və formalaşdırılması prosesi.*** Onda üzvi şəkildə təkamül prosesinə *apollon* və *dionist* (yunan mifologiyasına görə sevgi ilahələri) münasibəti bir-birinə sarmaşmalıdır. Bildiyimiz ki, apollon baxış sabitliyinə stabilliyə, qaydaya, nəzarətə, struktura, məntiqə, ağıla əsaslanır. Demək olar ki, o, müəyyən dərəcədə konservativliyə malikdir. Dionist baxış ehtirası, enerjini, yaradıcılığı, dəyişikliklər sadiqliyi nəzərdə tutur. P.Korolyev yazır: "Şübhəsiz ki, hər iki baxışın özünün məhdudiyyətləri vardır. Radikal appolonizm durğunluğa və bürokratizmə səbəb olur. Radikal dionis yaradıcılığının nəticəsi isə özbaşınalıqdır. Hər iki elementi sağlam inteqrasiya gərginliyində saxlamaq üçün nə isə bir üsul tələb olunur" [8].

Fikrimizcə, noosfer təhsili envayronmental təhsilin əsası olmalıdır. Envayronmental təhsil dedikdə, elə bir təhsil prosesi başa düşülür ki, nəticədə cəmiyyətin təbiətə münasibətində ahəngdarlığa və koevolyusiyaya keyfiyyətli təbii mühit yaradılmasına nail olunmağa yönələn (onun saxlanması məqsədi naminə təbiətin qorunması, onun səmərəli istifadə olunması) baxışlar sistemi formalaşır.

Müasir dövrdə ekologiya daha çox fəlsəfi məna kəsb edir. Bununla əlaqədar, ekologiyanın vəzifələrini aşağıdakı kimi təqdim etmək olar.

1. Texniki gərginliyə münasibətdə canlı təbiətin həssaslıq və ya dözümlülük astanasının (həddinin) müəyyən edilməsi;
2. Ekologiya üzrə normativ bazanın təkmilləşdirilməsi;
3. Ekoloji təhsil vasitəsi ilə insan davranışının yeni strateji xəttinin formalaşması [11].

Ekoloji təhsil problemləri müxtəlif konseptual qərarlarla həll edilirlər, lakin əksər müəlliflər onun dəyişdirilməsində bir neçə əsas məqamın olduğunu qeyd edirlər:

- ekoloji təhsil islahatı böhran vəziyyətində olan bütün təhsil sisteminin islah edilməsi (dəyişdirilməsi) ilə bağlıdır;
- təhsil prosesləri, ümumiyyətlə və ekoloji təhsil, o cümlədən cəmiyyətin dayanıqlı inkişafının realizə edilməsinə yönəlmişdir;
- ekoloji təhsilin təkamülü yeni informasiya məkanında həyata keçirilir;
- ekoloji təhsil yeni təfəkkür paradiqmasının formalaşması prosesində beynəlmiləlləşmə, humanistləşmə, fasiləsizliklə bağlıdır;
- ekoloji təhsil öz səviyyəsindən asılı olaraq öz potensialını artıran fasiləsizliyə malik olmalıdır.

Yoxannesburqda (may, 2001-ci il) təhsil haqqında dayanıqlı inkişaf üzrə Ümumdünya sammitinin materiallarına əsaslanaraq, demək olar ki, təhsil bütün

həyat boyu dəyişilməsi və yenidən yaranması zəruri olan bir prosesdir. Belə yanaşma təhsili qeyd etmə ilə və insanların həyata hazırlığında biliklərin mənimsənilməsində, mürəkkəb yaşama probleminin həlli ilə yenidən istiqamətləndi. Ekoloji təhsil bu halda fasiləsiz təlim, tərbiyə və şəxsiyyətin inkişafı prosesi kimi çıxış edir. Bu proses "elmi, praktik biliklərin və bacarıqların, eləcə də dəyərli oriyentasiyaların, ətraf mühitin mühafizəsi sahəsində davranış və fəaliyyətin, dayanıqlı təbiətdən istifadənin, ekoloji həyat tərzinin formalaşmasına yönəlmişdir [10].

Artıq qeyd edildiyi kimi, ekoloji biliklər industrial cəmiyyətdə texnokratik, antroposentrik paradiqma ilə formalaşdığından bu gündən ondan imtina etmək lazımdır. Təhsil proqramlarında noosfer, humanist əsasların güclənməsi buna kömək edəcək. Bu mürəkkəb, ziddiyətli prosesdir. O, hansısa bir, məsələn, ali məktəb səviyyəsində, mütəxəsislərin hazırlığı səviyyəsində həyata keçirilə bilməz. Bir qayda olaraq, ali məktəblər orta məktəblərdə formalaşan təfəkkür paradiqması ilə əlaqəli olurlar. Burada çox şey tələbənin şəxsiyyət kimi nəyi ifadə etməsindən asılıdır (yəni tələbə həyata necə baxır, onu necə təsəvvür edir, özünü cəmiyyətin bir hissəsi hesab edirmi və ya o, icraçı şagirddirmi və ya yaradıcı-düşüncəli şəxsiyyətdirmi).

Bizim tədqiqatın akseptində təhsilin strukturu konsepsiyası özünə aşağıdakıları birləşdirən model kimi təsəvvür edilə bilər:

1. ***Təlim.*** Təlimin keyfiyyəti dövlət təhsil standartları, ümummədəni intelektual və kommunikativ qabiliyyətlərlə müəyyən edilir.
2. ***İstehsal prosesi.*** Özünə təhsil oyunlarını, elmi-tədqiqat laboratoriyalarını, problem qruplarını, təhsil layihələrini və s. birləşdirir.
3. ***Perspektiv məhsulların və onların istehsal texnologiyasının kompleks işlənməsi.***
4. ***Asudə vaxtın və sağlamlığın təşkili*** klublarının, idman təşkilatlarının və s.-nin fəaliyyəti ilə həyata keçirilir.
5. ***Tərbiyə,*** yəni dünyagörüşlü istiqamətlərinin formalaşması prosesi [4].

Fikrimizcə, belə yanaşma ekoloji təhsilin aktuallaşması, onun bazar iqtisadiyyatına uyğunlaşması problemini həll edəcək, təhsilin layihəsinə proqramlaşmadan qaçmağa imkan verəcək.

Müasir ali təhsil davamlı konservatizmdən aktiv təkamülə (evolyusionizmə) keçidlə səciyyələnir. Humanistləşmə və ekologiyalaşma mütəxəssisin yeni təfəkkür tərzinin formalaşmasına kömək etməlidir.

Boloniya Konvensiyasını imzalamaqla əlaqədar Azərbaycan Respublikası Azərbaycan hazırlıq sistemi ali təhsilin ikisəviyyəli istiqamətinə keçməlidir, bu, təbiidir ki, təkcə Dövlət standartlarının məzmununun dəyişməsi ilə deyil, həm də təhsil texnologiyasının özünün dəyişdirilməsi ilə bağlı olacaq. Bizim düşüncəmizə görə, bakalavrlar ümumi noosfer, envayronmental təhsil biliklərini onların praktiki realizə elementləri ilə birlikdə almalıdırlar [1].

Sivilizasiya proseslərinin qloballaşması ekoloji təhsilin də qloballaş-masına gətirib çıxaracaq [5]. Ekoloji layihələrin hazırlanması onların beynəlmiləl-

ləşməsini mümkün edəcək, ona görə də Azərbaycanın təhsil konsepsiyası dünya təhsil sisteminə inteqrasiya olunmalıdır. Yekunda biliklərin ekoloji probleminin beynəlmiləlləşməsi Yer üzərində bütün ictimai fəaliyyətin beynəlmiləlləşməsinə səbəb olacaqdır.

Beləliklə, ekoloji təhsil, ekoloji problemlərin qloballaşması sayəsində noosfer təhsili planında insanın mentalitet və fəaliyyətinə mühüm dərəcədə təsir göstərməyə qabil olan ekoloji mədəniyyətin formalaşmasının əsasına çevriləcək. Ali təhsil yüksək ixtisaslı kadr hazırlığı institutu kimi bu prosesdə aparıcı rol oynamalıdır.

### ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Təhsil Standartı, 050510 - "Ekologiya" istisası (proqramı) Bakı, 2009.
2. Göyçaylı Ş. Coğrafiya və coğrafi ekologiyanın problemləri. Bakı: Ulu, 2004, 268 s.
3. Əliyeva R., Mustafayev Q., Hacıyeva S. Ekologiyanın əsasları. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 536 s.
4. Muradova E. Demokratik ekoloji təhsilin prinsipləri. Bakı: Elm, 2009, 438 s.
5. Şükürov A. Sosial ekologiya. Bakı, 1999, 246 s.
6. Моисеев Н.Н. Актуальные проблемы глобальной нравственности //Глобальная нравственность / под ред. Н.Н. Моисеева. М.: ИИЦ «Экспресс», НИИ Общей педагогики, 1989, 123 с.
7. Вернадский В.И. Философские мысли натуралиста. М.: Мысль, 1988, 467 с.
8. Королев П.М. Энвайронментальная этика [Электронный ресурс]. –режим доступа: http: // zhurnal. lib. ru/k/korolew_p_m/env_eth/shtml/ -03/11/2009.
9. Моисеев Н.Н. Сегодня речь идет непросто об экологическом образовании и воспитании- обо всей системе «Учитель» [Электронный ресурс]. –режим доступа: http: // www.ecolife.ru/moiseev/2000-3-1. shtml.-03.11.2009.
10. Экология и образование (Материалы «Круглого стола» журналов «Вопросы философии» и «Экология и жизнь» // Вопросы философии, 2001, № 10, с.21.
11. Всеобщая Ноосферная Духовно-Экологическая Конституция-реализация нового мировоззрения [Электронный ресурс]. –режим доступа: http: // newhumanity.narod.ru/scientificthoghtl.htm.-03.11.2009.
12. О природе ноосферного образования [Электронный ресурс]. –режим доступа: http: // raen-noos.narod.ru/b-masl3.htm-03.11.2009.


## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ЭКОЛОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ


**С.М.ИСКЕНДЕРОВА**


### РЕЗЮМЕ


В статье отмечается, что современные экологические проблемы требуют особого внимания, поскольку усугубляют отношения человека и природы до уровня кризиса. Экологическая парадигма - это не просто философия, а результат всех современных научных комплексов. Дело в том, что экология влияет на все аспекты человеческого знания и деятельности. Существуют различные концептуальные подходы, указывающие на пути выхода из экологического и духовного кризиса, но все они согласны с тем, что необходимо разработать стратегию, которая может способствовать укреплению устойчивого развития людей

и общества. В системе «Человек-Природа-Общество» переход от отношения антропоцентризма к отношениям экоантропоцентризма имеет важное значение, т.е. переход от прагматического сознания к сознанию ноосферы.

**Ключевые слова:** экологические знания, экологическое мышление, экологический императив, экологическая парадигма, экологический взгляд, ноосфера, миро-восприятие окружающей среды.

## MODERN ECOLOGICAL EDUCATIONAL PROBLEMS IN AZERBAIJAN

**S.M.ISKENDEROVA**

**SUMMARY**

Modern environmental problems, which aggravate human and nature relations to the level of crisis, require special attention. The ecological paradigm is not just a philosophy, but a result of all modern scientific complexes. The point is that ecology influences all aspects of human knowledge and activity. There are various conceptual approaches that point to the ways out of the ecological and spiritual crisis, but they all agree that a strategy should be developed that can help strengthen the sustainable development of human beings and society. Anthropocentrists' attitudes towards the ecoantropocentrist relationship in the "Human-Nature-Society" system are essential, from pragmatic consciousness to transition to the consciousness of noosphere.

**Key words:** ecological knowledge, ecological sense, ecological imperative, ecological paradigm, ecological outlook, noosphere, environmental thinking.

## MÜNDƏRİCAT

### HÜQUQ

**İsmayılov X.C.**
Azərbaycan Xalq Cümhuriyyətində sosial-iqtisadi münasibətlərin hüquqi tənzimi məsələləri ........ 5
**Nəbiyev E.Q.**
Əməliyyat-axtarış hüquq münasibətlərində tərəflər ........ 21
**Qənbərov D.M.**
Birləşmək hüququ sahəsində dövlətdaxili (milli) və beynəlxalq hüququn müqayisəli təhlili ........ 40
**Əsgərov Z.A.**
Hüquqi dövlət konsepsiyasının təşəkkül tapmasına təkan verən humanist ideyaların təhlili ........ 50
**Bağırov A.R.**
İxtisaslı hüquqi yardım almaq hüququnun anlayışı ........ 60
**Cəfərov Q.V.**
Cinayət prosesinin “dövlətilik”, “rəsmilik” yoxsa “publiklik” prinsipi? ........ 69
**Zeynalova T.K.**
Əlimərdan bəy Topçubaşov mütəfəkkir və ictimai-siyasi xadim kimi ........ 77

### İQTİSADİYYAT

**Hüseynov F.Ş.**
Müasir dövrdə Rusiya-Belarus münasibətləri ........ 86

### PEDAQOGİKA

**Süleymanova İ.Ə., Məmmədli G.M.**
Təlim keyfiyyətinin yüksəldilməsində taksonomiyanın rolu ........ 94
**Zeynalova N.E.**
Qiymətləndirmənin təhsil alanlarda kreativliyin inkişafına təsiri ........ 100
**İskəndərova S.M.**
Azərbaycanda müasir ekoloji təhsilin problemləri ........ 110

## СОДЕРЖАНИЕ

### ПРАВО

**Исмайлов Х.Дж.**
Вопросы правового регулирования социально-экономических отношений в Азербайджанской Демократической Республике .......... 5
**Набиев Э.Г.**
Стороны в оперативно-розыскных правоотношениях .......... 21
**Ганберов Д.М.**
Сравнительный анализ внутреннего (национальный) и международного права в области права ассоциации .......... 40
**Аскеров З.А.**
Анализ гуманистических идей, способствовавших становлению концепции правового государства .......... 50
**Багиров А.Р.**
Понятие права на получение квалифицированной правовой помощи .......... 60
**Джафаров Г.Б.**
Принцип «государственности», «официальности», либо «публичности» уголовного процесса? .......... 69
**Зейналова Т.К.**
А.Б.Топчибашев как мыслитель и общественно-политический деятель .......... 77

### ЭКОНОМИКА

**Гусейнов Ф.Ш.**
Российско-Белорусские отношения в современный период .......... 86

### ПЕДАГОГИКА

**Сулейманова И.А., Мамедли Г.М.**
Роль таксономии в повышении качества обучения .......... 94
**Зейналова Н.Э.**
Влияние оценивания на развитие креативности обучающихся .......... 100
**Искендерова С.М.**
Современные проблемы экологического образования в Азербайджане .......... 110

BAKU UNIVERSITY NEWS
№3 *Series of social-political sciences* 2018

## CONTENTS

### LAW

**Ismayilov Kh.J.**
Issues of legal regulation of social and economic relations in the Azerbaijan Democratic Republic ........ 5
**Nabiyev E.G.**
The participants of the legal relations of operational search........ 21
**Ganbarov D.M.**
Comparative analysis of domestic (national) and international laws in the field of association law ........ 40
**Asgarov Z.A.**
Analysis of humanistic ideas as an impetus to the formation of the concept of rule of law ........ 50
**Baghirov A.R.**
The definition of the right to the qualified legal aid ........ 60
**Jafarov G.V.**
Principle of "statehood", "officiality", or "publicity" of criminal proceedings?........ 69
**Zeynalova T.K.**
A.B.Topchibashev as a thinker and social-political figure ........ 77

### ECONOMICS

**Huseynov F.Sh.**
Contemporary state of Russia-Belarus relations........ 86

### PEDAGOGICS

**Suleymanova I.A., Mammadli G.M.**
The role of taxonomy in raising the quality of training ........ 94
**Zeynalova N.E.**
The influence of assessement to the development of the creativity of educators........ 100
**Iskenderova S.M.**
Modern ecological educational problems in Azerbaijan........ 110

Redaktorları: ***Məryəm Qədimova***
***Yafəs Quliyev***
***Nərgiz Əliyeva***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

***Yığılmağa verilmişdir:28.12.2018. Çapa imzalanmışdır:10.01.2019.***
***Formatı: 70x100 1/16. Həcmi 7,75 ç.v. Sifariş 08. Sayı 120.***

***«Bakı Universiteti Nəşriyyatı», Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.***
***Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.***
***Şəhadətnamə B310.30.04.1999.***
**bun@box.az**